

# Faydalı biznes və investisiya mühitinə dair vəsait

ATƏT

# *Faydalı biznes və investisiya mühitinə dair vəsait*

ATƏT

ATƏT

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Avropa yönümlü təhlükəsizlik təşkilatıdır və onun 55 üzv dövləti Vankuverdən Vladivostoka qədər olan coğrafi ərazini əhatə edir. Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin VIII fəslinə uyğun olaraq regional qurum kimi tanınan ATƏT özünün fəaliyyət göstərdiyi ərazidə hadisələr haqqında erkən xəbərdarlıq edilməsi, münaqişələrin aradan qaldırılması, böhranların idarə edilməsi və münaqişədən sonrakı bərpa məsələləri ilə məşğul olan əsas təşkilatdır. O, insan haqları, silahlanmaya nəzarət, etimad və təhlükəsizliyin formalaşdırılması tədbirləri, milli azlıqlar, demokratikləşmə, siyasi strategiyalar, terrorizmə qarşı mübarizə, həmçinin iqtisadi və ekoloji fəaliyyətlər də daxil olmaqla təhlükəsizliklə əlaqədar bir sıra məsələlərə nəzarət edir.

Bu nəşrdə təqdim edilən materiallar yalnız informasiya məqsədi daşıyır. Bu nəşrin məzmununun tam və dəqiq olması üçün ATƏT-in səylərinə baxmayaraq, burada ifadə edilən fikirlər, baxışlar, şərh və nəticələr müəlliflərə və müvafiq əməkdaşlara məxsus olub ATƏT-in və ona üzv dövlətlərin rəsmi mövqeyini əks etdirmir. ATƏT bu nəşrdə təqdim edilən məlumatlara əsaslanma nəticəsində yarana bilən hər hansı itki ilə əlaqədar heç bir məsuliyyət daşımır.

Əlaqə məlumatları: Avstriya, Vyana şəhəri, 1010
Wallnerstrasse 6
ATƏT-in Katibliyi
Mətbuat və İctimai İnformasiya Şöbəsi
Tel.: +43 1 514 36 6000
Fax: +43 1 514 36 6996
info@osce.org

©2006 Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT); www.osce.org

ISBN-10: 3-9502218-0-8
ISBN-13: 978-3-9502218-0-0

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi naşirlərin qabaqcadan verilmiş yazılı icazəsi olmadan yenidən istehsal edilə, informasiya axtarış sistemlərində saxlana və ya hər hansı formada: elektron, mexaniki, foto surətlərin çıxarılması, lent yazısı və ya hər hansı digər vasitə ilə ötürülə bilməz.

Dizayn və nəşriyyat: red hot ’n’ cool, Vyana
Bədii direktor: Damir Krizmaniç

# *Mündəricat*


| | |
|---|---|
| ***6*** | ***Ön söz*** |
| ***8*** | ***Təşəkkürlər*** |
| ***9*** | ***Mətn blokları, cədvəl və diaqramların siyahısı*** |
| ***11*** | ***Giriş*** |
| 12 | Ümumi məlumat |
| 12 | Bu Vəsaitin fərqləndirici xüsusiyyəti nədir? |
| 13 | Metodologiya |
| 13 | Vəsaitdən necə istifadə etməli? |
| 13 | Xülasə |
| ***16*** | ***1-ci Fəsil. Əlverişli biznes və investisiya mühitinin əhəmiyyəti*** |
| 17 | Biznes və investisiya mühiti nədir? |
| 17 | Əlverişli biznes və investisiya mühitinin əhəmiyyəti |
| 18 | Əlverişsiz biznes mühitinin mənfi nəticələri |
| 18 | Xarici birbaşa investisiyaların əhəmiyyəti |
| 19 | İrlandiyanın iqtisadi möcüzəsi |
| 22 | Nəticələr və tövsiyələr |
| ***24*** | ***2-ci Fəsil. Güclü investisiya üçün biznes yönümlü siyasi və iqtisadi mühit zəruridir*** |
| 25 | Siyasi mühitin əhəmiyyəti və başlıca şərtlər |
| 25 | Təhlükəsizlik |
| 26 | İnvestor hüquqlarının qorunması və təmin edilməsi |
| 27 | Qanunvericilikdə sabitlik |
| 28 | Şəffaflıq |
| 30 | Korrupsiya |
| 33 | Yaxşı idarəetmə |
| 35 | Nəticələr və tövsiyələr |
| ***36*** | ***3-cü Fəsil. Makro-iqtisadi sabitliyi və iqtisadi inkişafı dəstəkləyən siyasətlərin biznes və investisiya mühiti üçün əhəmiyyəti*** |
| 37 | Güclü və sabit makro-iqtisadi mühitin əhəmiyyəti |
| 37 | Korporativ investorların istifadə etdiyi makro-iqtisadi göstəricilər |
| 40 | Açıq və qapalı iqtisadiyyatların müqayisəsi |
| 40 | Şaxələnmənin hasilat sənayeləri üzərində qurulmuş iqtisadiyyatlar üçün əhəmiyyəti |
| 42 | Güclü makro-iqtisadi mühitin yaradılması |
| 43 | Nəticələr və tövsiyələr |

***44 4-cü Fəsil. Biznes mühitinin təkmilləşdirilməsinə yönəldilən hökumət tədbirləri və siyasətləri***

45 Biznes mühitinin təkmilləşdirilməsi
45 Vergi siyasəti
49 İşlə təmin etmə siyasəti və əmək bazarının elastikliyi
50 ATƏT ölkələrinin əmək bazarlarında aparılan islahatlar
50 İnfrastrukturaya investisiya yatırımı
53 İnsan kapitalına investisiya yatırımı
54 Beynəlxalq və regional inteqrasiya
57 Dövlət müəssisələrinin özəlləşdirilməsi
60 Tövsiyələr

***64 5-ci Fəsil. Qanun və tənzimləmənin iqtisadi inkişaf prosesində əhəmiyyəti***

65 Xüsusi mülkiyyət hüququ və azadlıqları
65 Əmlakın kompensasiyasız müsadirəsindən müdafiə
66 Tənzimləmə və mülkiyyət hüquqlarının və biznes imkanlarının zəifləməsi
68 Daşınmaz əmlak
71 Müqavilə hüquq və azadlıqları
71 Biznesin formaları
72 Korporativ idarəetmə
74 Şəxsi əmlak və zəmanətli sövdələşmələr
75 Müflisləşmə qanunvericiliyi
76 Kapital bazarları
77 Bank hüququ və siyasəti
78 Mənfəətin və kapitalın repatriasiyası
79 Xarici valyuta üzərində nəzarətlər
80 Rəqabət hüququ və siyasəti
81 Əqli mülkiyyət və elektron ticarət qanunvericiliyi
86 Hökumət tədarükləri
87 Qanunvericiliyin icrası və şəxsi hüquqların müdafiəsi
90 İkitərəfli investisiya müqavilələri
91 Nəticələr və tövsiyələr

***98 6-cı Fəsil. İnvestisiyaların dəstəklənməsi***

99 İnvestisiyaların dəstəklənməsi
99 İnvestisiyaların dəstəklənməsi agentlikləri (İDA-lar)
103 İnvestisiya güzəştləri
103 Vergi güzəştləri
105 Zəif inkişaf etmiş ərazilər
106 Azad zonalar /Xüsusi iqtisadi zonalar
107 Sənaye parkları
109 İnvestisiya zəmanətləri və siyasi riskin sığortası
111 Nəticələr və tövsiyələr

***114 7-ci Fəsil. Kiçik və orta müəssisələr (KOM-lar): inkişaf və dəstək***
115 KOM-ların inkişafının əhəmiyyəti
116 KOM-ların iqtisadi təsiri
117 Qeyri-rəsmi iqtisadiyyata görə KOM-ların səmərəliliyinin azalması
118 Yaxşılaşdırılmış biznes mühiti vasitəsilə KOM potensialının həyata keçirilməsi
119 KOM-ları dəstəkləyən siyasətin formalaşması
120 KOM-ların üzərindəki yükün azaldılması
120 KOM-lar üçün xüsusi məhdudiyyətlərin azaldılması tədbirləri
121 KOM-ların inkişafına dair dövlət dəstəyi proqramının hazırlanması
122 KOM-lar üçün vergi güzəştləri
122 KOM-ların sahibkarlıq mədəniyyətinin və insan kapitalının inkişaf etdirilməsi
123 Maliyyə resurslarının əldə edilməsində KOM-ların problemləri
123 Alternativ maliyyələşdirmə mexanizmləri
126 Müəssisələri dəstəkləmə xidmətlərindən istifadə
130 Bazarlara giriş və klasterlərin inkişafı
132 Nəticələr və tövsiyələr

***134 8-ci Fəsil. Daha əlverişli biznes və investisiyalar mühitinin qorunub saxlanması və möhkəmləndirilməsi***
135 Davamlı inkişaf
135 Ətraf mühitin mühafizəsi
136 Sosial inkişaf
136 Korporativ Sosial Məsuliyyət (KSM)
137 KSM və dövlət sektoru
138 Sənaye üçün davranış kodeksləri
138 KSM: biznes modeli
140 Nəticələr və tövsiyələr

***143 Əlavə***
***147 Biblioqrafiya***
***154 İzahlı lüğət***
***157 Qısaltmalar***

# Ön söz

ATƏT-in *"Faydalı biznes və investisiya mühitinə dair vəsait"ini* mən məmnuniyyətlə təqdim edirəm. Vəsait ATƏT-ə üzv ölkələrin sifarişi ilə hazırlanıb. Onların fikrincə Təşkilat ölkələrə investisiya fəaliyyəti və kiçik və orta müəssisələrin (KOM) inkişafı sahəsində faydalı təcrübələr barədə məlumatların əldə olunması imkanlarının genişlənməsinə yardım etməlidir.

Hərtərəfli təhlükəsizlik konsepsiyasına tam uyğun olaraq ATƏT müsbət investisiya mühitinin formalaşdırılmasına yardımı iqtisadiyyat və ətraf mühitin qorunması sahələrində özünün üstün fəaliyyət istiqamətlərindən sayır. ATƏT üzvü olan bir çox ölkələr üçün xarici birbaşa investisiyalar (XBİ) ən böyük xarici maliyyələşdirmə mənbəyidir. XBİ-lər xüsusilə inkişaf və keçid dövrünü yaşayan ATƏT ölkələri üçün əhəmiyyətli rol oynayır. XBİ-lərin sayəsində iş yerləri yaradıla, əmək məhsuldarlığı yüksələ və müxtəlif peşələr üzrə bilik və texnologiyalar əldə oluna bilər. XBİ-lərin digər müsbət nəticəsi ölkə ixracatının artmasıdır. Beləliklə XBİ-lər uzunmüddətli iqtisadi inkişafı dəstəkləyən vacib amildir. XBİ-lərin cəlb olunmasına, yerli investisiyaların təşviqinə və KOM-lar sektorunun inkişafına yönəlmiş investisiya siyasəti dayanıqlı iqtisadi artımın möhkəm təməlidir.

Vəsaitdə investisiya mühitinin yaxşılaşdırılmasında və iqtisadi inkişafın təmin edilməsində son illərdə mühüm nəticələr əldə etmiş ATƏT ölkələrinin müvafiq konsepsiyaları və ən yaxşı təcrübələri barədə məlumatlar verilir. Bu məlumatlar digər ölkələrə uğurlu təcrübələrdən yararlanmaq imkanı yaradır.

Nəşrdə dinamik inkişaf edən işgüzar və investisiya mühitinin formalaşdırılmasında mühüm rol oynayan əsas şərtlər nəzərdən keçirilir. Bu şərtlər sağlam və sabit siyasi, iqtisadi və normativ-hüquqi mühitlə həmahəng olan yaxşı idarəetmə, şəffaflıq, proqnozlaşdırma və iqtisadi açıqlıq kimi amillərlə təsbit edilir. Vəsaitdə rəqabət, özəlləşdirmə, vergiqoyma, gömrük rejimi, əmək ehtiyatları, təhsil, maliyyə sistemi və fiziki infrastruktur məsələlərinin həllini təmin edən minimum tənzimləyici normalar toplusunun olması qeyd edilir. Ayrıca fəsil investisiyaların cəlb edilməsini və sahibkarlıq fəaliyyətinin canlanmasını təmin edən qanunvericilik və tənzimləmə məsələlərinə həsr edilib. Bu fəsildə mülkiyyət hüququna, müsadirədən müdafiəyə, korporativ idarəetməyə, xarici investorun mənfəətinin öz ölkəsinə köçürülməsinə və müflisləşməyə dair məsələlər nəzərdən keçirilir.

Vəsaitdə kiçik və orta müəssisələrin inkişafına birbaşa aid olan maliyyənin, bazarlara daxilolma imkanlarının, texnologiyaların, peşə biliklərinin və sahibkarlığa dəstək olan xidmətlərin əldə edilməsinə dair siyasət barədə söhbət gedir. Nəhayət, Vəsaitdə davamlı inkişafın vacibliyinə diqqət yönəldilir və qeyd edilir ki, həyata keçirilən siyasətin uzunmüddətli tarazlaşdırılmış inkişafına nail olmaq üçün sosial və ekoloji aspektlərə də müvafiq diqqət yetirilməlidir.

Mən səmimiyyətlə ümid edirəm ki, bu Vəsait investisiyaların cəlb edilməsi və sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş iqtisadi siyasətin tərtibatı və tətbiqi, bu siyasətin yeni istiqamətləri, strategiya və strukturları ilə öz ölkələrində məşğul olanlar üçün faydalı olacaq. Mən eyni zamanda ümid edirəm ki, bu nəşr investisiyalar və sahibkarlıq üçün əlverişli mühitin formalaşdırılması vasitəsilə iqtisadi inkişafın dəstəklənməsinə dair həm ATƏT-in üzvü olan ölkələr, həm də dövlət qurumları və digər maraqlı tərəflər arasında dialoqun və əməkdaşlığın genişlənməsinə stimul olacaq.

Bernar Snua,
ATƏT-in iqtisadi və ətraf mühitin qorunması ilə
əlaqədar fəaliyyət üzrə koordinator

# Təşəkkürlər

ATƏT bu Vəsaiti işləyib hazırlayan aşağıdakı mütəxəssis heyətinə öz xüsusi təşəkkürünü bildirir: **Barri Kolodkin**, investisiya məsələləri üzrə baş mütəxəssis və heyətin rəhbəri; **Olqa Moreva**, kiçik və orta sahibkarlıq məsələləri üzrə mütəxəssis; və **Şon N. Sallivan**, vəkil.

ATƏT həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Məsələləri üzrə Konfransına, Beynəlxalq Miqrasiya Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasına və Avropa Komissiyasına minnətdarlığını bildirir. Bundan əlavə, materiallar və şərhlər təqdim etməklə Vəsaitin işlənib hazırlanması prosesinə verdikləri töhfələrə görə aşağıdakı şəxslərə təşəkkür bildirilir.

**Xarici mütəxəssislər:**

Sofiya Aysaqaliyeva, icraçı direktor, Qazaxıstan Sahibkarlar Forumu
Niko Orvelaşvili, baş iqtisadi mütəxəssis, Gürcüstan İqtisadi İnkişaf İnstitutu
Nikolay Platonov, xidmətlər və investisiyalar bölməsinin rəis müavini, Ticarət Danışıqları Şöbəsi, Rusiya Federasiyasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi
Conatan Koppel, baş iqtisadçı, İnvestisiyalar Şöbəsi, Maliyyə və Sahibkarlıq Məsələləri Direktorluğu, İƏİT
Antonio Fanelli, baş inzibatçı, Cənub-Şərqi Avropa üzrə İnvestisiya Müqaviləsi, İƏİT
Kalman Kalotay, İnvestiyalar Şöbəsi, Texnologiya və Müəssisənin İnkişafı, YUNKTAD

**ATƏT:**

Nina Lindroos-Kopolo, proqram inzibatçısının partnyoru və layihə meneceri, ATƏT-in İqtisadi və Ekoloji Fəaliyyətlərinin Koordinasiyası İdarəsi, Aleksey Stukalo, koordinatorun müavini, ATƏT-in İqtisadi və Ekoloji Fəaliyyətlərinin Koordinasiyası İdarəsi, Serhiy Rusnak, iqtisadi inkişaf məsələləri üzrə mütəxəssis, ATƏT-in Ukraynadakı layihə koordinatoru, Tiqran Sukiasyan, baş iqtisadi köməkçi, ATƏT-in Yerevan İdarəsi, İna Yurasin, təcrübəçi, ATƏT-in İqtisadi və Ekoloji Fəaliyyətlərinin Koordinasiyası İdarəsi

ATƏT həmçinin Təlimat Kitabının Sorğu Vərəqəsini cavablandıran bütün şəxslərə: Maltanın, Slovakiyanın, Sloveniyanın, Qırğızıstan Respublikasının, Qazaxıstanın, Albaniyanın, Çernoqoriya və keçmiş Yuqoslaviya Respublikası olan Makedoniyanın İnvestisiyaların Dəstəklənməsi və İnkişafı Təşkilatlarına, Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Tacikistan bölməsinə, Tacikistanda yerləşən Avrasiya Fonduna, Litvada yerləşən Litva İnkişaf Təşkilatına, Rusiyada yerləşən BMK /XİMX, Rusiyada yerləşən Rusiyanın KOM Resurs Mərkəzinə, Qazaxıstanın Xarici İşlər Nazirliyinə, Qazaxıstandakı Avrasiya Fonduna, Qazaxıstanda yerləşən KOM-un Dəstəklənməsi üzrə Qərbi Qazaxıstan Fonduna, Qazaxıstanın KOM Assosiasiyasına, Slovakiyanın KOM-lar İnkişafı üzrə Dövlət Təşkilatına, Açıq Cəmiyyət İnstitutunun Gürcüstan Fonduna, Gürcüstandakı AYİB-in BMX (Biznes üzrə Məsləhət Xidmətləri) Proqramına, Gürcüstandakı Avrasiya Fonduna, Qırğızıstan Respublikasındakı Avrasiya Fonduna və bir sıra müstəqil ekspertə öz minnətdarlığını bildirir.

ATƏT həmçinin Vəsaitin redaktoru Con Nikolsona təşəkkürünü bildirir.

Layihə Belçikanın və Amerika Birləşmiş Ştatlarının ATƏT-dəki nümayəndə heyətlərinin maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

# *Mətn bloklarının siyahısı*


| | | |
|---|---|---|
| **21** | 1.1 | Baltik dövlətlərdə iqtisadi tərəqqi: Uzaq şərqdə nümunə modeli |
| **32** | 2.1 | Estoniyanın müstəqil məhkəmələrə doğru irəliləyişi |
| **32** | 2.2 | Azərbaycanda anti-korrupsiya səyləri |
| **38** | 3.1 | ATƏT-in inkişaf etməkdə olan ölkələrində açıq iqtisadiyyatların yaranması: Şərqi Asiya yoxsa Latın Amerikası modeli? |
| **39** | 3.2 | Türkiyənin son illərdəki makro-iqtisadi müvəffəqiyyəti |
| **41** | 3.3 | Qazaxıstanın şaxələnmə səyləri |
| **45** | 4.1 | Biznes mühitinin firmalara təsiri |
| **48** | 4.2 | Gömrük sisteminin təkmilləşdirilməsi hökumətlərin müdrik investisiyasıdır |
| **52** | 4.3 | ATƏT 2006-cı ildə nəqliyyat sahəsini diqqət mərkəzində saxlayır |
| **53** | 4.4 | Macarıstanın avtomagistral infrastrukturu |
| **56** | 4.5 | İnvestisiya müqavilələri |
| **70** | 5.1 | Kommersiya və sənaye məqsədləri ilə istifadə üçün torpaq çatışmazlığı probleminin həlli |
| **79** | 5.2 | ATƏT ölkələrinin bəzilərində mənfəətin və kapitalın repatriasiyası siyasətləri |
| **87** | 5.3 | Rumıniyada dövlət elektron tədarükü |
| **99** | 6.1 | CzechInvest: Mərkəzi Avropada aparıcı İDA-dir |
| **102** | 6.2 | Ukraynada regional investisiyalar beynəlxalq standartlara uyğun şəkildə dəstəklənir |
| **105** | 6.3 | Amerika Birləşmiş Ştatlarında şəhər biznes zonaları |
| **106** | 6.4 | Sərbəst zonaların inkişafında Egey Sərbəst Zonasının ən faydalı təcrübələri |
| **107** | 6.5 | Səhmdarların cəlb edilməsi təcrübələrinin ən mükəmməl nümunələrindən biri - Nyu York şəhəri |
| **108** | 6.6 | Çexiya Respublikasında və Macarıstanda sənaye parkları |
| **109** | 6.7 | Rumıniyada və Serbiyada sənaye və biznes parkları |
| **110** | 6.8 | MIGA Moskvada |
| **119** | 7.1 | Qazaxıstanda KOM siyasəti |
| **124** | 7.2 | ATƏT Türkmənistanda Könüllü Fermerlər Assosiasiyalarını dəstəkləyir |
| **125** | 7.3 | KOM-lar üçün vençur kapitalının mənbəyi olan pul köçürmələri. Nümunə üzrə təhlil: Silicon Armenia |
| **127** | 7.4 | Biznesin dəstəklənməsi mərkəzlərindən nümunələr |
| **127** | 7.5 | Ermənistanın Gorus vilayətində biznes inkubatoru fəaliyyətə başlamışdır |
| **128** | 7.6 | Oksford Yeniliklər Mərkəzləri, Böyük Britaniya |
| **129** | 7.7 | Rusiya Kiçik Yenilikçi Müəssisələrə Yardım Fondu (KYMYF) |
| **130** | 7.8 | Rusiyada transmilli korporasiyalar və KOM-lar |
| **131** | 7.9 | Ukraynada KOM klasteri |
| **136** | 8.1 | Rusiyada ətraf mühitə investisiya imkanları |
| **137** | 8.2 | Birləşmiş Millətlər Təşkilatının Qlobal Razılaşma Prinsipləri |
| **139** | 8.3 | İctimai məsuliyyətə dair kiçik biznes nümunəsi, Türkiyə |

# *Diaqramların və Cədvəllərin Siyahısı*


| | | |
|---|---|---|
| **31** | Diaqram 2.1 | Korporativ gəlirlərin rüşvətxorluğa xərclənən hissəsi |
| **55** | Diaqram 4.1 | ÜTT-yə daxil olduqdan sonra XBİ-nin artımı, Bolqarıstan |
| **55** | Diaqram 4.2 | ÜTT-yə daxil olduqdan sonra XBİ-nin artımı, Estoniya |
| **115** | Diaqram 7.1 | Yoxsulluqdan səmərəli çıxış yolları haqqında fikirlər |
| **117** | Diaqram 7.2 | Məşğulluğa və istehsalata töhfələr |
| **118** | Diaqram 7.3 | KOM-ların inkişafı üçün aşağıdakı komponentlər əlçatan olmalıdır |
| **120** | Diaqram 7.4 | Hər işçiyə görə illik inzibati xərclər |

| | | |
|---|---|---|
| **19** | Cədvəl 1.1 | 2004-cü ildə on ən inkişaf etmiş ATƏT ölkələri: XBİ ehtiyatları ÜDM-nin faiz nisbəti ilə |
| **31** | Cədvəl 2.1 | Adambaşına düşən ÜDM-yə görə beş ən yüksək və ən aşağı yerləri tutan ATƏT ölkələri və onların Transparency International Təşkilatının 2005-ci ilə dair Korrupsiya Mənimsənilməsi İndeksi |
| **88** | Cədvəl 5.1 | Şərqi və Mərkəzi Avropada və Mərkəzi Asiyada müqavilələrin icrası |
| **116** | Cədvəl 7.1 | İnkişaf etmiş ölkələrdə KOM-ların inkişafının və dəstəklənməsinin başlıca göstəriciləri |
| **116** | Cədvəl 7.2 | Keçid dövrü ölkələrində KOM-ların inkişafının orta göstəricisi |
| **126** | Cədvəl 7.3 | Biznesin dəstəklənməsi mərkəzlərinin təmin etdiyi səciyyəvi xidmətlər |


ImageAfter

# *Giriş*

**«Biz qəbul edirik ki, biznes mühitində islahatların aparılması qlobal inkişaf gündəliyində donorlar və hökumətlər üçün ən əhəmiyyətli sahələrdən biridir».**

Kiçik Sahibkarlığın İnkişafı üzrə Donor Təşkilatları Komitəsi,
Biznes Mühitində İslahatlar üzrə Beynəlxalq Konfrans
(Qahirə, 29 noyabr - 1 dekabr, 2005-ci il), «Konfransın Nəticələri»

# Ümumi məlumat

2004-cü ildə Bolqarıstanın sədrliyi ilə ATƏT iqtisadi inkişaf və əməkdaşlıq məqsədi ilə institusional və insan amili potensialının artırılmasına diqqət yetirirdi. Təşkilatın diqqət mərkəzində saxladığı əsas üsullar xarici və daxili investisiyaların stimullaşdırılması, kiçik və orta müəssisələr (KOM) sektorunun inkişafı və insan kapitalının möhkəmləndirilməsi idi. ATƏT-in Dublində keçirilən 12-ci İqtisadi Forumu və Hazırlıq Seminarında investisiyaların cəlb edilməsinə can atan ölkələr üçün faydalı biznes mühitinin yaradılmasının əhəmiyyəti və bu ölkələrin KOM sektorlarının inkişafı məsələləri müzakirə obyekti oldu. Müzakirələrdə bu nəticəyə gəlindi ki, əlverişli biznes mühitinin həlledici amilləri (regional səviyyədə) təhlükəsizlik və əməkdaşlıq, sərfəli siyasətlərə əsaslanan makro-iqtisadi sabitlik, yaxşı idarəetmə və qanunun aliliyi, kifayət qədər institusional və insan amili, və sonda qeyd edilməsinə baxmayaraq mühüm əhəmiyyət kəsb edən yaxşı inkişaf etmiş maliyyə və fiziki infrastrukturlardan ibarətdir. ATƏT-in investisiya və biznes yönümlü hüquqi və institusional çərçivələrin inkişafına kömək etməklə, biznesin inkişafını (xüsusilə də KOM-ların inkişafını) sürətləndirmək üçün müəyyən edilmiş düzgün idarəetmə tədbirləri və ən səmərəli təcrübələri dəstəkləməklə, həmçinin köməkçi infrastrukturlara ehtiyacı olan ölkələrə kömək etməklə əlverişli biznes və investisiya mühitinin inkişaf etdirilməsi üçün hökumət orqanları və siyasi kursun müəyyənləşdiriciləri ilə həyata keçirdiyi tədbirlərin genişləndirməsi dəstəkləndi. Forumun tövsiyyələrinə cavab olaraq və ATƏT-in İqtisadi və Ətraf Mühitin Qorunması üçün Strateji Sənədinə uyğun olaraq, ATƏT bu nəşri («Vəsait»i) hazırlamağı qərara aldı. Nəşrin məqsədi faydalı təcrübələrin tətbiqini, həmçinin informasiya və təcrübələrin yayılmasını dəstəkləməkdir. Biznes və investiya mühitlərinin təkmilləşdirilməsi ilə əlaqədar bir sıra yüksək keyfiyyətli nəşrlərin olmasına baxmayaraq, bu Vəsait xüsusi olaraq ATƏT-in inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatların ehtiyaclarına cavab vermək üçün praktik sənəd şəklində işlənib hazırlanmışdır.

# Bu Vəsaitin fərqləndirici xüsusiyyəti nədir?

Bu Vəsait İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası (BMK), Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti (XİMX), İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Təşkilat (MIGA), Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf məsələləri üzrə Konfransı (YUNKTAD) və Sənayenin İnkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (UNIDO) kimi xarici birbaşa investisiyalar (XBİ), KOM-un inkişafı və biznes mühitinin islahatları sahələrində nəhəng təcrübəyə, resurslara və biliyə malik olan məşhur təşkilatlar tərəfindən nəşr edilən sənədlərdən fərqlənir. Aparıcı mütəxəssislərin ərsəyə gətirdiyi sənədləri təkrarlamaq əvəzinə Vəsaitdə bu təşkilatlar tərəfindən işlənib hazırlanmış əsas anlayışlar bir araya gətirilir və müvəffəqiyyətli təcrübələr ATƏT-in üzv dövlətlərinə tövsiyə edilir. Məqsəd - əsas anlayışları və ən uğurlu təcrübələri qanun yazarlara qəti və praktik üslubda təqdim etməkdən ibarətdir. Vəsait həmçinin aşağıdakı cəhətlərinə görə fərqlənir:

1. Burada əsas diqqət ATƏT, xüsusilə də Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin iqtisadiyyatlarına yönəldilir;

2. Texniki xarakter daşımaq əvəzinə burada diqqət yalnız mütəxəssislər və akademiklərin deyil, həmçinin qanun yazarların, rəsmilərin və rəy yaradıcılarının başa düşə biləcəyi praktiki tövsiyələrə yönəldilir;

3. Birbaşa göstərişlər əvəzinə, burada son illərdə ATƏT ərazisində biznes mühitinin təkmilləşdirilməsi və iqtisadi inkişaf məsələləri üzrə mühüm irəliləyişlər əldə etmiş ölkələrin faydalı təcrübələrindən nümunələr göstərilməklə başlıca tövsiyələr öz əksini tapır.

## Metodologiya

İqtisadi inkişaf sahəsində bir sıra nəşrlərdə XBİ-nin və KOM-ların inkişaf etdirilməsi məsələləri ayrı-ayrılıqda göstərilir. Halbuki XBİ-nin və KOM-ların inkişafı iqtisadi inkişaf və iş yerlərinin yaradılması üçün iki ən əhəmiyyətli katalizatordur və bir-biri ilə qarşılıqlı surətdə əlaqədardırlar; və əksinə, biznes və investisiya mühitlərinin yaxşılaşması da öz-özlüyündə XBİ-nin və KOM-ların inkişafına gətirib çıxarır. Məhz bu səbəbdən də Vəsaitdə həm XBİ-nin, həm də KOM-ların inkişafı təsvir edilir.

Vəsaitin işlənib hazırlanması prosesinə ATƏT-in İqtisadi və Ekoloji Fəaliyyətlərin Koordinasiyası İdarəsi rəhbərlik etmişdir. Vəsait üzərində işləyən mütəxəssislər komandası biznes və investisiya mühitinin təkmilləşdirilməsi ilə əlaqədar aparıcı çoxtərəfli və donor təşkilatlar tərəfindən nəşr edilmiş ədəbiyyatları tədqiq etmişdir. Vəsaiti müzakirə etmək və perspektivlər haqqında fikirlərlə bölüşmək məqsədilə İƏİT-yə, Avropa Komissiyasına (AK), YUNKTAD və UNIDO-ya səfərlər edilmişdir. Tədqiqatın davam etdiyi müddət ərzində yaradıcı heyət investisiyaların dəstəklənməsi təşkilatlarına, kiçik və orta müəssisələrə və ATƏT-in Şərqi və Cənub-Şərqi Avropada, Cənubi Qafqazda və Mərkəzi Asiyada olan şöbələrinə sorğular göndərməklə əsas informasiya bazasını toplamışdır. Vəsaitin ilkin layihəsi 2006-cı ilin mart ayında Vyana şəhərində MDB və Mərkəzi Asiya ölkələrindən olan mütəxəssis heyətləri tərəfindən ümumi şəkildə nəzərdən keçirilmişdir. Bundan əlavə, layihə variantı xarici mütəxəssislərə da təqdim edilmişdir. Onların rəylərində əks olunmuş fikirlərin bir çoxu Vəsaitdə (Əlavədə) əks etdirilmişdir.

## Vəsaitdən necə istifadə etməli

Vəsaitin məqsədi dövlətlərə, xüsusilə də ATƏT ərazisindəki dövlətlərə öz investisiya və biznes mühitlərinin yaxşılaşdırılmasına yeni yanaşmalar işləyib hazırlamaqda kömək etməkdir. Vəsait əsasən bu sahədə siyasəti müəyyənləşdirənlər və ATƏT ərazisində biznes və investisiya fəaliyyətləri ilə məşğul olan şəxslər üçün nəzərdə tutulmuşdur və ATƏT ölkələrindən götürülmüş səmərəli və yeni siyasətlərin, həmçinin ən səmərəli təcrübələrin təhlilini əks etdirir. Biznes mühiti üçün yararlı tədbirlərin texniki cəhətdən əsaslandırılması əvəzinə, Vəsaitdə oxucularda motiv yaratmaq və onları müəyyən mövzu ətrafında öz tədqiqatlarını aparmaq üçün mexanizmlərlə təmin etmək üçün tövsiyələr, ölkələrdən misallar və üsullar təqdim edilmişdir.

Vəsaiti oxuyan zaman yadda saxlamaq lazımdır ki, investisiyaların cəlb edilməsi üçün universal plan ola bilməz. Hər bir ölkə öz xüsusi şəraitinə və mühitinə əsaslanaraq, həmçinin öz ehtiyaclarını və imkanlarını nəzərə alaraq öz strategiyasını işləyib hazırlamalıdır. Vəsaitdə təqdim edilən müqayisələr əlverişli biznes mühitinə malik olan ölkələri təqdir edərək digərilərini tənqid etmək məqsədini güdmür. Məqsəd biznes və investisiya mühitlərinin həqiqətən də əhəmiyyətli olması və bu mühitləri yaxşılaşdırmaq arzusunda olan hər bir ölkənin öz iqtisadi rifahını artıra bilməsi fikrini möhkəmləndirməkdən ibarətdir.

2006-cı ilin may ayında Vəsaitin nəşr edilməsindən sonra təklif olunub ki, maraqlı ölkələrdən olan məsul şəxslərə və mütəxəssislərə Vəsaitin ayrı-ayrı hissələrini daha ətraflı müzakirə etmək imkanı vermək məqsədilə regional və/ və ya dövlət səviyyəsində ixtisaslaşmış seminarlar təşkil edilsin. Məqsəd bu seminarlarda iştirakçılara həm digər ölkələrdə həyata keçirilən effektiv təcrübələrlə tanış olmaq imkanı vermək, həm də Vəsaitdə təqdim edilən xüsusi siyasətlərin onların öz spesifik iqtisadi vəziyyətlərinə uyğunlaşdırılması üçün necə qəbul edilməsi və ya dəyişdirilməsini müzakirə etmək və öz müvafiq biznes və investisiya mühitlərini genişləndirmək üçün görüləsi əsas tədbirləri müəyyən etməkdir.

Vəsait və bundan sonra keçiriləcək seminarlar, həmçinin müxtəlif dövlət orqanları və digər səhmdarlar arasında gələcək dialoqun və əməkdaşlığın əsasının qoyulmasına kömək edəcək və ATƏT regionu dövlətləri arasında investisiya sisteminin və biznesin inkişafı ilə əlaqədar effektiv (və nisbətən az effektiv) siyasətlər və təcrübələr haqqında məlumatlar mübadiləsinə birbaşa vasitəçilik edəcək.

## Xülasə

Bu Giriş fəslinin davamı olaraq 1-ci Fəsildə, son illərdə biznes mühitlərini sürətlə yaxşılaşdıran ATƏT dövlətlərində (və o cümlədən Mərkəzi və Şərqi Avropa ölkələrində) XBİ və ÜDM göstəriciləri üzrə daha yüksək artımın əldə

olunması vurğulanaraq, istənilən ölkə üçün biznes və investisiya mühitinin əhəmiyyəti nümayiş etdirilir. Xüsusi aksent XBİ-nin ölkələrin iqtisadi inkişafındakı roluna və inkişaf etməkdə olan ölkələrə XBİ-nin cəlb edilməsi imkanlarına edilir. 2004-cü ildə bütün dünyada XBİ axınlarının 42%-i inkişaf etməkdə olan ölkələrə doğru istiqamətlənmişdi. XBİ göstəricilərini və iqtisadi inkişafı yüksəltmək arzusunda olan inkişaf edən iqtisadiyyatlar İrlandiyanın iqtisadi möcüzəsindən bəhrələnə bilərlər; burada ticarətin liberallaşması, ədalətli və sadə vergi sistemi, dövlət və özəl sektorları arasında qurulmuş dialoq, infrastrukturun inkişafı və investisiya sisteminin tərəqqisinin hədəfə alınması kimi amillər İrlandiyanın Avropada ən dinamik iqtisadiyyata malik ölkəyə çevrilməsinə öz töhfəsini verib. Baltik dövlətlərinin siyasətləri və proqramları da faydalı nümunələrdəndir. Fəsil hökumət rolunun iqtisadiyyatı idarə etmək və ya bazar dinamikasına müdaxilə etmək deyil, müəssisələrin güclü biznes mühitinin köməyilə inkişaf etməsinə imkan verən çərçivənin yaradılmasından ibarət olduğunu qeyd etməklə başa çatır. Bu, xüsusilə də hasilat sənayelərinin inkişafı üçün resurs çatışmazlığı olan ölkələr üçün zəruridir. Biznes və investisiya mühitinin təkmilləşdirilməsi mümkün olan ən yaxşı yoldur və əgər hökumətin siyasi iradəsi varsa, bu məqsədə nail olmaq olar.

2-ci Fəsildə sağlam siyasi mühitin XBİ-lərin cəlb edilməsi və müxtəlif biznes sahələrinin inkişafında oynadığı mühüm rol müzakirə edilir. Təhlükəsizlik və sabitliklə əlaqədar problemlər sərmayədarları ruhdan salır, yüksək şəffaflıq və yaxşı idarəetmə isə, əksinə, onları cəlb edir. Fəsildə həmçinin sərmayədar hüquqlarının qorunmasına və qanunvericilik sistemində sabitliyin artırılmasına yönəldilmiş bir sıra tədbirlər diqqətə çatdırılır.

Hər bir investisiya məkanı (ölkə, region, ərazi və s. - red) investorlarda hadisələrin qabaqcadan görülə bilməsi və təhlükəsizlik hissləri doğurmalıdır. Fəsildə korrupsiyanın investisiya və sahibkarlıq mühitlərinə göstərdiyi mənfi təsirlər müəyyənləşdirilir və korrupsiya ilə mübarizəyə dair təcrübələr müzakirə edilir, o cümlədən ATƏT-in "Korrupsiyaya qarşı mübarizə sahəsində ən uğurlu təcrübələr" kitabından nümunələr verilir.

3-cü Fəsildə investorlar üçün böyük əhəmiyyət kəsb edən növbəti bir amil müzakirə edilir: makro-iqtisadi şəraitlərin yaxşılaşdırılması. Makro-iqtisadi sabitlik və ÜDM-nin yüksəlişi investisiya artımının vacib şərtlərindəndir. Vəsaitdə iqtisadi liberallaşmanın üstünlükləri nəzərdən keçirilir və bəzi Latın Amerikası ölkələrinin qəbul etdiyi nisbətən qapalı iqtisadi modeldən fərqli olaraq Şərqi Asiya ölkələrinin əksəriyyəti tərəfindən tətbiq edilən "açıq" tipli iqtisadi modelin qəbul edilməsinin səmərəli nəticələri müzakirə edilir. Türkiyənin öz iqtisadiyyatını açıq elan etməsi və əldə etdiyi nəticələr makro-iqtisadi siyasət sahəsində ən yaxşı təcrübələrdən biri kimi göstərilə bilər. Fəsil diqqəti hasilat sənayelərinə əsaslanan ölkələrin öz iqtisadiyyatlarını şaxələndirmək istiqamətinə yönəltməklə başa çatır və sonda hökumətin ortamüddətli iqtisadi strategiyasının tərtib edilməsi, intizamlı fiskal siyasəti, beynəlxalq ticarətin güclü dəstəklənməsi və beynəlxalq kapital axınlarının yüngülləşdirilməsi kimi makro-iqtisadi siyasətin istiqamətləri tövsiyyə olunur.

4-cü Fəsildə biznes mühitini inkişaf etdirən siyasətlər tədqiq edilir və daha sadə və ədalətli vergi sistemlərinin üstünlükləri haqqında söhbət açılır. Bütün sahələr üzrə aşağı vergi dərəcələri və sadələşdirilmiş vergi idarəetməsi sistemi iqtisadi inkişafa daha güclü təkan verir nəinki mürəkkəb və güzəştlər təklif edən (bəzi ölkələrdə investorlar bü cür şəraitdə işləyir) sistemlər. Vergilər hər hansı bir əcnəbi investorun müəyyən bir region daxilində məhz hansı ölkəyə investisiya yatırmaq qərarına təsir göstərə bilsədə, vergi güzəştləri Şərqi Avropanın və ya Mərkəzi Asiyanın digər daha rəqabətədavamlı regionlarla müqayisədə investorlar üçün cəlbedici olmaya bilər. Əgər ölkə özünün ümumi biznes mühitinə etinasızlıq göstərirsə, bu cür "vergi rəqabəti" öz-özlüyündə daha da mənfi nəticələrə gətirib çıxara bilər. Əmək bazarının elastikliyi iqtisadi inkişaf strategiyalarının digər əhəmiyyətli bir elementidir. Bu baxımdan, 2003-cü ildə Slovakiyada həyata keçirilmiş əmək bazarı islahatları ibrətamiz nümunə hesab edilə bilər. Bu fəsildə insan kapitalına və infrastruktura, xüsusilə də sosial və iqtisadi inkişafın aparıcı elementi və ATƏT-in 14-cü İqtisadi Forumunun mövzusu olan nəqliyyat infrastrukturuna investisiya yatırımı tövsiyə olunur. Fəsil dövlət müəssisələrinin özəlləşdirilməsinin müzakirəsi və bu proses zamanı hökumətin rolunun iqtisadi iştirakçıdan müstəqil tənzimləyici və imkanlar təminatçısına çevrilməsinin qeyd edilməsi ilə başa çatır. Özəlləşdirmələr şəffaf, habelə həm xarici, həm də daxili

müştərilər üçün açıq olmalı, həmçinin özəlləşdirilən müəssisənin üzərinə gəlirliliyini aşağı salan öhdəliklər qoyulmamalıdır.

5-ci Fəsildə iqtisadi siyasətlərin yürüdülməsində hüquqi və tənzimləyici sistemlərin tətbiqi məsələsi araşdırılır. Sağlam biznes mühitində tərəflərin torpaq, şəxsi əmlak və müqavilə razılaşmaları ilə əlaqədar hüquq və öhdəliklərini qanun müəyyənləşdirir, qəbul edir və müdafiə edir. Rəqabət qanunu da öz-özlüyündə hökumətlərin iqtisadi səmərəliliyin dəstəkləməsi və bazar qüvvələrinin iqtisadiyyatın aparıcı mexanizmə çevrilməsi üçün əhəmiyyətli bir vasitədir. Yetkin biznes və investisiya mühiti biznesin başlanması və genişlənməsi üçün həm özününkü, həm də borc alınmış kapitalın cəlb olunmasına şəraitlər yaradır. Hüquq və tənzimləyici sistemlər şirkət səhmdarlarının hüquq və öhdəliklərinin düzgün tənzimlənməsi, kapital bazarının strukturlaşdırılması və idarə edilməsi, həmçinin kreditor hüquqlarının effektiv və vaxtında təmin edilməsi ilə yuxarıda qeyd edilən təşəbbüsləri dəstəkləyə bilər. Hüquq və tənzimləyici sistemlərin bu və digər aspektləri üçün düzgün qanun və qaydaların təkcə qəbul edilməsi kifayət deyil. Hər bir ölkənin güclü və müstəqil məhkəmə və arbitraj məhkəməsi kimi mübahisələrin alternativ həlli metodları vasitəsilə kommersiya hüquq və öhdəliklərinin keyfiyyətli təmin edilməsi biznes mühitinin davamlı inkişafının digər bir zəruri amilidir.

6-cı Fəsildə investisiyaların dəstəklənməsi ilə məşğul olan təşkilatların rolu nəzərdən keçirilir və onların başlıca fəaliyyətləri, yəni siyasətin tətbiqi, ölkə imicin inkişaf etdirilməsi, investisiyaların cəlb edilməsi və investorlara xidmətlərin göstərilməsi müzakirə edilir. Bu fəsildə göstərilən "ən faydalı təcrübə"lər sırasında Çexiya təşkilatı olan CzechInvest və ATƏT-in Ukraynadakı layihəsi olan InvestinRivne xüsusi qeyd edilir. Azad zonaların yaradılması, əlverişsiz zonaların inkişafı üçün vergi güzəştlərinin verilməsi kimi investisiyaları təşviq edən mexanizmlər yalnız əlverişli biznes və investisiya mühitinin mövcud olduğu halda səmərəli nəticələrə gətirib çıxara bilər. Əgər bu cür təşviq mexanizmləri tətbiq edilirsə, bu zaman ayrı-seçkiliyə yol verilməməlidir. Düzgün şərait təmin edilərsə, sənaye parkları və investisiya zəmanətləri də investisiyaların inkişafı siyasətində faydalı elementlərə çevrilə bilər.

7-ci Fəsil kiçik və orta müəssisələrin (KOM-ların) inkişafı və dəstəklənməsi məsələlərinə həsr edilib. KOM-lar üzərində tənzimləyici yükün azaldılması çox böyük əhəmiyyət kəsb edir, çünki mürəkkəb vergi sistemləri, bürokratik əngəllər, rəhbər orqanlar tərəfindən tez-tez həyata keçirilən yoxlamalar və sair bu kimi problemlər müəssisələrə qeyri-mütənasib təsir göstərir. Burada KOM-ların bazarlarda yer tutmalarına, maliyyə əldə etmələrinə və biznesin dəstəklənməsi mərkəzlərindən istifadə edə bilmələrinə yardım göstərilməsi yolu ilə iqtisadi inkişafın dəstəklənməsi üzrə ən faydalı təcrübələrə diqqət yetirilir. Bundan başqa, mikromaliyyələşdirmə institutları, ixtisaslaşmış mikrokredit bankları və KOM-lar üçün alternativ maliyyələşdirmə mexanizmləri təmin edən zəmanətlərərin verilməsi də müzakirə edilir. Fəsildə biliklərin əldəolunması əhəmiyyəti, peşə təlimlərinin keçirilməsi vacibliyi və informasiyaya çatım imkanlarının olması vurğulanır. Bundan başqa, biznesin dəstəklənməsi mərkəzlərinin proqramları barədə və KOM-ların inkişafına təkan verə bilən inkubatorlara dair məlumalar təqdim edilir.

8-ci Fəsil biznes və investisiya mühitinin dəstəklənməsi və möhkəmləndirilməsində dayanıqlı inkişafın rolundan bəhs edir. Dayanıqlı inkişaf anlayışı iqtisadi artım, ətraf mühitin mühafizəsi və sosial inkişaf məsələlərini ehtiva edir. Hökumət ətraf mühitin mühafizəsinin özəl sektorun inkişafı ilə tarazlaşdırılmasına görə məsuliyyət daşıyır; bu iş elə görülməlidir ki, qısa müddətli nəticələrə görə ölkənin gələcəyi təhlükə altına alınmasın. Sənayedə davranış kodeksləri və BMT-nin Qlobal Razılaşması korporativ ictimai məsuliyyətin təşviqi üçün işlək sistem yaradır.

Vəsaitə həmçinin Vəsaitin Sorğu Vərəqəsindəki suallara cavabların təhlilindən və izahlı Lüğətdən ibarət olan Əlavə daxildir.

# 1-ci Fəsil




# Əlverişli Biznes və İnvestisiya Mühitinin Əhəmiyyəti

Xarici birbaşa investisiyaların (XBİ) cəlb edilməsi və kiçik və orta müəssisələrin (KOM-ların) inkişafı üçün əlverişli biznes mühiti zəruri amildir. Qeyri-qənaətbəxş, yəni yüksək xərclər tələb edən, yubadılmalarla və risklərlə müşahidə edilən biznes mühiti iqtisadi inkişafı ləngidir və XBİ-ni qorxudub uzaqlaşdıra bilər. XBİ inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda xarici maliyyələşdirmənin ən böyük mənbəyini təşkil edir. Yarış üçün yaxşı mövqelərə malik olan Şərqi və Mərkəzi Avropa, həmçinin Mərkəzi Asiya ölkələri inkişaf yönümlü siyasətləri, həmçinin investisiya və biznes sistemlərinin tərəqqisini dəstəkləyən qanun və təcrübələri qəbul edərlərsə, XBİ uğrunda rəqabətə davamlı ola bilərlər. İrlandiya Respublikasının son illərdəki iqtisadi transformasiyasından belə qənaətə gəlmək olar ki, hətta XBİ üzrə nisbətən aşağı göstəricilərə malik olan ölkələr belə biznes mühitinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü səylərlə öz XBİ paylarını əhəmiyyətli dərəcədə artıra bilərlər.

## *«Biznes və investisiya mühiti» nədir?*

«Biznes və investisiya mühiti» anlayışının dəqiq tərifi yoxdur. Dünya Bankı biznes və investisiya mühitini firmaların məhsuldar tərzdə investisiyalar yatırması, iş yerləri yaratması və fəaliyyətin genişlənməsinə yönəldilmiş imkanların və stimulların olması kimi tərif edir. Analoji olaraq, bu Vəsaitdə biznes və investisiya mühiti hər hansı bir ölkədə fəaliyyət göstərən əcnəbi və yerli şirkətlərə bizneslə məşğul olmaq və mənfəət əldə etmək imkanı verən sistem kimi təqdim edilir.

İnvestisiya mühiti üç geniş dəyişkən kəmiyyətlə qiymətləndirilə bilər:

• Makro-iqtisadi vəziyyəti şərtləndirən vergi, pul və ticarət siyasətləri;
• İdarəetmənin keyfiyyəti və institutlar mövcudluğu;
• İnfrastrukturun inkişaf səviyyəsi.

Biznes və investisiya mühiti sadəcə biznes sahələri üzərinə qoyulan vergi dərəcələrindən və vergi güzəştlərindən asılı deyil. Ona ciddi təsir edən digər zəruri amillərə siyasi sabitlik, qanunun aliliyi, makro-iqtisadi şərait, hökumətə inam və tənzimləyici mühit daxildir.

## *Əlverişli biznes və investisiya mühitinin əhəmiyyəti*

Hər bir ölkənin biznes və investisiya mühitinin vəziyyəti həmin ölkənin xarici investisiyalar cəlb etmək və kiçik və orta müəssisələri inkişaf etdirmək qabiliyyətini müəyyən edən başlıca amildir. Transmilli müəssisələr sağlam biznes mühitinə malik, yəni xərclərin, yubandırmaların və riskin minimum səviyyədə olduğu ölkələrə investisiya yatırmağı üstün tuturlar. Bundan əlavə, kiçik və orta müəssisələrin inkişaf etmək şansı müxtəlif vergi və tənzimləmələrlə yüklənməmiş bir mühitdə daha yüksəkdir. Dünya Bankının veb-səhifəsində bu, belə ifadə olunur: “Səmərəli investisiya mühiti hər bir ölkənin öz iqtisadi inkişafına təkan vermək strategiyasının zəruri dayağıdır. Öz növbəsində, bu strategiya əməyin daha məhsuldar olması və kasıb insanların daha yüksək gəlir əldə etməsi üçün imkanlar yaradır”.1

Bütün dünyada və o cümlədən, ATƏT məkanında məhz daha zəngin ölkələr daha əlverişli biznes və investisiya mühitlərinə malik olmağa can atırlar. İqtisadi inkişaf ilə rifah, investisiya və biznes mühiti arasında aydın əlaqə mövcuddur. Böyük enerji və ya xammal ehtiyatlarına malik olmayan Şərqi Avropa ölkələrinin bir çoxu öz biznes və investisiya mühitlərində islahatlar həyata keçirməklə iqtisadiyyatlarını bütün dünyada XBİ üzrə ən cəlbedici hədəfə çevirmişlər. AT Kearney şirkətinin 2004-cü ilin oktyabr ayında açıqladığı XBİ Etibarlılığı İndeksi üzrə tədqiqatların nəticələrinə (ölkələrin XBİ üzrə müqayisəli cəlbediciliyini sorğuda iştirak edən müxtəlif korporasiyaların rəhbərləri qiymətləndirmişlər) görə Polşa və Çexiya Respublikası Malayziya, Sinqapur və Tayvan kimi Asiya pələnglərini, həmçinin Braziliya kimi inkişaf etməkdə olan nəhəngi arxada qoyaraq müvafiq olaraq 12-ci və 14-cü yerləri tutmuşlar.2

Hökumətlər xarici birbaşa investisiyaları dəvət edərkən çox vaxt biznes mühitinin vacibliyini kifayət qədər qiymətləndirmir. Onlar diqqəti daha çox bazarın ölçüsünə, təbii ehtiyatların mövcudluğuna və gözlənilən xərclərə yönəltməyə meyl edirlər. Bu amillərin hamısının əhəmiyyətli olmasına baxmayaraq, investisiya mühiti zəruri bir amildir və heç zaman lazım olduğundan az qiymətləndi rilməməlidir.

---

Vəsaitin Sorğu Vərəqəsinə cavablardan:

Slovak hökuməti [ümumi] biznes mühitini inkişaf etdirməklə sərmayədarları cəlb edir. Bu məqsədlə, bir sıra islahatlar həyata keçirilmişdir. Bunlardan nümunə olaraq bir neçəsinin adlarını çəkək: vergi sistemində islahatlar, əmək bazarında islahatlar, təqaüdlərlə əlaqədar islahat və bank sisteminin bərpası.

Rusiyada XBİ göstəricisi bir sıra tədbirlərin görülməsi və ümumi təkmilləşdirmələrin aparılması nəticəsində artmışdır.

[Maltada] Daxil olan XBİ-lərə tək bir amilin göstərdiyi təsiri müəyyən etmək hədsiz dərəcədə çətindir. Hər hansı bir şirkəti müəyyən bir məkanda investisiya yatırımına bir sıra amillər kombinasiyası cəlb edir.

---

# *Əlverişsiz biznes mühitinin mənfi nəticələri*

İnvestorlar öz investisiyalarının qabaqcadan görülə bilən və məqsədəuyğun gəlir gətirməsinə çalışırlar: «Pul qorxaqdır» tez-tez işlənən ifadəyə çevrilib. Rəqabətədavamlı gəlir əldə etmək üçün hər bir investor üç əsas maneə: xərclər, ləngitmələr və risk ilə üz-üzə gəlməməyə çalışır. Əgər vergilər, ödənişlər, cərimələr, korrupsiya və xidmətlərə (hüquqşünaslar, mühasiblər, məsləhətçilər və s.) tələbatın artması kimi səbəblərdən yaranan qeyri-qənaətbəxş investisiya mühiti nəticəsində investisiya əməliyyatının dəyəri artırsa, əmək, nəqliyyat və enerji xərcləri rəqabətədavamlı olsa belə, investor digər variantları nəzərdən keçirməyə başlayacaq. Eyni zamanda, əgər sistemin doğurduğu əngəllər mənfəət əldə edilməsinə başlanması prosesini əhəmiyyətli dərəcədə ləngidirsə, investorlar rəqabətədavamlı xərclərə baxmayaraq investisiyalarını başqa yerlərə yatırmaq üçün yollar axtara bilərlər. Nəhayət, hətta ilkin xərclərin və ləngitmələrin olmadığı hallarda belə, investor gəlir əldə edilməsinə mənfi təsir göstərə bilən siyasi iğtişaşların baş verməsi, mülkiyyətin müsadirəsi və ya qanunvericilikdə dəyişiklik edilməsi ilə əlaqədar narahatlıq keçirirsə, risk ehtimalını minimuma endirmək üçün hər hansı digər bir yerdə nisbətən az cəlbedici gəlir variantını qəbul edə bilər.

# *Xarici birbaşa investisiyaların əhəmiyyəti*

Bu günkü qloballaşan dünyada inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda iqtisadi artım və iş yerlərinin yaradılması iki əsas amildən asılıdır: xarici birbaşa investisiyalar (XBİ) və kiçik və orta müəssisələrin (KOM-ların) inkişafı. XBİ inkişaf etməkdə olan ölkələrdə xarici maliyyələşdirmənin ən böyük mənbəyidir. Xarici birbaşa investisiyalar əsas kapitalın formalaşmasını sürətləndirə və ödəniş balansının normallaşmasına kömək edə bilər. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf məsələləri üzrə Konfransı (YUNKTAD) belə hesab edir ki, XBİ-nin məşğulluğu inkişaf etdirmək, məhsuldarlığı artırmaq, bacarıq və texnologiyaları ötürmək, ixracı genişləndirmək və dünyanın inkişaf etməkdə olan ölkələrinin uzunmüddətli iqtisadi inkişafına kömək etmək potensialı vardır. Təxminən 64 000 transmilli korporasiyanın (TMK-lərin) xarici ölkələrdəki filialları 53 milyon insanı iş yeri ilə təmin edir.3

Bundan başqa, inkişaf etməkdə olan ölkələr xarici investisiyaları həqiqətən də cəlb edir. YUNKTAD-ın məlumatına görə, inkişaf etməkdə olan ölkələr ümumdünya XBİ axınlarının 42%-ni özünə cəlb etmişlər və 2004-cü ildə inkişaf etməkdə olan ölkələrdə bu XBİ-nin artım tempi inkişaf etmiş ölkələrdə olduğundan daha yüksək olmuşdur. İnkişaf etməkdə olan ölkələrin daxili XBİ ehtiyatları (daxili XBİ ehtiyatları dedikdə yeni və mövcud investorlar tərəfindən qeydiyyatdan keçirilmiş birbaşa investisiyaların cəm miqdarı başa düşülür) onların ümumi daxili məhsul (ÜDM) göstəricilərinin təxminən üçdə birinə bərabər olmuşdur; 1980-ci ildəki 10%-lik göstərici ilə müqayisədə bu, inanılmaz bir artımdır.

İqtisadçılar XBİ-nin inkişafa gətirib çıxarması, yoxsa inkişafın XBİ-yə gətirib çıxarması haqqında mübahisələr edirlər. Elmi müzakirələr nəticəsində meydana çıxan dəyişməz bir fikir isə odur ki, XBİ-nin artımı ilə iqtisadi inkişaf daim bir-birini müşayiət edir.

***Təklif tərəfindən çıxış etdikdə, XBİ-yə mənfəət və ya kreditlər vasitəsilə toplanan investisiya kapitalının mövcudluğu təsir göstərir. Öz növbəsində, həmin mənfəətə və ya kreditlərə inkişaf amili də daxil olmaqla ölkədəki iqtisadi şəraitlər təsir göstərir. Tələb tərəfindən çıxış etdikdə, inkişaf edən xarici bazarlar TMK-ləri (transmilli korporasiyaları) daha çox investisiyalar yatırmağa yönəldir, zəif bazarlar isə əksinə, bu investisiya yatırımlarına maneçilik törədir. Son iyirmi il ərzində qlobal XBİ partlayışları yüksək iqtisadi inkişaf dövrlərində, XBİ-nin azalması isə tənəzzül və ya asta inkişaf dövrlərinrdə baş vermişdir. 2001 və 2002-ci illərdə XBİ axınlarının azalması 1990-cı illərin sonunda XBİ-nin sürətlə artmasından sonra baş vermişdir. Buna bənzər hallara 1980-ci illərin sonu və 1990-cı illərin əvvəlində, həmçinin 1982-1983-cü illərdə rast gəlinmişdir. Son illərin müsbət iqtisadi cərəyanları belə düşünməyə əsas verir ki, son dövrlərdə investisiya enmələrindən sonra XBİ yenə də artacaq.***

Mənbə: "2005-2008-ci illərə dair xarici birbaşa investisiyaların perspektivləri və transmilli korporasiyaların strategiyaları", (Dünya Bankı).

ATƏT məkanında inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatların gələcək perspektivləri müsbətdir. 2006-cı ildə ATƏT-in inkişaf etməkdə olan iqtisadiyyatlarının inkişaf etmiş iqtisadiyyatlara nisbətən daha yüksək iqtisadi artıma nail olacağı proqnozlaşdırılır. Dünya Bankının məlumatlarına görə 2005-ci və 2006-cı illərdə Cənubi Asiya, Şərqi Asiya, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində artım tempinin 5,5 faizdən çox olacağı gözlənilir. Digər inkişaf etməkdə olan regionların ildə 3,5 - 5 faiz civarında inkişaf edəcəyi gözlənilir.

İnvestisiyaları cəlb etmək üçün makro-iqtisadi özülün qoyulması və əlverişli investisiya mühitinin dəstəklənməsi böyük əhəmiyyət kəsb edir.

CƏDVƏL 1.1

**2004-cü ildə on ən inkişaf etmiş ATƏT ölkələri: XBİ ehtiyatları ÜDM-nin faiz nisbəti ilə (milyon ABŞ dolları ilə)**

| Ölkə | XBİ həcmi | ÜDM | XBİ ÜDM-nin faiz nisbəti ilə |
|---|---|---|---|
| Lüksemburq | 182 894 | 31 783 | 575.4 |
| Azərbaycan | 13 408 | 8 540 | 157.0 |
| İrlandiya | 229 241 | 181 520 | 126.3 |
| Estoniya | 9 530 | 11 196 | 85.1 |
| Hollandiya | 428 803 | 577 985 | 74.2 |
| Belçika | 258 875 | 352 000 | 73.5 |
| Malta | 3 557 | 5 389 | 66.0 |
| Macarıstan | 60 328 | 99 347 | 60.7 |
| Qazaxıstan | 22 399 | 40 754 | 55.0 |
| Kipr | 8 132 | 15 419 | 52.7 |

Mənbə: YUNKTAD

ATƏT ölkələrinin bir çoxunda XBİ həcminin ümumi daxili məhsulun həcminə nisbəti nisbətən yüksək faizlərlə ölçülür. Azərbaycan, Estoniya, Kipr, Çexiya Respublikası, Macarıstan, İrlandiya, Qazaxıstan və Malta kimi ölkələrin hamısının son illər ərzində öz iqtisadi göstəricilərini təkmilləşdirməsi qeyd edilir. Bu nailiyyətdə onlara XBİ kömək etmişdir. Lüksemburq və Hollandiya da ÜDM-nin faiz nisbəti ilə XBİ üzrə ən yüksək nəticələr əldə etmişlər; bu, qismən həmin ölkələrin maliyyə mərkəzləri və digər ölkələrdən olan şirkətlər üçün korporativ mərkəzlər kimi unikal rol oynaması ilə izah olunur. Cədvəl 1.1-də ÜDM-nin faiz nisbəti ilə ən böyük XBİ ehtiyatlarına malik olan on ATƏT ölkəsi göstərilmişdir.

ÜDM-nin faiz nisbəti ilə nisbətən az XBİ ehtiyatlarına malik olan ATƏT ölkələri ya iri iqtisadiyyatlara, ya da daha az cəlbedici biznes mühitlərinə və nisbətən qapalı iqtisadiyyatlara malik olan digər ölkələr olmuşdur. Amerika Birləşmiş Ştatlarının bütün dünyada XBİ qəbulu üzrə ən böyük göstəricilərə malik olan dövlətlərdən biri olmasına baxmayaraq, ölkə iqtisadiyyatının və daxili bazarın nəhəng həcmi ilə əlaqədar ABŞ ÜDM-nin faiz nisbəti ilə daha aşağı XBİ ehtiyatlarına malikdir. Aydındır ki, XBİ daha kiçik iqtisadiyyatların - hətta inkişaf etməkdə olanların belə - tərəqqisinə təkan verə bilər.

## *İrlandiyanın iqtisadi möcüzəsi*

Güclü biznes və investisiya mühiti ilə XBİ göstəricisini artırmış və nəticədə XBİ həcminin əsaslı dəyişikliklərə gətirib çıxardığı ölkələrin ən parlaq nümunələrindən biri İrlandiyadır. 1970-ci və 1980-ci illərdə yüksək işsizlik və zəif iqtisadi inkişaf səbəbindən irland işçi qüvvələrinin Amerika Birləşmiş Ştatlarına və digər ölkələrə kütləvi miqrasiyası baş verdi. 1980-ci illərin ortalarında İrlandiyada işsizliyin səviyyəsi təxminən iyirmi faizə çatdı, adambaşına borc göstəricisinə görə isə İrlandiya dünyada birinci yerə çıxdı. Ölkənin adambaşına ÜDM göstəricisi yaxın qonşusu olan Böyük Britaniyanın eyni göstəricisinin cəmi 63%-ni təşkil edirdi. 1990-cı illərdə İrlandiyada həyata keçirilmiş inanılmaz iqtisadi tranformasiya nəticəsində ölkə Norveç və İsveçrədən sonra üçüncü yeri tutaraq adambaşına gəlir göstəricisinə görə Avropanın ən zəngin ölkələrindən birinə çevrildi. İrlandiyanın ABŞ-a coğrafi yaxınlığı, əhalisinin ingilisdilli olması və Avropa İttifaqına (Aİ-yə) üzv qəbul edilməsi şübhəsiz ki, son 15 ildə bu ölkənin iqtisadi inkişafına öz töhfəsini verən amillər olmuşdur. Lakin İrlandiya nümunəsinin təkraredilməzliyi ondadır ki, formalaşmış sənaye bazasına və ya əhəmiyyətli təbii ehtiyatlara malik olmayan bu ölkə möhtəşəm biznes mühiti yaratmaqla və müdrik siyasətlər tətbiq etməklə öz daxili məziyyətlərindən bəhrələnmək qərarına gəlmişdi. İrlandiyanın adı «xarici investisiyalara açıq olma», «qloballaşma» və «biznesin qurulmasının asanlığı» kimi beynəlxalq göstəricilərə görə müntəzəm olaraq dünya liderləri sırasında çəkilir.

İrlandiya hansı tədbirləri görmüşdü? İrlandiya öz biznes mühitini dəyişdirərək biznes sahələrinə aşağıdakı şəraitləri təklif edirdi:

- korporasiyalardan alınan gəlir vergisi üzrə Avropada ən aşağı dərəcə - 12,5%;
- orta məbləğdə məvacib almağa hazır olan, gənc

və ixtisaslaşmış işçi qüvvəsinə görə rəqabətədavamlı qiymətlər;

- hökumətin lazımsız müdaxilələrdən imtinası, əsasən rəqabətə və tənzimləmənin ləğvinə istiqamətlənmiş siyasət;
- infrastruktur, o cümlədən bir sıra Avropa və Şimali Amerika ərazilərinə giriş təmin edən güclü beynəlxalq aeroport sistemi, həmçinin yaxşı universitetlər və texnologiya institutları bazası;
- hökumət, həmkarlar və sənaye sahələri arasında tərəfdaşlıq;
- inkişafa böyük maraq göstərilməsi və ən uğurlu şirkətləri İrlandiyaya cəlb etmək üçün tədbirlərin görülməsi.

Bir çoxları XBİ artımının səbəbi kimi İrlandiyada vergi dərəcələrinin aşağı olmasını göstərir. Lakin aşağı vergilər biznes cəlbediciliyinə yönəldilmiş çox böyük bir proqramın sadəcə bir elementi idi. İrlandiya necə Kelt Pələnginə çevrildi? Korporasiyaların ödədiyi vergilərin vahid 10% məzənnəsinə qədər azaldılması qərarı irland hökuməti tərəfindən görülmüş ən səmərəli məşhur tədbirdir. Ireland Beynəlxalq İnkişaf Təşkilatının Baş İcraçı Direktoru Şon Dorqan bu məsələni belə şərh edir: «İrlandiyanın rəqabətə davamlılığı təkcə vergi güzəştləri və qiymətlərlə əlaqədar deyil, həmçinin biliyə, yeniliklərə, elastikliyə və koordinasiyaya - bütün bu amillərin birgə fəaliyyətinə əsaslanır».5

Aşağı vergi dərəcələrindən əlavə, İrland möcüzəsində bir sıra digər əhəmiyyətli amillər də öz rolunu oynamışdır:

- İnsan kapitalının inkişafı. İrlandiya özünün bir qayda olaraq orta və ali təhsil almış işçi qüvvəsinin keyfiyyətini vurğulayır; burada əsas diqqət xarici şirkətlər üçün cəlbedici olan «bacarıqlar toplusu»na yönəldilir (məsələn, informasiya texnologiyaları üzrə bacarıqlar).

- İnfrastrukturda dövlət investisiyalarına dair güclü siyasət. İrlandiyanın iqtisadi tərəqqisi qismən onun Aİ-yə üzv qəbul olunması ilə əlaqədar olmuşdur. Lakin Aİ bu ölkəni təkcə bazarlara və struktur fondlara qapıların açılmasını təmin etmədi: o, namizəd ölkə olub-olmamasından asılı olmayaraq hər bir ölkə üçün faydalı olan planlaşdırma intizamını da təmin etdi. Bundan əvvəl investisiyalar sistemsiz bir şəkildə yatırılırdı. «Tutaq ki, onlar pulları qurtarana qədər bir yol (yolun bir hissəsini) tikirlər, sonra isə tikinti işini dayandırırlar; bir müddət sonra onlar yenidən qayıdıb bu yolu tikməyə davam edə də bilərlər, etməyə də, və yaxud gedib haradasa başqa bir yerdə yol sala bilərlər. Lakin struktur fondlar altı illik dövrə istiqamətləndiklərinə görə hər hansı bir inkişaf planı və ya iqtisadi plan altı illik dövrə tərtib edilməlidir; beləliklə də, uzunmüddətli planlaşdırma üfüqləri açıldı»6. Aİ maliyyələşdirməsi nəticəsində İrlandiya rəhbərliyi planlaşdırma intizamını qəbul etməli oldu.

- Həmkarlar və sənaye arasında əməkdaşlıq – «sosial tərəfdaşlıq». Həmkarlar ittifaqları hökumətin ümummilli rifah prinsipini dəstəkləməsi müqabilində ədalətli, lakin orta məvaciblərlə razılaşdılar. Sosial tərəfdaşlıq komitələri iqtisadi qərarların qəbul edilməsi prosesində davamlı olaraq iştirak edirdilər. Dövlət və özəl sektor arasında sistematik dialoq inkişaf etdirilirdi.

- Hədəfli investisiyaların dəstəklənməsi. İrlandiyanın xarici birbaşa investisiyaları dəstəkləməsi də hədəfli bir proses olaraq dörd sektor üzərində mərkəzləşib. Birinci sektor İT sənayesidir: informasiya və kommunikasiyalar texnologiyaları. Bu sektor üzrə investorlara İntel, Dell, İBM (hazırkı Lenovo) və Hewlett-Packard daxildir. İkinci əsas sahə əczaçılıq və səhiyyə sənayesidir. Üçüncü sahə beynəlxalq maliyyə xidmətləri sənayesidir. Əsasən son illər ərzində inkişaf etmiş sektor isə beynəlxalq xidmət sənayesidir: proqram təminatının tərtibi, müştərilərə xidmət göstərən operator mərkəzləri və birləşmiş xidmət mərkəzləri. Nəticədə, əhalisi cəmi 3,5 milyon olan İrlandiyaya birbaşa investisiyaların məbləği 17 milyard dolları aşmışdı. İrlandiya həmçinin onu da sübut etdi ki, investisiyaların dəstəklənməsi karagələn üsuldur.

Aydındır ki, irland möcüzəsi bütün dövlətlərdə təkrarən tətbiq edilə bilməz, lakin söhbət ondan gedir ki, bütün ATƏT ölkələri özlərinin rəqabətədavamlı üstünlüklərindən istifadə etməklə və güclü biznes və investisiya mühiti yaratmaqla XBİ-ni cəlb edə bilərlər.

İrlandiyanın iqtisadi möcüzəsi dərsləri Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində tətbiq edilə bilər. Mərkəzi və Şərqi Avropa ölkələri təkcə Avropada yerləşdiklərinə və əmək qüvvəsinin ucuz olmasına görə yox, həm də bu ölkələrin müvafiq biznes mühitlərində baş verən dəyişikliklərə görə cəlbedici XBİ hədəfləridir (Mətn bloku 1.1). ATƏT-in heç də bütün üzv dövlətlərinin Avropa İttifaqına daxil olma imkanları yoxdur, lakin onların hamısının əlverişli biznes və investisiya mühiti yaratmaq imkanları var.

MƏTN BLOKU 1.1

## Baltikyanı Dövlətlərdə iqtisadi tərəqqi: Uzaq şərqdə nümunə modeli

Baltikyanı ölkələr - Estoniya, Latviya və Litva, inkişaf etməkdə olan ATƏT iqtisadiyyatları üçün həqiqətən də modellər rolunu oynayırlar. Bunlar öncəki dövrdə iqtisadi sistemlərini mərkəzdən planlaşdırmış, Qərbi Avropa ilə heç bir qonşu sərhədlərə malik olmayan, zəngin təbii ehtiyatlara malik olmayan və əhalisi az olan ölkələrdir; lakin bununla belə, Avropada ən sürətlə inkişaf edən iqtisadiyyatlara çevrilməyə nail olublar. Onlar Şimal ölkələrinə və Rusiyaya coğrafi yaxınlıqları sayəsində müəyyən təbii üstünlüklərə malik olsalar da, Şimal ölkələri inkişaf etmiş iqtisadiyyatlarına baxmayaraq böyük iqtisadi sistemlər deyil, Rusiya isə hələ də orta gəlirli bir ölkədir. Ərazicə böyük və orta gəlirli, və ya inkişaf etmiş iqtisadiyyatı olan bir ölkəyə yaxın ərazidə yerləşmə iqtisadi inkişafa zəmanət demək deyil.

Bu ölkələrin üçü də hazırda biznesin qurulması nöqteyi-nəzərindən beynəlxalq göstəricilərə görə dünya liderləri sırasındadırlar. Vəsaitin sorğu vərəqəsinə cavab olaraq Litvanın bir investisiyaların dəstəklənməsi təşkilatı Litvanın «biznes şəraitlərini uyğunlaşdırmaq və dəyişdirmək qabiliyyəti»ni xatırlatdı. Bu ölkələr də rəqabətədavamlı xərclər hesabına nisbətən yüksək inkişaf səviyyəsini təmin edirlər. “Pricerunner” 2004-cü il qiymətlərin müqayisəli cədvəlinin məlumatına görə, Litva Avropada ən ucuz ölkədir.

Baltikyanı dövlətlərdəki inkişafın başlıca səbəbləri hansılardır?

• Azad zonalardan ağılla istifadə edilməsi. Litvada azad zonaların müvəffəqiyyətini və investorlara təklif edilən «One-Stop-Shop» - «bir pəncərə» tipli xidmətlər və vergi güzəştləri qeyd edilir.
• Korporasiyaların ödədiyi mənfəət vergisi dərəcəsinin aşağı olması. Hər üç ölkdə aşağı və vahid korporativ mənfəət vergisi dərəcələri tətbiq edilir.
• Texnologiyanın və İT sektorunun dəstəklənməsi. Hər üç ölkəyə kompüter və İnternet texnologiyaları geniş nüfuz etmişdir və onların hər biri Şimali Avropa və ABŞ-dan İT resurslarını cəlb edə bilmişdir. Xüsusilə də Estoniya öz rəqabətədavamlı xərclərinə görə İT layihələri üzrə «Cənubi Finlandiya» adlandırılır.
• Diqqətin rəqabətədavamlılığa yönəldilməsi. Ayrı-ayrı sənaye sahələrinə subsidiyaların əksəriyyəti ləğv edilmişdir.
• Tədbirli maliyyə və pul siyasətləri. Baltik Dövlətlərin nisbətən aşağı cari hesab kəsirləri var, sərbəst kapital axınına imkan yaradırlar və sərbət konversiya edilən valyutalara malikdirlər.

Litva İDA-nin əməkdaşları həmçinin idxal-ixrac sığortasının, infrastruktur subsidiyalarının, əməkdaşlara təlimlər keçirilməsinin, bələdiyyələrin torpaq və əmlak vergilərindən azad edilməsinin, həmçinin investisiya zəmanətlərinin, XBİ-nin və iqtisadiyyatın inkişafına müsbət təsirini qeyd etdilər.

Ölkənin əhəmiyyətli surətdə tərəqqi etməsinə baxmayaraq, İDA-də qeyd etdilər ki, hələ də müəyyən maneələr qalır: yeni müəssisələr üçün infrastrukturla təmin edilmiş investisiya meydançalarının kifayət qədər çox sayda olmaması, yüksək ixtisaslaşmış əmək qüvvələrinin çatışmazlığı və rəqiblərlə müqayisədə investorlar üçün stimulların azlığı. Lakin bütün bunlara baxmayaraq, Litva və digər Baltikyanı Dövlətlər son bir neçə il ərzində XBİ və ÜDM göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə nail olmuşlar və siyasət nöqteyi-nəzərindən nümunə kimi göstərilə bilərlər. Maraqlı cəhət odur ki, Litva İDA-sından bildirdilər ki, onlar öz investisiya təşkilatlarını, təşəbbüs proqramlarını və “klaster” proqramlarını inkişaf etdirmək üçün Çexiya Respublikasının, İrlandiya və Sloveniyanın nümunələrindən bəhrələnirlər.

# *Nəticələr və tövsiyələr*

*Neft və qaz kimi təbii ehtiyatlara malik olmayan, inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatların öz biznes mühitlərini təkmilləşdirmələri üçün hansı alternativ imkanları var?* İrlandiya və Baltik Dövlətləri nümunələrinin təhlili göstərir ki, hasilat sənayeləri iqtisadi inkişaf üçün yeganə mexanizm deyil.

Bu cür təbii ehtiyatları olmayan ölkələr rəqabətədavamlılıqlarını qoruyub saxlamaq üçün öz biznes mühitlərini inkişaf etdirməlidirlər. Onlar əlavə investisiyaları hansı başqa yollarla cəlb edə və yerli müəssisələrin inkişafına necə kömək edə bilərlər? Demək olar ki, biznes mühitinin keyfiyyəti ilə əlaqədar göstəricilərin hamısı onu göstərir ki, daha zəngin və orta gəlirli ölkələr daha dayanaqlı və dinamik inkişaf edən biznes mühitlərinə malikdirlər, öz biznes mühitlərinin təkmilləşdirilməsi istiqamətində addımlar atan ölkələr isə XBİ-nin artmasına və iqtisadi vəziyyətlərini yaxşılaşmasına nail olmuşlar. Özəl müəssisələr müvəffəqiyyət əldə etmək üçün özləri səylər göstərməyə çalışmalı olsalarda, həmin müəssisələrin uğurla fəaliyyət göstərməsi üçün hökumətlər mümkün olan ən yaxşı mühiti təmin etməlidirlər.

Ümumi götürdükdə, hökumətlər insanların biznes qurması prosesini asanlaşdırmaq üçün böyük imkanlara malikdirlər. Texnologiyanın ümumi səviyyəsinin artırılması və ya iqtisadi inkişafın stimullaşdırılması mürəkkəb və çətin məsələlərdir, lakin məşğuliyyətə dair qanunların dəyişdirilməsi, icazə və lisenziya alma prosedurlarının sadələşdirilməsi, milli torpaq qeydiyyatı sisteminin təkmilləşdirilməsi, və ya infrastrukturun inkişafının dəstəklənməsi hökumətlərin görmək iqtidarında olduğu işlərdir. Əgər hökumətlər XBİ cəlb etmək arzusundadırlarsa, onlar tədbirli siyasətlərin hazırlanmasına başlamalıdırlar. Rəqabətə davamsız bazar davranışına və ya vergilərin toplanmamasına gətirib çıxaran zəif tənzimləmə rejimləri və/ və ya qeyri-qənaətbəxş normativ və institusional baza XBİ-yə mütləq öz mənfi təsirini göstərəcəkdir.

Vəsaitin qalan fəsillərində iqtisadiyyatların makro səviyyədə daha rəqabətədavamlı olması və biznes əməliyyatlarının mikro səviyyədə asanlaşdırılması üçün görülə bilən tədbirlərdən söhbət açılır.

Ölkələrin öz ümumi investisiya mühitlərini qiymətləndirmək üçün istifadə edə biləcəkləri hərtərəfli vasitə *İƏİT-in İnvestisiyalara dair Çərçivə Sənədi (İÇS)* nəşridir. İÇS hökumətlərə öz biznes və investisiya mühitlərinin səmərəliliyini təhlil etməkdə kömək edən bir sıra xüsusi suallar siyahısından və informasiya xarakterli annotasiyalardan ibarətdir. Vəsait siyasi kursun müəyyənləşdiricilərini istər İƏİT ilə rəsmi ünsiyyətlər zamanı, istərsə də daxili qiymətləndirmə və planlaşdırma vasitəsi kimi İÇS-dən istifadə etməyə çağırır.

QEYDLƏR

1 World Bank, "Investment Climate", <www.worldbank.org/investmentclimate>

2 AT Kearney, FDI *Confidence Index*, Global Business Policy Council, Oct 2004, <http://www.atkearney.com/main.taf?p=5,3,1,89>

3 UNCTAD, *World Investment Report 2005,* <http://www.unctad.org/Templates/Page.asp?intItemID=1465&lang=1>

4 IDAIreland website: <www.idaireland.com>

5 Ibid.

6 Breffni O'Rourke, The EU: How Ireland Unleashed its "Celtic Tiger Economy" (Part 1), RadioFreeEurope/Radio Liberty.

# 2-ci Fəsil

# Güclü investisiya üçün biznes yönümlü siyasi və iqtisadi mühit zəruridir



ATƏT

Yaxşı idarəetmə, şəffaflıq, sabitlik və hadisələrin önceden görülməsi iqtisadi inkişafın əvəzedilməz təməl daşlarıdır. Əgər bu başlıca siyasi və hüquqi xüsusiyyətlər yoxdursa, adətən iqtisadi inkişafa faydalı təsir göstərən amillər - məsələn, zəngin təbii ehtiyatlar, aşağı vergilər və ya aşağı əmək xərcləri - gözlənilən nəticələri verməyəcək. Siyasi sabitsizlik və qeyri-qənaətbəxş təhlükəsizlik qanuni biznes fəaliyyətlərinin əksəriyyətinə dağıdıcı təsir göstərdiyindən, vətəndaş, siyasi və iqtisadi hüquq və azadlıqların mühafizəsini özünün prioritet sahəsinə çevirmək hökumətlərin borcudur. İnsan haqlarının təmin edilməsindən və cinayətkarlığın qarşısının alınmasından əlavə hökumətlər həm xarici, həm də daxili investisiyaları ixtiyari və ya kompensasiyasız müsadirələrdən, qərəzli tədbirlərdən, həmçinin siyasi hadisələrdən qaynaqlanan dövlət orqanlarının müdaxilələrindən də qorumalıdır. Hökumətlər kommersiya qanunvericiliyində qlobal və ya regional standartları tətbiq etməklə, qanunları, tənzimləyici aktları və hökumət qərarlarını nəşr etməklə, həmçinin qanun və tənzimləyici aktların yekun qəbulundan öncə şərhlər və rəylər üçün müddət verməklə öz şəffaflığını və qanunvericilikdə sabitliyi təmin edə bilərlər. Dövlət orqanlarının necə fəaliyyət göstərməsi və biznes sektoru ilə necə ünsiyyətdə olub onu necə tənzimləməsi məsələlərini İnternet sistemində ucuz qiymətlərlə və elektron idarəetməsi vasitəsilə işıqlandırmaq olar. Ölkələrin iqtisadi inkişaf və sağlam cəmiyyət üçün təhlükə yaradan ən dağıdıcı qüvvələrdən biri – korrupsiyadır. Müvafiq qanunvericilik aktlarını qəbul etməklə həm korrupsiyanı təhqiq və təqib edən, həm də hökumət səlahiyyətlərindən ixtiyari və qeyri-qanuni istifadə edilməsinə nəzarət edən qurum kimi fəaliyyət göstərəcək müstəqil təsisatlar yaratmaqla ölkələr korrupsiyanı ram edə bilər. Bu və digər yaxşı idarəetmə təcrübələri yerli və xarici biznes qurumlarına onu nümayiş etdirir ki, sözü gedən ölkə bu qurumların cəmiyyətin rifahına verdiyi töhfələri dəyərləndirir və qarşılıqlı fayda əldə etmək üçün onlarla birgə fəaliyyət göstərəcək.

## *Siyasi mühitin əhəmiyyəti və başlıca şərtlər*

Hökumətlər çox vaxt belə hesab edir ki, iqtisadi mühit və maliyyə şəraiti xarici investisiyaların cəlb edilməsi üçün ən mühüm amillərdir. Əlbəttə, həm iqtisadi mühit, həm də maliyyə şəraiti mühüm əhəmiyyət kəsb edir, lakin əlverişli biznes və investisiya mühitinin yaradılmasında ən zəruri amil çox güman ki, siyasi və hüquqi mühitdir. Ölkələr investorlara aşağı vergi dərəcələri və pulsuz torpaqlar təklif edə bilər, lakin əgər investorlar aktivlərin müsadirəsindən, güzəştlərin ləğv edilməsindən, əmək iğtişaşlarından, daxili qarışıqlıqlardan və ya təbii fəlakətlərin öhdəsindən gələ bilməməkdən ehtiyatlanırsa, investisiya yatırmağa meylli olmayacaqlar. İnvestorlar əmin olmalıdır ki, sözü gedən ölkə xarici investisiyaların cəlb edilməsi ideyasına sadiqdir və həmin ölkəyə investisiya yatırımı təhlükəsizdir. Qeyri-sabit siyasi mühit investorların, bir qayda olaraq, çəkindiyi riskləri artırır. Bundan əlavə korrupsiya, bürokratiya və qanunun aliliyinin təmin edilməməsi təkcə risklər deyil, həm də investisiyalarla əlaqədar birbaşa xərcləri artıran amillərdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası Qara Dəniz regionunda XBİ-nin nisbətən aşağı səviyyədə olmasını xarici investorların bürokratiyanın qəbuledilməz səviyyədə olmasından, anlaşılmaz, təkrarlanan və tez-tez dəyişən qanunvericiliklərdən şikayət etmələri ilə izah edir.1

İqtisadi cəhətdən ən inkişaf etmiş ATƏT ölkələrinin əksəriyyəti müharibədən sonrakı müddət ərzində şəffaflığa, yaxşı idarəetməyə və hökumətin nizamlı dəyişməsinə xüsusi diqqət yetirməklə siyasi cəhətdən sabit hakimiyyətləri qoruyub saxlaya biliblər. Heç də təsadüfi deyil ki, bu ölkələr XBİ-nin ən böyük qəbulediciləri və mənbələridir. Keçid dövrünü yaşayan ölkələr də XBİ üzrə rəqabətdə müvəffəqiyyət əldə edə bilər. 1980-ci və 1990-cı illərdə Mərkəzi Avropa ölkələri bu dəyərləri qəbul və tətbiq etməyə başladılar və hazırda dünyada XBİ üzrə ən cəlbedici məkanlardan biri sayılırlar. Cənub-Şərqi Avropa ölkələri (xüsusilə Bolqarıstan, Xorvatiya və Rumıniya) daha cəlbedici siyasi mühitə doğru iri addımlar atır və son vaxtlar bu ölkələrdə XBİ axınlarının əhəmiyyətli dərəcədə artımı müşahidə olunur.

Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında ən əhəmiyyətli amillər aşağıdakılardır:

- təhlükəsizlik;
- xarici investorların hüquqlarının qorunması və müvafiq zəmanətlərin verilməsi;
- qanunvericilikdə sabitlik;
- şəffaflıq;
- korrupsiyadan azad olma; və
- yaxşı idarəetmə.

## *Təhlükəsizlik*

YUNKTAD-ın 2005-2008-ci illər üzrə Xarici Birbaşa İnvestisiyalar və Transmilli Korporasiyaların Strategiyaları adlanan nəşrində XBİ-yə dair qlobal perspektivlər tədqiqatlar vasitəsilə qiymətləndirilir. XBİ axınları üçün nə kimi başlıca təhlükələrin olması sualına cavab olaraq XBİ ekspertlərinin ən çox qeyd etdikləri (respondentlərin 81%-i) risklərdən ikincisi qlobal terrorizm təhlükəsi olmuşdur. İnvestisiyaların dəstəklənməsi agentlikləri (İDA) arasında aparılan sorğuda «siyasi sabitsizlik və vətəndaş müharibələri» üçüncü ən çox səslənən təhlükə kimi qiymətləndirilib. Əgər şirkətlər öz işçilərinin və aktivlərinin təhlükəsizliyinə inanmırsa, onda öz investisiyalarının təhlükəsizliyinə də inanmayacaqlar. Üstəlik geniş fiziki və İT təhlükəsizliyi tədbirlərinin zəruriliyi, həmçinin əlavə sığorta xərcləri və mühacir işçilər üçün ödəniş müavinətləri də investisiyanın maya dəyərini artırır. Bir sıra sənaye sahələri, xüsusilə də emal sənayesi üçün işin vaxtaşırı dayandırılması və yenidən bərpa olunması hədsiz dərəcədə bahalıdır. 2005-ci ildə Davos şəhərində keçirilmiş Ümumdünya İqtisadi Forumunda «Biznes qurmaq üçün ən uğurlu yerlər» üzrə müzakirələrin nəticələrindən biri qısaca olaraq aşağıdakı kimi qeyd edildi: «Məruzələr göstərir ki, 11 sentyabr hadisələrindən sonra təhlükəsizlik hər kəs üçün ən əsas məsələyə çevrilmişdir». Silahlı münaqişələr təhlükəsizliklə əlaqədar risklərin yeganə mənbəyi deyil. Qrip və atipik pnevmoniyalar kimi epidemiyalar investorun marağını soyuda bilər. Hökumətlər kənar müşahidəçilərə səhiyyə böhranlarını, təbii fəlakətləri və təhlükəsizliyə xələl gətirən digər məsələləri həll etməyə hazır olduqlarını göstərməlidir.

# *İnvestor hüquqlarının qorunması və təmin edilməsi*

Hətta ölkələrin təhlükəsiz şəraitdə olduğu və hökumətlərin bir-birini nizamlı tərzdə əvəz etdiyi halda belə, şirkətlər öz hüquqlarının qorunmasına əmin olmaq istəyir. Dünya Bankının "Biznesin qurulması: investorların qorunması" sənədinə əsasən, investorların ən az mühafizə olunduğu on ölkədən üçü ATƏT ölkələridir. Hər bir investor əmin olmalıdır ki, investisiya yatırımı təhlükəsizdir, ədalətli və qərəzsiz davranış təmin edilir və münaqişələr ədalətli və məqsədəuyğun şəkildə həll edilə bilər.

***İnvestorların mühafizəsi özünü doğruldur. Sayca azlıq təşkil edən investorların mülkiyyətinin özgəninkiləşdirilmədən qorunduğu yerlərdə səhmdar kapitalına investisiyalar daha yüksəkdir, mülkiyyətin təmərküzləşməsi isə daha aşağıdır. İnvestorlar investisiya portfelinin şaxələnməsinə nail olurlar. Sahibkarlar nağd pula giriş əldə edirlər. İnvestorların qorunmadığı hallarda adi səhmlər bazarı inkişaf etmir və banklar maliyyənin yeganə mənbəyinə çevrilir. Lakin, yoxsul ölkələrdə zəmanət və ya əmlak qeydiyyatı sistemlərinin zəif olması bir sıra biznes sahələrinin hətta bank kreditləri əldə etməsinə də maneçilik törədir. Nəticə: maliyyə vəsaitlərinin çatışmamasına görə biznes sahələri məhsuldar səviyyəyə çata bilmir və iqtisadi artım səngiyir.***

Mənbə: "Biznesin qurulması: investorların qorunması" (Dünya Bankı)

Xarici investorları «milli davranış» adlandırılan bir amil də, başqa sözlə desək, sözü gedən ölkənin onlarla yerli müəssisələrlə davrandığı kimi davranması məsələsi də maraqlandırır. Milli təhlükəsizliklə əlaqədar olaraq ayrı-ayrı iqtisadi subsektorlar əcnəbi və yerli müəssisələr ilə fərqli davranışın tətbiqini tələb edə bilər. Lakin, «himayədarlıq» investorlar tərəfindən heç də müsbət amil kimi qiymətləndirilmir. YUNKTAD tərəfindən aparılan sorğularda iştirak etmiş həm XBİ ekspertləri, həm də transmilli korporasiyaların nümayəndələri himayədarlığı XBİ üçün ən böyük maneə adlandırmışlar. Ümumiyyətlə, güclü biznes və investisiya mühitlərinə malik olan ölkələr əcnəbi və yerli müəssisələrlə eyni tərzdə davranır və mümkün olan ən rəqabətədavamlı şəraiti təmin edir. Bəzi sənaye sahələrində xarici investorlar üçün bir sıra əhəmiyyətli vergi güzəştləri tətbiq edən, digər sektorlarda isə xarici investisiyaları rədd edən ölkə nəticədə qeyri-mütənasib fəaliyyət meydanı olan və rəqabətədavamlılığı aşağı olan bir iqtisadiyyat yaradır və bu şəraitdə işləmək həm hökumətə, həm də şirkətlərə baha başa gəlir. Üstəlik çox vaxt birincinin xərcləri ikincidən daha çox olur.

İnvestorların görmək istədiyi müəyyən başlıca mühafizələr və zəmanətlər vardır. İnvestorun prinsipial maraqlarına aşağıdakı hüquqların təmin olunması daxildir:

- Xüsusi olaraq, müqavilələrin icrası və dövlət borclarının ödənilməsi məsələlərində xarici və yerli investorlar üçün bərabər və ayrı-seçkiliksiz davranış;
- Qanunla icazə verilən və tənzimlənən tərzdə bütün korporativ qurumların nəzdində olan bütün sektorlara hər bir formada (birbaşa, portfel və s.) investisiya yatırmaq;
- Milliləşdirmə, özgəninkiləşdirmə və oxşar nəticələrə gətirib çıxaran hər hansı digər tədbirlərin görülməyəcəyinə və bu cür şəraitin milli təhlükəsizlik səbəblərindən zəruri olduğu halda ədalətli kompensasiyanın təmin ediləcəyinə zəmanət;
- Qanunla tələb olunan vergilərin və ödənişlərin ödənilməsindən sonra gəlirləri xarici valyuta ilə xarici ölkələrə köçürmək;
- Qanunla tələb olunan şərtlərə müvafiq olaraq investisiyaların stimullaşdırılması tədbirlərindən faydalanmaq;
- Torpaq üzərində mülkiyyət hüququ;
- Əqli və sənaye mülkiyyətinin qorunması;
- Münaqişələri ədalətli və müstəqil olan yerli məhkəmədə həll etməyi və ya yerli, yaxud beynəlxalq arbitraj məhkəməsinə müraciət etməyi qərara almaq hüququ.

Ölkələrin görə biləcəyi tədbirlər aşağıdakılardır:

- İnvestorların «hüquqlarının siyahısı»nı və ya investorun təmin edilmiş hüquqi mühafizəni əks etdirən xarici investisiyalar haqqında qanunu işləyib hazırlamaq;
- Arbitraj Qərarlarının Qəbul və İcra Edilməsi haqqında Birləşmiş Millətlər Konvensiyası, Dünya Bankının İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzi və İƏİT-in Beynəlxalq İnvestisiyalar və Çoxtərəfli Müəssisələr haqqında Bəyannaməsi kimi investor hüquqlarının, mülkiyyət hüquqlarının və s.-in qorunmasını dəstəkləyən çoxtərəfli müqavilə və sənədləri imzalamaq;
- İnvestisiya mühafizəsinin və zəmanətlərinin təsvir edildiyi ikitərəfli və çoxtərəfli investisiya razılaşmalarını işləyib hazırlamaq;
- Özgəninkiləşdirmənin tətbiqini ciddi surətdə məhdudlaşdıran və tənzimləyən, həmçinin özgəninkiləşdirmə halında ədalətli kompensasiyanı təmin edən xüsusi qanunvericilik işləyib hazırlamaq;

• Xarici vətəndaşların şəffaf və məqsədəuyğun şəkildə öz torpaq sahələrini almasına və ona sahib olmasına və ya uzun müddətə icarəyə götürməsinə imkan yaratmaq.

# *Qanunvericilikdə sabitlik*

***«Gəlir vergisinin 17% və ya 21% təşkil etməsi heç də böyük əhəmiyyət daşımır. Əlbəttə, 17% daha yaxşıdır. Əhəmiyyətli olan odur ki, Maliyyə (Vergi) Məcəlləsi növbəti beş il ərzində dəyişilməz qalsın və mən hansı vergiləri ödəməli olduğumu bilim».***

İri və çoxmilli istehlak məhsulları firmasının Balkan regionu üzrə keçmiş menecerindən sitat, 2004-cü il.

Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında əhəmiyyətli məsələlərdən biri də qanunvericiliyin sabit olmasıdır. Daima dəyişən qanunvericilik investorların öz gəlirlərini planlaşdırmağa mənfi təsir göstərir. Üstəlik mühasibat və audit işi, ətraf mühitə təsir və iş qüvvəsinin idarə edilməsi kimi biznes fəaliyyətlərinə dair qaydaların dəyişməsi investorun xərclərini artırır. Bundan əlavə cari şərait əlverişli olsa belə, qeyri-sabit qanunvericilik mühiti investorlarda əlverişsiz şəraitin yaranacağı riskinin hədsiz böyük olması hissini yarada bilər ki, bu da onları investisiya yatırmaq fikrindən daşındırar.

Mərkəzi Asiyada fəaliyyət göstərən Qərbi Avropanın bir mədən sənayesi şirkəti səhmlərini dövriyyəyə buraxdıqda müvafiq sənədə aşağıdakı bəyanatı da daxil etmişdi: «Gələcək kəşfiyyat işləri ilə əlaqədar balansda göstərilən xərclərin ödənilməsi iqtisadi rentabel ehtiyatların tapılmasından, mədən təşəbbüslərinə hüquqların təsdiq edilməsindən, fəaliyyətin həyata keçirildiyi Mərkəzi Asiya ölkələrində siyasi, iqtisadi və qanunvericilik mühitlərinin sabitliyindən … asılıdır»3. Bu, investorların səhmdarları fəaliyyət göstərilən ölkələrdə qanunvericiliyin sabitliyinin onların yatıracaqları investisiyalardan əldə edəcəkləri gəlirlərə təsir göstərməsi haqqında birbaşa xəbərdar etməsinin bir nümunəsidir. Əgər risk amili yatırılan investisiyalar üzrə əldə ediləcək gəlirləri üstələyərsə xarici investorlar çox güman ki, öz kapitallarını başqa bir yerə aparmağı üstün tutarlar. Milli elektrik sistemlərinin dəstəklənməsini müzakirə edərkən Avropa Komissiyası bir məsələni vurğulayır ki, bu sistemdə baş verən hər hansı səbatsızlıq adətən istehlakçıların xərclərinin artması ilə müşayiət edilən yüksək investisiya təhlükələri yaradır.

Aşağıda qeyd olunmuş üç tədbir ATƏT-in üzv dövlətlərinə həm qanunvericilik məsələlərində, həm də qanunların qəbulu prosesində şəffaflıq və proqnozlaşdırma keyfiyyətini artırmaqla qanunvericilikdə daha böyük sabitliyin əldə edilməsində kömək edə bilər:

• *Avropa İttifaqının normalar və tələblər toplusu adlanan (Acquis Communautaire) qanunvericiliyi ilə müqayisə edilə bilən və ya ona oxşar olan kommersiya qanunvericiliyinin qəbul edilməsi məsələsinin nəzərdən keçirilməsi.* Bu tövsiyə investorlara tanış olan və beynəlxalq standartlara uyğun gələn bir kommersiya qanunvericiliyinə olan ehtiyacı vurğulayır.

Avropa İttifaqında Acquis Communautaire investorlara tanış olan və onların yaxşı başa düşdüyü tanınmış qanunlar məcəlləsini əks etdirir. Buna bənzər qanunların Aİ üzvləri olmayan ATƏT dövlətlərinə qarşı ayrı-seçkiliyə yol verilmədən qəbul edilməsi investorlarda hadisələri qabaqcadan görə bilmək və tanışlıq hissləri və nəticədə investisiyaya meylli əhval-ruhiyyə yaradır. Buna oxşar olaraq, əgər investorlar hal-hazırda müəyyən qanunvericilik və tənzimləmə çərçivəsinə malik olan ölkələrə investisiya yatırırlarsa, onda öz fəaliyyətlərini oxşar və ya eyni çərçivə ilə idarə olunan bazarlara doğru genişləndirmək onlara daha asan və ucuz başa gələr.

Bu Vəsait heç də onu təklif etmir ki, rəsmən Aİ-nin genişlənmə prosesinin bir hissəsi olmayan ölkələr fəaliyyətlərini məhz Aİ-nin Acquis Communautaire normalar və tələblər toplusuna uyğunlaşdırsın. ATƏT-in hər bir üzv dövləti müstəqildir və öz hüquqi və mədəni ənənələrinə əsaslanan qanunlar külliyatına malikdir, istər ümumi hüquq, mülki hüquq və ya tam fərqli bir şey olsun. Burada qarşıya qoyulan məqsəd bu ölkələri kommersiya qanunları ilə əlaqədar islahatlara açıq olmaq, həmçinin Aİ-nin normalar və tələblər toplusunda göstərilənlərə oxşar və ayrı-seçkiliyin yol verilmədiyi qanunları qəbul etmək üçün düzgün məsləhətlərlə təmin etməkdən ibarətdir.

---

**Vəsaitin Sorğu Vərəqəsinə cavablardan:**

Özəl sektorun təmsilçiləri və xüsusilə də xarici investorlar ilə siyasətlər haqqında geniş dialoqun aparılması islahat prioritetlərinin qiymətləndirilməsində kömək edə, islahatların icrasının düzgün yoxlanışını təmin edə və beləliklə də, onların optimallaşdırılmasına və sürətləndirilməsinə imkan yarada bilər. Bundan əlavə, müəyyən bir ölkədə artıq birbaşa investisiyaları olan mövcud xarici investorlar çox vaxt keçid dövrünü yaşayan iqtisadiyyatlarda fəaliyyət göstərən potensial investorlar üçün həmin ölkənin ən yaxşı və ən etibarlı elçiləri olurlar.

---

- Kommersiya qanunvericilyi layihəsinin baxılması və ona rəylərinin veriməsi müddətinin təyin edilməsi. Hökumətlər bizneslə əlaqədar qanunvericilk üçün 30 günlük, mühüm kommersiya əhəmiyyəti kəsb edən qanunvericilik üçün isə 90 günlük baxılma və rəylərin verilmə bildirmə müddətini təyin edərək həmin qanunvericilik layihəsinin İnternetdə vahid mərkəzi ünvanda yerləşdirilməsi və maraqlı və/ və ya qeydiyyatdan keçmiş tərəflərə müntəzəm elektron bildirişlər göndərilməsi təklifini nəzərdən keçirə bilər. Fövqəladə və gözlənilməz qəbul edilmiş qərarlara (dəqiq müəyyənləşdirilmiş və yaxşı məlum olan məsələ ilə əlaqədar qəbul edildiyi hallar istisna olmaqla) investorların münasibəti çox vaxt mənfi olur. Qanunvericilik layihəsinin qabaqcadan təqdim edilməsi investorları və biznesmenləri xəbərdar edir ki, onların öz bizneslərini idarəetmə tərzində dəyişikliklər aparması tələb oluna bilər. Bundan başqa, biznes adamları tərəfindən bildirilən «rəylər» adətən kommersiya qanunvericiliyini yaxşılığa doğru dəyişir. Biznes ictimaiyyətindən məsləhət alınması da çox vaxt biznes mühitinə müsbət təsir göstərir.

Ən böyük sürətlə inkişaf edən iqtisadiyyatlara və XBİ göstəricisi üzrə ən böyük nəticələrə malik olan iki ATƏT dövləti Slovakiya və Estoniyada qanunvericiliklə əlaqədar ictimai bildiriş və məsləhətləşməyə dair rəsmi tələblər tətbiq edilmişdir. Ermənistan bu istiqamətdə müəyyən addımlar atmışdır. 2003-cü ildə Ermənistanda qanunun aliliyi və kommersiya qanunları məsələlərinin dəyərləndirməsini həyata keçirmiş Ermənistan Beynəlxalq Tədqiqat Qrupunun hesabatında aşağıdakı müşahidələr qeyd edilmişdir: «Onu da qeyd etmək lazımdır ki, Ermənistanın digər qanunları ictimaiyyətin «baxılma və rəylər vermə» yolu ilə qərar qəbul edilməsi prosesində iştirakına imkan yaradır. Məsələn, Ermənistanın ABŞ modellərinə əsaslanan Qiymətli Kağızlar Bazarı haqqında Qanununda tələb olunur ki, Ermənistanın Qiymətli Kağızlar üzrə Komissiyasının qanun layihələri ictimai rəylərin bildirilməsinə imkan yaratmaq məqsədilə bu qanunların qəbul edilməsindən əvvəl nəşr edilməlidir»4. İnternetdən istifadə edilməsi ümumiyyətlə baxılma və rəylər vermə ən yaxşı üsulu hesab edilir. Elektron xidməti bildirişin daha geniş kütlələrə çatdırılmasını və bütün qanunvericilik layihələrinin vahid mərkəzi ünvanda tapılmasını təmin edir. Bundan əlavə, qanunvericilik layihəsinin İnternetdə yerləşdirilməsi haqqında elektron bildiriş maraqlı və/ və ya qeydiyyatdan keçmiş tərəflərə göndərilə bilər.

- Qanunvericilik tədbirlərinin təqviminin müntəzəm tərtib edilməsi. Burada məqsəd qanunvericiliklə əlaqədar dəyişikliklərin qabaqcadan proqnozlaşdırılmasını təmin etməkdir. Məsələn, vergi dərəcələrinin icmalları ildə bir və ya iki dəfə müəyyən edilmiş vaxt pəncərəsində əks etdirilə bilər. Bu, şirkətlərə bütün hadisələrə qabaqcadan hazır olmaq imkanı verər.

## *Şəffaflıq*

Yuxarıda göstərilmiş üç tədbirin hər biri ictimai məlumatlandırmanı və məsuliyyətliliyi təmin edir; bu xüsusiyyətlər isə şəffaflığın aparıcı elementləridir. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramında (BMTİP) şəffaflıq - informasiyanın bölüşülməsi və açıq fəaliyyət göstərilməsi kimi tərif edilir. Şəffaflıq səhmdarlara sui-istifadə hallarını aşkar etmək və öz maraqlarını müdafiə etmək üçün mühüm əhəmiyyət daşıya bilən məlumatları əldə etmək imkanı verir. Şəffaf sistemlərdə geniş çeşidli məlumatların açıqlığı, qərarların qəbul edilməsində aydın prosedurların tədbiqi, ictimaiyyətin iştirakı və səhmdarlarla rəsmi şəxslər arasında açıq ünsiyyət kanalları təmin edliir.

***Yerli və xarici investorlar üçün investisiya ilə əlaqədar qayda və tənzimləyici aktların işləməsi, həmçinin onların necə dəyişdirilə bilməsi haqqında şəffaf informasiya təminatı investisiyalarla bağlı qərarların qəbul edilməsində zəruri həlledici amildir. Şəffaflıq və hadisələrin qabaqcadan görülə bilməsi xüsusilə də öz tənzimləmə sistemlərindən, mədəniyyətlərindən və inzibati çərçivələrindən çox fərqli olan şəraitdə fəaliyyət göstərməli olan əcnəbi investorlar üçün böyük əhəmiyyət kəsb edir. İnvestisiyalarla əlaqədar şəffaf və proqnozlaşdırıla bilən tənzimləmə sistemi biznes qurumlarına potensial investisiya imkanlarını daha dəqiq və vaxtında qiymətləndirməyə və beləliklə də, investisiyalardan əldə ediləcək faydanı tezləşdirməyə kömək edir.***

Mənbə: İƏİT-in İnvestisiya Siyasətinə dair Çərçivə Sənədi

Şəffaflıq çox vaxt inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlar üçün daha mühüm əhəmiyyət kəsb edir, çünki bu ölkələrdə investisiyaların aşağı səviyyədə olması potensial investorlara «investisiyalar tarixi»ndən bəhrələnmək imkanı vermir. Məsələn, Çində şəffaflıqla əlaqədar çatışmazlıqlar

bazarın nəhəng ölçüdə olması və investisiya şəklində müvəffəqiyyətlə yatırılmış milyardlarla dollar, avronun nəyə xərclənməsi haqqında hesabatlar ilə kompensasiya edilir. ATƏT-in Çin kimi bir dövlətin malik olduğu nisbi üstünlüklərə malik olmayan, inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatları daha böyük investisiyaları stimullaşdırmaq məqsədilə daha şəffaf mühit yaratmalıdırlar. İƏİT-in *"İnkişaf üçün xarici birbaşa investisiyalar"* tədqiqatında göstərilir ki, şirkətlərin fəaliyyət göstərdiyi mühit haqqında lazımi səviyyədə məlumatlar əldə etməsi təmin edilərsə, onlar güclü hüquqi və tənzimləmə sistemlərinə malik olan ölkələrə investisiya yatırmaq arzusunda ola bilər, hətta əgər bu sistemlərin mövcud olmadığı halda həmin ölkələri «investor yönümlü» adlandırmaq mümkün olmasa belə. Əksinə, məlum olur ki, şəffaflığın müəyyən astana səviyyələri mövcuddur ki, bundan aşağı səviyyələrdə biznes şəraitləri artıq o qədər qeyri-müəyyən bir şəkil alır ki, faktiki olaraq heç bir investor müvafiq layihə nə qədər cəlbedici olsa belə investisiya yatırmaq arzusunda olmur.

Qeyri-Şəffaflıq İndeksi şəffaflığın qiymətləndirilməsi üçün Kurtsman Qrupu tərəfindən işlənib hazırlanmış bir vasitədir. Qeyri-Şəffaflıq İndeksinin yaradıcıları hesab edirlər ki, məhz şəffaflıqla əlaqədar «gündəlik, kiçik həcmli risklər» qlobal investisiya və kommersiya üçün əngəllər törədir. İndeksdə CLEAR adlanan metodologiyadan istifadə edilir: burada C – Corruption (korrupsiya), L – Legal System (Hüquqi Sistem), E – Economic Policies (İqtisadi Siyasətlər), A – Accounting and Finance Practices (Mühasibat və Maliyyə Təcrübələri) və R – Regulatory Environment (Tənzimləmə Mühiti) amillərdən istifadəni bildirir. Bu sahələrin hər birinə aid və "Hə-Yox" cavabı tələb edən bir sıra suallar verilir və cavablardan istifadə edərək ballar hesablanır. Təəssüf ki, Qeyri-Şəffaflıq İndeksinə Cənub-Şərqi Avropa və Mərkəzi Asiya ölkələri daxil deyil. Gözlənildiyi kimi, iqtisadi inkişaf üzrə daha yüksək göstəriciləri olan ölkələr ümumiyyətlə «nisbətən az qeyri-şəffaf» mühitə malikdirlər. Finlandiya, BB, Danimarka, İsveç və ABŞ Qeyri-Şəffaflıq İndeksində beş ən yaxşı nəticələri bölüşən ölkələr olmuşdur.

Bütün dünya ölkələrini əhatə etməməsinə baxmayaraq, bu tədqiqat bir sıra maraqlı məqamları üzə çıxarmışdır. Kurtsman Qrupu iddia edir ki, indeksdə qeyri-şəffaflıq göstəricisinin hər dəfə bir bal artması nəticəsində adambaşına ÜDM 986 ABŞ dolları, adambaşına düşən XBİ isə bir faiz həcmində enir.

Keçmiş Yuqoslaviya Respublikası (KYR) olan Makedoniyanın 2005-ci ilin may ayında qəbul edilmiş iqtisadi proqramında şəffaflığa xüsusi yer ayrılır. Burada özəlləşdirmə və özəlləşdirmədən sonrakı fəaliyyətlər ilə əlaqədar daha böyük şəffaflığın olması tələbi irəli sürülür; eyni zamanda, Mərkəzi Bankdan və Maliyyə Nazirliyindən ictimaiyyətlə daha geniş ünsiyyətdə olmaq və maliyyə sisteminin mərkəzsizləşdirilməsinə başlamaq tələb olunur. Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Təşkilatı (USAID) KYR Makedoniyaya hökumət şəffaflığının və səmərəliliyinin artırılmasında texnoloji kömək göstərir. KYR Makedoniyanın nail olduğu tərəqqi Aİ-nin də diqqətindən yayınmamışdır. 2005-ci il dekabrın 16-da Avropa İttifaqı KYR Makedoniyaya Aİ üzvlüyünə qəbul olunmaq üçün namizəd ölkə statusunu vermişdir.

AŞ-nin sabitləşmə və birləşməyə dair 2005-ci il hesabatında Albaniyanın daha şəffaf cəmiyyət quruluşu istiqamətində səylər göstərməsi qeyd edilmişdir. Ölkənin bu məqsədlə gördüyü tədbirlərə daimi parlament komitələrinin sayının azaldılması, hüquqi islahatlar üzrə komissiyanın yaradılması, qanunvericilkdə yeni parlament prosedurlarının tətbiqi və dövlət məmurlarının işə götürülməsində İnternet xidmətlərindən də istifadə etməklə açıq işəgötürmə sisteminin yaradılması daxildir. 2004-cü ildə Albaniyanın XBİ göstəricisi 41 faiz artmış və ölkə tarixində ən yüksək XBİ axınları qeydə alınmışdır.

Aşağıda ATƏT Dövlətləri hökumətlərinin şəffaflıq səviyyələrinin artırılması üçün istifadə edə biləcəyi ən yaxşı təcrübələrdən nümunələr göstərilmişdir.

• *Elektron idarəetmənin geniş tətbiqi.* Elektron idarəetmənin kütləvi və geniş istifadəsi informasiyanın yayım hüdudlarını genişləndirir, gizli fəaliyyətlər ehtimalını azaldır və fəaliyyətlərin təftiş və auditinin həyata keçirilməsində vasitəçilik edir. Qanunvericilik və qaydalar, özəlləşdirmə və hökumət tenderləri haqqında məlumatların geniş kütlələrə çatdırılmasında elektron idarəetmə faydalı bir vasitədir.

Kommersiya qanunvericiliyinin və əhəmiyyətli məhkəmə qərarlarının İnternet səhifələrində ana və ingilis dillərində nəşri təkcə şəffaflığın inkişafının çox gözəl bir üsulu deyil, həmçinin xarici investorlarla dialoq qurulması prosesinə əhəmiyyətli bir töhfədir.

• *İctimai tenderlər də daxil olmaqla inzibati qərarların nəşri və icmalı.* İnzibati qərarların nəşri və icmalı biznes ictimaiyyətini hökumətin öz qərarlarına görə məsuliyyət daşımasına və ictimai rəyləri nəzərə almaq arzusunda olmasına inandırır.

• *Müstəqil media və mətbuatın dəstəklənməsi.* Cəzalandırılmaq qorxusu hiss etmədən hökumətin yürütdüyü siyasəti və gördüyü tədbirləri araşdırmaq və müzakirə etmək hüququ olan müstəqil mətbuatın

mövcudluğu şəffaflığı artırır. Hökumətlər iqtisadi vasitələrdən istifadə edərək və ya informasiyadan məhrum etmək hədələri ilə medianı yalnız müəyyən nöqteyi-nəzərlər ifadə etməyə təhrik etməməlidirlər.

• *Beynəlxalq mühasibat standartlarının qəbulu.* Beynəlxalq mühasibat standartlarının tətbiqi müəssisələrin və investisiya layihələrinin maliyyə qiymətləndirməsini asanlaşdırır. Xarici şirkətlər müəssisələrin maliyyə hesabatlarını daha yaxşı qiymətləndirməyə qabildir.

# Korrupsiya

***"2 və ya 4 ilə. Əgər pul verməyə hazırsınızsa, altı aya".***

Bu, 2005-ci ilin sentyabr ayında Ukraynada bir vətəndaş cəmiyyəti təşkilatının məsul əməkdaşının fabrik tikintisi kimi böyük investisiya layihəsinə başlaması üçün nə qədər vaxt tələb olunduğu sualına cavabı.

Vəsaitin hazırlanması prosesində keçirilmiş sorğuda ifadə edilmiş çoxsaylı cavablarda belə bir fikir əks olunmuşdur ki, iqtisadi inkişafın genişləndirilməsi məqsədilə aparılan bir sıra ümidverici islahatlar korrupsiya ucbatından sərt maneələrlə rastlaşmış və nəticədə xüsusilə KOM-lar böyük əziyyət çəkmişdir. Bu müşahidələr Rusiya Federasiyasının Xarici İnvestisiyalara dair Məşvərət Şurasının 158 xarici şirkətlə əlaqədar apardığı müstəqil sorğular da daxil olmaqla çoxsaylı müvafiq ədəbiyyatlarda ifadə edilən müşahidələrlə üst-üstə düşür. Sözü gedən sorğuda iştirak etmiş respondentlərin 71 faizi korrupsiyanı ölkənin yeni investisiyalara doğru getdiyi yolda ən böyük maneə adlandırmışlar. Korrupsiya nədir? Avropa Şurasına görə, korrupsiya - rüşvət alan şəxsin ondan tələb olunan hər hansı vəzifə və ya davranışı düzgün icra etməməsi ilə nəticələnən, birbaşa və ya dolayısı yolla rüşvət və ya hər hansı digər əsaslandırılmamış gəliri və ya buna bənzər perspektivləri istəməsi, təklif etməsi və yaxud verməsi və ya alması deməkdir. Müxtəlif mədəniyyətlərin korrupsiya ilə bağlı müxtəlif nöqteyi-nəzərlərinin olmasına rəğmən, bir fakt açıq-aydındır: korrupsiya həm xarici birbaşa investisiyaların, həm də KOM-ların inkişafının qarşısını alan amildir. İnvestorlar çox zaman lobbiçilik, əlaqələr qurulması, mediadan istifadə və digər taktikalardan istifadə etməklə korrupsiyadan «yan ötməyi» öyrənsələr də, danılmaz fakt ondan ibarətdir ki, korrupsiya investorların həm pulunu, həm də vaxtını alır.

Korrupsiyanın biabırçı və xoşagəlməz bir hal olmasından əlavə, hesablamalara görə, korrupsiyalı mühitdə fəaliyyət investorlara ümumi xərclərin 4 faizi civarında başa gələ bilər. Dörd faizlik göstərici hər hansı bir investorun investisiya yatırmaq və ya yatırmamaq qərarına təsir göstərmək üçün əhəmiyyətli dərəcədə böyük maneədir. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) əməkdaşı Samuel Fankhozer Mərkəzi Avropada, Cənub-Şərqi Avropada və MDB ölkələrində gəlirlərin rüşvətxorluğa sərf olunan payını əks etdirmək üçün aşağıdakı diaqramı (Diaqram 2.1) tərtib etmişdir. Təəccüblü deyil ki, adambaşına düşən ən yüksək XBİ və ÜDM göstəricilərinə malik olan Mərkəzi Avropa regionu həm də rüşvətxorluğa xərclənən gəlirlərin ən aşağı orta göstəricisinə malik olmuşdur; Cənub-Şərqi Avropa bu göstəricilərə görə ikinci, MDB ölkələri isə üçüncü yeri tutmuşdur. AYİB-in apardığı tədqiqata əsasən, bir ölkə istisna olmaqla qalan ölkələrin hamısı 2002-ci ildə rüşvətxorluğa xərclənən gəlir paylarını 2005-ci ildə azaltmış və bu sahədə xüsusilə Gürcüstan, Qırğızıstan, Rumıniya və Albaniya nəzərəçarpan müvəffəqiyyətlər əldə etmişdir.

Korrupsiya ilə milli tərəqqi arasındakı əlaqənin daha geniş qiymətləndirilməsi nəticəsində məlum olur ki, beynəlxalq müşahidəçilər ümumiyyətlə ən zəngin ATƏT ölkələrinin həm də korrupsiyanın ən aşağı səviyyədə olduğu ölkələr olması qənaətinə gəlmişlər. Cədvəl 2.1-də 2005-ci ildə ÜDM-ə görə beş ən inkişaf etmiş ATƏT ölkəsi üzrə Transparency İnternational təşkilatının Korrupsiyanın Mənimsənilməsi İndeksinin (KMİ) qiymətləri göstərilir; ÜDM üzrə ən aşağı göstəriciləri olan beş ATƏT ölkəsinin də müvafiq nəticələri cədvəldə əks etdirilib. ATƏT-də və dünyada adambaşına düşən ən yüksək ÜDM-ə malik olan Lüksemburq KMİ-yə görə onuncu yeri tutmuşdur. Korrupsiyanın Mənimsənilməsi İndeksi üzrə ən yaxşı nəticə göstərən İslandiya isə ATƏT-də adambaşına düşən ÜDM-yə görə altıncı yerdədir. (Qeyd: San-Marino adambaşına düşən ÜDM-ə görə beşinci yeri tutmuşdur, lakin cədvəldə göstərilmir; çünki, bu ölkənin korrupsiya göstəricisi hesablanmamışdır).

Vəsaitdə korrupsiya ilə iqtisadi tərəqqi arasında düz mütənasibliyin olması fikri ifadə edilmir. Lakin bir məsələ vurğulanır ki, korrupsiya şübhəsiz ki, biznes və investisiya mühitinin sağlamlığını müəyyən edən əsas göstəricidir və əgər ölkələr xarici birbaşa investisiyaların artımı və kiçik və orta müəssisələrin inkişafı vasitəsilə iqtisadi inkişafı dəstəkləmək istəyirlərsə, bu ölkələrin hökumətləri korrupsiya məsələsini həll etməlidir. Bütün ATƏT iqtisadiyyatlarında KMİ adambaşına düşən ÜDM göstəricilərinə uyğundur. Qərbi Avropa iqtisadiyyatları adambaşına düşən ÜDM üzrə ən yüksək, eyni zamanda, KMİ üzrə ən yaxşı nəticələrə malikdir, Mərkəzi Avropa ölkələri bu baxımdan növbəti yerdədirlər, sonda isə Cənub-Şərqi Avropa və əksər MDB iqtisadiyyatları gəlir.

DİAQRAM 2.1

**Korporativ gəlirlərin rüşvətxorluğa xərclənən hissəsi**




www.ebrd.com

CƏDVƏL 2.1

**Adambaşına düşən ÜDM-ə görə beş ən yüksək və ən aşağı yerləri tutan ATƏT ölkələri və onların Transparency İnternational Təşkilatının 2005-ci ilə dair Korrupsiyanın Mənimsənilməsi İndeksi**

| Ölkə | Adambaşına düşən ÜDM | 2005-ci ildə Tİ KMİ |
|---|---|---|
| Lüksemburq | $62 700 | 8,5 |
| Norveç | $42 400 | 8,9 |
| ABŞ | $41 800 | 7,6 |
| İsveçrə | $35 000 | 9,1 |
| İslandiya | $34 600 | 9,7 |
| ATƏT üzrə orta nəticə | | 5,3 |
| Serbiya və Çernoqoriya | $2 600 | 2,8 |
| Moldova | $2 100 | 2,9 |
| Özbəkistan | $1 900 | 2,2 |
| Qırğızıstan | $1 800 | 2,3 |
| Tacikistan | $1 200 | 2,1 |

Mənbələr: Transparency İnternational və YUNKTAD

Korrupsiyaya qarşı mübarizə sahəsində nailiyyətlər əldə etmiş ölkələrin həyata keçirdiyi tədbirlərə aşağıdakılar daxildir:

- *Müstəqil anti-korrupsiya agentliyinin və ya şöbəsinin təyin edilməsi.* Məhkəməyə cəlb etmək hüququ olan müstəqil anti-korrupsiya agentliyinin mövcudluğu hər bir ölkənin korrupsiya ilə mübarizə aparmaq qabiliyyətini artırır. Rumıniyanın anti-korrupsiya təşkilatı idarəetmənin təkmilləşdirilməsi və bunun nəticəsi olaraq ölkənin əlverişli investisiya məkanı kimi nüfuzunun artırılması üçün son vaxtlar çox yüksək vəzifələrdə çalışan hökumət nümayəndələrini və biznes liderlərini hədəfə almışdır.

- İnzibati sadələşdirmə. Bürokratiya korrupsiyanın bədnam yetişdiricisidir. Hər hansı bir investisiya layihəsinin rədd edilməsi və ya yubadılması ehtimalı yaranan zaman həm bürokratda, həm də investorda korrupsiya tamahı oyanır. Lazımsız bürokratik əngəllərin aradan qaldırılması korrupsiya üçün imkanları azaldır. Slovakiya ATƏT-in inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarına yaxşı nümunə ola bilər. Bizim biznes və investisiya mühiti ilə əlaqədar sorğu vərəqəmizə cavabında Slovakiya İnvestisiya Təşkilatının nümayəndəsi bildirdi ki, Dünya Bankının Doing Business adlanan hesabatında Slovakiya biznes sahəsindəki islahatlara görə birinci, dünyada isə dördüncü yeri tutmuşdur.

MƏTN BLOKU 2.1

## Estoniyanın müstəqil məhkəmələrə doğru irəliləyişi

Estoniyanın müstəqil məhkəmə sistemi milli konstitusiya ilə qorunur. Estoniya həmçinin 2002-ci ilin iyul ayında Məhkəmələr haqqında akt qəbul edərək Estoniya məhkəmələrinin müstəqilliyini və idarə edilməsini genişləndirmişdir. AYİB-in fikrincə: «Məhkəmələrin effektivliyi və qərarların həyata keçirilməsi ilə əlaqədar təkmilləşdirmələrə ehtiyac olmasına baxmayaraq, Estoniyada müqavilə hüquqlarını uca tutan hüquqi sistemə ictimai etibar Bankın fəaliyyət göstərdiyi ölkələr arasında ən yüksək səviyyədədir və məhkəmə sistemində inzibati islahatlar sürətlə davam etməkdədir». [5]

- *Müstəqil məhkəmə sisteminin yaradılması.* MDB və Mərkəzi Asiya ölkələrinin əksəriyyətinin konstitusiyasında müstəqil məhkəmə sisteminə dair bəndlər var. Lakin, hökumət rəsmilərinin dominantlığı ucbatından onların yalnız bəzilərində həqiqətən də müstəqil məhkəmələr mövcuddur. Müstəqil, yaxşı məvacibli və kifayət qədər yüksək bilik səviyyəsinə malik olan məhkəmə sisteminin yaradılması qanunun aliliyinin təmin edilməsində aparıcı bir amildir.

- *Dövlət məmurlarının məvaciblərinin artırılması və peşəkarlığın inkişaf etdirilməsi.* Yaxşı məvacib alan hakim və magistrat üzvlərindən əlavə, dövlət məmurlarının da korrupsiyaya müqavimət göstərə bilməsi üçün kifayət qədər yüksək məvacib alması təmin edilməlidir. Dövlət məmurlarının həyat standartları lazımi səviyyədə deyilsə korrupsiya mütləq baş verəcək. Hökumətlər vicdanlı, motivasiyalı və peşəkar işçi qüvvəsini saxlamaq arzusundadırlarsa onlara ədalətli məvaciblər ödəməyə hazır olmalıdır. Məvaciblərin aşağı və hökumət gəlirlərinin məhdud olduğu yoxsul ölkələrdə yüksək məvaciblər ödəmək üçün maliyyə vəsaitinin tapılması çox çətin məsələdir. Biznes mühitinin təkmilləşdirilməsi üçün hökumətlərin görməli olduğu tədbirlərdən biri olan bürokratiyanın azaldılması həm də məvaciblərin qaldırılması prosesini asanlaşdırır. Lazımsız funksiyaların aradan qaldırılması nəticəsində cari işçi məvacibləri üçün əlavə maliyyə vəsaitləri yaranır.

MƏTN BLOKU 2.2

## Azərbaycanda anti-korrupsiya səyləri

Azərbaycanda korrupsiya əleyhinə yeni qanun 2005-ci il yanvarın 1-dən qüvvəyə mindi. Qanunun şərtlərinə görə, yeni yaradılan komissiyanın hökumət rəsmilərindən bütöv maliyyə açıqlamaları tələb etmək səlahiyyəti olacaq. Azərbaycan hökumət işçilərinin məvaciblərinin artırılması da daxil olmaqla öz mülki xidmətinin təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atmışdır. 2003-cü ilin yanvar ayında Vergilər Nazirliyi tərəfindən həyata keçirilən islahatlar çərçivəsində hökumət müvafiq işçilərin sayını 40 faiz azaldaraq qalanlarının məvacibini ikiqat artırdı. Amerikanın Ticarət Palatası kimi aparıcı biznes qruplarının məlumatlarına görə, vergi idarəetməsində irəliləyişlər müşahidə olunur. Bundan əlavə, hökumət bir sıra digər sektorlarda, o cümlədən səhiyyə və təhsil sektorlarında çalışan dövlət məmurlarının məvaciblərini də 50-100 faiz qaldırmışdır.

Bundan əlavə, biznes və investisiya mühitinin təkmilləşdirilməsi orta müddət ərzində əlavə vergi gəlirlərinin yaranmasına da gətirib çıxarır.

Eyni zamanda, dövlət işçilərinin etika qaydalarını imzalaması və etik davranış üzrə müvafiq təlim keçməsi təşkil olunmalıdır. ATƏT, USAID və digər donor təşkilatlar bu tip təlimləri Rusiya, Qazaxıstan, Ermənistan və Albaniya kimi bir sıra ATƏT ölkələrində keçirir.

- *İfşa edənlər haqqında qanun.* Korrupsiyanın şahidi olanlar çox vaxt öz dövlət xidməti vəzifələrini itirmək, vəzifəcə aşağı salınmaq, siyasi intiqam və sair kimi qisas formalarından qorxduqlarına görə bu barədə danışmaqdan çəkinirlər. İfşa edən dövlət qulluqçusudursa o, ombudsmanlar, anti-korrupsiya təşkilatları və ya ümumi auditorlar kimi qurumlara məlumat verməkdə sərbəst olmalıdır. Bu baxımdan, ATƏT ölkələrinin istinad etməli olduğu qanun Böyük Britaniyanın ictimai maraqları əks etdirən Məlumatların Açıqlanması haqqında Aktıdır (İMAA). İMAA-nın məqsədi hər hansı bir biznes və ya digər fəaliyyətlə məşğul olan təşkilatın fəaliyyətindəki qanunauyğunsuzluqlar haqqında məlumatları açıqlayan əməkdaşlara təhlükəsizlik zəmanətləri verməklə, yaxşı idarəetməni dəstəkləməkdir. Bu qanuna uyğun olaraq məsələ qaldıran işçilərin işdən qovulmaqdan və ya təqib olunmaqdan tam və dərhal qorunması təmin edilir.[6]
- *Korrupsiya əleyhinə qanunların qəbul edilməsi və həyata keçirilməsi.* Nisbətən qısa bir müddət bundan əvvəl bəzi Qərbi Avropa ölkələri faktiki olaraq şirkətlərə xaricdə biznes qurmaq üçün ödənilən rüşvətləri vergi alınan gəlirlər hesab etməyə icazə verirdi. İnkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda kütləvi korrupsiya adi hal kimi qəbul edilirdi, inkişaf etmiş ölkələrin isə çox az bir hissəsində hökumətlər bununla əlaqədar tədbirlər görmək arzusunda idilər. Lakin bu gün İƏİT-in Rüşvətxorluq Əleyhinə Konvensiyası və Birləşmiş Millətlər Təşkilatının Korrupsiya Əleyhinə Konvensiyası[7] kimi beynəlxalq sənədlərin qəbul edilməsi nəticəsində bir çox xalqlar həm öz ölkələrində, həm də xaricdə bu cür halların aradan qaldırılmasına çalışırlar. Rüşvətxorluqla mübarizə üçün hələ də hərtərəfli qanunvericiliyə malik olmayan ölkələr müvafiq qanunların işlənib hazırlanması istiqamətində praktik çərçivələr yarada bilər. Bununla belə, Vəsaitdə müntəzəm olaraq qeyd edildiyi kimi, hər hansı bir siyasətin sadəcə qəbul edilməsi heç də ona məqsədəuyğun şəkildə riayət edilməsi və ya qanunun qüvvəyə minməsi heç də onun müvafiq surətdə həyata keçirilməsi demək deyil. Güclü və müstəqil məhkəmələrdən əlavə korrupsiya ilə əlaqədar ciddi halların araşdırılması və məhkəməyə cəlb edilməsi üçün hüquqi və praktik səlahiyyətlərə malik olan orqanların olması zəruridir.

ATƏT-in Nazirlər Şurası və Daimi Şuranın qərarlarına və 2003-cü ildə qəbul edilmiş İqtisadi və Ətraf Mühitin Qorunması üzrə Strategiya Sənədinə uyğun olaraq ATƏT Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinyayətkarlığa Qarşı Mübarizə İdarəsi (UNODC) kimi tərəfdaş təşkilatları ilə sıx əməkdaşlıq zəminində korrupsiyaya qarşı mübarizədə böyük rol oynamağa başladı. ATƏT-lə UNODC arasında görülən birgə fəaliyyətlərə həmçinin BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının dəstəklənməsi də daxildir.

ATƏT-in "Korrupsiyaya qarşı mübarizə sahəsində ən yaxşı təcrübələr" kitabı özünün korrupsiya əleyhinə qanunvericilik, milli fəaliyyət planları və ya strategiyalarının layihələrini işləyib hazırlamaq arzusunda olan qanunverici orqanlar, hökumət rəsmiləri, QHT-lər, həmçinin biznes dairələrinin və vətəndaş cəmiyyətinin üzvləri üçün məlumat və istinad kitabı kimi nəzərdən keçirilə bilər. Kitab ilk dəfə 2004-cü ildə nəşr edilmişdir və bu günə qədər alban, erməni, azərbaycan, qırğız, rus, serb, tacik və özbək dillərinə tərcümə edilmişdir. Kitab həmçinin ATƏT-in veb-saytında: <www.osce.org/eea> ünvanında elektron formatda yerləşdirilmişdir. BMT-nin Korrupsiya Əleyhinə Vasitələr Toplusu da istifadə üçün mükəmməl resursdur.

# Yaxşı idarəetmə

***«Yaxşı idarəetmə hazırda nizamlı fəaliyyət göstərən bazarlar və beləliklə də, cəlbedici investisiya şəraiti və investisiya kapitalının davamlı yerləşdirilməsi üçün mühüm zəmin hesab edilir».***

"İnvestisiya siyasəti və investisiyaların dəstəklənməsi üzrə yaxşı idarəetmə və ən yaxşı Təcrübələr", Mehmet Ögütçünün YUNKTAD-ın İnvestisiyaların Dəstəklənməsi ilə əlaqədar Effektiv və Şəffaf Təcrübələr seminarında məruzəsi.

Az İnkişaf Etmiş Ölkələrin Tədqiqi, Cenevrə, 6-7 iyun, 2002-ci il.

Ölkələrin öz biznes mühitlərini inkişaf etdirmək üçün görə biləcəkləri ən sadə işlərdən biri sadəcə yaxşı idarəetmədir. Korrupsiyaya uğramış, qeyri-sabit və ya səriştəsiz hesab edilən rejimlər investorları çəkindirir. YUNKTAD yaxşı idarəetməni özündə dörd başlıca prinsipi: hadisələrin qabaqcadan görülə bilməsi (qanunun aliliyi – red.), şəffaflıq, hesabatlılıq və iştirak prinsiplərini ehtiva edən anlayış kimi qəbul edir.

Əgər hökumətlər investorların yaxşı idarəetməni görməsini istəyirsə, onlar bu sahədə bir neçə ən yaxşı təcrübədən istifadə edə bilər.

- *Şəffaf və rəqabətədavamlı özəlləşdirmə və tenderlər.* Əgər xarici investorlar özünün özəlləşdirmə və hökumət tenderlərində rəqabət aparması üçün ədalətli imkanların təmin edilməsinə inanmırsa, onda vergi/maliyyə orqanları, hökumət müfəttişləri və ya məhkəmə sistemi tərəfindən ədalətli davranışla rastlaşacaqlarına da inanmayacaq. Özəlləşdirmə və tenderlər açıq və müsabiqə şəraitində keçirilərsə və seçim nəticələri haqqında ictimaiyyətə tam məlumatlar çatdırılarsa, investorlar hökumətlərin mümkün olan ən rəqabətədavamlı mühit yaratmağa çalışdığını başa düşəcək.

- *Dövlət borclarının vaxtında və tam ödənilməsi.* Müstəqil qurumların çox vaxt kreditorlara olan borclarının ödənişini yubatmaq imkanları olur. Bunun nəticəsində hökumətin öz nağd pul problemlərini həll etmək imkanı yaransa da, investorlar üçün bu pis əlamətdir. Hökumət kommunal xidmətlər, məsləhət xidmətləri və ya digər məhsullar üçün pul ödəmirsə infrastruktur və ya bələdiyyə istiqrazlarına vəsait yatırımının cəlbediciliyi azalır. Bir anonim investorun qeyd etdiyinə görə o, Şərqi Avropaya yalnız AYİB, Dünya Bankı, Xarici Özəl İnvestisiyalar Korporasiyası və ya digər bu cür təşkilat tərəfindən müvafiq zəmanət verildiyi halda investisiya yatırar, çünki bu regiondakı hökumətlərin öz borclarını ödəmək arzusunda olduğuna inanmır.

- *Özəl sektorla sistematik məsləhətləşmə prosesinin yaradılması.* Özəl sektor ilə müntəzəm konstruktiv dialoqların aparılması sadəcə informasiya mübadiləsindən daha çox faydalar verə bilər. Çox vaxt qanunvericilik layihəsinə dair müzakirələrin keçirilməsi, ictimai dinləmələr və müəyyən məsələlərə dair forumların təşkili və özəl sektorla əməkdaşlıq şəraitində şuraların yaradılması vasitəsilə hökumətlər pulsuz (pro bono) məsləhətlər alır, kommersiya qanunvericiliyini təkmilləşdirir və hökumət proqramlarına daha böyük dəstək əldə edir.

**Vəsaitin Sorğu Vərəqəsinə cavablardan:**

Qırğızıstan hökuməti ölkənin investisiya mühitinin yaxşılaşdırılması məqsədilə İnvestisiyalar Matrisi adlanan ümumi tədbirlər planını təsdiq etmişdir. İnvestisiyalar Matrisinin məqsədi ölkəyə birbaşa investisiyalar axınının qarşısındakı maneələri aradan qaldırmaqdır. Sənəd Qırğızıstan Respublikasının hökuməti və bir sıra potensial investorlar, assosiasiyalar, parlament üzvləri və beynəlxalq maliyyə müəssisələrinin birgə əməyi ilə tərtib edilmişdir.

Sloveniya Hökuməti qeyd etmişdir ki, "Hökumət xüsusi şura (Şirkətlər Yönümlü İdarəetmə Şurası - Svet za gospadarstvu priyazno upravo) təsis etmişdir və bu şuranın vəzifəsi inzibati maneələrin azaldılması üçün strategiyalar müəyyən etməkdir".

Rumıniyada Maliyyə Nazirliyi vergi məcəlləsi layihəsinin hazırlanmasında birgə fəaliyyət göstərmək üçün Xarici İnvestorlar Şurasının və Amerikanın Ticarət Palatasının vergi komitələri ilə müntəzəm görüşlər keçirmişdir.

- *İnvestisiyalar üzrə ombudsman vəzifəsinin təsis edilməsi.* İnvestorlar, xüsusilə də xarici investorlar onlara tanış olmayan mədəniyyətlər və tənzimləyici strukturlar şəraitində fəaliyyət göstərərkən tez-tez çətinliklərlə üzləşir. Dövlət təşkilatları tərəfindən bürokratiya və ya danışıqlar aparmaq ehtiyacı ilə üzləşərkən onların çətinlikləri daha da artır. İnvestisiya məsələləri üzrə ombudsman idarəsinin yaradılması bu baxımdan çox faydalı olardı.

- *İnvestisiya mühitinin vəziyyətinə dair illik hesabatın hazırlanması.* İnvestisiya mühitinin vəziyyətinə dair illik hesabatın olması hər bir hökumətə investisiya mühitinin təkmilləşdirilməsi istiqamətində əldə edilmiş nailiyyətləri açıq şəkildə izləmək və hələ də təkmilləşməyə ehtiyacı olan sahələri müəyyən etmək imkanı verir. Bundan əlavə, hökumət özünün biznes və investisiya mühiti ilə əlaqədar növbəti ilə planlaşdırdığı tədbirləri açıqlamaqla əlavə şəffaflıq və hadisələrin qabaqcadan proqnozlaşdırılmasını təmin edə bilər.

Mərkəzi və Şərqi Avropadakı iqtisadi keçid prosesində yaxşı idarəetmənin əhəmiyyətini nəzərə alaraq ATƏT yaxşı idarəetmə sahəsində ən yaxşı beynəlxalq təcrübələrin tətbiqinə əsaslanan fəaliyyətlərin dəstəklənməsində getdikcə daha da fəal rol oynamışdır. ATƏT-in dəstəklədiyi fəaliyyətlərə: hüquqi inkişaf prosesinə kömək, ekspert mübadilələri yolu ilə təcrübə ötürmələri və seminarların, konfransların və təlimlərin keçirilməsi daxildir. Bütün fəaliyyətlər BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi (UNODC), İƏİT və Avropa Şurası kimi digər beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində həyata keçirilir.

# Nəticələr və tövsiyələr

Sabit siyasi mühit iqtisadi inkişaf, xüsusilə də XBİ üçün möhkəm zəmin yaradır. Sabit siyasi mühitin olmadığı halda risk qalmaqda davam edir. Risk investisiyaların qarşısını kəsir. Hökumətlər aşağıdakı vasitələrlə əlverişli siyasi mühitin yaradılmasını təmin etməlidir:

- dünya iqtisadiyyatına inteqrasiyanı davam etdirməklə və müxtəlif formalı beynəlxalq, regional və ikitərəfli əməkdaşlıqlarda iştirak etməklə təhlükəsizlik ideyalarını möhkəmləndirmək, demokratik islahatları dəstəkləmək, siyasi sabitliyi təmin etmək, həmçinin inam yaradılması və fövqəladə hallarla əlaqədar effektiv planların hazırlanması istiqamətində görülən tədbirləri dəstəkləmək;

- təyin edilmiş müddətlər ərzində qanunvericiliyi şəffaf proseslər və özəl sektorla açıq dialoqlar vasitəsilə dəyişdirməklə onun sabitliyini qoruyub saxlamaq;

- elektron idarəetmə, inzibati qərarların nəşri və icmalı, həmçinin azad və müstəqil media vasitəsilə şəffaflığı ən yüksək səviyyədə saxlamaq;

- etika qaydaları, ifşa edənlər haqqında qanunlar, bürokratiyanın azaldılması və inzibati məsələlərin sadələşdirilməsi, hökumət işçilərinin məvacibinin «yaşayış minimumu» həddindən az olmamasının təmin edilməsi və anti-korrupsiya qurumunun yaradılması vasitəsilə korrupsiyaya qarşı mübarizə aparmaq;

- ədalətli və müsabiqəli tenderlərin, açıq özəlləşdirmənin, özəl sektorla sistematik dialoqların keçirilməsi və ombudsman idarəsinin yaradılması yolu ilə yaxşı idarəetməni təmin etmək.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

OECD, *OECD Policy Framework for Investment,* <www.oecd.org/document/61/0,2340,en_2649_33725_33696253_1_1_1_1,00.html> and <www.oecd.org/document/43/0,2340,en_2649_201185_36781483_1_1_1_1,00.html>

Kurtzman Group, *Opacity Index,* <www.kurtzmangroup.com>

OSCE, *Best Practices for Combating Corruption,* <www.osce.org/eea/item_11_13568.html>

UN, “Anti-Corruption Toolkit”, <www.unodc.org/unodc/en/corruption.html>

Transparency International website: <www.transparency.org>

## QEYDLƏR

1 BSEC Business Council, “Helping Eliminate Barriers to Business and Improve Business Climate”, <http://www.bsec-business.org/sdirect.asp>
2 World Economic Forum, “The Best Places to Do Business”, <http://www.weforum.org/site/knowledgenavigator.nsf/Content/_S12848>
3 Marakand Minerals Limited, *Accountants' Report on the Khandiza Exploration Asset* (28 Nov 2003).
4 Gahm Markarian, *Rule-of-Law and Commercial Law Issues in Armenia, Armenian International Policy* Research Group, Working Paper No. 03/17 (Jan 2003), <http://www.armpolicyresearch.org/Publications/WorkingPapers/pdf/Gahmk%20Markarian.pdf>
5 EBRD, *Strategy for Estonia* (2004), <www.ebrd.com/about/strategy/country/estonia/strategy.pdf>
6 OSCE, *Best Practices in Combating Corruption* (2004), <http://www.osce.org/publications/eea/2004/05/12211_87_en.pdf>
7 UN, *United Nations Convention against Corruption* (2003), <http://www.unodc.org/pdf/crime/convention_corruption/signing/Convention-e.pdf>

# 3-cü Fəsil



Morgnefile

# Makro-iqtisadi sabitliyi və iqtisadi inkişafı dəstəkləyən siyasətlərin biznes və investisiya mühiti üçün əhəmiyyəti

**Makro-iqtisadi sabitlik və iqtisadi artım iqtisadi inkişafın dəstəklənməsində mühüm əhəmiyyət daşıyan amillərdəndir. Korporativ investorlar üçün makro-iqtisadi sabitliyin ən əhəmiyyətli göstəriciləri balanslara birbaşa təsir göstərən amillər - yəni, ÜDM-in və adambaşına düşən ÜDM-in artımı dərəcələri, inflyasiya, əhalinin artımı və ali məktəbləri bitirmə əmsallarıdır. Bundan əlavə, bank faizi də KOM-lar və bəzi xarici investorlar üçün çox böyük əhəmiyyət kəsb edir. Hər hansı bir ölkənin xarici ticarəti, xarici investorlar və xarici əməkdaşlar üçün açıq olması onun özünün iqtisadi inkişaf istiqamətində müvəffəqiyyət əldə etməsinə təsir edə bilər. Əgər zəngin təbii ehtiyatlara malik olan ölkələr öz sərvətlərini artırmaq və mövcud vahid sənaye sahəsi daxilində dəyişikliklər baş verdiyi zaman yarana biləcək şok vəziyyətlərini azaltmaq arzusundadırsa, öz iqtisadiyyatlarını şaxələndirməlidir. Ölkələr orta müddətli iqtisadi strategiyalar, intizamlı maliyyə siyasətləri və xarici ticarətə, həmçinin beynəlxalq kapital bazarlarından qaynaqlanan pul axınlarına açıq yanaşma tətbiq etməlidir.**

# *Güclü və sabit makro-iqtisadi mühitin əhəmiyyəti*

***«Sabit makro-iqtisadi siyasət əlverişli işgüzar mühiti təmin edən mühüm amillərdən biridir, çünki o sahibkarlıq fəaliyyəti risklərini azaldır və investisiya qərarlarının qəbulu üçün əvvəlcədən proqnozlaşdırmalar aparmağa imkan verir».***

Təklif sahəsində zəif yerlərin ləğvi və bacarıqların qurulması, Asiya və Sakit Okean Regionu üzrə İqtisadi və Sosial Məsələlər üzrə Komissiya, Beynəlxalq Ticarət və İnvestisiyalar üzrə Subkomitə, Birinci sessiya, 2004-cü il. 27-29 oktyabr, Bankok.

Makro-iqtisadi sabitlik iqtisadi artım üçün ilkin zəmin hesab edilir. BVF makro-iqtisadi sabitliyi aşağı olan və getdikcə azalan dövlət borcunun səviyyəsi, bir rəqəmli kəmiyyətlə ifadə olunan inflyasiya və adambaşına düşən ÜDM-in getdikcə artması şəraitində cari ödəmə balansının və dövlət büdcəsinin dayanaqlığı kimi tərif edir. Bu, bir sıra təriflərdən biridir. Bəzi iqtisadçılar belə hesab edir ki, inflyasiyanın bir rəqəmli kəmiyyətlə ifadə olunması hədsiz dərəcədə sərt tələbdir. İqtisadi göstəricilərin davamlı yaxşılaşması makro-iqtisadi sabitliyin başlıca şərtidir. Hiperinflyasiya və ya maliyyə bazarlarına zərbələrlə nəticələnən iqtisadi sabitsizlik xarici investorları çəkindirir. ÜDM-in aşağı düşməsi bazarların durğunluğundan xəbər verir. Qiymətlərin hədsiz yüksək olduğu şəraitdə biznes sahələri fəaliyyət göstərə və mənfəət əldə edə bilmir. Qiymət təbəddülatları KOM-ları müflis edə bilər. Xammalın qiymətində iyirmi faizlik artım kiçik biznesi məhv edə bilər. Uzunmüddətli iqtisadi artım üçün güclü və sabit makro-iqtisadi mühitin olması zəruridir.

# *Korporativ investorların istifadə etdiyi makro-iqtisadi göstəricilər*

İqtisadi forumlar, donor təsisatları, inkişaf bankları, investisiya bankları, iqtisadçılar və alimlər pul kütləsinə və ya cari ödəmə balansına dair statistik məlumatları təhlil etdiyi bir vaxtda, korporativ investorların əksəriyyəti diqqətini birbaşa öz balanslarına təsir edən göstəricilər üzərində cəmləyir. Xarici investorlar iqtisadi artımı və xüsusilə də adambaşına düşən ÜDM-in artım dərəcələrini potensial investisiya məkanlarının göstəriciləri hesab edirlər. ÜDM-in səviyyəcə yüksələn xətlə inkişaf etdiyi ölkələr təkcə potensial bazarlar deyil, həmçinin zaman keçdikcə investorun öz biznesini genişləndirməsi və müasirləşdirməsi üçün insan kapitalı, təchizatçılar və xidmətlərlə əlaqədar tələb edəcəyi investisiyaları dəstəkləməyə qadir olan iqtisadiyyatlara da malikdir. Qiymətlərin aşağı olduğu, lakin durğun iqtisadiyyatlı ölkə bir tərəfdən rəqabətədavamlı giriş üçün münasib ola bilər, lakin digər tərəfdən davamlı biznes modelini təmin edə bilməz.

«İnflyasiya da əhəmiyyətli bir amildir. İnvestorlar çox vaxt məsrəflərin hədsiz sürətlə artmasından narahat olurlar. Bundan daha pisi isə odur ki, yüksək inflyasiya və ya hiperinflyasiya birbaşa olaraq makro-iqtisadi sabitliyin əldə edilmədiyinə işarə edir. İnflyasiyanın yüksək səviyyələrdə olmasının XBİ-yə əhəmiyyətli dərəcədə mənfi təsiri var və bu da XBİ həcmi və xarakteri üçün makro-iqtisadi sabitliyin mühüm bir amil olması fikrini təsdiq edir…»[1]

---

Vəsaitin Sorğu Vərəqəsinə cavablardan:

Biznes və investisiya mühiti Bosniya və Hersoqovinada əlverişlidir və son bir neçə il ərzində daha da yaxşılaşıb. İnkişaf etmiş hüquqi sistem və xarici investisiyaların dəstəklənməsi ilə məşğul olan institutların mövcudluğu investisiyalar üçün əlverişli şəraitlərin olduğunu göstərir. İnvestorlar üçün müsbət siqnallara aşağıdakılar daxildir:

- sabit valyuta - avroya münasibətdə sabit mübadilə kursuna malik olan, konversiya edilən bilən marka (KM);
- Mərkəzi və Şərqi Avropada ən aşağı inflyasiya səviyyəsi;
- turizmin inkişafı üçün imkanlar;
- xarici investisiyaların qorunması - Bosniya və Hersoqovina İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentliyin (MIGA) üzvüdür;
- əhəmiyyətli sayda xarici bankları da daxil edən, islahatlardan keçmiş bank sistemi;
- xarici investisiyalara dair siyasəti və prinsipləri tənzimləyən Xarici İnvestisiyalar haqqında Qanun;
- xarici investorların yerli investorlarla eyni hüquqlara malik olması;
- xarici investorların hüquqlarının xüsusi olaraq müdafiə edilməsi.

---

Əhalinin artımı və ali savadlı insanların sayı çox vaxt insan kapitalı potensialının qiymətləndirilməsi üçün tədqiq edilir. Mühəndis və ya proqram təminatçıları axtaran şirkətlər hər hansı bir ölkənin onların tələblərinə cavab vermək üçün kifayət qədər işçi təmin edib-etməməsi məsələsini diqqətlə nəzərdən keçirir. Bundan əlavə, onlar

insan kapitalının yerli və regional yerləşməsini qiymətləndirərək ali təhsil müəssisələrinin yerləşdiyi böyük şəhərlərə diqqət yetirirlər. Hər bir ölkənin məşğulluq səviyyəsi ikiağızlı xəncərlə müqayisə edilə bilər. Çoxlu əmək qüvvəsinin tələb olunduğu müəyyən istehsal müəssisələri ucuz işçi qüvvəsi və hökumət güzəştləri axtarışında işsizlik səviyyəsinin yüksək olduğu yerlərə üz tuturlar, istehlak məhsulları, xidmətlər və digər sahələrlə məşğul olan şirkətlər isə inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlardakı yüksək işsizlik göstəricisini həmin ölkənin makro-iqtisadi sabitliyə nail olmamasının və daxili bazarının davamsız olmasının əlaməti kimi başa düşür.

Yerli investorlar və bəzi xarici investorlar üçün bank faiz məzənnələri əsas makro-iqtisadi göstəricilərdəndir. Kapital xərcləri hədsiz yüksəkdirsə KOM-un inkişafı yavaşıyır və xarici investisiyalar azalır. KOM-ların ənənəvi problemlərindən biri maliyyə vəsaitlərinin əldə edilməsidir. Kreditlər 40-50%-lə verilirsə və ya banklar çoxlu sayda təminat tələbləri irəli sürürsə bu o deməkdir ki, KOM-lar üçün sözün əsl mənasında heç bir maliyyə mənbəyi yoxdur.

Mərkəzi Avropa və Baltik ölkələrinin son illərdəki sürətli iqtisadi tərəqqisi və investorlar üçün cəlbediciliyi onların yalnız bu makro-iqtisadi göstəricilər baxımından qüdrətini deyil, həm də ağıllı iqtisadi siyasəti əks etdirir. Estoniya və Slovakiya dəyişməz olaraq biznesin qurulması üçün ən asan yerlərdən biri kimi qiymətləndirilir. Qeyri-cəlbedici makro-iqtisadi göstəricilərə malik olan ATƏT ölkələri XBİ-nin və sahibkarlığın artımı ilə daha böyük iqtisadi inkişafın təməlini qoyacaq siyasətləri necə işləyib hazırlamalıdır? Bu sualın cavabı Mərkəzi Bankın hədsiz cidd-cəhdlə fəaliyyət göstərməsində və ya hökumət tənzimləməsinin gücləndirilməsində deyil, iqtisadiyyatın xarici ticarətin və investisiyaların üzünə açıq olmasındadır (Mətn blokları 3.1 və 3.2).

MƏTN BLOKU 3.1

## ATƏT-in inkişaf etməkdə olan ölkələrində açıq iqtisadiyyatların yaranması: Şərqi Asiya, yoxsa Latın Amerikası modeli?

BMT-nin Kolin Bredford (oğul) tərəfindən yazılmış "İqtisadi artımın prioritetləri: makro-iqtisadi siyasətin yaxşı seçimi» müzakirələr kitabında müəllif Asiya pələnglərinin etdiyi nisbətən müvəffəqiyyətli makro-iqtisadi siyasət seçimləri ilə Latın Amerikası ölkələrinin daha az müvəffəqiyyətli seçimlərini müqayisə edir. O, iqtisadi siyasət fərqlərinin ümumi xarakteristikasını belə təsvir edir: «Latın Amerikasının izolisionist, qiymətləri təhrif edən və müdaxiləçi siyasətlər həyata keçirməsi müşahidə edilmişdir. Bu, nəticədə həmin ölkələrin iqtisadiyyatının qeyri-məhsuldarlığına və asta sürətlə inkişaf etməsinə gətirib çıxarmışdır. Şərqi Asiya isə xarici yönümlü, liberallaşmaya söykənən, bazarla idarə olunan ixracatın əsaslı artım strategiyalarını seçmişdir". Bredfordun fikrincə Şərqi Asiya iqtisadiyyatlarının 1990-cı illərdə baş vermiş maliyyə böhranından sonrakı dirçəlişi də daxil olmaqla əldə etdiyi nisbi müvəffəqiyyət bu ölkələrin öz diqqətini iqtisadi dinamika, açıq bazarlar və rəqabətədavamlılıq məsələləri üzərində cəmləməsi idi. O yazır: «Keçmişə nəzər salaraq belə demək ədalətli olardı ki, Şərqi Asiya iqtisadiyyatlarının rəhbərliyini bu iqtisadiyyatların dar mənada valyuta məzənnələrinin səviyyəsindən daha çox onların geniş mənada rəqabətədavamlılığı narahat edirdi. Aydın görmək olar ki, onları öz valyuta məzənnələrinin (real və ya nominal) dəyərindən daha çox ümumən öz iqtisadiyyatlarının real rəqabətədavamlılığı maraqlandırırdı. Bu o deməkdir ki, onlar rəqabətədavamlılığın tərkib hissələri kimi institusional mühit, bank sistemi, əmək qüvvəsinin idarə edilməsi, biznes mədəniyyəti və mühiti, qanunun aliliyi və ticarət qanunları ilə əlaqədar məsələlər, o cümlədən, güclü makro-iqtisadi siyasət şəraitləri ilə məşğul olurdular. Şərqi Asiyanın dinamik iqtisadi inkişafa doğru seçdiyi yol dar və texniki yox, bütöv və hərtərəfli idi. Onların iqtisadi siyasətləri özündə bir sıra məsələləri ehtiva edən geniş strateji çərçivədən qaynaqlanırdı. Onların rəqabətədavamlılığa baxışı təkcə cari konyukturaya uyğun qiymətlərin düzgün müəyyən edilməsindən ibarət deyildi, bura geniş institusional, davranış və tənzimləyici normalar daxil edilmişdi. Strateji perspektivlər və etdikləri seçimlər onların müvəffəqiyyətinin mühüm səbəbləri oldu».

Strateji çərçivəyə malik olan hərtərəfli baxış müvəffəqiyyətin açarı ola bilər. İqtisadi artımın davamı üçün milli rəqabətədavamlılıq üzərində cəmləşmiş makro-iqtisadi siyasətlərə malik olan açıq iqtisadiyyat üzərində qurulmuş strateji çərçivə daha güclü makro-iqtisadi mühitin yaranmasına gətirib çıxarar. Sosial və ya maliyyə sabitliyi xatirinə iqtisadiyyatlar üzərində sıx nəzarət iqtisadi artımı və sahibkarlığın inkişafını tamamilə dayandıra bilər.

MƏTN BLOKU 3.2

## Türkiyənin son dövrlərdəki makro-iqtisadi müvəffəqiyyəti

Türkiyə uzun illər davam edən yüksək inflyasiya, yüksək işsizlik və Avropa ölkələri ilə müqayisədə adambaşına düşən ÜDM-in aşağı olmasından sonra makro-iqtisadi sabitliyin və iqtisadi artımın təmin edilməsi sahəsində mühüm irəliləyişlər əldə etmişdir. Türkiyənin makro-iqtisadi siyasəti və iqtisadiyyatın tam liberallaşması təkcə iqtisadi inkişafa deyil, həm də XBİ-nin artımına gətirib çıxarmışdır. Deutsche Bank tərəfindən keçirilmiş tədqiqatda Türkiyənin liberallaşması ayrıca olaraq belə qiymətləndirilir: «Argentinadan başqa, 1980-ci ildə tədqiq edilmiş 34 ölkədən heç biri Türkiyə kimi qapalı deyildi. Son 25 ildə isə ondan başqa heç bir ölkə bu dərəcədə sürətlə liberallaşmayıb. Bu müvəffəqiyyətin iki başlıca səbəbi var: (1) 1980-ci ildə xüsusilə də rəqabətədavamlılığın inkişafı məqsədilə həyata keçirilmiş böyük islahatlar və (2) 1996-cı ildə Aİ ilə gömrük ittifaqının qurulması. 1980-ci ildə həyata keçirilmiş islahatlara subsidiyaların və qiymətlər üzərində nəzarətlərin ləğvi, daha elastik valyuta və faiz məzənnələrinin tətbiqi, həmçinin ticarət siyasətinin liberallaşması daxil idi».

Tətbiq edilmiş siyasətləri və onların nəticələrini təsvir etmək üçün iki təqdimatdan çıxarışlar verilir. Onlardan birincisi bu il keçirilmiş Ümumdünya İqtisadi Forumda Türkiyənin Baş Naziri Recep Tayip Erdoğanla aparılmış müzakirələrin icmalından, ikincisi isə Dünya Bankının Türkiyədəki nümayəndəliyinin direktoru cənab Endrü Vorkinqin şərhlərindən ibarətdir.

Türkiyənin Baş Naziri Recep Tayip Erdoğan çıxışını Türkiyənin son üç ildə qət etdiyi yol və gələcək planlar haqqında danışmaqla başladı. Məruzədə iqtisadiyyatın 20%-dən çox artımı, ciddi vergi intizamı, Aİ-yə üzvlük ilə əlaqədar danışıqlara başlanması və fond birjası indeksinin 900 baldan 46 000 punkta qədər artması qeyd edildi. O, həmçinin xarici və daxili investorlar arasında heç bir ayrı-seçkiliyə yol verilmədən yeni şirkətlərin cəmi bir neçə gün ərzində açılmasına imkan verən biznes yönümlü mühit haqqında da danışdı. Onun fikrincə, 2005-2007-ci illərdə Türkiyədə xarici investisiyaların həcmi ildə 5 milyard dollara çatacaq. Baş Nazir bildirdi ki, üç il bundan əvvəl Türkiyə dövləti öz borcunun faizlərini ödəməyə belə qadir deyildi. Bu gün isə, ölkə nəinki vergi gəlirlərinin hesabına bu faizləri, həm də investisiya ilə əlaqədar xərcləri ödəyə bilir. Əvvəlki bank defisitləri dövrü ilə müqayisədə maliyyə sektoru hazırda daha sağlamdır və Türkiyə dövlət yönümlü iqtisadiyyatdan bazar yönümlü iqtisadiyyata keçid prosesini başa çatdırıb.

**Mənbə: «Yeni şəraitlərin müqayisəli üstünlükləri», Ümumdünya İqtisadi Forumunun 2006-cı ildə keçirilmiş illik iclası (27 Yanvar)**

2001-ci ildə baş vermiş böhrandan sonrakı dörd il ərzində Türkiyə öz iqtisadiyyatının bərpa edilməsində və üç il ərzində inkişaf göstəricilərinin ardıcıl olaraq artımında böyük müvəffəqiyyətlərə nail olmuşdur. 2006-cı ilin oktyabr ayında Aİ ilə başlanacaq danışıqlar prosesi güman ki, bu artımın davamlılığının təmin edilməsi üçün uzunmüddətli dayaq nöqtəsini təmin edəcək və bu da Türkiyənin gəlirlərinin Aİ üzrə orta göstəricilərlə bərabərləşməsi prosesini sürətləndirəcək. Türkiyə iqtisadiyyatının yüksək dinamik xarakteri və fəal özəl sektoru növbəti illərdə «Türkiyənin uyğunlaşma prosesi»ni təmin edən hərəkətverici qüvvələr olacaq.

2001-ci ildən bəri Türkiyənin böyük təsir bağışlayan iqtisadi nailiyyətləri makro-iqtisadi sabitlik və iqtisadiyyatının bir sıra sahələr üzrə fundamental transformasiyası nəticəsində mümkün olmuşdur. İnflyasiyanın bir rəqəmli kəmiyyət səviyyəsinə doğru misilsiz enişi və bank faiz dərəcələrinin davamlı azalması investorların inamının gücləndirilməsinə öz təsirini göstərib və inkişaf prosesini sürətləndirib. 2004-cü ildə dövlət gəlirlərinin dövlət xərclərini üstələməsinin rekord dərəcədə yüksək səviyyəyə - 7%-ə çatması ilə nəticələnmiş güclü maliyyə islahatları dövlət borcu yükünün əhəmiyyətli dərəcədə azalmasında mühüm rol oynamışdır. Xalis dövlət borcunun ÜDM-in səviyyəsinin hələ də yüksək (2004-cü ilin sonunda ÜDM-in 63,5% -i səviyyəsində) olmasına baxmayaraq ümumiyyətlə əhəmiyyətli dərəcədə (təxminən 30%) azalması və strukturunun yaxşılaşması investorların risk ehtimallarının azalmasına gətirib çıxarmışdır. Bunu beynəlxalq istiqraz spreadləri həcminin azalması və xarici birbaşa investisiyaların artmasından görmək olar.

Bununla belə, iqtisadi fəaliyyətin artımı keçən il cari ödəmə balansının defisitinin genişlənməsinə də səbəb olmuşdur. Bu defisitin daha əlverişli şərtlərlə kapitalın cəlb edilməsi ilə asanlıqla aradan qaldırılmasına baxmayaraq, bazar mühitinin geriyə inkişaf etməsi riski hələ də var və bu, Türkiyədən asılı olmayan səbəblərdən - ümumdünya faiz məzənnələrinin artımı və ya neftin sabit yüksək qiyməti ilə əlaqədar baş verə bilər. Müsbət inkişaf 2005-ci ildə və sonrakı illərdə davamlı makro-iqtisadi sabitliyin və artımın mühüm amili olan xarici birbaşa investisiyaların artımı perspektivlərinin yüksəlməsi ilə əldə edilə bilər.

Əlbəttə, bu cür effektiv makro-iqtisadi inkişaf əsasən dövlət sektorunda və maliyyə sektorunda köklü struktur islahatların, bazarların liberallaşmasının, həmçinin kənd təsərrüfatı, enerji və telekommunikasiya xidmətləri sahələrində sonrakı islahatların həyata keçirilmədiyi halda mümkün olmazdı.

**Mənbə: Cənab Endrü Vorkinqin «Aİ-yə üzv olmaq üçün makro-iqtisadi siyasətlər» mövzusunda Türkiyə Cümhuriyyəti Mərkəzi Bankının (TCMB) konfransındakı qeydləri.**

## *Açıq və qapalı tipli iqtisadiyyatların müqayisəsi*

***«İqtisadiyyatların açıqlığı insan kapitalının güclənməsi ilə yanaşı artımın başlıca hərəkətverici qüvvəsidir. Mal ticarətində, həmçinin xarici birbaşa investisiyaların və əmək qüvvələrinin cəlb edilməsində müvəffəqiyyət əldə edən ölkələr qlobal iqtisadiyyata inteqrasiya edə bilməyən ölkələrdən daha çox inkişaf edir».[2]***

Deutsche Bank Research (DBR) şirkətinin 2005-ci ilin noyabr hesabatı.

Açıq tipli iqtisadiyyat texnologiyaları və ideyalar mübadiləsini cəlb edir, həmçinin rəqabətədavamlılığı dəstəkləyir. Xarici ticarətə və investisiyalara açıqlıq iqtisadiyyatlara potensial imkanları əldən verməmək və öz daxili biznes mühitini və infrastrukturunu təkmilləşdirmək üçün şərait yaradır (Mətn bloku 3.1). Bundan əlavə, yerli müəssisələr fəaliyyətlərini təkmilləşdirdikcə, yeni məhsul və xidmətlər istehsal etdikcə daha effektiv fəaliyyət göstərməli olurlar.

Deutsche Bank-ın tədqiqat şöbəsinin hesabatında açıq iqtisadiyyat aşağıdakı meyarlarla ölçülür:

- xarici ticarətin üzünə açıqlıq;
- xarici siyasətdə qloballaşmanın səviyyəsi;
- xarici kapitalın üzünə açıqlıq;
- xarici işçilərin üzünə açıqlıq.

1980-ci ildən bəri öz iqtisadiyyatlarını «açmış» beş ölkədən dördü inkişaf edən bazarlardır: Çin, Hindistan, Meksika və Türkiyə (Mətn bloku 3.2). Bu ölkələrin hamısı son illərdə əhəmiyyətli iqtisadi müvəffəqiyyətlər əldə edib.

## *Şaxələnmənin hasilat sənayeləri üzərində qurulmuş iqtisadiyyatlar üçün əhəmiyyəti*

Neft ehtiyatları əsas olmaqla zəngin təbii ehtiyatlara malik bir sıra ATƏT ölkələri son illər neft qiymətlərinin artımı ilə əlaqədar XBİ və iqtisadi inkişaf üzrə yüksək nəticələr əldə edir. Lakin, onlar həm də güclü fundamental siyasət formalaşdırmalıdır.

***Xarici birbaşa investisiyaların (XBİ-nin) inkişaf etməkdə olan, o cümlədən, keçid dövrünü yaşayan iqtisadiyyatların inkişaf prosesində çox mühüm rol oynaması danılmazdır. Nəticədə, inkişaf etmək üçün xarici kapitala güclü ehtiyac hiss edən bu iqtisadiyyatların hökumətləri XBİ əldə etməyə çalışır. Mərkəzi Asiya və Qafqazda keçid dövrünü yaşayan iqtisadiyyatlardan bəzilərinin xarici investorlar üçün çox cəlbedici olan böyük neft, qaz və mineral yataqlarına malik olduğu halda, digərlərinin bu baxımdan bəxti elə də gətirməyib və öz pərvazlanan sənaye və xidmət sektorlarına XBİ cəlb etməkdə daha çox çətinliklər çəkir. Lakin, təbii ehtiyatlar sarıdan bəxti gətirmiş ölkələrin belə, öz iqtisadiyyatlarını həmin ehtiyatların asılılığından çıxarmaq üçün şaxələnməyə, güclü və gəlirli istehsal sənayeləri və xidmətləri qurmağa böyük ehtiyacları var. XBİ bu prosesdə əsas katalizator rolunu oynaya bilər.***

Mənbə: Mərkəzi Asiya və Qafqaz iqtisadiyyatlarında xarici birbaşa investisiyalar: siyasətlər və problemlər.

Neft, qaz və digər ehtiyatlardan toplanan pulların hökumətin maliyyə vəsaitlərinin cari artımını təmin etməsinə baxmayaraq, iş yerlərinin açılması və alıcılıq qabiliyyətinin artması məhdud qalmaqda davam edə bilər. Üstəlik, bu şaxələnməmiş iqtisadiyyatlar neft və digər təbii ehtiyatlardan asılı olduğuna görə, bazar qiymətlərindəki təbəddülatlara qarşı çox həssasdır. Rusiyanın neft və qaz ehtiyatları əhəmiyyətli milli sərvət olsa da və beynəlxalq səhnədə onun güclü iqtisadi mövqeyini təmin etsə də, Rusiya hələ də əksər Şərqi Avropa ölkələrindən adambaşına düşən ÜDM göstəricisinə görə geridədir və təbii ehtiyatlar üzərində qurulmuş sənaye sahələrindən fərqli sahələr nisbətən məhdud XBİ axınını cəlb edir. Rusiya Federasiyasının Maliyyə nazirinin birinci müavini Sergey Şatalovun 2005-ci ildə keçirilmiş Ümumdünya İqtisadi Forumda dediyi kimi, «Rusiya təkcə öz təbii ehtiyatlarına güvənməməlidir, həm də özünün digər rəqabətətdavamlı üstünlüklərini kapitallaşdırmaq üçün daha böyük şəffaflıq təmin etməlidir. Hökumət xüsusilə də bank sektoru və neft pullarının necə idarə edilməsi haqqında hələ də bir sıra mühüm qərarlar qəbul etməlidir»[3]

İqtisadçılar XBİ inkişafı prosesini ənənəvi olaraq belə təsvir edirlər ki, iqtisadiyyatlar təbii ehtiyatların təminatçıları kimi fəaliyyətə başlayır, sonra isə xarici investorlarla əlaqələr və infrastruktur qurulduqca, onlar əməkyönümlü sənaye və istehsalat məkanlarına çevrilir. Ölkələr texnologiyalar əldə etdikcə və məvacibləri qaldırdıqca, tədricən xidmət sahələrinə və daha çox kapitalyönümlü məqsədlərə doğru irəliləyir. Zəngin təbii ehtiyatlara malik olan dövlətlər onlara bu təkamül tsiklində hərəkət etmək imkanı verən siyasətlər çərçivəsini işləyib hazırlamalıdır.

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) öz iqtisadiyyatının genişləndirilməsində MDB və Mərkəzi Asiya dövlətləri üçün maraqlı nümunə ola bilər. Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat və Planlaşdırma naziri əlahəzrət Şeyx Lubna Al Qasımi bildirir ki, neft dövlətləri 9 sentyabr hadisələrindən bəri yeni bir yanaşma tətbiq etmişlər; Körfəz dövlətləri həmin zamandan etibarən öz neft gəlirlərini investisiyalar şəklində ABŞ-a deyil, öz ölkələrinə yatırmağa başladılar və eyni zamanda iqtisadiyyatı şüurlu surətdə şaxələndirmək qərarına gəldilər. Nəticədə, BƏƏ-nin ÜDM-inin 60 faizi qeyri-neft sektorundan toplanır. BƏƏ həmçinin Orta Şərqdəki digər ölkələrlə sərbəst ticarət razılaşmaları əldə etmiş və beləliklə də, kiçik, neftlə zəngin bir dövlət bütün dünyada böyük investisiyalar yatırmışdır, o cümlədən, bu yaxınlarda onun British Airways hava limanı şirkətində səhmdar mövqeyi də əhəmiyyətli surətdə yüksəlmişdir. Əl Qasıminin dediyi kimi, «Neft insanlar üçün iş yerləri yaratmır».

MƏTN BLOKU 3.3

## Qazaxıstanın şaxələnmə səyləri

2003-2004-cü illərdə Qazaxıstana xalis XBİ axınları iki dəfə artdı. Neft qiymətlərinin rekord səviyyələrə qədər artdığı 2005 və 2006-cı illərdə XBİ axınlarını ifadə edən rəqəmlər başgicəlləndirici həddə çatdı. Qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsinin zəruri olduğunu başa düşən Qazaxıstan iqtisadiyyatın şaxələndirilməsi üzrə milli siyasət yürütməyə başladı.

Hökumət qeyri-hasilat sektorlarını inkişaf etdirməklə iqtisadiyyatın şaxələnməsi istiqamətində səylərini intensivləşdirmişdir. Sənaye-Yenilikçi İnkişaf Strategiyasının məqsədi rəqabətədavamlı iqtisadiyyat kontekstində prioritet sahə kimi qeyri-hasilat sektorlarının inkişaf etdirilməsidir. Müfəssəl tədqiqatlar nəticəsində yeddi prioritet sahə müəyyən edilmişdir: turizm, neft və qaz mühəndisliyi, ərzaq, tekstil məhsullar, maddi-texniki təchizat xidmətləri, metallurgiya və tikinti materialları. Bu sahələrin hasilat sektorlarından fərqli sənaye bazalarının inkişafına kömək etməsi gözlənilir. Bu strategiyanı dəstəkləyən dövlət fondları bu məqsədlə 24 layihə müəyyənləşdirmişdir, əlavə 350 layihə isə nəzərdən keçirilir. Hökumətin ərzaq sənayelərini dəstəkləmək cəhdləri kənd təsərrüfatı və aqro-sənaye sahələrini ÜTT-yə daxil olma perspektivləri nəzərə alınmaqla hazırlamağa kömək edəcək; eyni zamanda qeyri-neft sənayelərinin inkişafı üçün yararlı mühitin təmin edilməsi məqsədilə hökumət tərəfindən infrastrukturun inkişafına investisiyalar nəzərdə tutulur.

Hökumətin başlıca inkişaf səylərinə həmçinin biznes əməliyyatları üçün hər şeydən əvvəl, inzibati prosedurların sadələşdirilməsi ilə KOM-lar üçün əlverişli mühitin inkişaf etdirilməsi və KOM-ların biznes sahələrinin maliyyələşdirilməsinə kömək etmək üçün kiçik biznesin inkişafı üzrə fondun yaradılması da daxildir.

İqtisadi şaxələnmə istiqamətində səylər göstərməklə bərabər, hökumət eyni zamanda kənd ərazilərini dəstəkləməklə mütənasib və hərtərəfli inkişafın təmin edilməsinə çalışır. Kənd əhalisinin maliyyə dəstəklənməsi üzrə prioritet proqramlar da hazırlanmaqdadır.

Növbəti üç il ərzində iqtisadi perspektivlər müsbətdir. İqtisadi şaxələnmə iqtisadiyyata kənar zərbələrin təsirinin azaldılması üçün prioritet istiqamət olaraq qalır və Sənaye- Yenilikçi İnkişaf Strategiyasının qeyri-neft sektorunun daha böyük inkişafında əhəmiyyətli rol oynacayağı gözlənilir. Bununla belə, orta müddət ərzində neft və qaz sektoru iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi olaraq qalacaq və bu prosesdə xidmətlər, tikinti və istehsalat sahələri yardımçı rol oynamaqda davam edəcək.

**Mənbə: Asiyanın İnkişaf Perspektivləri 2005-ci il, Asiya İnkişaf Bankı.**

# *Güclü makro-iqtisadi mühitin yaradılması*

Güclü makro-iqtisadi mühitin yaradılması və iqtisadi artımın stimullaşdırılması üçün hər bir ATƏT iqtisadiyyatında müvəffəqiyyətli olacaq vahid siyasəti təsvir etmək çətindir. Buna baxmayaraq, Türkiyə, Qazaxıstan və Şərqi Avropa ölkələri kimi keçid dövrünü yaşayan bir sıra ATƏT iqtisadiyyatlarının ən yaxşı təcrübələrinə əsaslanaraq, Vəsaitdə hələ də makro-iqtisadi sabitliyə nail olmamış dövlətlər üçün müəyyən ümumi direktivlər göstərilir. Onu da qeyd etmək lazımdır ki, bu siyasətlər sözü gedən hər bir ölkəyə uyğun olaraq şərh edilməli və onun şəraitlərinə uyğunlaşdırılmalıdır. Əlverişli biznes və investisiya mühiti üçün ən güclü şəraitlərin yaradılmasına aparan yolu göstərmək məqsədilə, Vəsaitdə açıq və şaxələnmiş iqtisadiyyatları əks etdirən aşağıdakı makro-iqtisadi siyasətlər təklif olunur.

- *Hökumətin orta müddətli iqtisadi strategiyasının işlənib hazırlanması.* Orta müddətli iqtisadi strategiyanın işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Strategiyanın sənədləşdirilməsi investorların və maliyyə bazarlarının sabitlik hisslərini artırır. Müxtəlif iqtisadi və maliyyə məsələlərinin diqqətlə nəzərdən keçirilməsi nəticəsində düzgün işlənib hazırlanmış strategiya cari siyasi vəziyyətlərə cavab olaraq deyil, milli məqsədlərə cavab verən siyasətlərinin həyata keçirilməsinə gətirib çıxarır.

- *İntizamlı vergi-büdcə siyasəti.* Digər məsələlərlə bərabər dəyişkən vergi dərəcələrinə gətirib çıxaran təbəddülatlı vergi siyasəti həm xarici, həm də yerli investorların planlarını puç edir. Böyük borclar ehtimalı beynəlxalq maliyyə təsisatlarını narahat edir. Nəzarətli hökumət xərcləri, rəqabətədavamlı vergi dərəcələri, həmçinin sadə və sabit vergi sistemi XBİ və KOM-ların inkişafını dəstəkləyir.

- *Beynəlxalq ticarətin siyasi dəstəklənməsi.* Liberal ticarət siyasəti böyük əhəmiyyət daşıyır, çünki bu siyasət KOM-ların bazara giriş imkanlarını genişləndirir və digər regional bazarlara investisiya yatırmaq arzusunda olan investorları cəlb edir. Bundan əlavə, mühafizəkar imici investorları ruhdan salır. Güclü ticarət siyasəti tərəfindən dəstəklənmək dedikdə, ikitərəfli və regional sərbəst ticarət müqavilələrinin imzalanması, beynəlxalq normalara uyğun olaraq mümkün olan ən aşağı ÜƏŞ (Üstün Əlverişli Şəraitlər rejiminin tətbiq edildiyi dövlət) tarifləri, ÜTT-yə daxil olma, ticarətdə xarici valyutanın məhdudiyyətsiz istifadəsi, həmçinin korrupsiyaya uğramamış və funksional gömrük sistemi nəzərdə tutulur.

- *Beynəlxalq kapital bazarı axınlarının asanlaşdırılması.* Pul-kredit siyasəti yolu ilə makro-iqtisadiyyatı «idarə etmək» meylləri müşahidə oluna bilər. Mərkəzi Bankın ixtiyarında bir sıra «təsir mexanizmləri»nin olmasına baxmayaraq, o, təkbaşına əlverişli makro-iqtisadi mühiti yarada, istiqamətləndirə və ya idarə edə bilməz. Həmin mühitin yaradılması üçün özəl sektorun buxovları açılmalıdır. Hökumətlər valyutanın konversiya qabiliyyətini, sərbəst dəyişən valyuta məzənnələrini və aşağı bank faizi dərəcələrini dəstəkləyən siyasətlər yürüdərək bazara beynəlxalq kapital axınını yüngülləşdirərək əlverişli mühitin yaranmasına kömək etmiş olurlar.

# *Nəticələr və tövsiyələr*

İnvestorlar və sahibkarlar imkanlar axtarırlar. Artım və sabitlik nümayiş etdirən iqtisadiyyatlar ən yüksək imkanlar təklif edərək ən yüksək investisiyaları cəlb edir. Hökumətlər aşağıdakı üsullarla biznes üçün geniş imkanlar təmin edən struktur yarada bilər:

- *Makro-iqtisadi siyasətin iqtisadi artıma doğru istiqamətləndirilməsi.* ÜDM-nin artımı korporativ investorlar üçün zəruri göstərici olaraq investisiya potensialını yüksəldir.

- *İqtisadiyyatın açılması.* Açıq tipli iqtisadiyyatlar müvəffəqiyyət əldə etmək üçün ən yaxşı şanslara malikdirlər. Ticarətin liberallaşmasını, sərbəst kapital axınını və işçilərin sərbəst hərəkət etməsini dəstəkləyən siyasətlər iqtisadi fəaliyyətə təkan verir.

- *İqtisadiyyatın şaxələndirilməsi.* Tamamilə hasilat sənayelərinə güvənmə iqtisadiyyatın xam mal qiymətlərində baş verən dəyişikliklərə qarşı həssas olmasına və iş yerlərinin yaradılması prosesinin dayanmasına gətirib çıxarır.

- *Strategiyanın yaradılması.* Ortamüddətli strategiyanın işlənib hazırlanması biznes sahələrinin öz fəaliyyətlərini planlaşdırmasını asanlaşdırır. Daha yüksək şəffaflığın yaranması isə investorlara və digər əhəmiyyətli subyektlərə müsbət siqnallar göndərir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

World Economic Forum: <www.weforum.org>

Deutsche Bank Research: <www.dbresearch.com>

OECD Investment Compact: <www.investmentcompact.org>

"Going for Growth: The Economy of the EU", <http://europa.eu.int/comm/publications/booklets/move/40/index_en.htm>

Stability Pact for South Eastern Europe: <www.stabilitypact.org/wt2/default.asp>

## QEYDLƏR

1 Kelly D. Edmiston, Shannon Mudd, and Neven T. Valev, *Tax Structures and FDI: The Deterrent Effects of Complexity and Uncertainty,* William Davidson Institute, Working Paper no. 558 (Apr 2003), <http://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=405400>

2 Deutsche Bank Research, *Opening economies succeed,* (Nov 2005), <http://www.dbresearch.com/PROD/DBR_INTERNET_EN-PROD/PROD0000000000189232.pdf>

3 World Economic Forum, "Resource-based Economy to Sector Diversification in Russia" (18 Oct 2005), <http://www.weforum.org/site/knowledgenavigator.nsf/Content/_S15467?open&event_id=>

# *4-cü Fəsil*




# *Biznes mühitinin təkmilləşdirilməsinə yönəldilən hökumət tədbirləri və siyasətləri*

**Dövlətin iqtisadiyyatı birbaşa idarə etməsi əvəzinə özəl sektorlar arasındakı rəqabəti dəstəkləyən ümumi bir siyasət yürütməsi düzgün istiqamətdə atılmış fundamental addımdır. Şəffaf, sadə və ayrı-seçkiliyə yol verməyən vergi siyasətləri investorlar üçün cəlbedicidir, çünki formal şəkildə aşağı vergi dərəcələrinin mürəkkəb toplusu ilə müqayisədə bu siyasətlər sahibkarlara öz xərclərini və potensial gəlirlərini daha asanlıqla proqnozlaşdırmaq imkanı verir. Xarici investorlar üçün xüsusi vergi güzəştlərinin tətbiqi rəqabəti təhrif edə və yerli şirkətlərin maliyyə sağlamlığına xələl yetirə bilər. İxracat üzərinə qoyulmuş əlavə dəyər vergisi ödənişlərinin sadələşdirilməsi biznes sahələrinin nəqd pul axınları problemləri ilə üzləşməməsinə şərait yaradır. İşəgötürmə siyasətləri işə götürənlərə işçiləri nisbətən asanlıqla işə götürmək və işdən azad etmək imkanı verməklə əmək bazarının elastikliyini stimullaşdıra və biznesin inkişafını dəstəkləyə bilər. İnfrastruktura - yollara, nəqliyyat şəbəkələrinə, kommunal xidmətlərin paylaşdırılması şəbəkələrinə, su təchizatına, telekommunikasiya şəbəkələrinə, ictimai fəaliyyət və xidmətlərə, həmçinin gömrük sistemlərinə - investisiya yatırımı yerli və xarici investorlara yerli və qlobal bazarlardan hərtərəfli istifadə etmək imkanı verir. Buna oxşar olaraq, insan kapitalına - təhsilin, peşə ilə əlaqədar təlimlərin və ixtisaslaşmaların təkmilləşdirilməsi və mühafizəsinə - investisiya yatırımı ölkəni beynəlxalq baxımdan daha rəqabətədavamlı edir. Regional iqtisadi inteqrasiya, azad ticarət zonaları və investisiyalara dair razılaşmalar üzrə təcrübə onu göstərir ki, ticarət aparan tərəfdaşlar arasında əməkdaşlıq özünütəcrid və mühafizəkarlıqla müqayisədə bütün tərəflər üçün iqtisadi cəhətdən daha faydalıdır. Nəhayət, dövlət müəssisələrinin özəlləşdirilməsi və yenicə özəlləşdirilmiş şirkətlərlə qərəzsiz davranış həmin şirkətlərin müvəffəqiyyət əldə edib-etməyəcəklərinin məhz rəqabət amili ilə müəyyən edilməsi və biznes üçün bir növ ədalətli oyun meydanının təmin edilməsi ideyasına dövlətin sədaqətini nümayiş etdirir, bu da geniş müstəvidə, istehlakçıların mənafeyinə daha çox xidmət edir.**

## *Biznes mühitinin təkmilləşdirilməsi*

Özəl sektor müəssisələrinin müvəffəqiyyəti əsasən həmin müəssisələrin bazarın münasib qiymətlərlə tələb etdiyi məhsul və xidmətlər istehsal etmək və beləliklə də, gəlir əldə etmək bacarığından asılıdır. Son əlli ilin təcrübəsi onu deməyə əsas verir ki, hökumətin şikrətlərin idarəetmə sisteminə birbaşa müdaxilə etməklə və ya firmalar arasındakı rəqabəti yöndəmsiz tərzdə manipulyasiya etməklə onların müvəffəqiyyətini təmin etmək cəhdləri çox nadir hallarda optimal nəticələr verir. Bundan fərqli olaraq, əlverişli biznes mühitinin yaradılması məqsədilə yürüdülən siyasətlər firmalara müvəffəqiyyət əldə etmək üçün maksimal imkanlar təklif edən baza çərçivənin qurulmasında kömək edə bilər.

MƏTN BLOKU 4.1

**Biznes mühitinin firmalara təsiri**

Firmaların investisiya yatırımları, iş yerləri yaratmaları və inkişaf etmələri onların gözlənilən gəlirlərinə bağlı olan imkanlar və təşəbbüslərdən asılıdır. Gəlirlərə isə qiymətlər, risklər və rəqabət sahəsindəki maneələr təsir göstərir. Hökumətlər aşağıdakı üç amilin hər birinə əsaslı şəkildə təsir göstərə bilər:

- •xərclərə: tənzimləmə yükü və süründürməçilik, vergilər, korrupsiyanın səviyyəsi, infrastruktur xidmətləri, əmək bazarının tənzimlənməsi və maliyyə sistemi vasitəsilə;
- risklərə: siyasətin proqnozlaşdırıla bilməsi, mülkiyyət hüquqları və müqavilələrin həyata keçirilməsi vasitəsilə;
- rəqabət sahəsindəki maneələrə: müəssisələrin fəaliyyətə başlamasını və müflisləşməsini idarə edən normativ aktlar, rəqabət haqqında qanun, həmçinin maliyyə və infrastruktur bazarlarına giriş qaydaları ilə.

**Mənbə: Dünya Bankı.**

## *Vergi siyasəti*

Vergilər dövlət gəlirləri artımının zəruri amilidir. Gəlirlər isə, öz növbəsində, hökumətlərin həyata keçirdiyi əməliyyatların maliyyələşdirməsi və vətəndaşların təhlükəsizliyi və digər başlıca xidmətlərlin təmin edilməsi üçün vacibdir. Bununla belə, qeyri-səmərəli, ayrıseçkiliyə yol verən və həddsiz ağır vergiqoyma siyasəti və təcrübəsi vergi ödəyicilərinin vergiləri könüllü olaraq ödəməsinə maneələr törədə bilər. Bu isə vergi gəlirlərini azaldar, korrupsiya potensialını artırar və bəzi şirkətləri «kitablara salınmayan» sövdələşmələri gizlətmək üçün qeyri-şəffaf və mənfi təcrübələrə müraciət etməyə təhrik edər.

Keçid dövrünü yaşayan bir sıra iqtisadiyyatlarda vergilərin yığım prosedurları hələ də zəifdir və vergilərdən yayınmalar geniş vüsət alıb. Vergi qurumlarının əməkdaşları bazara əsaslanan vergi sisteminin idarə edilməsi üslunu öyrənməli olmuşlar. Bundan əlavə, bir sıra vergi orqanlarında optimal fəaliyyət üçün zəruri olan müasir texnologiya və infrastruktur çatışmır. Vergi nazirlikləri ilə gömrük orqanları kimi müxtəlif vergi yığan qurumlar arasında əməkdaşlıq çox vaxt zəif olur. Məhkəmə sistemindəki uyğunsuzluqlar çox vaxt vergi yığımı prosesini çətinləşdirir. Bu problemlər isə qanunlara tabe olan özəl şirkətlərin üzərinə qeyri-mütənasib yüklərin qoyulması ilə nəticələnir.1 Bundan əlavə, bu problemlər dövləti həddsiz zəruri olan gəlirdən məhrum edir.

Vergidən yayınma ilə əlaqədar riskləri və potensial cərimələrin məbləğini artırmaqla, həmçinin düzgün korporativ idarəçilik mədəniyyətini dəstəkləməklə firmaları qeyri-qanuni fəaliyyətlərdən çəkindirmək mümkündür. Lakin aydın görmək olar ki, qeyri-qənaətbəxş vergi siyasətləri və təcrübələri xarici investisiyaları uzaqlaşdırır və KOM-ların xərclərini artırmaqla, onlar üçün risk və qeyri-müəyyənlik yaratmaqla, üstəlik rəqabətə davamlılığa xələl gətirməklə onların inkişafına mane olur. Bu nöqteyinəzərdən inkişaf yönümlü vergi siyasətləri təkcə vergilərin yığımını maksimal səviyyəyə çatdırmaq deyil, həmçinin iqtisadi inkişafı dəstəkləyən biznes mühitini qoruyub saxlamağı da nəzərə almalıdır. Aşağıdakı abzaslarda ümumi vergiqoyma təcrübələri müzakirə edilir. KOM-ların inkişafı ilə əlaqədar vergi siyasətləri haqqında isə 8-ci Fəsildə ayrıca söhbət açılacaq.

Vergiqoymanın səviyyəsi investorların müəyyən bir region daxilində məhz hara investisiya yatırmaq qərarına təsir göstərə bilər. Lakin, gəlir vergisi dərəcələrinin mənfəətə yüksək təsiri siyasət kursunu müəyyənləşdirənlərdə bu dərəcələrin xarici investorların cəlb edilməsində və sahibkarların fəaliyyətinə təkan verilməsində əhəmiyyəti haqqında yanlış təsəvvürrlər yarada bilər. Üstəlik, vergi dərəcələri aydın ifadə edilmiş rəqəmlər təsiri bağışlasa da, bu təəssürat aldadıcı ola bilər, çünki, inkişaf etmiş vergiqoyma rejimləri çox vaxt hədsiz dərəcədə mürəkkəb qaydalar toplusu irəli sürür ki, bu da şirkətlərin ödəyəcəkləri vergilərin qabaqcadan müəyyən edilməsini çətinləşdirir. Nəticədə, aşağı nominal vergi dərəcələri təcrübəli biznesmenlərə ümumi vergi yükünə nisbətən daha az təsir bağışlayır. Burada belə bir əsaslı fikir də yaranır ki, investisiyalarla əlaqədar qərar qəbul edərkən, investorlar vergi dərəcələrindən daha çox baza infrastruktura, siyasi sabitliyə, həmçinin əmək xərclərinə və əmək qüvvəsinin mövcudluğuna fikir verirlər. Beləliklə də, vergilərin hər bir investorun xərclərinin çox əhəmiyyətli və real bir tərkib hissəsi olmasına baxmayaraq, iqtisadçılar xəbərdar edir ki, vergi güzəştləri «hər hansı bir ölkənin investisiya mühitindəki mənfi amilləri kompensasiya etmək üçün zəif vasitədir». [3] Bundan başqa, xarici investorları xüsusi imtiyazlarla təmin edən hədsiz dərəcədə səxavətli vergi güzəştləri KOM-lara və yerli investorlara mənfi təsir göstərə, idarəetmə xərclərini artıra, bazar məkanında saxtalaşdırmalara səbəb ola və daha böyük korrupsiyaya gətirib çıxara bilər. Bütün bunlardan aydın olur ki, mövcud korporativ vergi dərəcələrinin bütün firmalar üçün azaldılmasını nəzərdə tutan yanaşma uzun müddət üçün daha tarazlaşdırılmış və məqsədə uyğun bir siyasətdir.

*Gəlir vergilərinin sadələşdirilməsi.* Sadələşdirilmiş vergilər şirkətlər üçün bərabər fəaliyyət şəraitinin yaradılmasına, vergilərin könüllü ödənişinin təmin edilməsinə, şirkətlərin öz xərclərini qabaqcadan daha yaxşı müəyyənləşdirməsinə və daha dəqiq maliyyə planları qurmasına, o cümlədən, vergi yığımı prosesinin asanlaşdırılmasına kömək edə bilər. Ümumiyyətlə, şirkətlər arasında ayrı-seçkilik salmayan, aşağı dərəcələrin tətbiq edildiyi daha sadə və ədalətli vergi sistemi XBİ-nin cəlb edilməsi və sahibkarlığın inkişafı üçün ən düzgün zəmindir.

*Vahid gəlir vergisi dərəcələri* (Flat Tax – red.). Vergiqoymanın sadələşdirilməsi üsullarından biri vergilərin artırılmasını aradan qaldıraraq «vahid gəlir vergiləri», yəni gəlir və mənfəət vergiləri üçün vahid tarif tətbiq etməkdir.[4] Bu tədbirdən müəyyən şəraitdə və müəyyən müddət üçün istifadə edilə bilər və bu, sonralar artan vergilərə potensial qayıdış üçün bir növ müqəddimə rolunu oynaya bilər. Rusiya və Slovakiya da daxil olmaqla Şərqi Avropa ölkələrinin bir çoxu vahid gəlir vergisini müvəffəqiyyətlə tətbiq edir. Bu ölkələrdə qeyri-rəsmi iqtisadiyyatdan vergi ödəyicilərinin rəsmi iqtisadiyyata keçməsi və iqtisadi artım nəticəsində vergi gəlirləri faktiki olaraq artmışdır.

Estoniya vahid gəlir vergisi rejiminə 1994-cü ildə keçməklə Şərqi Avropada Vahid Gəlir Vergiləri Hərəkatını qəbul edən ilk ölkə olmuşdur. Vahid gəlir vergisi dedikdə, korporasiya gəlirlərinin və şəxsi gəlirlərin üzərinə vahid gəlir vergisi tarifinin qoyulması nəzərdə tutulur. Burada ideya ondan ibarətdir ki, yeni sadələşdirmə hökumət üçün fırıldaqların üstünün açılmasını və vergi ödənişindən yayınanların təqib edilməsini asanlaşdırır, həmçinin vergi ödəyicilərinin istehsalat prosesini və beləliklə də, qazanc əldə edilməsini artırmağa həvəsləndirməklə onların öz vergi öhdəliklərini qiymətləndirməsinə kömək edir, çünki bu zaman marginal (maksimal – red.) vergi dərəcələri dəyişməz qalır. Dərəcənin azaldılması, eyni zamanda, vergidən yayınmanın cəlbediciliyini azaldır. Vahid gəlir vergilərini tətbiq etdikdən sonra Estoniya vergi mədaxilləri, ÜDM və XBİ-nin artımına nail olmuşdur.

Vahid gəlir vergisi təcrübəsi həmçinin daha böyük ölkələrdə, o cümlədən Rusiyada uğurlu olmuşdur. Bu ölkədə hökumət korporativ gəlir vergisini 35 faizdən 24 faizə qədər azaltmışdır. Rusiya vahid gəlir vergisi sistemini 2001-ci ildə qəbul etmiş və elə birinci il ərzində əsas hissəsi keçmiş qanun pozucularından toplanmaqla dövlətin vergidən əldə etdiyi gəlirlər 26 faiz artmışdır. 2001-2004-cü illər ərzində Rusiyanın vergi gəlirləri ildə orta hesabla 35 faiz artmışdır. Buna bənzər uğurlu təcrübələr Litva, Latviya, Rumıniya və Slovakiyada da qazanılmışdır. Bu ölkələrin çoxunda vahid gəlir vergisi dərəcələrinin orta göstəricisi 20 faizdir, lakin onlar əlavə gəlir və XBİ cəlb edə bilmişlər. Bu isə onu göstərir ki, firmalar onlara öz ümumi vergi öhdəliklərini qabaqcadan dəqiq müəyyən etmək imkanı verən vergi sistemini formal olaraq aşağı vergi dərəcələrinin tətbiq edildiyi, lakin nəticələrin əvvəlcədən proqnozlaşdırılmasının mümkün olmadığı mürəkkəb vergi sistemindən daha üstün tuturlar.

*Təkrar yatırılan investisiyalardan çıxılan pullar.* Estoniya hökumətinin XBİ-nin cəlb edilməsi sahəsində əldə etdiyi müvəffəqiyyətlər qismən də şirkətə təkrar yatırılan investisiyaların vergiyə məruz qalmamasını nəzərdə tutan yeni siyasətin tətbiqi ilə əlaqədar olmuşdur. Ümumi vergi yükünü azaltmaqla yanaşı, bu siyasət şirkətlərin öz bizneslərini genişləndirməsi və yeni iş yerləri yaratması üçün müsbət motivasiyanı təmin edir.

*Əlavə dəyər vergisi ödənişləri.* Bir sıra satış vergi sistemlərində əvvəlcə xam maldan vergi tutulur, sonra isə bu xam maldan istehsal olunan yekun məhsuldan yenidən vergi tutulur. Bu isə kaskad effektli çoxqatlı vergilərə gətirib çıxarır. Əlavə dəyər vergisi (ƏDV) çoxqatlı vergi problemindən qaçmaq imkanı verir. ƏDV sonda məhsul və ya xidmətlərin son istehlakçısından tutulur. Bu vergi hər alış-satış mərhələsində toplanır, lakin əvvəlki alışlar zamanı ödənilmiş vergilər üçün təzminatlar təmin edilir.

ƏDV üzrə yerli qeydiyyatdan keçmiş şirkətlərin öz təchizatçılarına ödədikləri ƏDV-nin əvəzini tələb etmək hüquqları var. Şirkətlərin vergi orqanlarına müntəzəm olaraq ödəməli olduğu məbləğ təchizatçılara ödənilən ƏDV məbləğlərindən («istehsalat xərclərinə sərf edilən vergi»dən) müştərilərdən tutulan məbləğlərin («məhsulun satışı zamanı göstərilən əlavə dəyər vergisi»nin) çıxılmasından sonra qalan artıq məbləğdir. Xarici şirkətlər ümumiyyətlə alış zamanı ödənilən ƏDV ödənişlərini geri ala bilər ki, bunlara görə ƏDV üzrə qeydiyyatdan keçmiş biznes sahələri öz yerli ƏDV gəlirlərindən istehsalat xərclərinə sərf edilən vergi çıxarışlarını tələb edə bilər. Əgər xarici biznes strukturları üçün bu cür imkanlar olmazsa ƏDV sistemi ayrı-seçkiliyə yol verən və beləliklə də, beynəlxalq ticarət müqavilələrini pozan bir sistem hesab edilər. Bundan əlavə, ölkədən ixrac edilən məhsullara görə ödənilən ƏDV adətən geri qaytarılır. [5]

Bəzi ATƏT ölkələrində xarici investorlar və ixracatçılar ƏDV ödənişlərinin geri alınması ilə əlaqədar böyük çətinliklərin olduğunu bildirirlər. Bəzən geri qaytarılmayan ƏDV digər vergilər hesabına kompensasiya edilə bilir. Lakin çox vaxt vergi ödəyicisi «digər vergilər hesabına kompensasiya edə bilmir, çünki ƏDV ödənişi digər vergilərdən yüksəkdir»[6] Bəzi hallarda bu çətinliklər bir məsələdən törəyir ki, qanunvericilikdə ƏDV-nin geri qaytarılmasının nəzərdə tutulmasına baxmayaraq, bu prosedurun praktik aspektlərini ifadə edən heç bir qanun və ya normativ akt yoxdur. Digər hallarda, ƏDV-nin qaytarılması qarşısında duran əsas maneə ondan ibarət olur ki, ölkə rəhbərliyi əslində özündə saxlamaq hüququ olmadığı «gəlirləri» qaytarmaq arzusunda olmur.[7] Xarici investisiya cəlb etmək və onu ölkədə saxlamaq, həmçinin öz daxili ixracat biznesini inkişaf etdirmək arzusunda olan ölkələr ƏDV kompensasiyasını tez və dəqiq təmin etmək üçün addımlar atmalıdır.

Elektron sənədləşdirmə. Vergi bəyannaməsinin doldurulması ilə əlaqədar bir sıra yubatmalar və səmərəsiz nəticələr İnternet əsaslı elektron sənədləşdirmə ilə azaldıla bilər. Xorvatiya Respublikası e-Reqos[8] adlı yeni elektron sənədləşdirmə xidmətini tətbiq etməklə bu baxımdan mütərəqqi addım atmışdır. Bu xidmət sayəsində ƏDV-nin elektron qeydiyyatı və illik gəlir vergisi bəyannamələrinin elektron doldurulması mümkün olacaq.[9]

## Gömrük sisteminin təkmilləşdirilməsi hökumətlərin müdrik investisiyasıdır

***«Gömrük idarəetməsinə dair dünya standartları ilə ayaqlaşa bilməyən ölkələr belə bir məntiqi faktla üzləşəcəklər ki, investorlar gömrük uyğunsuzluqları nəticəsində onların üzərinə qoyulan yüksək maddi-texniki təchizat xərclərini sadəcə olaraq ödəyə bilmirlər. Bu ölkələrin maliyyə nazirləri xarici birbaşa investisiyaların daha mütərəqqi gömrük idarəetməsinin tətbiq edildiyi ölkələrə miqrasiyasının şahidi olacaqlar».***

**Beynəlxalq Ticarət Palatası**

Təchizat üzərinə qoyulan yüksək tarif məzənnələri istehsal xərclərini artırır. Aşağı xərclərə malik ixracat məkanı kimi istifadə edilə bilən ölkə axtaran şirkətlərin planlarını tariflər poza bilər. Gömrük ödənişləri prosesində ləngitmələrə gətirib çıxaran idarəetmə uyğunsuzluqları istehsal tsikllərini pozur və malların bazara çatdırılmasına maneçilik törədir. Gömrük idarəetməsi korrupsiyanın ən tez-tez baş verdiyi yerlərdən biridir və korrupsiyaya uğramış gömrük təşkilatları ticarətə və investisiyalara açıq-aşkar maneələr törədən amillərdəndir.

Bir sıra ATƏT ölkələri gömrük prosedurları ilə əlaqədar problemlərlə üzləşmişdir. Bu problemləri həll etmək məqsədilə, məsələn, Litva öz gömrük prosedurunu təkmilləşdirmək və müasirləşdirmək istiqamətində böyük addımlar atmışdır. Gömrük islahatlarına aşağıdakılar daxil olmuşdur:

- ölkənin gömrük strategiyasının işlənib hazırlanması;
- malların dəyərləndirilməsi və təsnif edilməsi, həmçinin müvafiq tarif və rüsumların tətbiqini təmin edən ümumi tarif idarəetmə sisteminin qurulması;
- digər milli gömrük orqanları, xüsusilə də, Baltik Dənizi ölkələrinin sərhədlərində gömrük bəyanatı üçün tələb olunan müddəti iki saata qədər və ya daha çox qısaltmaq məqsədini qarşısına qoymuş Şimali Avropa ölkələri ilə əməkdaşlığın qurulması;
- sənaye və əqli mülkiyyətin mühafizəsi kimi mürəkkəb məsələlərdə kömək göstərmək üçün müxtəlif mal təsnifatları üzrə ixtisaslaşmış mütəxəssislərin işə götürülməsi;
- Finlandiya ilə ikitərəfli layihənin həyata keçirilməsi;
- gömrük əməkdaşları üçün etika qaydalarının işlənib hazırlanması.

Gömrük orqanlarında korrupsiya gömrük idarəetməsinin ən böyük problemi deyilsə də, şübhəsiz ki, ən görünən problemidir. Macarıstan korrupsiyanın azaldılmasına gətirib çıxarmış geniş anti-korrupsiya proqramını yaratmışdır. Macar proqramında irəli sürülmüş məsələlərə aşağıdakılar daxildir:

- ştrix kodlu gömrük bəyannaməsi blankları da daxil olmaqla geniş gömrük idarəetməsi sistemi;
- gömrük heyətinin dövri dəyişməsi;
- əvvəlki iş təcrübələrinin yoxlanması, sınaq müddətinin tətbiqi və yararlılığın yoxlanması da daxil olmaqla işçi heyətin diqqətlə yoxlanılıb işə götürülməsi;
- ədalətli məvaciblər;
- etikaya dair təlimin keçirilməsi;
- qapalı sistemlər üçün video avadanlığın təchiz olunması;
- gömrük əməkdaşları üçün nəqd pulun qəbuluna və şəxsi mobil telefonlardan istifadəyə dair qaydalar;
- davranış kodeksi.

**Mənbələr: BMT İP Litva və Macarıstanın Gömrük və Maliyyə Mühafizəsi əməkdaşı Yanoş Neqinin «Gömrük sistemində korrupsiyaya qarşı mübarizə» başlıqlı təqdimatı.**

# *İşlə təminetmə siyasəti və əmək bazarının elastikliyi*

Əmək bazarının elastikliyi insan kapitalından maksimum istifadənin təmin edilməsi üçün zəruridir. Dünya Bankı üçün son vaxtlar aparılmış bir tədqiqatda belə qənaətə gəlinir ki, «sahib iqtisadiyyatın (investoru qəbul edən ölkə - red.) əmək bazarı investorun öz ölkəsi ilə müqayisədə nə qədər elastik olarsa investisiyanın həmin sahib ölkəyə yatırılması ehtimalı da bir o qədər böyük olar».[10]

Elastik əmək bazarının mövcudluğu xüsusilə də özəlləşdirmə siyasətini yürüdən ölkələr üçün əhəmiyyətlidir. Dövlət müəssisələrini satınalan şirkətlər çox vaxt müəssisəni daha səmərəli və gəlirli etmək üçün işçilərin sayını azaldır. İş yerlərini itirmişləri yeni işlə təmin etmək üçün elastik əmək bazarına ehtiyac var. Şirkətlər natamam iş günü işləyən işçiləri, müvəqqəti işçiləri, birdən çox iş yerində işləyən işçiləri və müqavilə əsasında işləyən işçiləri işə götürmək imkanına malik olmalıdır. Əgər bu mümkün deyilsə işsizlik daha da artar və işçilər qeyri-rəsmi iqtisadiyyata üz tutarlar.

***Elastik əmək bazarının başlıca elementləri hansılardır?***

(1) Biznes ehtiyaclarına uyğun olaraq əmək qüvvəsi ilə əlaqədar qərarların qəbul edilməsində *daha çox sərbəstliyin olması* hər bir ölkənin biznes mühitinin təkmilləşdirilməsinin əhəmiyyətli tərkib hissəsidir.

Əmək bazarının elastikliyi ilə əlaqədar ağır məhdudiyyətlərin qoyulması biznes sahələrinə mənfi təsir göstərir. Öz işçi qüvvəsinin həcmini öz biznes tələbatları ilə uyğunlaşdıra bilməyən firma öz rəqabətədavamlılığını itirə bilər. Əslində, əmək xərcləri gəlirlərlə müqayisədə elə bir həddə çata bilər ki, şirkət bu xərcləri azalda bilmədiyi təqdirdə müflisləşə bilər.

Ölkələr öz işçilərini hər növ ədalətsiz istismardan və ayrı-seçkilikdən qorumalı və işlə əlaqədar zədə və ölüm hallarının baş verməsi ehtimalını azaltmaq üçün müdafiə tədbirləri görməlidir. Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1998-ci ildə qəbul edilmiş İşdə Fundamental Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsinin,[11] həyata keçirilməsi bu istiqamətdə mükəmməl başlanğıc nöqtəsi hesab edilə bilər. Bəyannamə BƏT-in bir sıra konvensiyalarında əksini tapan başlıca əmək prinsiplərini əhatə edir.

ATƏT-in keçid dövrünü yaşayan iqtisadiyyatlarına yaxşı təlim və təhsil keçmiş işçi qüvvəsinin mövcudluğu xasdır. Bu onların investisiya cəlb etmək üçün ən əsas rəqabətədavamlı üstünlüklərindən biridir. Lakin ağlabatan maaşla işçi qüvvəsindən tam istifadə etmək imkanını vermək üçün hökumətlər işçilərin işdən azad edilməsi, həmçinin elastik iş müqavilələrindən istifadə ilə əlaqədar sərt məhdudiyyətlər, müqavilələrin bitməsi haqqında uzun-uzadı bildiriş tələbləri və işdən çıxarma ilə əlaqədar böyük icbari ödənişlər tətbiq etməklə investorları uzaqlaşdıra bilər. Ölkələr arasındakı iqtisadi, sosial, mədəni və tarixi fərqlər müəyyən islahatların tətbiqini bəzi ölkələrə nisbətən digərlərində daha məqsədəuyğun edir.

(2) *İşçilərin iş saatından əlavə saatlar işləmək imkanları.* Bir sıra hökumətlər hər bir işçinin həftə ərzində işləyə bildiyi saatların sayı ilə əlaqədar sərt məhdudiyyətlər tətbiq edir. Bu məhdudiyyətlər çox vaxt müxtəlif sənaye sahələrində fərqli olur və şirkətin məhsuldarlığını məhdudlaşdıra bilər. Bundan əlavə bir çox işçilər əlavə saatlar işləyərək əlavə pul qazanmaq istəyirlər. Həm işçiləri, həm də işəgötürənləri razı salmaq üçün qanunvericilik işəgötürənlərin öz işçilərini əlavə işləməyə məcbur etməsini qadağan edə bilər, lakin əlavə iş görülən saatlar üçün «bir tam onda beş» (adi saatlıq məvacibdən əlli faiz çox) sistemi ilə əlavə icbari kompensasiya müqabilində işçilərin könüllü surətdə əlavə işləməsinə icazə verə bilər. Bu cür qanunlar şirkətlərə ədalətli sövdələşmə ilə öz işçi qüvvələrindən daha elastik şəkildə istifadə imkanı verir. Bu cür elastiklik xüsusilə də fəaliyyət meydanında davam gətirə bilmək üçün çox effektiv fəaliyyt göstərməli olan KOM-lar üçün mühüm əhəmiyyət kəsb edir.

(3) *Sosial müdafiə və işsizlik fonduna məqsədəuyğun vergilər.* Keçid dövrünü yaşayan ATƏT iqtisadiyyatlarının bir çoxunda işçilər üzərinə qoyulan vergi yükü işçi məvacibinin 50 faizi həcmində və ya daha çox ola bilər. 2004-cü ildə Bolqarıstanda USAID Əmək Bazarı Layihəsinin hazırladığı hesabatda göstərilirdi ki, bolqar şirkətləri xarici şirkətlərə nisbətən yüksək sosial vergilərdən daha çox əziyyət çəkir. Yerli biznes qurumları qeyd etmişdilər ki, onlar beynəlxalq rəqiblər və qeyri-rəsmi iqtisadiyyat arasında sıxılırlar. Hesabat belə yekunlaşırdı ki, yüksək sosial vergilər məvacibləri aşağı salır, şirkətləri əmək və vergi qaydalarına tam riayət etməməyə vadar edir. Məvaciblər fondunun 35-40 faizinin ödənilməsi (sosial müdafiə fonduna – red.) şirkətlərin xeyrinə olardı (50%-dən az olaraq – red.) və ATƏT ölkələrini daha inkişaf etmiş Avropa iqtisadiyyatlarına xas olan orta rəqəmlərə yaxınlaşdırardı. Vergi dərəcələrinin aşağı salınması şirkətlərin gəlirini artırır, onların məqsədəuyğun vergilər ödəmək həvəsini gücləndirir və qeyri-rəsmi

iqtisadiyyatdan rəsmi uqtisadiyyata keçidi təşviq edir. Beləliklə vergi dərəcələrinin azalması nəticəndə yarana bilən büdcə gəlirlərinin azalması kompensasiya edilir.

(4) *Müqavilə əsasında, natamam iş günü ilə və müvəqqəti işləyən işçilərin işə götürülməsi azadlığı.* Biznes sahələri çox vaxt fəsillər və ya layihələrlə əlaqədar olaraq işçilərə ehtiyac duyurlar. Onlar həmin konkret ehtiyacları ödəmək məqsədilə işçilər qəbul etmək imkanına malik olmalıdır. İşçiləri tam iş günü hesabı ilə işə götürmək tələbi ya şirkətlər tərəfindən işçilərin sayının azaldılmasına və ya onların rentabelliyinin enməsinə səbəb olur və bunun nəticəsi olaraq şirkələr ya daha az vergi ödəyir, ya da ümumiyyətlə müflisləşir.

(5) *Peşə təlimləri ilə əlaqədar məqsədəuyğun öhdəliklər.* İşçilərin öz işlərini tələb olunan səviyyədə görməsi və milli işçi qüvvəsinin ümumi cəlbediciliyinin artması üçün praktik tədbir olaraq işə götürənlərdən peşə təlimlərinin təşkili tələb edilə bilər. Bu cür tələblər şirkətin ümumi məhsuldarlığına və gəlirliliyinə mənfi təsir göstərəcək dərəcədə ağır olmamalıdır.

# *ATƏT-ə üzv ölkələrin əmək bazarlarında aparılan islahatlar*

Portuqaliya 2003-cü ildə öz əmək məcəlləsində dəyişiklik etmişdir və KPMG beynəlxalq konsaltinq şirkətinin sorğusunda iştirak edən şirkətlərin 55 faizi bu fikirdə idi ki, həmin dəyişikliklər Portuqaliyanı daha cəlbedici investisiya məkanına çevirəcək. Şirkətlərin yeni əmək məcəlləsindən gözlədikləri üç ən vacib nəticə aşağıdakılar idi:

- iş saatlarının elastikliyi ilə əlaqədar təkmilləşdirmələr;
- işçilərin xəstəliyə görə məzuniyyət haqqlarının təmin edilməsinə daha güclü nəzarət;
- icbari peşə təlimi.

Öz iqtisadiyyatını yenidən qurduqdan sonra Slovakiyada işsizlik baş alıb gedirdi; ölkə işsizliyə görə Avropada ilkin yerlərdən birini tuturdu. Lakin son vaxtlar XBİ-nin cəlb edilməsi və yeni əmək məcəlləsinin tətbiqi nəticəsində son iki ildə işsizlik göstəricisi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. 2001 və 2003-cü illərdə Slovakiya öz əmək məcəlləsində əsaslı dəyişikliklər etdi və beləliklə də, dünyada ən elastik əmək bazarlarından birini yaratmış oldu. 2004-cü ildə Dünya Bankının Biznesin Qurulması hesabatında bu ölkə ən böyük islahatçı adlandırılmışdı.

Slovakiyanın islahatlarına aşağıdakılar daxil idi:

- əmək müqavilələrində natamam iş gününü qadağan edən rejimdən qadınlar, tələbələr və təqaüdçülər üçün buna icazə verən rejimə keçid;
- müəyyən müddətə bağlanmış müqavilələrin vaxtının uzadılmasına icazə verilməsi;
- il ərzində icazə verilən əlavə iş saatlarının say limitinin işçinin razılığı ilə 150-dən 400-ə qədər artırılması;
- işçinin işdən azad edilməsi üçün həmkarlar ittifaqının razılıq verməsi tələbinin aradan qaldırılması;
- işçinin işdən azad edilməsindən əvvəl təkrar təlim keçirilməsi tələbinin aradan qaldırılması;
- qrup halında işdən azad etmələrlə əlaqədar həmkarlar ittifaqının razılıq verməsi tələbinin ittifaqa bildiriş verilməsi tələbi ilə əvəz edilməsi.

# *İnfrastruktura investisiya yatırımı*

***«Rumıniyada investorların qarşısında duran ən böyük maneə artıq biznes mühiti deyil, infrastrukturdur».***

Rumıniyanın Xarici İnvestisiyalar Təşkilatının keçmiş direktoru.

Hər hansı bir ölkə infrastrukturunun (yollar, nəqliyyat şəbəkələri, kommunal xidmətlərin göstərilməsi şəbəkələri, su təchizatı, telekommunikasiya şəbəkələri, ictimai əmək və xidmətləri, gömrük sistemi və təhsil sistemi) keyfiyyəti xarici investisiyaların cəlb edilməsi və KOM-ların fəaliyyətə başlaması üçün mühüm əhəmiyyət kəsb edir. İƏİT-in qeyd etdiyi kimi, «Qənaətbəxş fəaliyyət göstərən infrastruktur müəssisələri öz müştəriləri və təchizatçıları ilə əməkdaşlıq şəraitində investisiyalar cəlb edir və əslində bazarın həcmini genişləndirir».[13] Bu fikir Vəsaitin hazırlanması prosesində aparılmış sorğuya verilən cavablarla üst-üstə düşür. Bu cavabların bəzilərində qeyd edilmişdi ki, infrastruktura - həmçinin, elm və sənaye parkları da daxil olmaqla - investisiya qoyuluşu müəyyən ərazilərdə iqtisadi inkişafın uğurla genişləndirilməsinə gətirib çıxarır. Nəqliyyat və kommunal xidmətlər infrastrukturu güman ki, iki ən mühüm komponentdir, çünki investorlar öz əməliyyatlarında müxtəlif təchizatlardan istifadə edə və məhsullarını bazara tez və səmərəli şəkildə çatdıra bilməlidirlər.

Eyni zamanda kommunal xidmətlərə giriş və sabit qiymətlərlə sabit enerji təminatı da əhəmiyyətli amillərdir. Əgər investorlar öz obyektlərinin başlıca kommunal xidmətlərlə bağlanmasına qədər bir neçə ay gözləməli olsalar, onların investisiyalarının gəlirliliyi əhəmiyyətli dərəcədə aşağı düşəcək. Həmçinin elektrik enerjisi şəbəkəsi də sabit fəaliyyət göstərməlidir. İşdə cəmi bir planlaşdırılmamış fasilə yüksək kalibrli (dəqiqliyi olan – red.) maşınlar/ mexanizmlər istifadə edən müəyyən istehsalçılara çox baha başa gələ bilər.

İnfrastrukturun təkmilləşdirilməsinin nəticləri ilə əlaqədar son vaxtlar aparılmış iqtisadi tədqiqat nəticəsində bu fikrə gəlmək olar:

***Effektiv fiziki infrastruktur şəraitlərinin təmin edilməsi üçün hökumətlərin yatırdığı investisiyalar xarici investorların yatırdığı ümumi investisiyaların dəyərini optimallaşdırmaqla və beləliklə də, gəlir əmsalını artırmaqla XBİ üçün əlverişli mühit yaradır. Çoxmilli müəssisələr (ÇMM-lər) özlərinin qlobal, regional və ya milli bazarlarını təmin etmək məqsədi ilə investisiyalarını yerləşdirərək infrastruktur şəraitin mövcudluğuna qarşı xüsusilə həssas ola bilərlər, çünki bu investisiyalar öz təbiəti etibarilə maksimal səmərəliliyə yönümlüdür.***[14]

Yüksək keyfiyyətli infrastruktur investor və sahibkarların bazara giriş xərclərini azaldır, ixracatın inkişafını asanlaşdırır, əmək və torpaq ilə əlaqədar oxşar daxili xərcləri təklif edən, lakin az inkişaf etmiş infrastruktura malik digər məkanlara nisbətən rəqabətədavamlı üstünlüyü təmin edir. Ukrayna və Rumıniya kimi Aİ ilə həmsərhəd ölkələrdə xərclərin az olduğu istehsalatın və məhsulların Aİ ölkələrinə satılmasının təmin edilməsi arzusu Ukrayna misalında Polşa sərhədi boyunca, Rumıniya misalında isə Macarıstan sərhədi boyunca infrastrukturun inkişafına təkan vermişdir.

Yuxarıda istinad edilmiş infrastruktur tədqiqatında iqtisadi inkişafın dəstəklənməsinin praktik vasitəsi olaraq hökumətlərə xüsusi investisiya güzəştlərini nəzərdə tutan infrastrukturun təkmilləşdirilməsi siyasətinin yürüdülməsi məsləhət görülür:

Bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin hökumətləri investisiya güzəştləri tətbiq etməklə ÇMM-ləri cəlb etmək üçün bir-biri ilə siyasət rəqabətinə girişiblər. İnkişaf etmiş ölkələr əhəmiyyətli vergi güzəştləri təklif edə bildiyindən, bu investisiya güzəştləri XBİ modellərinin təhrifinə gətirib çıxara bilər. İnvestisiya güzəştləri təklif etməklə inkişaf etmiş ölkələrlə rəqabət burulğanına girmək əvəzinə inkişaf etməkdə olan ölkələrin hökumətləri diqqəti öz ölkələrinin fiziki infrastrukturunun təkmilləşdirilməsinə yönəltsələr daha çox fayda əldə etmiş olar. Bu, həm yerli, həm də xarici investorların səfərbər edilməsinə və onların inkişaf etməsi prosesini sürətləndirməyə kömək edər.

Həyata keçiriləsi infrastruktur layihələrinin sayı hökumətin maliyyə ehtiyatlarından, infrastrukturun vəziyyətindən və investisiyaların əvəzinin çıxacağı ehtimalından asılıdır. İƏİT XİS-nin (Xarici İnvestisiyalar üçün Siyasi şərait) qeyd etdiyi kimi, «Bunun üçün, xərclər-gəlirlər təhlillərini və maliyyə hesabatlarını aparmaq bacarığı, bu təhlillərin nəticələrinə böyük əhəmiyyət verən düzgün qərarların qəbul edilməsini və sosial baxımdan qəbul edilə bilən rəqabətli maraqların nisbətini saxlayan işləng proses və eyni zamanda yeni infrastruktur investisiyalarının cəlb olunmasının təşkili üçün səmərəli fəaliyyət göstərən orqanlar tələb olunur».

Əlavə infrastruktur inkişaf etdirmək imkanına malik olmayan ölkələr dövlət-özəl tərəfdaşlıqları variantını nəzərdən keçirə bilər. Dövlət və özəl müəssisələrin tərəfdaşlıqları (DÖMT-lar) hökumətlərə infrastruktura investisiya yatırımı layihələrini maliyyələşdirmək imkanı verən mükəmməl bir üsuldur. Özəl müəssisə birbaşa maliyyələşdirməni, hökumət isə özəl sektordakı tərəfdaşını kredit ödənişi, istiqrazlar və ya konsessiyalar kimi mexanizmlərlə təmin edir. Bundan əlavə, müvəffəqiyyətli DÖMT-lar - məmnun qalan investorlar, təkmilləşmiş infrastruktur və şəffaflığa, ədalətliliyə və güclü maliyyə idarəetməsinə əsaslanan sövdələşmələr - digər investorları da cəlb edir.

DÖMT-lar üzrə təcrübəsi az olan hökumətlər xüsusi idarəetmə texnikalarını öyrənməlidir, çünki DÖMT-lar dövlət tədarükündən və ya maliyyə borcundan fərqli xüsusiyyətlərə malikdir.

İnfrastruktura müvəffəqiyyətli investisiya yatırımını təmin etmək üçün hökumətlər infrastrukturun təkmilləşdirilməsi ilə məşğul olan investorları xüsusi müdafiə ilə təmin etməlidir. İnvestorlar hüquqların, öhdəliklərin və mübahisələrin həlli mexanizmlərinin göstərildiyi xüsusi müqavilələrə malik olmalıdırlar. Hökumət layihə üzrə ödənişi təmin edən müstəqil zəmanət verə bilər. Müstəqil zəmanətin yerinə yetirilməsi ilə əlaqədar çətinliklərin olduğu halda AYİB, Dünya

Bankı və digər təşkilatlar müştəri hökumətin zəmanətini təsdiq edən və ya onu «dəstəkləyən» zəmanət proqramları təklif edir. XİS-ə istinad etsək, «İnfrastruktur təminatçılarının üzləşdiyi risklərin azaldılması nəticəsində investorların infrastrukturla əlaqədar əməliyyatları həyata keçirmək üçün tələb etdikləri gəlirlər də azalır».

MƏTN BLOKU 4.3

## ATƏT 2006-cı ildə nəqliyyat sahəsini diqqət mərkəzində saxlayır

ATƏT-in 14-cü İqtisadi Forumunun mövzusu «ATƏT ərazisində nəqliyyat: təhlükəsiz nəqliyyat şəbəkələri və nəqliyyatın inkişafı regional iqtisadi əməkdaşlığı və sabitliyi genişləndirir» idi. Nəqliyyat əsas iqtisadi, sosial və geosiyasi rol oynayır, bu isə onun regional əməkdaşlıq və sabitlikdə nəyə görə belə mühüm amil olmasını izah edir. Nəqliyyat milli iqtisadi və sosial inkişaf üçün əsas ilkin şərtdir.[1] Nəqliyyat infrastrukturuna investisiya qoyuluşu hər bir ölkənin iqtisadi fəaliyyətinin əhəmiyyətli hissəsini təşkil edir. Avropa Nəqliyyat Nazirləri Şurasının (ANNŞ) hesablamalarına görə, hər bir ölkədə ÜDM-nin 6-8%-i, iş yerlərinin 6%-i, dövlət investisiyalarının 40%-i və təsərrüfat xərclərinin 15%-i nəqliyyatla əlaqədar ola bilər.

Nəqliyyat beynəlxalq ticarətin inkişafının zəruri təməl daşıdır. Beynəlxalq inteqrasiya və sərhədlərdə iqtisadi və ictimai uyğunsuzluqların azaldılması üçün beynəlxalq nəqliyyat da mühüm əhəmiyyət kəsb edir. Buna görə də təhlükəsiz beynəlxalq nəqliyyat şəbəkələrinin yüngülləşdirilməsi və inkişafı bütün ölkələr üçün strateji əhəmiyyət daşıyır.[2]

Nəqliyyat iqtisadi fəaliyyətlərin düzgün həyata keçirilməsi, malların istehsalı və daşınması, həmçinin ticarət üçün zəruri amildir. Hər hansı bir sahibkarın, KOM-un, şirkətin və ya ölkənin müvəffəqiyyətlə rəqabət aparmaq, öz fəaliyyətlərini gələcəkdə davam etdirmək və milli və ya qlobal iqtisadiyyata inteqrasiya etmək qabiliyyəti təkcə onun istehsal bacarıqlarından deyil, həm də mümkün olan ən aşağı qiymətlərlə və əvvəlcədən müəyyənləşdirilə bilən şərtlərlə malları bazara çatdırmaq qabiliyyətindən asılıdır. Nəqliyyat xərcləri bazara giriş üçün böyük maneə yarada bilər. XBİ Jurnalının investisiya məkanlarını qiymətləndirərkən istinad etdiyi 28 meyardan biri nəqliyyatdır. Burada həmçinin dünyanın hər bir regionunda «ən yaxşı nəqliyyat infrastrukturu»na malik olan ərazilər də qiymətləndirilir.

Nəqliyyat infrastrukturu XBİ-nin cəlb edilməsində çox mühüm və həlledici bir amildir. Özünün biznes yönümlü mühitindən əlavə, böyük XBİ məkanı olan Sinqapur şəhəri həmçinin dünyanın ən böyük konteyner ticarət gəmiçiliyi terminallarından birini və dünyanın demək olar ki, bütün nöqtələrinə uçuşu təmin edən Çangi Hava Limanını da təklif edir. İrlandiyanın iqtisadi möcüzəsinin köməkçi amillərindən biri də Şennon Hava Limanının inkişafı olmuşdur. Korporasiyaların qərargahları, ixracat məkanları və təchizatçılar ilə nəqliyyat əlaqələrinin olması xarici investorlar üçün əhəmiyyətlidir.

KOM-lar öz məhsullarını bazara çatdırmaq üçün xərclərin aşağı olmasından bəhrələnir. Bazara çatmaq üçün az vaxtın sərf olunması təkcə əməliyyat xərclərini azaltmır, həm də az vaxt ərzində çox məhsulu çatdırmaq imkanı verir, bu isə nağd pul axınına müsbət təsir göstərir.

Əla nəqliyyat infrastrukturu xüsusilə də qapalı coğrafi şəraitlərə malik olan ölkələr üçün əhəmiyyətlidir. Dənizə giriş imkanının olmaması mükəmməl yol, dəmiryol və dəniz nəqliyyatı şəbəkəsini bazara giriş və regional inteqrasiya üçün zəruri amilə çevirir.

Öz nəqliyyat infrastrukturunun effektivliyini yüksəltmək arzusunda olan ölkələr aşağıdakı tədbirləri görə bilərlər.

- Təkmilləşdirilmiş gömrük idarəetməsi və viza sənədləşdirməsi. Uzun-uzadı gömrük və viza prosedurları sərhədləri keçmə prosesində ləngitmələrə səbəb olur və sərhədlərarası nəqliyyata və ticarətə maneələr törədir.
- İnfrastrukturun planlaşdırılması. Hökumətlər nəqliyyat infrastrukturunun orta müddətli inkişafı strategiyasını işləyib hazırlamalıdır. Düzgün hazırlanmış strategiya özəl sektora investisiya yatırımını həvəsləndirir.
- Donor maliyyələşdirməsindən maksimal istifadə. Bir sıra ölkələr nəqliyyat infrastrukturuna görə AYİB, Aİ, Dünya Bankı, Asiya İnkişaf Bankı və ya digər donorlar tərəfindən maliyyə vəsaiti ala bilir, lakin mövcud vəsaitlərdən tam istifadə etmir.
- Dövlət və özəl müəssisələrin tərəfdaşlıqlarının vacibliyinin dərk edilməsi. Düzgün idarə edilən DÖMT-lar ölkələrə dövlətin yükünü azaldaraq nəqliyyat əlaqələrini inkişaf etdirmək imkanı verir. DÖMT-ların mürəkkəbliyini başa düşmək lazımdır. AYİB nəqliyyat infrastrukturu layihələrində dövlət və özəl müəssisələrin tərəfdaşlıqlarının planlaşdırılması və inkişaf etdirilməsi sahəsində ixtisaslaşmış yardım təklif edir.

Qısaca desək, hökumətin nəqliyyat infrastrukturuna dəqiq planlaşdırılmış və maliyyələşdirilmiş investisiya yatırımı hər bir ölkənin XBİ və KOM sahələrində inkişafına təkan verir.

**1. Köməkçi Sənəd, ATƏT-in On Dördüncü İqtisadi Forumuna Birinci Hazırlıq Konfransı, «Nəqliyyatın regional iqtisadi əməkdaşlığın və sabitliyin genişləndirilməsində rolu», Düşənbə, Tacikistan, 7-8 noyabr, 2005-ci il.**
**2. Eynilə**

MƏTN BLOKU 4.4

### Macarıstanın avtomagistral infrastrukturu

Macarıstanın Avropanın mərkəzində yerləşməsi bu ölkənin ən əhəmiyyətli rəqabətədavamlı üstünlüklərindən biridir. Macarıstan Avropaya açılan qapı hesab edilir: Avropanın dörd əsas nəqliyyat dəhlizi məhz buradan keçir, bu isə Budapeşt şəhərini Avropada mərkəzi nöqtə edir. Bu imkanlardan bəhrələnmək məqsədilə Macarıstan nəinki öz infrastruktur şəbəkəsini qoruyub saxlamaq, həmçinin onu genişləndirərək Avropa şəbəkəsinə inteqrasiyasını təkmilləşdirmək qərarına gəlmişdir.

Əsas nəqliyyat dəhlizləri



Yol şəbəkəsi
Son bir neçə il ərzində Macarıstan öz avtomagistral şəbəkəsini və yol infrastrukturunu təkmilləşdirmək və genişləndirmək üçün əhəmiyyətli investisiyalar yatırmışdır. Macarıstanın yol infrastrukturu hazırda hökumət tərəfindən maliyyələşdirilən əsaslı yenidənqurma prosesindədir; hazırda ölkənin yalnız bir hissəsini əhatə edən dördcərgəli magistral yolların uzadılması (2006-cı ilin sonunda 1,053 km və 2015-ci ilədək 2,530 km-dək) nəzərdə tutulmuşdur.

Bu gün Macarıstanın magistral yollarının ümumi uzunluğu 160 000 km-dir. Magistral yollarının sıxlığı hər 1000 km2-ə 1 720 km olmaqla 52 faiz təşkil edən Macarıstan bu baxımdan 15 Aİ ölkəsinin orta göstəricisindən daha yüksək nəticəni nümayiş etdirir.

Macarıstanın səkkiz əsas magistral yolunun yeddisi Budapeştdən başlanır və onların hamısı Avropanın yol şəbəkəsi ilə birləşir. Magistral yol şəbəkəsinin və Macarıstanın bütün aparıcı şəhərlərini bir-birilə birləşdirəcək dördcərgəli şosselərin təkmilləşdirilməsi nəticəsində əsas şəhərdaxili marşrutlar boyunca hərəkətə sərf olunan vaxt təxminən 40% azalacaq.

Son vaxtlar yol şəbəkəsinin təkmilləşdirilməsinə yönəldilmiş fəaliyyətlərin ahəngdarlaşdırılması nəticəsində bu təşəbbüsün dəstəklənməsi üçün qonşu ölkələrlə beynəlxalq əməkdaşlıq möhkəmləndirilmişdir. Macarıstan hökumətinin əsas prioriteti Macarıstandakı yol şəbəkəsinin daha da genişləndirilməsi və yenidən qurulmasıdır.
Mənbə: ITD Hungary.

## *İnsan kapitalına investisiya yatırımı*

Ümumi təhsil və iş bacarıqlarının təlimi. İnsan kapitalı inkişaf etməkdə olan iqtisadiyyatın işçi qüvəssinin ucuzluğu, bir neçə dil bilgisi və əsaslı təhsil, xüsusilə də texniki təhsil və peşə təlimi ilə birlikdə təklif edə biləcəyi rəqabətədavamlı üstünlüklərdən biridir.[15] Geniş təbii ehtiyatlara malik olmayan ölkələr investorlara insan kapitalı təklif edə bilər. İstər gərgin əməyin tələb olunduğu istehsalat, istərsə də xidmətlər sahəsində praktik qiymətlərlə bacarıqlı işçilər təklif edə bilən ölkələr həmişə investisiya cəlb edəcək. Washington Group International tikinti layihələşdirilməsi və mühəndisliyi şirkəti inkişaf etməkdə olan bazarlarda ofşor (dəniz) mühəndislik mərkəzləri yaratmışdır. Qərargahının ABŞ-da yerləşməsinə baxmayaraq, şirkət özünün yüksək səviyyəli təhlil və mühəndislik fəaliyyətlərinin əsas hissəsini yaranmaqda olan bazarlarda həyata keçirir. Onlar həmin bazarlardakı mühəndislərin təklif etdiyi, həm keyfiyyət həm də işçi qüvvəsi qiymətləri nöqteyi-nəzərindən daha əlverişli imkanlardan bəhrələnməyi üstün tuturlar.

İnsan kapitalı inkişafının zəruri komponentlərindən biri baza təhsildir. Biznes anlayışları, riyaziyyat və texniki biliklər, həmçinin xarici dillər üzrə güclü təlim keçən milli məktəb sistemləri əsaslı bilik bazasını təmin edir. Hökumətlərin hər kəsi təhsil almağa təşviqi mühüm

əhəmiyyət kəsb edir. Əgər Roma kimi iqtisadi cəhətdən zəif azlıqların övladları məktəbə getməsələr, onların kasıblıq səviyyəsi dəyişməz olaraq qalacaq. Xarici investisiyalar və iqtisadi inkişaf baxımından son dövrlərdə müvəffəqiyyət əldə etmiş bir çox ölkələr insan kapitalının keyfiyyətinə görə cəlbedici olmuş. Həqiqətən də, Mərkəzi Avropa «yüksək istedadlılıq» və «planetin ən zəngin yaradıcılıq mərkəzlərindən biri» kimi nüfuz qazandığına görə 2005-ci ildə Biznes Həftəsi qəzetində dərc edilmiş bir məqalədə iqtisadi «enerji stansiyası» kimi yüksək ada layiq görülmüşdür. [16]

Xarici dillərin - fransız, alman və xüsusilə də ingilis - tədrisi baza təhsilin zəruri elementlidir. Hindistanın bu qədər nəhəng xarici investisiyalar cəlb etmək bacarığı heç də tamamilə məvaciblərin aşağı olması və proqram təminatı üzrə ixtisaslaşmış mühəndislərin sayının çox olması ilə deyil, həmçinin ingilis dilinin danışıq dili olması ilə də əlaqədardır. İrlandiyanın iqtisadi möcüzəsinə istinad edən, İrlandiyanın keçmiş baş naziri Qerret Fitscerald söyləmişdi ki, vergilərin və kontinental Avropa ilə müqayisədə məvaciblərin nisbətən aşağı olmasından əlavə, onun ölkəsinin bəxti həm də onda gətirmişdi ki, amerikalılar və britaniyalılar «başqa dildə danışmırlar». Şərqi Avropa ölkələri telefon informasiya mərkəzləri və texniki dəstək mərkəzləri yaratmaqla xidmətlər sektorundakı imkanlardan bərk-bərk yapışıblarsa bunda onların dil bacarıqları da böyük rol oynamışdır. Avropa İttifaqı haqqında telefonla məlumatlar təmin edən Europe Direct və ya Aİ qaynar xətti əvvəlcə Belçikada yerləşirdi. Əməliyyatların əksər hissəsi sonralar Rumıniyaya köçürüldü, çünki burada ingilis, fransız, italyan, ispan, alman, macar və rumın dilləri danışıq dilləri idi. Xarici dillər üzrə geniş biliklərə malik olma amili həmçinin xarici investisiyalarla əlaqədar iş yerlərinin böyük hissəsində təcrübəli yerli işçi heyətinin çalışmasına imkan yaradır. Keçmiş Sovet İttifaqı ölkələrinin bəzilərində daha böyük investisiya yatırımlarının qarşısını alan maneələrdən biri də xarici dil üzrə biliklərin azlığıdır. Rusiyanın öz qapılarını xarici investorların üzünə açması və beynəlxalq iqtisadiyyatda geniş fəaliyyət göstərməsi digər MDB ölkələrinin də öz işçilərinin yerli və rus dillərindən əlavə digər dillərdə də danışa bilməsini təmin etməsi prosesinə təkan verir.

Biznes təhsili. Keçid dövrünü yaşayan iqtisadiyyatlara malik olan ölkələr özəl müəssisənin və sahibkarın hökumət işçiləri və geniş ictimaiyyət arasında qiymətləndirilməsi prosesini sistemli surətdə dəstəkləməklə öz iqtisadi inkişaflarını artıra bilər. Keçid dövrünü yaşayan ölkələrin əksəriyyətində və bəzi inkişaf etməkdə olan ölkələrdə planlı iqtisadiyyat erasının kölgələri hələ də hiss olunmaqdadır və burada sahibkarlar haqqında düşüncələr mənfi istiqamətlərə meyl edir. İctimaiyyətin sahibkarlara münasibətində dəyişikliklər edilməsi uzunmüddətli prosesdir və bunun üçün ən yaxşı üsul ATƏT iqtisadiyyatlarının bütün təhsil və təlim sistemlərinə biznesə dair dərslərin daxil edilməsi və biznesin dəstəklənməsi üçün xüsusi kampaniyaların təşkil edilməsidir.

## *Beynəlxalq və regional inteqrasiya*

Hökumətlərin öz biznes və investisiya mühitlərini təkmilləşdirməsi istiqamətində ata biləcəyi konkret addımlardan biri də beynəlxalq və regional inteqrasiyaya nail olmaqdır. «İqtisadiyyatı açan» iqtisadi siyasətlərin yaradılmasından əlavə, hökumətlər biznes və iqtisadi əlaqələrin qurulmasına gətirib çıxaran çoxtərəfli təşkilatlarda, müqavilələrdə, həmçinin ticarət və investisiya sazişlərində iştirak etməlidir.

Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük. ATƏT-in üzv dövlətlərinin əksəriyyəti ÜTT-nin üzvü olsa da, bəziləri hələ də kənarda qalıb. ÜTT-yə üzvlük 148 bazara ixracat girişini təmin edir. Bu, yerli bazarlardan daha geniş bazarlara doğru genişlənmək arzusunda olan KOM-lar üçün çox böyük əhəmiyyət daşıyır. Bəlkə də bundan daha vacibi odur ki, ÜTT-yə daxilolma prosesi xarici birbaşa investisiyaların stimullaşdırılması üçün daha yaxşı biznes mühitini təmin edir. Daha səmərəli idarəçilik, təhlükəsizlik standartları, əqli mülkiyyətin mühafizəsi və investorların ehtiyac duyduğu digər şərtlər ÜTT üzvlüyünə qəbul olunmaq üçün irəli sürülən tələblərdir. Diaqram 4.1 və 4.2-də ÜTT-yə üzv qəbul olunduqdan sonra Bolqarıstan və Estoniyadakı artım əks olunmuşdur.

DİAQRAM 4.1 VƏ 4.2

## ÜTT-yə daxil olduqdan sonra XBİ-nin artımı, Bolqarıstan və Estoniya







Mənbə: USAID Ukrayna ÜTT-yə Daxil Olma və İnvestisiyaların İnkişafı Layihəsi.

*Avropa İttifaqı ilə əlaqələrin qurulması.* Son illərdə Mərkəzi və Şərqi Avropada əldə edilmiş iqtisadi müvəffəqiyyətin böyük bir hissəsi Aİ-yə üzvlüyə qəbul olunma prosesi ilə əlaqədardır. Aİ-yə daxil olma prosesi Aİ ölkələri tərəfindən namizəd ölkələrə investisiya yatırımını və maraq göstərilməsini əhəmiyyətli dərəcədə artırmışdır. Bu daxilolma prosesi nəticəsində Aİ-yə son dövrlərdə üzv qəbul edilmiş ölkələrdən bəziləri, o cümlədən, Çexiya Respublikası, Macarıstan və Polşa öz sürətli iqtisadi inkişaf templərinə görə bəzi müşahidəçilər tərəfindən «inkişaf etmiş» iqtisadiyyatlar adlandırılmışdır. Bolqarıstan, Xorvatiya və Rumıniya kimi digər ölkələr isə XBİ-nin və məvaciblərin sürətli artımı ilə əlaqədar «investisiya iqtisadiyyatları» kimi qiymətləndirilir.

Aİ-yə daxil olmaq perspektuvləri gündəmdə olmayan ölkələrin ahəngdar daxili siyasəti və təcrübələri tətbiq etməsi investorların etimadını artıra bilər. Avropa İttifaqının normalar və tələblər toplusuna müvafiq qanunların, hüquqi aktların və siyasətlərin qəbul edilməsi aşağıdakıları təmin edir:

- investorlar üçün ümumi və başa düşülən çərçivə və mühit;
- şəffaflıq və hadisələrin qabaqcadan proqnozlaşdırıla bilməsi;
- hökumətin beynəlxalq standartlara uyğun şəkildə daha böyük regional icmaya inteqrasiya etmək arzusu haqqında beynəlxalq ictimaiyyətə siqnal.

*Regional azad ticarət müqavilələri.* Cənub-Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin bir çoxu azad ticarət haqqında müxtəlif ikitərəfli və çoxtərəfli müqavilələr bağlamışlar, lakin heç bir geniş regional azad ticarət müqavilələri yoxdur. Sabitlik haqqında Pakt iyirmi doqquz ikitərəfli ticarət müqaviləsini Cənub-Şərqi Avropa üzrə azad ticarət haqqında bir vahid müqavilədə birləşdirməyə çalışır.17 Digər ölkələr də buna bənzər təşəbbüslər irəli sürə bilər. Bu cür səylərin məqsədi xarici investorların bütün regionda biznes aparmaq imkanlarını yüngülləşdirməklə bazarın onlar üçün cəlbediciliyini maksimuma çatdırmaq və KOM-lar üçün əlavə yaxın ixracat bazarları təmin etməkdir.

MƏTN BLOKU 4.5

## İnvestisiya müqavilələri

İƏİT-in Cənub-Şərqi Avropa İnvestisiya Müqaviləsi Cənub-Şərqi Avropa dövlətlərinə öz XBİ səviyyələrini artırmaqda, həmçinin biznes və investisiya mühitlərini yaxşılaşdırmaqda çox böyük kömək edib. 2000-ci ildə təsis edilmiş İnvestisiya Müqaviləsi aşağıdakı üsullarla XBİ-ni artırmağa səylər göstərmişdir:

- investisiya islahatında **nailiyyətlərin dəyərləndirilməsi və monitorinqi,** o cümlədən, necə təkmilləşmək haqqında konkret nümunələrin təhlili;
- təlim və ekspertiza vasitəsilə **investisiya islahatının həyata keçirilməsinə dəstək;**
- xarici İnvestorlar Şuralarının Regional Şəbəkəsi (www.region-alfic.org) və Regional Rəsmi Sənədlər Toplusu vasitəsilə dövlət və özəl sektorlar arasında **dialoqun qurulmasında kömək;**
- konkret olaraq investisiya islahatları mövzusu ətrafında mərkəzləşmiş illik nazirlik konfransının keçirilməsi ilə **siyasi dəstək.**

İştirakçı ölkələrin fəaliyyətinin müvəffəqiyyətliliyi tədqiq edilir və sonra onlara İƏİT-in ən yaxşı təcrübələrinə əsaslanan konkret məsləhətlər verilir. Bundan əlavə, çoxtərəfli format həm özlərinə uyğun ölkələrlə müqayisədə qiymətləndirmələrə əsaslanaraq inkişaf etmək arzusunu, həm də regional əməkdaşlığa olan ehtiyacın başa düşülməsini stimullaşdırır. İnvestisiya Müqaviləsinin məhsullarından biri də İnvestisiya İslahatları İndeksidir; bu, hər hansı bir ölkənin on sahə: investisiya siyasəti, investisiyaların dəstəklənməsi, vergi siyasəti, anti-korrupsiya siyasəti, rəqabət siyasəti, ticarət siyasəti, KOM-ların dəstəklənməsi, dövlət idarəetməsi, maliyyə təsisatları və infrastruktur, və nəhayət insan kapitalı üzrə öz investisiya mühitində həyata keçirdiyi islahatların nəticələrinin qiymətləndirilməsi üçün istifadə edilən əhatəli bir vasitədir.

Digər ölkələr də öz investisiya müqavilələrini və ya digər regional yanaşmanı tətbiq edə bilər. İƏİT-in rəhbərliyi altında olub-olmamalarından asılı olmayaraq, hər növ ölkə qrupları bu investisiya müqaviləsi modelinə əsaslana bilər. Cənub-Şərqi Avropada yaradılmış Xarici İnvestor Şuralarının hamısı özəl maliyyələşdirməyə əsaslanır və hökumət dəstəyi tələb etmir: onların çox arzu etdiyi yeganə bir şey dialoq tərəfdaşıdır. Dünya Bankının investisiya mühitlərindəki islahatlarla əlaqədar məşhur müzakirəsində qeyd edildiyi kimi, «Siyasi iradənin və islahatlar üzrə çempionların yerini heç nə verə bilməz, Ümumdünya Ticarət Təşkilatı və Avropa İttifaqı kimi qlobal və ya regional müqavilələrə üzv qəbul olunma ilə əlaqədar təzyiqlər də bu prosesə kömək edə bilər». Beləliklə də, ölkələrin öz investisiya mühitlərində islahatlar aparmaq üçün siyasi iradəsi varsa onlar müsbət nəticələr əldə edə bilər.

## *Dövlət müəssisələrinin özəlləşdirilməsi*

ATƏT-in inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarının bir çoxunda ÜDM-nin əhəmiyyətli hissəsi hələ də dövlət müəssisələrinin adına yazıla bilər. Ölkələr öz biznes mühitlərini təkmilləşdirməyə və qlobal iqtisadiyyatda rəqabət aparmağa çalışdıqca, hökumətlər də iqtisadiyyatın iştirakçılarından müstəqil tənzimləyicilərə çevrilməlidir. Hökumətin vəzifəsi firmaların yerinə fəaliyyət göstərmək yox, onların müvəffəqiyyət qazanması üçün əlverişli şəraiti təmin və onlar arasındakı münaqişələri mühakimə etməkdir. Özəlləşdirmə hökumətlərə bu istiqamətdə hərəkət etmək üçün kömək edən üsullardan biridir.

Hökumət tərəfindən idarə edilən biznes təşkilatları iyirminci əsrdə iqtisadi həyatın geniş yayılmış xüsusiyyətlərindən biri idi. İstehsal vasitələri üzərində dövlət sahibkarlığı sosialist ideologiyasının əsas doktrinasını təşkil edirdi. Keynsin iqtisadi nəzəriyyəsi tərəfdarlarının təsiri altında hətta müharibədən sonrakı Britaniya kimi Qərb hökumətləri də aparıcı sənaye müəssisələrini öz (dövlət – red.) sahibkarlığı altına alıb idarə edirdi. Lakin 1980-ci illərdə bazar iqtisadiyyatlarına malik olan ölkələrə dövlət müəssisələrinin (DM-lərin) rəqabət meydanında uyğunsuzluqlar və təhriflər yaratması[18] aydın idi. Bu ölkələrin hökumətləri özəl sahibkarlar tərəfindən daha yaxşı idarə edilə bilən biznes sahələrindən əl çəkməyə başladılar. Sovet İttifaqının dağılmasından sonra yeni respublikalar mərkəzi planlaşdırmadan bazar iqtisadiyyatına keçid prosesinə başladılar. Bu proses ərzində həmin ölkələr DM-lərin özəlləşdirilməsini də təcrübədən keçirdi və bəzi hallarda bu təşəbbüsü ürəkdən alqışladı.

Özəlləşdirmə biznes sahələrini azad bazarda rəqabətin sərt şərtləri ilə üz-üzə qoymaqla onların səmərəliliyini artırmaq məqsədini güdür. Bundan əlavə, bəzi hökumətlər özəlləşdirmədən şirkətlər üzərində sahibkarlıq hüququnu onların işçilərinin və ya geniş əhali kütlələrinin əlinə vermək üçün istifadə etməklə sosial məqsədlərə nail olmağa çalışır. Bununla belə, bir sıra hallarda özəlləşdirmənin nəticələri acınacaqlı olmuşdur. Qeyri-şəffaf, məsuliyyətsiz dövlət monopoliyaları qeyri-şəffaf və məsuliyyətsiz özəl monopoliyalarla əvəz edilib. Özəlləşdirmə prosesində yol verilən korrupsiya, qeyri-şəffaflıq, səriştəsizlik və siyasi təsir hallarına görə bəzi dövlət aktivləri öz real dəyərlərinin yalnız bir hissəsi müqabilində ayrı-ayrı şəxslər və özəl şirkətlər tərəfindən alınıb və ya idarə edilməyə verilib. Səhmlərin ticarəti üçün imkanların çatışmaması çox vaxt genişlənmə üçün lazım olan əlavə kapitalın artımının qarşısını alır. Üstəlik, bəzi ölkələrdə özəlləşdirmə ayrı-ayrı obyektlərə tətbiq edilərək ümumi xarakter daşımayıb və natamam surətdə həyata keçirilib; bir çox böyük şirkətlər hələ də dövlətin sahibkarlığında qalır.

Müvəffəqiyyətli özəlləşdirmənin təmin edilməsinin nə vahid, nə də uğursuzluqdan sığortalanmış üsulu yoxdur. Özəlləşdirmə siyasi cəhətdən mübahisəli və mürəkkəb bir məsələ olub yerli şəraitlərdən və özəlləşdiriləcək müəssisənin özünəməxsus xüsusiyyətlərindən asılıdır. Buna baxmayaraq, keçid dövrünü yaşayan ölkələrdə Dünya Bankı, İƏİT və iqtisadi inkişafda maraqlı olan digər təşkilatlar tərəfindən on ildən çox müddət ərzində aparılmış özəlləşdirmə işi ərzində müəyyən təcrübələr əldə edilib. Aşağıdakı abzaslarda həmin təcrübələrin müəyyən hissəsi ümumiləşdirilib:

Özəlləşdirmənin faydaları. Özəlləşdirmə firmaların məhsuldarlığını əsaslı şəkildə artıra və qazanclar əldə etməyə, məsələn, fond birjalarının inkişafına töhfə verə bilər. Lakin özəlləşdirmə işsizliyin qısa müddət ərzində artmasına da səbəb ola bilər. Özəlləşdirmə prosesini yaşayan ölkələr işsizliyin qısa müddətə artmasını gözləməli və bu məsələni yenidən təhsil və başqa işlərə keçid təcrübələri ilə həll etməyə hazır olmalıdır. Düzgün tətbiq edilərsə özəlləşdirmənin uzunmüddətli faydaları (hətta məşğulluq və məvaciblər nöqteyi-nəzərindən belə) qısamüddətli zərərlərdən çox-çox böyük olacaq.[19] Lakin bunun üçün özəlləşdirmə prosesi şəffaf olmalı və köməkçi amillər: özəl mülkiyyətin qanunun aliliyi zəminində müvafiq qorunması, rəqabət, düzgün qurulmuş korporasiya idarəçiliyi sistemi, köməkçi səhmlər ticarəti, sərt büdcə məhdudiyyətləri və müvafiq qanunvericilik ya artıq mövcud olmalıdır, ya da qısa müddət ərzində yaradılmalıdır.

Özəlləşdirmənin üsulları. Hökumətlər müəssisələri üç əsas üsulla özəlləşdirir: (1) səhmləşdirmə üsulu ilə özəlləşdirmə (SÜÖ), (2) müəssisə aktivlərinin vahid alıcıya satışı (ticarət zəminli satışlar) və (3) kütləvi[20] (və ya vauçerlər üsulu ilə) özəlləşdirmə. Sonuncu halda DM-lərin işçilərinə və ya geniş kütlələrə vauçerlər paylanılır və onlar bu vauçerlərlə özəlləşdirilmiş şirkətdə adətən ya pulsuz, ya da çox aşağı qiymətlərlə faiz əldə edirlər. Bir sıra iqtisadçılar belə hesab edir ki, digər üsullara nisbətən

vauçer üsulu ilə özəlləşdirmə iqtisadi inkişafın yüksəldilməsi üçün daha aşağı effektivliyə malikdir.[21] Onlar bildirirlər ki, şirkətlərin sahibkarlığı çox geniş şəkildə paylanıldıqda onların idarəetmə heyəti daha səmərəsiz fəaliyyət göstərməyə meylli olur, çünki heç bir ayrıca səhmdarın və ya ümumi sahibkarlar qrupunun idarəetməyə görə məsul olmaq üçün kifayət qədər səlahiyyəti olmur. «Kütləvi özəlləşdirmə siyasətləri… geniş səhmdarlar sinfinin yaradılmasını vəd edir, lakin son nəticədə səhmlər toplusunun nəzarəti həyata keçirə bilən strateji investorların əlinə keçməsi kapital bazarlarından asılı olur»[22] Lakin «milyonlarla səhmdarların iştirakını təmin edən bazarlar həmin iştirakçıların dəstəyi olmazsa formalaşa bilməz. Şəffaf bazarların yaradılması… sadəcə həmin iştirakçıların əksəriyyətinin marağına uyğun deyil».[23]

*Əsl özəlləşdirmə.* Özəlləşdirmə dövlət müəssisələrinə özəl sahibkarlığa, müstəqil idarəetməyə və bazarda rəqabətə tam keçid imkanının verilməsini nəzərdə tutmalıdır. Hökumətin (1) özəlləşdirilmiş şirkətdə nəzarətedici faizlər həcmini özündə saxlamağı, (2) şirkətin işlərinə hələ də sanki DM kimi müdaxilə etməyi, və ya (3) şirkəti əslində dövlətin funksiyalarını icra etməyə vadar etməyi planlaşdırdığı halda özəlləşdirmənin faydaları gerçəkləşməyəcək. Buna görə də, hökumət özəlləşdirilmiş qurumda özünün səhmlər paketini saxlayarsa bu səhmlərin həcmi nəzarətedici faizdən aşağı olmalıdır. Eyni zamanda hökumət şirkətin fəaliyyəti üzərində digər səhmdarlara nisbətən daha böyük təsir qüvvəsi verən «qızıl səhm» paketini özündə saxlamamalıdır.[24]

*Özəlləşdirmədən əvvəl yenidənqurma.* Bəzən dövlət rəsmiləri hesab edir ki, onlar şirkəti özəlləşdirmədən əvvəl daha məhsuldar və ya daha gəlirli edə bilsələr, onda səhmləşdirmə ilə özəlləşdirmə (SÜÖ) və ya aktivlərin vahid alıcıya satışı zamanı daha yüksək qiymətin qoyulmasına nail ola bilərlər. Bu da öz-özlüyündə müəssisənin özəlləşdirilməsindən sonra bazarda üstünlüklərinin təmin edilməsi üçün özəlləşdirilmədən öncə «hadisələrin gedişinə təsir göstərilməsini» nəzərdə tutur. Əlbəttə ki, bu, rəqabət meydanını müəyyən istiqamətə meyl etdirməklə/ əyməklə rəqabətin təhrif edilməsinə gətirib çıxarır. Bundan başqa, özəlləşdirmənin özəyində hökumətlərin heç də ən yaxşı biznes təşkilatçıları olmaması məntiqi dayandığından, hər hansı bir DM-nin özəlləşdirilməsi haqqında qərar qəbul edildikdən sonra özəlləşdirmədən əvvəl onun qəfildən təkmilləşdirilməsinin heç bir mənası yoxdur.

*Ayrı-ayrı layihələr üzrə özəlləşdirmə ümumi özəlləşdirməyə qarşı.* Özəlləşdirmə ayrı-ayrı layihələr sistemi ilə və yaxud böyük DM qruplarına kütləvi şəkildə tətbiq edilə bilər. Adətən ayrı-ayrı layihələr sistemi ilə yanaşma daha yaxşı nəticələrə gətirib çıxarır.

*Xarici sahibkarlığın üzünə açıqlıq.* Bir növ «strateji sektorlar» adlandırılan sahələrdə xarici iştirak üzərinə qanunla məhdudiyyətlər qoyulmasından əlavə, dövlətin münasibəti və yerli müəssisələrin beynəlxalq rəqabətdən qaçmaq arzusu çox vaxt xarici firmaların özəlləşdirilən şirkətlər hərracında iştirak etməsinə əngəllər törədir. Lakin Meqqinson və Netterin qeyd etdiyi kimi, «şəraitin təmin edildiyi yerlərdə xarici sahibkarlıq özəlləşdirmədən sonra tam yerli sahibkarlığa nisbətən daha yaxşı və təkmil fəaliyyət göstərir».[25] Bundan əlavə, xarici investorların özəlləşdirilən müəssisədə faizlər almasına icazə verilməsi xarici investisiya axınlarını daha da stimullaşdıra bilər. Dünya Bankı tərəfindən son vaxtlar aparılmış tədqiqatda aşağıdakı müşahidələr qeyd edilmişdir:

*Xarici müştərilərin istisna edilməsi faktı xüsusilə də kütləvi özəlləşdirmə halında əsaslı problemlərin yaranmasına gətirib çıxarır. İstənilən post-sosialist hökumət öz iqtisadiyyatının böyük bir hissəsini özəlləşdirmək istəyərkən, aktivlərin yüksək qiymətinin təmin edilməsi üçün ölkə daxilində kifayət qədər maddi vəsait olmur. Buna görə də, hətta kiçik firmalar üçün də səpələnmiş özəlləşdirmə və ya qeyri-nağd özəlləşdirmə üsulunu tətbiq etmək lazım gəlir. Sonuncu variant qeyri-effektiv daxili sahibkarlıq və/ və ya aşağı özəlləşdirmə gəlirləri ilə nəticələnir ki, bu da islahatlardan narazılığa gətirib çıxarır.*[26]

*Özəlləşdirmə prosesində şəffaflıq.* Özəlləşdirmə prosesi maraq münaqişələrindən azad şəkildə, ictimaiyyətə bütün addımlar barəsində müvafiq bildirişlərin açıq tərzdə təqdimi yolu ilə həyata keçirilməlidir. Bu prosesin bütün səhmdarlar üçün şəffaf tərzdə icrası bağlı qapılar arxasında fəaliyyət göstərilməsinə nisbətən daha çox vaxt apara bilər, lakin özəlləşdirmənin qeyri-şəffaf həyata keçirilməsi korrupsiya, tanışbazlıq, xarici investorların qarşısında maneələr törədilməsi kimi riskləri və beləliklə də, ictimai narazılığı artırır.

*Özəlləşdirmədən sonrakı status.* Özəlləşdirilmiş şirkətlər digər şirkətlərin tabe olduğu qanunlara, qaydalara və nizamnamələrə tabe olmalıdır. Hər hansı bir şirkətin DM olarkən malik olduğu hər hansı xüsusi imtiyazlar onun özəlləşdirilməsindən sonra tətbiq edilməməlidir.

Əgər özəlləşdirilmiş şirkət bazarda dominant mövqeyə malikdirsə, bu mövqedən sui-istifadəyə görə ədalətli rəqabət haqqında qanunun irəli sürdüyü bütün qadağalara tabe olmalıdır. Beləliklə də, mal və xidmətlərin satışı zamanı çarpaz subsidiyalaşdırma, soyğunçu qiymətlərin təyini və ya ziyanlı müqavilə şərtlərinin irəli sürülməsinə yol verən özəlləşdirilmiş müəssisə hər hansı digər özəl müəssisə kimi eyni cəzalara, cərimələrə layiq görülməlidir. Hökumətlər özəlləşdirilmiş müəssisələrə digər biznes sahələri kimi müvəffəqiyyət qazanmaq və ya qazanmamaq imkanını verməlidir. Bundan əlavə, qeyri-könüllü yenidən təşkil və ya ləğv etmə də daxil olmaqla müflisləşmə haqqında qanunlar da özəlləşdirilmiş şirkətlər üzərində tətbiq edilməlidir. Digər şirkətlərin işçilərin işə götürülməsi və işdən azad edilməsi, əmək mübahisələrinin həlli, həmçinin biznes fəaliyyətinin azaldılması və ya aradan qaldırılması ilə əlaqədar malik olduğu azadlıqlara özəlləşdirilmiş müəssisə də malik olmalıdır. Qiymətləri aşağı həddə saxlamaq üçün özəlləşdirilmiş müəssisə zərərlə fəaliyyət göstərməyə, xüsusi texnologiya köçürmələrini həyata keçirməyə və ya digər şirkətlərdən tələb edilməyən əlavə investisiyalar yatırmağa məcbur edilməməlidir.

# Tövsiyələr

Vergiqoyma siyasəti

- Öz vergiqoyma sistemlərində islahatlar aparakən hökumətlər:
    - ümumiyyətlə vergi strukturunu sadələşdirməyə çalışmalı;
    - ixracat üzərinə qoyulan ƏDV xərclərinin tez bir vaxtda ödənişini təmin etməli;
    - onlayn vergi sənədləşdirilməsini təklif etməlidirlər.

Əmək siyasəti

- İşçilərin əsas hüquqlarını qorumaqla hökumətlər biznes tələbatlarından asılı olaraq işçilərin tələb olunan vaxtda və tərzdə işə götürülməsi və işdən azad edilməsi prosesində lazımsız maneələri azaltmalıdır.
- İşə götürənlərin işçiləri müqavilə əsasında, natamam iş günü hesabı ilə və müvəqqəti şəkildə işə götürmək, həmçinin məqsədəuyğun kompensasiya müqabilində onları könüllü olaraq iş vaxtından əlavə işlətmək hüquqları olmalıdır.
- Hökumətlər sosial vergilər və işçilərin təlimi ilə əlaqədar işə götürənlər üzərinə qoyulan tələblərin məqsədəuyğun və lazımsız yüklənmələrdən azad olmasını təmin etməlidir.

İnfrastruktur siyasəti

- Hökumətlər nəqliyyat, kommunikasiyalar və s. üçün müasir infrastrukturun yaradılmasına çalışmalıdır. Bu zaman onlar dövlət və özəl müəssisələr arasındakı tərəfdaşlıqların infrastruktur siyasətinin qarşıya qoyduğu məqsədlərə nail olub-olmayacağını nəzərə almalıdır. İnfrastrukturların inşasından sonra onlara texniki xidmət göstərilməlidir, bunun üçün isə uzunmüddətli planlaşdırma gərəkdir.

İnsan investisiyası siyasəti

- Hökumətlər gələcəkdə öz ölkələrinin və öz vətəndaşlarının rəqabətədavamlığını təmin edəcək sahələr üzrə təhsilə, həmçinin peşə və texniki təlim sahələrinə əhəmiyyətli investisiyalar yatırmalıdır.
- Dövlətlər ingilis dili də daxil olmaqla beynəlxalq biznesdə istifadə edilən əsas dillərdə danışa bilən böyük işçi ehtiyatlarının təmin edilməsi istiqamətində fəaliyyət göstərməlidir.
- Dövlətlər xalqın bazar iqtisadiyyatı təsərrüfatlarına uyğun təhsil almasına çalışmalı və sahibkarlıq sahəsində ixtisaslaşmış təhsili dəstəkləməlidir.

Regional ticarət siyasəti

- Hələ ÜTT üzvü olmayan ölkələr bu qurumun xarici bazarlara təmin etdiyi girişdən bəhrələnmək məqsədilə ona daxil olmaq məsələsini nəzərdən keçirməlidir.
- Ümumiyyətlə, ölkələr öz kommersiya qanunlarını Aİ kimi aparıcı ticarət bloklarının ticarət qaunları ilə uyğunlaşdırmalıdır ki, investorlar onlara tanış olan sistem daxilində inamla fəaliyyət göstərə bilsinlər.
- Aİ üzvü olmayan ölkələr regional azad ticarət müqavilələrinə və investisiya sazişlərinə daxil olmaq imkanlarını, həmçinin onları xarici bazarlara daha böyük girişlə təmin edə biləcək digər mexanizmləri diqqətlə nəzərdən keçirməlidir.

Özəlləşdirmə siyasəti

- DM-ləri özəlləşdirərkən hökumətlər:

  -özəlləşdirilən şirkətin özəl sahiblərini həmin şirkət üzərində tam və effektiv idarəetmə ilə təmin etməli;

  - hökumətin özəlləşdirilən şirkətin müəyyən qərarlarının icrasının qarşısını ala və ya bu qərarları istiqamətləndirə bilməsi üçün xüsusi «qızıl səhm» hüquqlarını saxlamamalı;

  - şirkətin özəlləşdirilməsindən əvvəl onun əsaslı şəkildə bərpa edilməsindən ümumiyyətlə çəkinməli;

  - xaricilərə şirkət üzərində sahibkarlıq hərraclarında iştirak etməyə (müdafiə sənayesi kimi «strateji sektorlar» istisna olmaqla) icazə verməli;

  - yenicə özəlləşdirilmiş şirkətlərin sahibkarları arasında kimisə üstün tutmamalı, və onlar üzərinə hədsiz ağır şərtlər qoymamalıdır; əksinə, şirkətin müvəffəqiyyət qazanıb-qazanmayacağının bazar qüvvələri və idarəetmə bacarıqları ilə müəyyən edilməsinə şərait yaratmalıdır.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

A Policy Framework for Investment: Draft Preamble, Checklists and Preliminary Annotations (OECD 25-27 October 2005), <http://www.oecd.org/dataoecd/10/55/35488787.pdf>

Jack Ewing, Gail Edmondson, and Patricia Kranz, "Rise Of A Powerhouse: How the young knowledge workers of Central Europe are pushing the region to a new level", Business Week 3963,(12 Dec 2005), 50, <http://www.businessweek.com/magazine/content/05_50/b3963021.htm>

Mariana Spartareanu and Beata Smarzynska, "Do foreign investors care about labour market regulations?", World Bank Policy Research Working Paper 3275 (Apr 2004), <http://wdsbeta.worldbank.org/external/default/WDSContentServer/IW3P/IB/2004/05/20/000009486_20040520093807/Rendered/PDF/wps3275regulations.pdf>

Sergei Guriev and William Megginson, "Privatization: What Have We Learned?" (2005), <http://siteresources.worldbank.org/INTDECABC2006/Resources/gurievmeggison.PDF>

"Simplifying tax systems: The case for flat taxes", The Economist (14 Apr 2005), <http://www.economist.com/displaystory.cfm?story_id=3860731>

Business Strategy of the Lithuanian Customs for 2005–2010, <http://www.cust.lt/en/article?articleID=480>

## QEYDLƏR

1 "Getting Tax Policy Right", an interview about taxes with IMF rep Dimitri G. Demekas in City Paper: The Baltic States, <http://www.balticsww.com/news/features/tax.htm>

2 Jacques Morriset, Using Tax Incentives to Attract Foreign Direct Investment (World Bank Infrastructure Group, Jan 2003).

3 Countries must be careful not to set tax rates too low, or they risk being accused of "tax dumping". In the past, Ireland faced heavy criticism from some of its continental European partners for its low tax rates. A country's objective should not be to "undercut" neighbouring countries through low taxes but to encourage overall competitiveness and enhance a country's natural advantages by offering an attractive tax system.

4 "Simplifying tax systems: The case for flat taxes", The Economist, 14 Apr 2005, <http://www.economist.com/displaystory.cfm?story_id=3860731>

5 See, for example, Art. 143, Fiscal Code of Romania (Law No. 571/2003), as published in Official Gazette of Romania (Part One), no. 927 of 23 Dec 2003 (Exemptions for exports or other similar operations and for international transport), <http://www.mfinante.ro/engl/cod_fiscal/TITLE%20VI.en.htm>

6 World Bank, Georgia: An Integrated Trade Development Strategy (World Bank Poverty Reduction and Economic Management Unit, Europe and Central Asia Region 5 Nov 2003), <http://www-wds.worldbank.org/servlet/WDSContentServer/WDSP/IB/2003/12/16/000090341_20031216104201/Rendered/INDEX/272640GE.txt>

7 Torrey Clark, "VAT mess puts off foreign investors", The Moscow Times, 8 Aug 2002.

8 <http://www.hitro.hr/eng/e-regos/kako.htm>

9 "Prime Minister Ivo Sanader launches service enabling electronic filing of forms", Republic of Croatia Press Release (3 Nov 2005), <http://www.vlada.hr/default.asp?mode=1&gl=200511030000011&jezik=2&sid=>

10 Mariana Spartareanu and Beata Smarzynska, Do foreign investors care about labour market regulations? World Bank Policy Research Working Paper 3275 (Apr 2004), <http://wdsbeta.worldbank.org/external/default/WDSContentServer/IW3P/IB/2004/05/20/000009486_20040520093807/Rendered/PDF/wps3275regulations.pdf>

11 The Declaration deals primarily with four topics: (1) freedom of association and the right to collective bargaining, (2) the elimination of forced and compulsory labour, (3) The abolition of child labour, and (4) the elimination of discrimination in the workplace. The text of the Declaration and further information regarding the principles it embodies can be found on the Internet: <http://www.ilo.org/dyn/declaris/DECLARATIONWEB.INDEXPAGE>

12 "Investor Perceptions of Bulgaria's Competitive Opportunities and Constraints: Labour Market Focus" (USAID Labour Market Project Oct 2004), <http://www.bglabour.org/Doc_LM/Investors_EN.pdf>

13 OECD,"A Policy Framework for Investment: Draft Preamble, Checklists and Preliminary Annotations" (OECD 25-27 Oct 2005), <http://www.oecd.org/dataoecd/10/55/35488787.pdf>

14 Nagesh Kumar, Infrastructure availability, foreign direct investment inflows and their export-orientation: a cross-country exploration (Research and Information System for Developing Countries 2001), <http://www.gdnet.org/pdf/nkumar.pdf>

15 To quote the OSCE Strategy Document for the Economic and Environmental Dimension: "[H]uman resources are an essential factor for economic growth and development, which require knowledge and skills, inter alia, in economic, business, administrative, legal and scientific matters. We will take appropriate measures to promote education and training and will increase co-operation, including with specialized international institutions and organizations, in areas such as facilitating and widening access to educational, research and training institutions through increased fellowships and internship programmes." OSCE, Strategy Document for the Economic and Environmental Dimension (Dec 2003), <http://www.osce.org/item/16350.html.>

16 Jack Ewing, Gail Edmondson, and Patricia Kranz, "Rise Of A Powerhouse: How the young knowledge workers of Central Europe are pushing the region to a new level", Business Week 3963 (12 Dec 2005), 50, <http://www.businessweek.com/magazine/content/05_50/b3963021.htm>

17 See "Sarajevo Summit Declaration of the Heads of State and Government of the participating and facilitating countries of the Stability Pact and the Principals of participating and facilitating International Organizations and Agencies and regional initiatives", (Sarajevo, 30 July 1999), <http://www.stabilitypact.org/constituent/990730-sarajevo.asp>

18 State-owned enterprises are frequently heavily subsidized to keep the prices of their products low for the benefit of consumers. This has a significant negative effect on private investment, since private enterprises, unlike State-owned enterprises, must cover their costs from revenues. In addition, government regulations often make exceptions to the rules for SOEs. If private investors cannot make a profit in a given industry because a subsidized, state-owned business keeps prices artificially low, or because private businesses are governed by more burdensome rules than those for SOEs, they will look elsewhere for investment opportunities.

19 John S. Earle, "Employment and Wage Effects of Privatization: Evidence from Transition Economies", Employment Research (Jan 2006), <http://www.upjohninst.org/publications/newsletter/JSE_106.pdf>

20 The term "mass privatization" is used by different writers to refer to two distinct concepts. Many economists use the term to refer to privatization that results in widely dispersed ownership by a very large number of shareholders. This is the sense in which the term is used in the Guide. Other writers use "mass privatization" to refer to the simultaneous privatization of large numbers of SOEs, usually on a sectoral basis. To avoid confusion, the Guide refers to the latter practice as "across-the-board" privatization.

21 Bruce Kogut and Andrew Spicer, "Capital market development and mass privatization are logical contradictions: lessons from Russia and the Czech Republic", 11 Industrial and Corporate Change 1 (2002).

22 Ibid.

23 Ibid.

24 Golden shares give governments veto power over certain fundamental decisions of the company. Alexander Dyck, "Privatization and Corporate Governance: Principles, Evidence and Future Challenges", 16 World Bank Research Observer 59 (2001).

25 William L. Megginson and Jeffrey M. Netter, "From State to Market: A Survey of Empirical Studies on Privatization", 39 Journal of Economic Literature 321 (2001), <http://faculty-staff.ou.edu/M/William.L.Megginson-1/prvsvpapJLE.pdf>

26 Sergei Guriev and William Megginson, "Privatization: What Have We Learned?" (2005), <http://siteresources.worldbank.org/INTDECABC2006

# 5-ci Fəsil




# Qanun və tənzimləmənin iqtisadi inkişaf prosesində əhəmiyyəti

Əgər ölkələr malik olduqları iqtisadi potensialdan tam istifadə etmək istəyirlərsə, biznes sahələrinin torpaq və şəxsi əmlakla əlaqədar maraqlarını müdafiə etmək və ixtiyari və ya kompensasiyasız müsadirələr əleyhinə zəmanətlər təmin etmək üçün müasir və effektiv kommersiya hüquq sistemlərinə malik olmalıdırlar. Tənzimləmə sahəsindəki bürokratik əngəllər azaldılmalıdır. Daxili bazarların inkişafını dəstəkləmək üçün müvafiq orqanlar hansı qanunların tətbiq edildiyini aydın şəkildə göstərməli, müasir qeydiyyat sistemlərinin tətbiqini və daxili bazarda fəaliyyət göstərən peşə sahələrinin təşəkkülünün müvafiq resurslarla dəstəklənməsini təmin etməlidir. Kommersiya qurumları arasında müqavilələrin bağlanması ilə əlaqədar tam sərbəstlik təmin edilməli və müqavilələr vaxtlı-vaxtında, qabaqcadan proqnozlaşdırıla bilən və mənfəətli tərzdə həyata keçirilməlidir. İqtisadi inkişaf üçün maliyyə vəsaitlərinin əldə olunması imkanlarını təmin etmək məqsədilə hökumətlər düzgün korporativ idarəetməni inkişaf etdirməli, zəmanətli sövdələşmələr və müflisləşmə, həmçinin kapital bazarlarına və banklara nəzarət və onların tənzimlənməsi ilə əlaqədar müasir sistemlər tətbiq etməlidir. İqtisadi inkişafa təkan vermək məqsədilə ölkələr əqli mülkiyyəti müdafiə edən və elektron ticarətin inkişafını dəstəkləyən müasir qanunlar qəbul etməlidir. Rəqabətlə əlaqədar qanun sistemləri dövrün tələblərinə uyğunlaşdırılmalı və hökumət tədarükləri şəffaf və ayrı-seçkiliksiz olmalıdır. Xarici investisiyaların cəlb edilməsi üçün xarici valyuta üzərindəki nəzarət, həmçinin gəlirlərin və kapitalın repatriasiyası ilə əlaqədar məhdudiyyətlər aradan qaldırılmalıdır. Bundan əlavə, hökumətlər hakimlərin müstəqilliyini, müvafiq təlimlər keçməsini və məqsədəuyğun maaşla təmin etməli, həmçinin arbitraj məhkəməsi və münaqişələrin alternativ həlli formalarını kommersiya münaqişələrində geniş tətbiq edilən üsula çevirməlidirlər.

1990-cı illərdə keçid dövrünü yaşayan ölkə iqtisadiyyatları bazar iqtisadiyyatına doğru ilk addımlarını atırdı. Tərəqqinin asanlıqla və avtomatik surətdə baş verəcəyi haqqında bütün xülyalar tezliklə puça çıxdı. Onlar anladı ki, özəl mülkiyyət rejiminin bərpa edilməsi heç də öz-özünə effektiv bazarların yaranmasına gətirib çıxarmayacaq. Yeni dövlət, siyasi, sosial və mədəni institutlar yaradılmalı və ya olanlar yenidən qurulmalıdır. Yenidənqurmaya ehtiyacı olan ən əhəmiyyətli institutlar arasında milli hüquqi sistemlər də vardı.

Əvvəldə qeyd edildiyi kimi, qanun sağlam iqtisadiyyatların inkişaf etdirilməsi, qorunub saxlanması və genişləndirilməsi prosesinin fundamental komponentidir.[1] Onun bu kontekstdə müsbət rolu özəl iştirakçılara öz iqtisadi azadlıqlarından ümumi rifaha fayda gətirəcək tərzdə istifadə etmək üçün imkan yaratmaqdan ibarətdir.

## *Xüsusi mülkiyyət hüququ və azadlıqları*

Müasir bazar iqtisadiyyatları özəl mülkiyyətin mövcudluğuna əsaslanır. Öz mülkiyyətindən istifadə etmək, onu başqa şəxsə ötürmək, satışı ilə məşğul olmaq və ya başqalarına bu mülkiyyətdən istifadə etmək imkanı verməmək hüququ sağlam iqtisadiyyat və cəmiyyət üçün zəruri əhəmiyyət kəsb edir. Mülkiyyət daşınmaz əmlakdan (torpaq) və daşınan əmlakdan (torpaqdan fərqli əmlak) ibarətdir. Daşınar əmlak ona toxunmaqla hiss olunan (məsələn, avadanlıq, avtomobillər, inventar və s.) və hiss olunmayan (müqavilə hüquqları, şirkət səhmlərində pay, patentlər, müəllif hüquqları və s.) kimi iki qrupa bölünür. İqtisadi inkişafı və xarici investisiya axınlarını dəstəkləmək üçün ölkələr bütün bu sadalanan müxtəlif növ mülkiyyət hüquqlarını uca tutmalı və qorumalıdır.

Hər hansı bir bazarın səmərəli fəaliyyət göstərə bilməsi üçün mülkiyyət hüquqları zəmanətli olmalıdır, yəni fırıldaq, oğurluq və cinayətlərdən qorunmalıdır. Mülkiyyət həmçinin hökumətin kompensasiyasız müsadirəsindən[2] də qorunmalıdır. Bundan əlavə, mülkiyyət hüquqları sübut edilə bilən olmalıdır. Bu o deməkdir ki, sahibkarın şəxsiyyəti və mülkiyyətə dair sahibkarlıq statusu reyestrlər və obyektiv hüquqi normalarla asanlıqla müəyyən edilə bilməlidir. Mülkiyyət həmçinin ötürülə bilən olmalı və kreditlərin alınması üçün əmlak sahibləri öz əmlaklarını kredit əvəzinə girov kimi təqdim edə və öhdəliklərin yerinə yetirilmədiyi halda bu girovu müsadirəyə təslim edə bilməlidirlər.

## *Əmlakın kompensasiyasız müsadirəsindən müdafiə*

Dövlət idarəetməsinin təmin etdiyi başlıca hüquqlardan biri də odur ki, hökumətlər müəyyən hallarda özəl mülkiyyəti dövlət məqsədləri üçün müsadirə edə bilər. Məsələn, bəzən hökumətlər yol, kanal və hava limanlarının inşası zamanı özəl mülkiyyət olan torpaqları öz əmlaklarını məqsədəuyğun qiymətə satmaq istəməyən torpaq sahiblərindən müsadirə etməli olur. Səhiyyə ilə əlaqədar müəyyən fövqəladə hallarda, o cümlədən, xəstəliklərin yayılması təhlükəsi yaranarkən hökumətlər özəl fermerlərin mal-qarasını karantinə götürmək və hətta məhv etmək səlahiyyətlərinə malik olmalıdır. Lakin, qeyd edilən nisbətən mübahisəsiz nümunələrdən başqa, bəzi hökumətlər mülkiyyəti heç də tam dövlət marağına uyğun olmayan məqsədlərlə (siyasi səbəblərdən, əsassız olaraq, sahibkara müvafiq kompensasiyanın ödənilməsi və ya ödənilməməsi şərtilə) müsadirə etmişlər. Siyasətçilərin əcnəbilərə qarşı qərəzli münasibətlərdən və ya ümumi populist əhval-ruhiyyədən istifadə etmək istədiyi zaman bir çox hallarda məhz xarici investorlar milliləşdirmə sxemlərinin siyasi cəhətdən populyar hədəflərinə çevrilmişdir. Elə hallar da olub ki, hökumətlər daxili və yerli biznesləri və hətta kiçik ferma təsərrüfatlarını belə sərtliklə müsadirə ediblər. Hətta mülkiyyət qismən və ya tədricən müsadirə edildikdə belə, özəl mülkiyyət hüquqlarına qarşı bu cür saymamazlıq bazar iqtisadiyyatının çiçəklənməsi üçün zəruri olan sabitliyə çox böyük xələl gətirir.[3]

Özəl mülkiyyətin müsadirəsi səlahiyyətlərinin məhdudlaşdırılması. Mülkiyyət hüquqlarının təhlükəsizliyi və sabitliyinin təmin edilməsi istiqamətində görülə biləcək ilkin tədbirlərdən biri hökumətin özəl mülkiyyəti müsadirə etmək üçün irəli sürə biləcəyi məqsədlərin sayını əhəmiyyətli şəkildə məhdudlaşdırmasıdır. Qanun özgəninkiləşdirilmiş mülkiyyətin keçmiş sahiblərinin dövlətdən kompensasiya almaq hüququnu təmin etməlidir. Qanunda dövlətin özəl mülkiyyəti müsadirə edə biləcəyi halların bir-bir qeyd edilməsi qeyri-praktik olsa da, aydın şəkildə göstərilməlidir ki, müsadirə yalnız dövlət məqsədləri üçün istifadə zamanı əsaslandırıla bilər və «dövlət məqsədləri üçün istifadə» anlayışının çərçivələri müəyyən edilməlidir.

Sahibkara kompensasiya almaq hüququ verən müsadirə hallarının müəyyən edilməsi. Hökumətlər həmçinin özgəninkiləşdirmənin hansı hallarda tətbiq edilməli olduğunu müəyyən etmək üçün hüquqi normalar yaratmalı və beləliklə də, sahibkarın kompensasiya almaq hüququnu nəzərə almalıdır. Müsadirə heç də bütün hallarda sahibkarın mülkiyyət hüquqlarının rəsmən ləğv edilməsini nəzərdə tutan qəfil hadisə olmur. Onu həm də müsadirə vergisinin təyin edilməsi, dövlətin sahibkarın idarəetmə, satış və s. ilə əlaqədar hüquqlarına əsassız müdaxiləsi, həmçinin tədricən və ya hissə-hissə baş verən «sürünən müsadirə» üsulları vasitəsilə də tətbiq etmək mümkündür. Hökumətin bu kimi tədbirləri sahibkarın rəsmi mülkiyyət hüquqlarına təsir etməsə də, əmlakın iqtisadi dəyərini onun qəfil və tam müsadirəsində olduğu kimi məhv edə bilər. Eyni zamanda, çox saylı hökumət tədbirləri özəl mülkiyyətin dəyərinə təsir edə bilər və hökumətin bu cür halların hamısında kompensasiya ödəməsini gözləmək məntiqə uyğun olmazdı. Beləliklə də, çox incə bir sual ortaya çıxır - «müdaxilə ardıcıllığının məhz hansı məqamında hökumətin gördüyü tənzimləyici [və ya digər] tədbirlər onun hüquq mühafizə səlahiyyətlərini icra etməsinə və ya sahibkarın əmlakını müsadirə etməsinə gətirib çıxarır?»4. Müsadirə ilə adi tənzimləyici tədbirləri dolayısı yolla bir-birindən fərqləndirmək üçün ölkələr bir sıra arbitraj məhkəmələrinin və iddiaların araşdırılması ilə məşğul olan tribunalların qərarlarına istinad edə bilər. [5]

Kompensasiya həcminin müəyyən edilməsi. Qanunda həmçinin müsadirə edilmiş əmlakın sahibi üçün kompensasiyanın həcminin ədalətli müəyyən edilməsi məsələsi də öz əksini tapmalıdır. Heç də bütün vəziyyətlərdə «ədalətli bazar dəyəri»nin tətbiqi münasib deyil: mülkiyyətin bəzi növləri bazar qiymətlərinin müəyyənləşdirilməsi üçün kifayət qədər qənaətbəxş ticarət subyekti olmaya da bilər. Buna baxmayaraq, mülkiyyət sahibinə hökumətin mülahizələrinə əsasən təyin edilən sırf nominal məbləğin deyil, müsadirə edilən əmlakın obyektiv dəyərinin ödənilməsi istiqamətində müəyyən səy göstərilməlidir.

Özgəninkiləşdirmə qərarlarının nəzərdən keçirilməsi üçün müstəqil mexanizmin yaradılması. Özəl mülkiyyəti müsadirə edən dövlət qurumu bu özgəninkiləşdirmənin qanuniliyi və ya kompensasiyanın müvafiqliyi haqqında son sözü deyən orqan olmamalıdır. Qanunun aliliyi prinsipi ilə idarə edilən dövlətdə hökumət özü də qanuna tabedir və onun səlahiyyətləri də qeyri-məhdud deyil. Ədalət məhkəməsi və ya digər məhkəmə orqanlarının hər hansı bir təşkilatın mülkiyyət müsadirəsi ilə əlaqədar qərarlarını nəzərdən keçirmək və lazım gəldikdə onları təkzib etmək üçün onun həm texniki yurisdiksiyası, həm də faktiki səlahiyyətləri və müstəqilliyi olmalıdır. Məhkəmələr və iddiaların araşdırılması ilə məşğul olan digər təsisatlar bu fəslin sonrakı hissələrində daha ətraflı müzakirə edilir.

## *Tənzimləmə və mülkiyyət hüquqlarının və biznes imkanlarının zəifləməsi*

Mülkiyyətin əsassız müsadirəsinə qarşı zəmanətlər iqtisadi inkişaf üçün nə qədər əhəmiyyətli olsa belə, özgəninkiləşdirməni özəl mülkiyyət hüquqlarına xələl gətirən yeganə hökumət tədbiri adlandırmaq düzgün olmazdı. Saysız-hesabsız tənzimləyici qaydalar, mürəkkəb lisenziya prosedurları və dövlətin rəsmi icazəsinin alınması üçün irəli sürülən labirint tipli tələblər investor və sahibkar hüquqlarının baha başa gələn və vaxt aparan pozuntularına gətirib çıxara bilir. Müasir iqtisadiyyatda hökumətin iqtisadi fəaliyyəti müəyyən dərəcədə tənzimləməsinin qaçılmaz olmasına baxmayaraq, Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin 2004-cü ilə dair xüsusi iqtisadi hesabatında aşağıdakı fikir haqlı olaraq qeyd edilmişdi: «Mülkiyyətə sahiblik və mülkiyyətin öz hüquqi sahibi tərəfindən istifadəsi ilə əlaqədar böyük əngəllər törədən qaydalar ölkənin sərvətlərini sıxıntıya məruz qoyur… Hökumətin həqiqi mülkiyyət hüquqlarının formalaşması istiqamətində yaratdığı maneələr aktivləri tələyə salmaqla onların tam səmərəli istifadəsinin qarşısını alır».[6]

Saysız-hesabsız qaydalar yükü rəsmi korrupsiyanın qol-budaq atacağı mühitin yaranmasına təkan verir. Rüşvət axtaran dövlət məmuru bu qədər çox sayda qaydalarla idarə edilən biznes sahələrinə qeyri-qanuni ödənişlər müqabilində tənzimləmə proseslərinin bürokratik incəliklərlə «yağlanmasını» təklif edə bilər. Yuxarıda qeyd edilmiş hesabatda bildirildiyi kimi:

> Rüşvət axtaran… hökumət işçiləri müntəzəm surətdə anladırlar ki, onlara stolun altından pul vermək rəsmi vergi və ya cərimələrin bütöv yükünü ödəməkdən daha faydalıdır. Kölgədə qalmaqda davam etmək bahalı prosesdir, lakin rəsmi iqtisadiyyatda üzə çıxmaq ondan da bahalıdır. Rəsmi lisenziyaların alınması üçün təyin edilmiş mürəkkəb sənədləşdirmə prosedurları biznes sahələrini bürokratiya labirintlərindən keçməyə vadar edir. Tələb olunan hüquqi sənədlərin əldə edilməsi yolunda xərclənən ifrat məbləğlər birbaşa gəlirli və məhsuldar biznes fəaliyyətlərinə sərf edilə bilən vaxtdan çıxılır.[7]

Beləliklə də, hökumətə və ölkənin bütün iqtisadi sisteminə qarşı inama xələl gətirməkdən əlavə, hədsiz tənzimləmənin bu nəticəsi həm də «kölgə iqtisadiyyatı»nı təşkil edən (yəni, vergi ödəməyən) biznes sahələrinin öz əməliyyatlarını idarə etməsinə maneələr törədir. Aşağıda ATƏT ərazisi ölkələrində ifrat tənzimləmənin baş verdiyi sahələrin bəziləri qeyd edilib.

Ümumi xarakter daşıyan, lazımınca düşünülməmiş, qeyri-müəyyən və ziddiyyətli qayda-qanunlar. Tənzimləmə labirintləri bir günə yaranmır. Əksinə, onlar hissə-hissə formalaşır. Çox vaxt yeni qaydalar diqqətlə nəzərdən keçirilmədən, real həyatda onların biznes üçün törədəcəyi maneələr, mövcud qanun və normativ aktlara necə uyğunlaşacağı, və gələcəkdə müxtəlif, lakin əlaqəli situasiyaları idarə etmək üçün nə dərəcədə məqsədəuyğun olması kifayət qədər nəzərə alınmadan, xüsusi situasiyaya tətbiq zəminində qəbul edilir. Bu ümumi problemlərlə üzləşməmək üçün Böyük Britaniya Tənzimləmələrin Nəticələrinin Qiymətləndirilməsi (TNQ) prosesini qəbul etmişdir; bu prosesdə yeni qaydalar onların kiçik müəssisələrə qeyri-mütənasib təsir göstərməməsini təmin etmək üçün Kiçik Biznes üçün Lakmus Testi də daxil olmaqla effektivlik, aydınlıq və rasionallıq baxımından bir sıra yoxlamalardan keçirilir. Hollandiya hökuməti hər hansı bir qanun və ya qaydanın yalnız təyin edilmiş müəyyən vaxt ərzində mövcud olacağını nəzərdə tutan «qürub prinsipi»ni tətbiq etməklə qaydalar çoxluğu məsələsini həll etməyi nəzərdən keçirir. Həmin vaxt başa çatdıqdan sonra qanun və ya qaydanın avtomatik qüvvədə qalmaqda davam etməsinə imkan verməK əvəzinə onun yenidən qəbul edilməsi üçün xüsusi təklif irəli sürülməlidir. Bu, siyasətçiləri qanunların əhəmiyyətinə dair müzakirələr aparmağa məcbur edir və həmin qanunlarla idarə edilən firmalara qanunlarda müəyyən düzəlişlərin edilməsi üçün öz təkliflərini irəli sürmək imkanı verir.

- Nağd pullarla əməliyyatların aparılması məhdudiyyətləri. Bəzi ölkələr bütün firmalararası sövdələşmələrin bank köçürmələri yolu ilə həyata keçirilməsini tələb edir. Bəzən korporasiyalar və digər müəssisələr tərəfindən hesabdan yalnız məvaciblərin ödənişi və səyahət xərcləri üçün nağd pul çıxarılmasına icazə verilir. Bəzi qanunlar həmçinin nağd pulların qəbul edildiyi gün hesaba qoyulmasını tələb edir. Bu məhdudiyyətlər müəssisələrin, xüsusilə də kiçik bizneslərin öz gündəlik fəaliyyətlərini icra etmək imkanlarını sərt şəkildə məhdudlaşdırır. Nağd pullara məhdudiyyətsiz əməliyyatlar aparmaq imkanının yaradılması üçün bu məhdudiyyətlər mümkün olan ən yüksək səviyyədə aradan qaldırılmalıdır.

- Gömrük sənədləşdirmələri tələbləri. Effektiv gömrük sistemi qadağan edilmiş və istifadəsi məhdudlaşdırılmış malların qeyri-qanuni ticarətinin qarşısının alınması üçün zəruri komponentdir. Gömrük sistemi həmçinin iqtisadi planlaşdırma üçün əhəmiyyətli olan beynəlxalq ticarət haqqında statistik informasiyanı təmin edir və beynəlxalq ticarəti dəstəkləyir. Lakin uzun-uzadı sənədləşdirmə tələbləri xərcləri hədsiz artıra və beynəlxalq yük daşımalarını yubada bilər. Bir sıra ATƏT hökumətləri, o cümlədən Albaniya, Ermənistan, Bosniya və Hersoqovina, Gürcüstan, KYR Makedoniya, Moldova və Rumıniya əksər xarici ticarət prosedurlarını əhatə edən kompüterləşdirilmiş ASYCUDA gömrük idarəetmə sistemini (Gömrük Məlumatlarının Avtomatlaşdırılmış Sistemi)8 tətbiq etməklə gömrük sənədləşdirməsi yükünü azaltmışdır.

- Uzun-uzadı qeydiyyat və təsdiqetmə prosedurları. Bu prosedurlar yeni biznesə başlamaq, kommunal xidmətlər əldə etmək, daşınmaz əmlak sövdələşmələrini başa çatdırmaq və s. üçün tələb olunan vaxtı uzada bilər. Bu cür hallar investoru ona görə narahat edir ki, ləngimələr onun xərclərini artırır və nəticədə o, hətta bazardakı mövqeyini də itirə bilər. Eyni səbəbdən, investorlar lazımsız qaydaların aradan qaldırılması istiqamətində irəliləyişlər edən ölkələri qəbul edir və onlara meyl edirlər.

  a. Belə ölkələrdən biri Serbiya olmuşdur. BMK Serbiya Respublikasını 2004-cü ildə dünyanın bir nömrəli tənzimləyici qaydaların islahatçısı elan etdi. Bu qiymətləndirməni əsaslandırarkən BMK-in qeyd etdiyi məqamlardan biri də o olmuşdur ki, Serbiya yeni biznesə başlamaq üçün tələb olunan prosedurlar vaxtının 51 gündən 15 günədək azaldılmasını nəzərdə tutan yeni normativ sənəd qəbul etmişdir.
  b. 2005-ci ildə Ukrayna Parlamenti Verxovnaya Rada biznes fəaliyyətləri üçün icazələr sisteminə dair yeni bir qanun qəbul etdi. Bu qanunun qəbul edilməsində məqsəd Ukraynanın 167 qanun, Nazirlər Kabinetinin 150 sərəncamı, həmçinin bələdiyyələr və dövlət idarəetmə orqanları tərəfindən qəbul edilmiş 1500-dən çox tənzimləyici norma ilə idarə edilən təxminən 1200 biznes növü ilə əlaqədar tənzimləmə tələbləri labirintini sadələşdirmək idi. Qanunun qəbul edilməsi ilə əlaqədar Ukrayna prezidentinin nitqində deyilirdi ki, yeni qanunvericilik cəmi bir günə 1000-dən çox lazımsız normativ tələbləri ləğv edəcək.

Qaydalarda islahatlaınr aparılması üsulları - Gilyotin Yanaşması. İqtisadi inkişafa təkan vermək məqsədilə bir çox ölkələr illər boyunca toplanmış ikimənalı, təkrarlanan və qeyri-effektiv biznes qaydaları labirintindən çıxmalıdır. Tənzimləmə islahatı ənənəvi olaraq «aşağıdan yuxarı» yanaşması həyata keçirilib: islahatçılar «problematik» qaydaları müəyyən edib aradan qaldırmağa cəhd göstəriblər, qaydalar strukturunun qalan hissəsi isə toxunulmamış qalıb. Bu yanaşmada mövcud qaydalar günahsızlıq prezumpsiyası qazanır və islahat, bir qayda olaraq, çox asta, hissə-hissə və çox vaxt qeyri-müvafiq tərzdə həyata keçirilir.

Tənzimləmə islahatlarının nisbətən yeni üsuluna «gilyotinləmə» kimi tanınan «yuxarıdan aşağı» yanaşması tətbiq edilir. Gilyotinləmə üsulu tədbiq edilərkən müəyyən bir tənzimləmə sahəsi müəyyən edilir və konkret vaxt ərzində - "gilyotinləmə tarixi"ndə həmin sahə təhlil edilir və müvafiq islahat aparılır. Mövcud qaydaların qanuniliyini nəzərdə tutan ənənəvi prezumpsiyanın əksi baş verir: verilmiş vaxt çərçivəsində həmin sahə ilə əlaqədar bütün qaydaların zəruri, qanuni və bazaryönümlü olması nümayiş etdirilmirsə, onlar gilyotinləmə tarixində ləğv edilir.

Qaydaların gilyotinlənməsi adətən bir neçə mərhələdə baş verir. Əvvəlcə, qanunvericilik gilyotinləmə prosedurunu təsis edən qanunu qəbul etməlidir. Sonra hökumət bütün dövlət orqanlarını mövcud qaydaların inventarının hazırlanmasına cəlb edir. Hər bir qayda yazılı şəkildə müəyyən tarixlə təsdiq edilməlidir, yoxsa avtomatik olaraq ləğv olunar. Sonra hər bir qayda tənzimləyici orqanların, müstəqil araşdırma qurumunun və müvafiq səhmdar qruplarının yoxlamalarından keçir. Bu yoxlamalar ərzində hər bir qayda üç testdən keçməlidir; bu zaman müxtəlif suallar verilir. Bunlara aşağıdakılar daxil ola bilər:

- Qanunilik. Dövlət orqanının mövcud qanunvericiliyə əsasən bu normativ aktı qəbul etmək üçün hüquqi səlahiyyəti varmı? Normativ akt daha yüksək səviyyəli qanunvericilik aktlarına uyğun gəlirmi?

- Zərurilik. Bu normativ akt bütünlükdə cəmiyyətin mənafeyi üçün nəzərdə tutulub, yoxsa əsasən ayrıca bir hökumət orqanının və ya imtiyazlı bir qrup şəxsin xeyrinə qəbul edilib? Normativ aktın qəbuluna səbəb olan problem hələ də mövcuddurmu? Əgər mövcuddursa, normativ akt həmin məqsədə nail olmaq üçün diqqətlə ölçülüb-biçilibmi? Bu tənzimləmənin doğurduğu xərclər səbəb olduğu gəlirlərlə özünü doğruldurmu?
- Bazarayönümlülük - Normativ akt aydın və birmənalıdırmı? Normativ akt biznes fəaliyyəti xərclərinin lazımsız artımına səbəb olurmu?

Bu yoxlamalardan çıxa bilməyən normativ aktlar ya ləğv edilir, ya da meyarlara uyğun gəlmək üçün yenidən yazılır. Bu meyarlara uyğun gələn normativ aktlar mərkəzləşdirilmiş siyahıya daxil edilir. Gilyotinləmə tarixi çatanda siyahıda olmayan normativ aktlar avtomatik ləğv edilir.

Bir sıra ölkələr, o cümlədən Moldova, Meksika, Keniya və Koreya öz tənzimləmə islahatlarında gilyotinləmə üsulunu tətbiq etmişlər. İslahatın necə həyata keçirilməsindən asılı olaraq nəticələrin fərqli olmasına baxmayaraq, bu günə qədər toplanmış məlumatlardan görünür ki, gilyotinləmə lazımsız bürokratiyanın azaldılmasının və daha diqqətlə nəzərdən keçirilmiş tənzimləyici sistemin formalaşdırılmasının effektiv üsulu ola bilər.

# *Daşınmaz əmlak*

Əksər biznes sahələri üçün torpaqdan istifadə və ya torpağı almaq imkanlarının olması vacibdir və torpaq bazarları tarazlaşdırılmış iqtisadi inkişaf üçün zəruri əhəmiyyət daşıyır. ATƏT ərazisinin əksər hissəsində özəl torpaq sahibkarlığı cəmi on beş il bundan əvvəl demək olar ki, mövcud deyildi. Post-sovet dövrünün ilk mülkiyyət islahatlarından bəziləri daşınmaz əmlakın özəlləşdirilməsi ilə əlaqədar olmuşdur. Lakin erkən ümumi qanunvericilikdə effektiv icra üçün tələb olunan konkretlik çatışmırdı. Xarici İnvestisiyalar üzrə Məsləhət Xidmətinin (XİMX-in) son vaxtlar apardığı tədqiqatda qeyd edildiyi kimi, torpaq bazarları üçün fəaliyyətlər strukturunun yaradılması vaxt və gərgin səylər tələb edir:

> *Zəmanətli mülkiyyət hüquqları, şəffaf qiymətlər, həmçinin effektiv icazə prosesləri və torpaq vergisi sistemləri vasitəsilə torpaq və binaların alınmasını təmin edən torpaq bazarları əlverişli biznes mühiti üçün zəruri elementdir. Bununla belə, bu cür bazarların yaradılması xüsusilə də torpaqların əksər hissəsinin hələ də dövlət tərəfindən idarə edildiyi, əsassız və ziddiyyətli iddiaların mövcud olduğu yerlərdə uzun, mürəkkəb və siyasi cəhətdən riskli bir proses ola bilər.*[10]

İqtisadçılar sağlam torpaq bazarlarının inkişafı üçün üç əsas elementin tələb olunduğunu bildirirlər: (1) «kimin torpağa sahib olması və torpaqla əlaqədar digər hüquqlara malik olması haqqında dəqiq, baha başa gəlməyən və hüquqi məlumat»ı təmin edən qeydiyyat sistemi, (2) daşınmaz əmlak üçün hüquqi çərçivə/ struktur və (3) torpaqla əlaqədar məsələlərlə məşğul olan peşə sahəsi.[11] Bu elementlərin inkişafında Gürcüstan Respublikasının təcrübəsi aşağıda təsvir edilib. Nöqsanların olmasına baxmayaraq, Gürcüstan nümunəsi öz iqtisadiyyatlarında daşınmaz əmlakın mövqeyini möhkəmlətmək arzusunda olan keçid dövrü iqtisadiyyatları üçün əyani nümunədir.

Hüquqi çərçivə. 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra Gürcüstan Respublikası özəl torpağa mülkiyyət hüququnu tətbiq etmək və torpaq bazarları sistemini işləyib hazırlamaq istiqamətində bir sıra qanunlar qəbul etmişdir. Bu qanunlar əvvəlcə torpaq mülkiyyətini özəl əllərə təslim edən qanunvericilik aktlarından və fərmanlardan ibarət idi. Lakin daşınmaz əmlakla əlaqədar hüquq və öhdəliklər kifayət qədər dəqiq müəyyənləşdirilməmişdi. Bu çatışmazlıqların çox hissəsi Mülki Məcəllədə düzəlişlər edilməsi yolu ilə artıq aradan qaldırılıb. 1997-ci ildə Mülki Məcəllədə dəyişiklik edildi və daşınmaz əmlaka «yeraltı minerallar, torpağın üzərində bitən bitkilər və torpağa əsaslı şəkildə bitişik bina və strukturlarla birlikdə torpaq sahəsi» kimi müfəssəl tərif verildi. Cari Mülki Məcəllədə daşınmaz əmlak üzərində sahibkarlıq hüququnun əldə edilməsinin ümumi üsulları (183-85-ci maddələr) və çoxmənzilli binalarda mənzillər üzərində sahibkarlıqla əlaqədar hüquq və öhdəliklər (208-38) təsvir edilir və icarələr, başqasının əmlakından və müvafiq gəlirlərindən zərər yetirməmək şərtilə istifadə etmək hüququ, tikmək hüququ və pulsuz müvəqqəti istifadə etmək hüququ da daxil olmaqla servitud (başqalarının əmlakından istifadə etmək hüququ - tərc.) ilə əlaqədar tətbiq edilən qaydalar müfəssəl şəkildə əks etdirilir. Tikinti işinin maliyyələşdirilməsi üçün zəruri tədbir olan daşınmaz əmlaka əlavələr haqqında qanuna aydınlıq gətirmək üçün Mülki Məcəlləyə İzahatda qeyd edilir ki, «torpağa əsaslı şəkildə bitişik» dedikdə, torpaqdan kənarlaşdırılmasının böyük səy və xərclər tələb etdiyi və ya həddən çox zərərə səbəb olacağı obyektlər nəzərdə tutulur.

Hüquqların qeydiyyatı sistemi. 1996-cı ilə qədər Gürcüstanda torpaq hüquqlarının qeydiyyatı üzrə məsuliyyət iki təşkilat: özəlləşdirilmiş binalar, strukturlar və mənzillərlə məşğul olan Texniki İnventarlaşdırma Bürosu və kənd təsərrüfatı torpaqları üzərində hüquqları qeydiyyatdan keçirən Torpaq Kadastrı Departamenti arasında bölüşdürülmüşdü. Bu ikili sistemin yaratdığı uyğunsuzluqlara və xətalara görə 1996-cı ildə "Torpaqların qeydiyyatdan keçirilməsi haqqında" qanuna əsasən həmin iki qeydiyyat təşkilatının funksiyalarını özündə birləşdirən və Torpaq İdarəetməsi üzrə Dövlət Departamentinin nəzdində Dövlət Reyestri yaradıldı və bundan sonra torpaq və daşınmaz əmlakla əlaqədar hüquqların yaradılması, köçürülməsi, məhdudlaşdırılması və ya ləğv edilməsi üzrə bütün əməliyyatlar Dövlət Qeydiyyat Şöbəsi tərəfindən həyata keçirilməyə başladı. Daşınmaz əmlakda səhm iştirakı yaradan sövdələşmələr Dövlət Reyestrində yalnız o zaman qeydiyyatdan keçirilə bilər ki, bu iştirak yazılı sənədlə sübut edilsin və notariusda təsdiqlənsin. Dövlət Reyestrində olan qeydlər ictimai yoxlamalar üçün açıqdır və üçüncü tərəf onlara istinad edə bilər. Mülki Məcəllənin 312-ci maddəsinə əsasən, əksi sübut olunmayana qədər qeydiyyataalma tam və dəqiq hesab olunur. Hər hansı bu cür qeydiyyataalmanın etibarlılığını Dövlət Reyestrinə ərizə təqdim etməklə və ya Dövlət Reyestri əleyhinə məhkəmə iddiası qaldırmaqla təkzib etmək olar.

Daşınmaz əmlak peşəsi. Gürcüstanın Daşınmaz Əmlak Assosiasiyası 1999-cu ildə Tbilisi şəhərində təsis edilmişdir. 100-dən çox üzvü olan assosiasiya daşınmaz əmlak brokerləri və agentləri üçün təlimlər keçirir və lisenziyalaşdırma funksiyalarını icra edir.

Gürcüstanın daşınmaz əmlak hüquqları sisteminin formalaşdırılması prosesi hələ də davam edir. Bununla belə, onun məntiqiliyi və nisbi sadəliyi dəyişkən torpaq bazarlarının inamla qurulması üçün möhkəm təməldir.

## Kommersiya və sənaye məqsədləri ilə istifadə üçün torpaq çatışmazlığı probleminin həlli

Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin bir çoxunda torpağın kommersiya və sənaye məqsədləri ilə əldə edilməsini çətinləşdirən qanun və qaydalar hələ də qalmaqdadır. Torpaq olmadan, biznes sahələri özlərinə şərait yarada bilməz. Uzunmüddətli investisiya öhdəlikləri götürmüş və torpaqdan istifadəyə, obyektlərin tikintisinə, işçilərin işə götürülməsinə və vergilərin ödənməsinə görə milyonlarla avro xərcləyən şirkətlər torpaq sahibkarlığından bəhrələnməyə ümid edir. Şirkətlərə artıq mövcud olan, köhnəlmiş müəssisələri təklif etmək investorların cəlb edilməsi və ya müəssisələrin rəqabətədavamlılığına nail olmaq üçün səmərəli üsul deyil. Bir çox şirkətlərin torpaq sahibkarlığına dair «biznes modeli» var və onlar torpağa sahib ola bilməyəcəyi yerləri nəzərdən belə keçirmir. Xarici investorlar yerli torpaq sahibi ilə hər hansı bir mübahisənin yarandığı təqdirdə məsələnin ədalətli həllinə nail ola bilməyəcəyindən çəkinir.

Əksər ATƏT ölkələri xarici investorlara torpaq almaq və ya uzunmüddətli torpaq icarələri əldə etmək imkanında olan yerli şirkətlər yaratmağa icazə versələr də, bəzi ölkələrdə xaricilərin torpaq üzərində sahibkarlığı birbaşa qadağan edilir. Yeni obyektlərin tikintisi üçün istifadəyə yararlı torpaqların hamısının və ya əksər hissəsinin kənd təsərrüfatı torpaqları kimi təsnif edilməsi məsələni daha da mürəkkəbləşdirir. Kənd təsərrüfatı torpağının kommersiya və ya sənaye məqsədləri üçün istifadə edilən torpaqlara çevrilməsi çox vaxt vergi ödənişləri də daxil olmaqla uzun-uzadı bir proses olur və bəzən bunun üçün hətta parlament aktının verilməsi tələb olunur. Əgər iqtisadiyyatlar xarici investisiya cəlb etmək və KOM-ları inkişaf etdirmək istəyirsə, biznes sahələrinin praktik qiymətlərlə torpaqla təmin edilməsi istiqamətində işlər görməlidir.

Ənənəvi olaraq, yaşayış torpaqları ən bahalı torpaqlar hesab edilir. Bunlardan sonra kommersiya, sənaye və kənd təsərrüfatı torpaqları gəlir. Şərqi Avropa ölkələrində bazarlar bu baxımdan bir qədər təhrif edilmiş istiqamətə meyl edir. Kommersiya və ya sənaye torpaqları kimi təsnif edilən torpaqların çatışmaması nəticəsində sənaye torpaqlarının hər kvadrat metri üçün təyin edilən qiymət yaşayış torpaqlarının qiymətinə çox yaxınlaşıb. Ukraynadan torpaq mülkiyyəti agentləri məlumat verir ki, torpaq çatışmazlığı ucbatından burada yeni obyektlərin tikintisi üçün istifadəyə yararlı torpaqların qiyməti Macarıstan və Polşa kimi ölkələrdə olduğundan üç dəfə bahalıdır.

Aşağıda biznes məqsədləri ilə istifadə edilən torpaqların çatışmazlığından əziyyət çəkən iqtisadiyyatlar üçün ən yaxşı təcrübələr göstərilmişdir:

- xarici müəssisələrə torpağı ən azı uzun müddətə icarəyə götürmək və yaxşı olardı ki, torpağı almaq və ona sahib olmaq hüquqlarının verilməsi;
- dövlətə məxsus torpağın özəlləşdirilməsi və tender, hərraclar yolu ilə və ya kommersiya brokerinin iştirakı ilə sahibkarlara satılması;
- torpaq kadastrına dair müasir qanunun yaradılması; USAID və Dünya Bankı torpaqla əlaqədar hüquqların verilməsi, bu məsələnin tənzimlənməsi, monitorinqi və inkişafı üzrə hüquqi çərçivə yaratmaqla bu istiqamətdə texniki yardım göstərmişlər;
- torpaq üzərində hüquqların verilməsi ilə əlaqədar bütün əməliyyatları əhatə edən vahid elektron torpaq qeydiyyatı sisteminin yaradılması;
- milli təhlükəsizlik, ətraf mühitin mühafizəsi, tarixi abidələrin mühafizəsi və sair kimi səbəbləri istisna etməklə yerli orqanlara kənd təsərrüfatı torpağının sənaye torpağına çevrilməsi ilə əlaqədar torpaqları yaşayış, kommersiya, sənaye və ya kənd təsərrüfatı torpaqları kimi təsnif etmək hüququnun verilməsi və bu prosesin vergilərdən azad edilməsi;
- hökumətin yerli bələdiyyələri torpaqdan istifadə planlarının işlənib hazırlanmasında və potensial layihələr üçün sənaye torpaqları zolaqlarının ayrılmasında dəstəkləməsi və beləliklə də, investorların torpağı sənaye zolağına çevirmək əziyyətlərindən azad edilməsi.

Sənaye məqsədləri ilə torpaq islahatları haqqında ən yaxşı təcrübələrə dair ətraflı məlumatı Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının www.fao.org veb ünvanında Şərqi Avropada Torpaq İslahatı, Qərbi MDB, Zaqafqaziya, Balkanlar və Aİ-yə Daxil Olan Ölkələr məqaləsində tapmaq olar.

## Müqavilə hüquq və azadlıqları

Vəsaitdə daim təkrar olunan mövzu iqtisadi inkişaf və xarici investisiyaların cəlb edilməsi üçün iqtisadi münasibətlərdə sərbəstliyin və sabitliyin tələb olunması məsələsidir. Bu ehtiyac xüsusilə də müqavilə münasibətlərində böyük əhəmiyyətə malikdir. İnvestorlar və biznes adamları ümumiyyətlə hər hansı bir sövdələşmənin sərhədlərinin dövlət tərəfindən qoyulmuş arzuedilməz şərtlərlə deyil, danışıqlar və razılaşmalar yolu ilə müəyyən edilməsi sərbəstliyini istəyirlər. Onlar həmçinin müqavilə bağlandıqdan sonra onun hər hansı bir mübahisə halında məhkəmə tərəfindən etibarsız elan edilməsi və ya yenidən tərtib edilməsi deyil, yazıldığı kimi də icra ediləcəyinə əminlik əldə etmək arzusundadırlar.

«Müqavilə sərbəstliyi» anlayışı - müqavilə tərəflərinin «əməkdaşlıqdan və mübadilədən mənfəət əldə etmək məqsədilə əks halda malik ola biləcəyi hüquqi imkanların məhdudlaşdırılması ilə könüllü olaraq razılaşmaları»[12] – iqtisadi inkişaf üçün mühüm əhəmiyyət kəsb edir.[13] Əlbəttə, bütün ölkələr müqavilə sərbəstliklərinin üzərinə müəyyən məhdudiyyətlər qoyurlar.[14] Dövlətlərin əhəmiyyətli dövlət siyasətlərini pozan müqavilələrin qadağan edilməsində qanuni marağı var. Həqiqətən də, konkret yollarla (məsələn, işəgötürmə münasibətlərində saatların maksimal sayını və ayrı-seçkiliyə yol verilməməsi tələblərini irəli sürməklə, istehlakçı sövdələşmələrində fırıldaqçılığı və müamiləçiliyi qanunsuz elan etməklə, və ya rəqiblər arasında qiymətqoyma sövdələşmələrini qadağan etməklə) müqavilə azadlığını məhdudlaşdıran bəzi qanunlar güclü iqtisadi inkişafı dəstəkləyə və hətta ona təkan da verə bilər. Lakin bəzi siyasətlər, məsələn, xarici investorları yerli şirkətlərlə tərəfdaşlıq qurmağa məcbur edən, və ya dövlətlərə hər hansı bir firmanın öz özəl müqavilələrini hansı qiymətlərə əsasən bağlamasına birbaşa və ya dolayı yolla nəzarət etmək imkanı verən siyasətlər iqtisadi artıma maneçilik törədə bilər. Bəzi məhdudiyyətlər, məsələn, özəl tərəflərin seçim imkanlarını lazımsız yerə məhdudlaşdıran, yerli maraqların xaricilərin hesabına qorunmasını nəzərdə tutan məhdudiyyətlər, və ya məhkəmələrə müəmmalı ədalətlilik və bərabərlik anlayışlarına istinad edərək tərəflərin sövdələşməsini kökündən dəyişmək hüququ güclü iqtisadi inkişafın özüllərini sarsıda bilər. Aşağıda müqavilə sərbəstliyi/azadlığı üzərinə qoyulan məhdudiyyətlərə dair nümunələr verilir:

- Müəyyən müqavilələr üçün icbari forma tələbləri. Bəzi ölkələrin qanunları müəyyən kommersiya sövdələşmələrinin dəqiq ifadə edilmiş formada olmasını və tərəflərin hüquq və vəzifələrinin dəyişməz şəkildə müəyyənləşdirilməsini tələb edir. Düzdür, elə hallar ola bilər ki, bu tələb orada məqsədəuyğun hesab edilər, lakin hökumətlər qanunvericiliyin özəl münasibətlər üzərində icbari şərtlər təyin etməsinə ehtiyatla yanaşmalıdır. Ümumilikdə, kommersiya fəaliyyətlərinin iştirakçıları hansı riskləri öz üzərilərinə götürəcəklərini özləri müəyyən etmək istəyirlər. Kommersiya sövdələşmələrinin şərtlərini təyin etməklə hökumətlər sövdələşmələrin qurulması prosesində yaradıcılıq amilini cilovlayır və əhəmiyyətli sayda biznes əməliyyatlarına maneçilik törədir.

- Kommersiya sövdələşmələri üzərində məhdudiyyətlər. Şərqi Avropa ölkələrindən birinin son vaxtlar qəbul etdiyi qərara əsasən, kommersiya fəaliyyətləri ilə məşğul olan şirkətlər və ayrı-ayrı şəxslər (müəyyən istisnalar olmaqla) barter müqavilələri bağlaya bilməz və müqavilənin ləğvinə görə novasiya və ya kompensasiya üsulu ilə qarşılıqlı öhdəlikləri yerinə yetirə bilməz, bunları yalnız pul ödəməklə edə bilər16. Bu qərar AYİB tərəfindən «hüquqi şəxslərin və fərdi sahibkarların yolveriləbilən sövdələşmələrini əhəmiyyətli dərəcədə mədudlaşdıran» qərar kimi qiymətləndirilmişdir. .[16]

- Müqavilələrlə əlaqədar yaranan münaqişələrin arbitraj məhkəmələrində həll edilməsi hüququ ilə əlaqədar məhdudiyyətlər. Bu fəsildə sonralar da qeyd ediləcəyi kimi, tərəflərin kommersiya mübahisələrini arbitraj məhkəməsində həll etmək imkanı müasir kommersiya hüquq sistemlərinin əhəmiyyətli tərkib hissəsidir. Buna baxmayaraq, bir çox ölkələrin qanunları tərəflərə öz münaqişələrini qəti olaraq arbitraj məhkəmələrində həll etməyə icazə vermir. Bu ölkələrdə tərəflərdən hər hansı birinin hətta arbitraj məhkəməsinin xeyrinə ədalət məhkəməsindən birmənalı olaraq imtina etməyə razılaşdıqdan sonra belə, arbitraj variantından imtina edərək iddianı məhkəmələrə təqdim etmək hüququ saxlanılır. Bu cür qanunlar «tərəflərin müqavilə sərbəstliklərini məhdudlaşdırdığına və hər hansı faydalı bir funksiyanı icra etmədiyinə görə geniş tənqidlərə məruz qalırlar»”[17]

## Biznesin formaları

Sənaye inqilabına qədərki dövrdə biznes fəaliyyəti ilə adətən ayrıca və ya tərəfdaşlıq qurmaqla birgə şəkildə fəaliyyət göstərən fiziki şəxslər məşğul olurdular. Bu cür tərəfdaşlıqlar hələ də müasir kommersiya strukturunda çox əhəmiyyətli mövqeyə malikdir. Bununla belə, fərdi və ya ümumi tərəfdaşlıq şəklində biznesin qurulması adətən ən azı bir mühüm problemi, daha dəqiq desək, həmin şəxsin və ya tərəfdaşların qeyri-məhdud öhdəliklə

üzləşməsi ehtimalını doğurur; yəni, əgər biznes uğursuz olarsa, onun sahibləri bütün müvafiq borclara görə hətta əgər həmin borclar sahibkarın biznesə qoyduğu investisiyanın məbləğindən çox olsa belə, məsuliyyət daşımalı olacaqlar. Daha böyük investisiya yatırımlarını və risk qəbulunu dəstəkləmək məqsədilə dövlətlər çoxdan bəri qanunvericilik subyekti olan və öz sahibkarlarından ayrı mövqeyə malik olan hüquqi şəxsi - korporasiya (həmçinin societe anonyme və ya Aktiengesellschaft kimi də tanınır) biznes formasına icazə vermişlər. Fövqəladə halların baş vermədiyi təqdirdə hər hansı bir korporasiyaya investisiya qoyan şəxslərin itirə biləcəyi ən böyük şey öz səhmlərini almaq üçün xərclədikləri məbləğ olur.

Korporasiyalar üzvlərinin məhdud məsuliyyət daşıdıqlarına görə biznesin həmişə ən geniş yayılmış təşkilati-hüquqi forması olub və indi də qalmaqdadır. Lakin müasir kommersiya mürəkkəbliklərinin tələblərinə görə, bugünkü investorlar təsis edəcəkləri biznes sahəsinin forması ilə əlaqədar bir çox variantlara malik olmalıdırlar. Nəticədə bir sıra ölkələr korporasiyaların və tərəfdaşlıqların müxtəlif atributlarını özündə birləşdirən biznesin yeni təşkili formalarını yaratmışdır. Onların arasında Fransanın «societe a responsabilite limitee» (SARL), Almaniyanın «Gesellschaft mit beschränkter Haftung» (GmbH), və Amerikanın «limited liability company» (LLC) (məhdud məsuliyyətli cəmiyyət, MMC) formaları vardır. Bu biznes qurumlarının bəziləri beynəlxalq müştərək müəssisələrin yaradılması zamanı üstün tutulan biznesin təşkili formalarına çevrilmişdir.

Ümumiyyətlə, dövlətlər biznesin müxtəlif təşkili formalarını tətbiq etməlidir ki, investorlar onların arasından öz şəraitlərinə ən uyğun gələnini seçə bilsinlər. Hüquqi cəhətdən müstəqil şəxslər olmaqdan əlavə, bu biznesin təşkili formalarına həmçinin biznes quruculuğunun müxtəlif müqavilə formaları da daxil edilməlidir. Bunlardan biri də franşizdir. Franşiz alan (adətən kiçik bir biznes) ilə franşiz verən (adətən daha böyük biznes) arasında müqavilə zəminli münasibətlər qurulur. Bu münasibətlərdə franşiz alan mal və ya xidmətləri franşiz verənin işləyib hazırladığı "biznes sistemi"nə müvafiq olaraq istehsal etməyə və ya satmağa razılaşır. Franşiz verənin isə franşiz alanı davamlı yardım və məsləhətlə, ticarət nişanı lisenziyaları ilə, tədqiqat və dəstək, həmçinin marketinq və reklam işlərində köməklə təmin edir. Adətən franşiz alan bu münasibətlərə görə imtiyazların təminatçısına, yəni franşiz verənə müəyyən ödəniş ödəyir və beləliklə də, ondan müxtəlif məhsulları ala bilir. Müasir biznes franşizi haqqında qanunvericiliyi qəbul etməklə ATƏT ölkələri daha böyük daxili investisiyaları, texnologiya qəbulunu, özəl keyfiyyətə nəzarət standartlarının inkişafını və sağlam biznes mühitinə gətirib çıxaracaq digər müsbət amilləri dəstəkləyə bilərlər.

## *Korporativ idarəetmə*

Effektiv korporativ idarəetmə sistemi (yəni, biznes müəssisələrinin idarə olunduğu, istiqamətləndirildiyi və nəzarət edildiyi proseslər, gömrük, siyasətlər, qanunlar və müəssisələr toplusu) investorları şirkətlərin səhmlərinə yatırmağa ruhlandırmaq üçün zəruri amildir. Adekvat hüquqi mühafizənin olmaması o deməkdir ki, səhmdarların hər hansı bir şirkətdəki maraqları şirkətin məsul şəxsləri və ya digər səhmdarları tərəfindən qeyri-qanuni mənimsəmələrə və ya zəifltmələrə məruz qala bilər. Aktivlər həm səhmdarların, həm də kreditorların zərərinə şirkətdən oğurlana bilər. Şirkətin heyətindən olanlar və şirkətin sirlərini bilənlər bazar qiymətlərindən aşağı qiymətlərlə sövdələşmələr qura və ya səhmləri sata bilərlər. Qeyri-dəqiq və ya natamam maliyyə məlumatları kreditorları şirkətlərə kredit verməkdən çəkindirə bilər.

Bu təcrübələrin mənfi nəticələri təkcə səhmdarların və kreditorların birbaşa zərər çəkməsi ilə bitmir. Əksinə, bu cür hallar bütövlükdə korporasiya sisteminə olan inama xələl gətirir və beləliklə də, bizneslərin kapital artırmaq və investisiya cəlb etmək bacarığını ümumiyyətlə zəiflədir. Bundan əlavə, düzgün korporativ idarəetmə təcrübələrinin olmamasının əlavə təsiri qiymətli kağızlar ikinciəl ticarətinə xələl gətirməsidir; bu ticarətdə artıq mövcud olan səhmlər satıla, alına və yenidən satıla bilir. Bu isə kütləvi özəlləşdirmələr zamanı dövlətə məxsus müəssisələri özəlləşdirmiş və səhmləri milyonlarla vətəndaşın əlinə vermiş keçid iqtisadiyyatlarına qeyri-mütənasib mənfi təsir göstərə bilər. Güclü ikinciəl bazarların olmadığı halda «ilkin özəlləşdirmənin qeyri-effektiv sahibkarlara vurduğu zərəri sonradan sahibkarlıq hüquqlarının ticarəti ilə bərpa etmək çox çətindir»[18]

Digər tərəfdən, müvafiq açıqlığı və şəffaflığı, səhmdarların və kreditorların hüquqlarının səmərəli mühafizəsini, həmçinin məsuliyyətlərin hakimiyyət orqanları arasında aydın bölüşdürülməsini təmin edən idarəetmə prosedurları və təcrübələri isə effektiv və davamlı bazarların yaranmasına və genişlənməsinə gətirib çıxara bilər.

İƏİT bu problemləri həll etmək üçün geniş ictimaiyyət tərəfindən alqışlanmış prinsiplər toplusunu, İƏİT prinsipləri kimi də tanınan Korporativ idarəetmə prinsiplərini işləyib hazırlamışdır.19 İƏİT prinsipləri investorların inamını və iqtisadi inkişaf potensialını maksimum səviyyəyə çatdıran

hüquqi, təşkilati və tənzimləyici çərçivələrin bünövrəsini qoyur. İƏİT prinsipləri sayca altıya bərabərdi və hər birinə dair müfəssəl tövsiyələr verilir. İƏİT prinsiplərinin əhatə etdiyi altı məsələ aşağıdakılardan ibarətdir:

- bütün səhmdarlarla (xarici və azlıqlar da daxil olmaqla) ədalətli davranış;
- səlahiyyətlərin idarəedici və tənzimləyici orqanlar arasında aydın bölüşdürülməsi;
- ümumi mənafeyə nail olunması üçün şirkət və onun bütün səhmdarları arasında əməkdaşlıq;
- şirkətin maliyyə işləri və əməliyyatlarında şəffaflıq və maraqlı tərəflərin bu məsələlər barəsində məlumatlandırılması;
- daxili informasiyadan istifadənin qarşısının alınması;
- şirkətin məsul şəxslərinin və direktorlar şurasının idarəetmə və nəzarətetmə funksiyalarını effektiv icra etməsi, o cümlədən, onların səhmdarlar qarşısında cavabdehliyi.

Bütün ATƏT ərazisində düzgün idarəetmənin inkişafı məsələlərində iştirak edən ATƏT sözügedən prinsipləri də güclü surətdə dəstəkləyir. ATƏT də daxil olmaqla beynəlxalq təşkilatların köməyi ilə bir sıra ATƏT dövlətləri özlərinin korporativ idarəetmə ilə əlaqədar hüquqi çərçivələrinin möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə etmişlər. Aşağıda həmin ölkələr tərəfindən atılmış bəzi müsbət addımlar təsvir edilir.

Səhmdarların hüquqlarının qorunması. Mövcud səhmdarları şirkətdəki maraqlarının zəifləməsindən mühafizə etmək məqsədilə Moldovanın müştərək müəssisələr haqqında qanununda[20] səhimlərin köçürmə əməliyyatından əvvəl bütün səhmlərin haqqının tam ödənişi tələb olunur. Qeyd edilən qanunda səhmdarların digər təhlükələrdən mühafizəsi də qeyd edilir:

- müstəqil bir təşkilat tərəfindən səhmlərin qeydiyyatı reyestrinin aparılması və orada səhm sahibkarlarının da göstərilməsi tələb olunur;

- dividendlərin səhmdarların iclasında təsdiq edilməsi tələb olunur;

- şirkətin audit yoxlamasından keçmiş illik hesabatının səhmdarların iclasında təsdiq edilməsi tələb olunur;

- dividendlərin səhmdarlar arasında onların şirkətdəki paylarına mütənasib şəkildə bölünməsi tələb olunur;

- mövcud səhmdarlara yeni buraxılan səhmləri öz səhmdar mövqelərinə mütənasib şəkildə almaq üçün üstün hüquqların verilməsi;

- aşağıda qeyd edilən məsələlərdən hər hansı birinin əleyhinə səs verən hər bir səhmdara müstəqil qiymətləndirmə ilə müəyyən edilən qiymətə öz səhmlərini həmin şirkətə satmaq hüququnun verilməsi tələb olunur:
  - şirkətin nizamnaməsində dəyişikliyin edilməsi;
  - əlavə səhmlərin buraxılması;
  - ittifaq yaratma və ya yenidən təşkiletmə;
  - fəaliyyətin başa çatdırılması və ya könüllü təsviyyə/ ləğvetmə; və/ və ya
  - hər hansı bir sinfə daxil olan səhmlərlə əlaqədar xüsusi hüquqlarda dəyişikliyin edilməsi.

2005-ci ildə Azərbaycan özünün müştərək müəssisələr haqqında qanununda dəyişiklik etmişdir; dəyişikliyə əsasən, şirkətin aktivlərinin xalis dəyərinin 25 faizindən çoxunu təşkil edən sövdələşmələr səhmdarların ümumi iclasında təsdiq edilməlidir.[21]

2003-cü ilin aprel ayında Qırğızıstan Respublikası müştərək müəssisələr haqqında yeni bir qanun qəbul etdi; bu qanun şirkətlərin korporativ idarəetməsilə bağlı hüquqi çərçivəsində mühüm irəliləyiş kimi qiymətləndirilir. Digər xüsusiyyətləri ilə bahəm, yeni qanun səhmdarların ümumi iclasının səlahiyyətlərini möhkəmləndirdi, azlıq təşkil edən səhmdarların hüquqlarını genişləndirdi, direktorlar şurasının funksiya və səlahiyyətlərinə aydınlıq gətirdi və səhmlərin nəzarətedici paketinin icbari alışı ilə əlaqədar tələblər irəli sürdü.

Səhmdarlara bərabər münasibət. ATƏT ölkələrinin əksəriyyətindən şirkətlər haqqında elə qanunlar tələb edir ki, eyni sinifdən olan səhmlərin sahibləri eyni səsvermə hüququna malik olsunlar. Bir qayda olaraq bu qanunlar onu da tələb edir ki, səhmləri almaqdan öncə bütün potensial səhmdarların bütün siniflərdən olan səhm sahiblərinin səsvermə hüquqları barədə məlumat əldə etmək imkanları olsun.

Şirkət ilə səhmdarlar arasındakı əməkdaşlığın təşviqi.

Əksər ATƏT ölkələrinin müflisləşməyə dair qanunlarına əsasən, kreditorların müflisləşmə araşdırmalarında qərarların qəbul edilməsi prosesində iştirak etmək hüququ vardır. Bundan əlavə, bir sıra ölkələr şirkətin idarəetmə heyəti ilə onun işçilərinin nümayəndələri arasında məsləhətləşmələrin həyata keçirilməsini dəstəkləyir.

Şəffaflıq və aşkarlıq. Ermənistanın səhmdar şirkətlər haqqında qanununa uyğun olaraq, şirkətlərdə hər il audit yoxlaması aparılmalı və aşağıdakı sənədlər saxlanaraq səhmdarlara təqdim edilməlidir:

- şirkətin dövlət qeydiyyatından keçməsini təsdiq edən sertifikat, nizamnamə və ona edilmiş düzəlişlər, şirkətin təsis edilməsi haqqında qərar və təsisat haqqında müqavilə;
- şirkətin ümumi balansında qeyd edilmiş mülkiyyət üzərində həmin şirkətin əmlak hüquqlarını təsdiq edən sənədlər;
- iclas və digər idarəetmə qurumları tərəfindən təsdiq edilmiş şirkətin daxili sənədləri;
- şirkətin ayrı-ayrı şöbələrinə və təsisatlarına dair daxili əsasnamələr;
- şirkətin illik hesabatı;
- şirkətin səhmlərinin buraxılmasına dair sənədlər/prospekt;
- mühasibat sənədləri (ümumi balans, gəlir və itkilər haqqında bildiriş, auditorun hesabatı və s.);
- dövlət idarəetmə orqanlarına təqdim edilən maliyyə və statistik hesabatlar;
- İdarəetmə Heyətinin, Nəzarət Komissiyalarının və kollegial icraçı orqanların iclaslarının protokolları;
- hesablama komissiyasının və seçki/səsvermə bülletenlərinin protokolları;
- şirkətin Nəzarət Komissiyasının (Nəzarətçisinin), şirkət auditorunun və maliyyə nəzarətini həyata keçirən mərkəzi və yerli idarəetmə qurumlarının hesabatları;
- şirkət ilə qarşılıqlı əlaqədə olan şəxslərin (onlara məxsus olan səhmlərin sayları göstərilməklə), həmçinin əhəmiyyətli və böyük səhmdarların siyahıları;
- şirkətin bağladığı müqavilələr.

Ermənistanın səhmdar cəmiyyətlər haqqında qanununda həmçinin "açıq" tipli şirkətlərin (səhmləri məhdudiyyətsiz ötürülə bilən şirkətlər) aşağıdakılar haqqında məlumatları ictimaiyyətə aydın şəkildə çatdırmaları da tələb olunur:

- şirkətin illik hesabatı, ümumi balansı, həmçinin gəlirləri və itkiləri haqqında məlumatları;
- səhmlərin əldə edilməsinin açıq proses şəklində həyata keçirildiyi halda müvafiq emissiya prospekti;
- illik iclasın keçirilməsi haqqında bildirişi.

Daxili informasiyadan istifadə edərək və vicdansız aparılan əməliyyatlara dair qadağalar. Səhmlərlə daxili informasiyadan istifadə edərək sövdələşmələrin aparılmasının qarşısını almaq məqsədilə, Serbiya Respublikasının Qiymətli kağızlar və digər maliyyə sənədləri haqqında qanununun22 55-ci maddəsində qapalı tipli şirkətlərdən valyuta birjalarındakı qiymətlərə təsir edə biləcək şirkətdaxili məlumatlar haqqında dərhal açıqlama vermək tələb olunur. Bundan əlavə, həmin qanunun 62-65-ci maddələrində "xüsusi əhəmiyyətli informasiyaya" malik olan şəxslərin qiymətli kağızlar haqqında məlumatları icazəsiz olaraq açıqlaması və bu məlumatlardan istifadə edərək səhmlərin ticarəti qadağan edilir. Bu qadağalar işçilərə, vəzifəli şəxslərə, direktorlara, vəkillərə, mühasiblərə və bir sıra digər şəxslərə, o cümlədən, şirkətin səsvermə hüququ verən səhmlərinin on faizindən (10%-dən) çoxuna sahib olan səhmdarlara, asılı şirkətlərə və "xüsusi əhəmiyyətli informasiyaya malik olanlara və ya bu məlumatı məhdudiyyətlər tətbiq olan şəxslərdən əldə edənlərə" tətbiq edilir.

Vəzifəli şəxslərin və direktorların hesabatlılığı. Ermənistanın "Səhmdar cəmiyyətlər haqqında" qanununun IX fəslində bildirilir ki, vəzifəli şəxslərin idarəetmə heyətində dominantlıq etməməsi üçün şirkətin menecerlərinin şirkətin idarəetmə heyətində tutduğu yerlərin sayı 50%-dən az olmalıdır.23 Həmin qanunun 90(5) maddəsində bildirilir ki, şirkətin adi səhmlərinin bir faizinə (1%-nə) və ya daha çox hissəsinə sahib olan hər hansı səhmdarlar qrupu şirkətin icraedici şəxslərinin, direktorlarının və/ və ya menecer(lər)inin hərəkəti və ya hərəkətsizliyi ucbatından törədilmiş zərərə görə həmin şəxsləri məhkəməyə verə bilər.

## *Şəxsi mülkiyyət və zəmanətli sövdələşmələr*

İqtisadi inkişaf üçün səhmdar kapital nə qədər əhəmiyyətli olsa da, bazar iqtisadiyyatlarında iqtisadi artım üçün həmçinin kreditlərin təmin edilməsi zəruridir. Bununla belə, daimi kredit çatışmazlığı problemi bir sıra iqtisadiyyatların tərəqqisini məhdudlaşdırır. Bu da əsasən kreditorların müvafiq borcun qaytarılmaması qorxusu ilə əlaqədardır. Bu kimi tərəddüdləri praktik və effektiv üsul olan zəmanətli sövdələşmələrlə azaltmaq olar.

Zəmanətli kredit sövdələşməsində kredit alan tərəf mülkiyyət hüquqlarını öz kreditoruna ötürür ki, sonuncu kredit alanın borcunun ödənilməsi üçün həmin hüquqlardan istifadə edə bilsin. Daşınmaz əmlakın girov qoyulması kredit zəmanətinin geniş tətbiq edilən formasıdır. Lakin şəxsi mülkiyyətin də öz dəyəri var və kredit üçün girov əvəzinə şəxsi mülkiyyətdən, yəni daşınar əmlak və hüquqlardan istifadə etmək imkanının

verilməsi kredit alanlar üçün həmin kredit bazarlarına yeni giriş və öz əmlaklarından iqtisadi məqsədlə tam istifadə etmək imkanları yaradır. Şəxsi əmlakın girov şəklində istifadəsi kreditor üçün ödənişin həyata keçirilməməsi riskini azaltmaqla aşağı qiymətlərlə daha çox kredit təminatı imkanlarına gətirib çıxara bilər. Bununla belə, şəxsi əmlakın daşınar xarakterli olması daşınmaz əmlakla məşğul olan şəxslərdən fərqli yanaşma tələb etdiyinə görə, bu cür girovun faizlərinin idarə edilməsi üçün adətən ayrıca bir sistem tələb olunur.

AYİB keçid dövrü iqtisadiyyatlarının zəmanətli sövdələşmələr haqqında zamanın tələbləri ilə səsləşən qanunlar qəbul etməsi prosesində çox böyük işlər görmüşdür. AYİB-in zəmanətli sövdələşmələrə dair[24] on başlıca prinsipində sözügedən layihələrin həyata keçirilməsi üçün nəzəri bünövrə, 1994-cü ildə tərtib edilmiş “Zəmanətli sövdələşmələr haqqında” model qanununda isə müvafiq çərçivə müəyyən edilir. “Zəmanətli sövdələşmələr haqqında” model qanununun aşağıdakılar da daxil olmaqla bir sıra əhəmiyyətli xüsusiyyətləri vardır:

- girov kimi istifadə edilən bütün şəxsi və daşınar əmlak növləri üçün vahid zəmanət hüququndan (“yükləmə” kimi tanınan) istifadə edilə bilər;
- yükləmə sadəcə müqavilə hüququ deyil, kredit haqqının ödənilməməsi ilə əlaqədar hüquqi proseslərdə öz sahibinə girovsuz kreditorlarla müqayisədə müəyyən üstünlük verən bir hüquqdur;
- model qanunda söhbət yalnız biznes borcluluğu məsələsindən gedir;
- model qanunda girov tərəfləri üçün maksimal elastiklik təmin edilir və onların razılaşa biləcəyinə dair məhdudiyyətlər minimum səviyyədə saxlanılır;
- tərəflər kredit üzrə zəmanətin və girov veriləcək əmlakın müəyyən edilməsi məsələsində böyük sərbəstliyə malikdirlər. Həm hazırkı, həm də gələcək mülkiyyət girov kimi istifadə edilə bilər;
- yükləmə dövlət reyestrində qeyd edilir. Bu da kreditora zəmanətin olması haqqında xəbər verir; .
- yükləməyə dair tələb kreditorun özü tərəfindən irəli sürülə bilər, yəni müqavilə öhdəliklərinin yerinə yetirilmədiyi halda zəmanətli kreditorun girovu satmaq və əldə edilən gəliri borcun qaytarılması məqsədilə özündə saxlamaq hüququ vardır. Lakin maraqlı tərəflərdən hər hansı biri bu hüquqların düzgün olmayan tətbiqi, və ya sui-istifadəsi ilə əlaqədar məhkəməyə müraciət edə və kreditora qarşı müvafiq zərərin ödənilməsi tələbini irəli sürə bilər ;
- əgər yükləmə hər hansı bir biznesin bütün aktivlərini əhatə etmirsə, kreditorun görə biləcəyi ən optimal tədbir biznes müəssisəni tam şəkildə satmaqdır.

# *Müflisləşmə qanunvericiliyi*

İqtisadi inkişaf üçün kredit ehtiyatlarını təmin etmək məqsədilə hər bir hüquqi sistem kredit alanın nəinki vahid ödəniş öhdəliyini yerinə yetirə bilmədiyi, həmçinin borclarının aktivləri üstələməsi və/və ya pul axını və likvidliklə əlaqədar problemlərlə üzləşməsi səbəbindən öz kreditorlarına ümumiyyətlə pul ödəmək imkanını itirdiyi halları rasional şəkildə idarə etməlidir. Bu isə müflisləşmə haqqında qanunların funksiyasıdır; bu qanunlarda müflisləşmiş fiziki şəxsin və ya hüquqi şəxsin borclarını, malik olduğu vəsaitlər hesabına kreditorlara qaytarması prosedurları ifadə edilir. Müflisləşmə ilə əlaqədar bu prosedur həm də əməkdaşlıq edən borcluya maliyyə öhdəliklərinin əksər hissəsindən azad olaraq fəaliyyətə “yenidən başlamaq” imkanı verir. Bu cür prosedurlar ya borclunun aktivlərinin satılmasını və əldə edilən gəlirlərin kreditorlar arasında bölüşdürülməsini nəzərdə tutan ləğvetmə, ya da məhkəmənin çətinliyə düşmüş bir biznesin və ya şəxsin müqavilə və borc öhdəliklərinin “yenidən təşkili” (restrukturlaşma – red.) yolu ilə həyata keçirilə bilər. “Yenidən təşkil” edilən şirkət müflisləşmədən özünün əvvəlki borclarının əksər hissəsindən azad şəkildə çıxa bilər. Proses ərzində problemlərlə üzləşmiş şirkətin keçmiş sahibləri sözügedən şirkət üzərində nəzarət hüquqlarını itirə və bu hüquqlar bəzi hallarda kreditorlara keçə bilər. Yenidən təşkil ideyasının əsasında belə bir məntiq dayanır ki, çox vaxt davamlı problem olan bir biznesin müəssisə kimi dəyəri müvafiq aktivlərin ləğv edilməsi dəyərindən yüksək olur; bu o deməkdir ki, kreditorlar ləğvetmə prosesi ilə müqayisədə yenidən təşkil prosesində daha çox pul əldə edə bilərlər.

Bazar iqtisadiyyatında biznes müəssisələrinin bəzən uğursuzluqlara düçar olması labüddür. Bu baş verərkən, kreditorlar müvafiq kreditlərin ödənilməməsi, səhmdarlar isə şirkətə yatırdıqları investisiyaların itirilməsi təhlükəsi ilə üzləşirlər. Bu səbəblərdən, investorlar öz investisiyalarını planlaşdırarkən maliyyə uğursuzluqları ilə əlaqədar risklərə xüsusi diqqət yetirirlər. Müflisləşmə ilə əlaqədar effektiv tənzimləyici sistemlər investorları həmin riskin qiymətləndirilməsi vasitəsi ilə təmin edirlər və beləliklə də, eyni zamanda həm etibarlı, həm də praktik olan investisiya qərarları üçün zəmin yaradırlar. Bu isə həm kredit, həm də səhm kapitalı şəklində maliyyə vəsaitlərini əldə etmək imkanı yaradır. Bundan əlavə, borcun ödənilməsi imkanlarının olmaması ilə əlaqədar əlverişli qanunlar “fəaliyyətini davam etdirə biləcək bizneslərin yenidən təşkilinə, uğursuzluğa düçar olmuş bizneslərin fəaliyyətinin sərfəli şəkildə xətm edilməsinə və onların aktivlərinin daha səmərəli bazar iştirakçılarına ötürülməsinə” imkan yaradır[25] Kreditin ödənilməsi imkanlarının olmaması ilə əlaqədar qanunlar həmçinin korporativ idarəetmə, qiymətli kağızlarla aparılan əməliyyatlar, vergilər və bank işi haqqında qanunlar da

daxil olmaqla geniş çərçivəli kommersiya qanunları ilə qarşılıqlı əlaqədar olub onları daha da möhkəmləndirir və nəticədə özləri də möhkəmlənir.

ATƏT ölkələrinin hamısı da olmasa, əksəriyyəti müflisləşmə haqqında qanunlar qəbul etmişdir. Bununla belə, həmin qanunların bir çoxu hədsiz sadədir və müasir kommersiya əməliyyatlarının mürəkkəbliklərini nəzərə almır. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Qanunu üzrə Komissiyası (UNCITRAL) borcun ödənilməsi imkanlarının olmaması ilə əlaqədar qanunlar sahəsində əhəmiyyətli öhdəliklər götürmüşdür. Komissiyanın 2004-cü ildə qəbul etdiyi Müflisləşmə haqqında Qanunlara dair Qanunvericilik Vəsaitində[26] smüflisləşmə haqqında qanunlar ətraflı təhlil edilir və müflisləşmə ilə əlaqədar milli sistemlər üçün 198 tövsiyə verilir. Bundan əlavə, UNCITRAL-ın 1997-ci ildə qəbul etdiyi „Sərhədlərarası Müflisləşmə haqqında" model qanununda[27] borcunu qaytarmaq imkanına malik olmayan borclunun birdən çox dövlətdə aktivlərə malik olduğu və ya kreditorlardan bəzilərinin müflisləşmə ilə əlaqədar prosedurunun keçirildiyi dövlətdən olmadığı çətin hallar üçün prosedurlar müəyyən edilir. UNCITRAL-ın model qanununun Yeni Zelandiya hökuməti üçün keçirilmiş ətraflı tədqiqatı belə bir nəticəyə gətirib çıxardı ki, qanunda "xarici investorlarla ədalətli davranış xarici investisiya axınlarına müsbət təsir göstərəcək" və beləliklə də, qanunun qəbul edilməsi tövsiyə edildi. ATƏT regionu daxilində Polşa, Rumıniya, həmçinin Serbiya və Çernoqoriya UNCITRAL-ın model qanununu qəbul etmidir.

Müflisləşməyə dair qanunvericiliyin mövcud olmasına baxmayaraq, indinin özündə belə bəzi ölkələr özlərinin bu məsələ ilə əlaqədar müvafiq qanunlarını çox nadir hallarda tətbiq edirlər. Regiondan göndərilən hesabatlarda qeyd edilir ki, bəzi ölkələrdə müflisləşmə ilə əlaqədar işlərə siyasi müdaxilələr edilmişdir, bu isə məhkəmələrin müstəqil və qərəzsiz qərarlar qəbul etməsinə əngəl törətmişdir. Lakin ATƏT üzvü olan bəzi ölkələr Dünya Bankının, AYİB-in, USAID və digər inkişaf təşkilatlarının köməyi ilə nəinki müasir qanunvericiliyin qəbul edilməsinə, həm də özlərinin müflisləşmə ilə əlaqədar sistemlərinin faktiki fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş əhəmiyyətli islahatlar həyata keçirmişlər. Bu baxımdan Serbiya Respublikasını nümunə göstərmək olar.

2004-cü ilin iyul ayında Serbiya parlamenti UNCITRAL-ın model qanununun bir sıra müddəalarını ehtiva edən müflisləşmə haqqında yeni qanun qəbul etdi.[29] Serbiya qanununda həm ləğvetmələr, həm də yenidən təşkil üzrə prosedurlar müəyyən edilir. Müflisləşmə haqqında qanunun 12-ci maddəsində müflisləşmə işləri üzrə xüsusi hakimlər institutunun təyin edilməsi məsələsi qeyd edilir. Bu hakimlər digər funksiyalardan əlavə, müflisləşmə tədbirlərinin xərclərini onlar ödənilməzdən əvvəl təsdiq etməli, müflisləşmə ilə əlaqədar işlərin icraçılarını idarə etməli və müvafiq borclular tərəfindən təqdim edilən yenidən təşkil üzrə plan layihələrini təsdiq etməlidirlər. Qanunda həmçinin icraçılar (ingilis dilinə həm də "qəbuledicilər" kimi tərcümə edilir) haqqında xüsusi müddəalar öz əksini tapır; onlara müflisləşmə prosesləri ərzində borcluların aktivlərinin mühafizəsi və idarə edilməsi həvalə edilir. Bu müddəaların məqsədi qeyd edilən mühüm vəzifələrə namizədlərin ali təhsilli olmaları, yazılı imtahandan keçmələri və xüsusi olaraq təsis edilmiş Müflisləşmə İşində Qəbuledicilərin Lisenziyalaşdırılması Agentliyi ("Agentlik") tərəfindən lisenziyalaşdırılması və qeydiyyatdan keçirilməsi üçün peşəkar keyfiyyət, qanunilik və cavabdehlik üzrə yüksək standartların təmin edilməsidir. Lisenziyalaşdırmadan sonra Serbiyanın müflisləşmə icraçıları xüsusi davranış qaydalarına riayət etməlidirlər; bu qaydalarda icraçının maraqların toqquşmasından qaçmaq, şəxsi razılaşmalarda iştirak etməmək və müstəqil, peşəkar baxımdan bacarıqlı və qərəzsiz fəaliyyət göstərmək öhdəlikləri vurğulanır.30 Yeni müflisləşmə qanunu qüvvəyə mindikdən sonra keçən bir ildən də az müddət ərzində Agentlik imtahanlara rəhbərlik edərək 100-dən çox ərizəçiyə icraçı lisenziyaları təqdim etdi.[31]

# Kapital bazarları

İnvestisiya yatırımları və kredit müddətlərinin uzadılması sahəsində sabitliyin və risklərin qabaqcadan proqnozlaşdırılmasının təmin edilməsi üçün yuxarıda sadalanan hüquqi mexanizmlərdən əlavə, qanunvericilik və tənzimləmə sistemləri kapital bazarlarının yaradılmasını və effektiv fəaliyyət göstərməsini dəstəkləməklə iqtisadi inkişafa kömək edə bilər. Kapital bazarları etibarlılıq müddətləri bir ildən çox olan korporativ səhmlər, həmçinin dövlət və özəl borc öhdəliklərini əks etdirən qiymətli kağızlar kimi orta və uzun müddətli maliyyə aktivlərinin ticarətinə imkan verən mexanizmlərdir. Bu cür bazarlar korporativ səhmlərin likvidliyini təmin edir, bu isə cari və gələcək iqtisadi inkişaf üçün mühüm əhəmiyyət kəsb edir. Çünki "iqtisadiyyatda istifadə edilən məhsuldar texnologiyalar üzərində sahibkarlıq hüquqlarının daha geniş ticarəti imkanları vəsaitlərin səmərəli yerləşdirilməsi, fiziki kapitalın formalaşdırılması və iqtisadi artım proseslərini daha sürətləndirir"[32]

İnvestorların müdafiəsi hər bir kapital bazarının effektiv fəaliyyət göstərməsində mühüm rol oynayır. Hüquqi və tənzimləmə sistemi aşağıdakı məsələlər də daxil olmaqla bir sıra tələblərə cavab verməlidir:[33]

- sistem investorları bütün vacib informasiyalarla vaxtlı-vaxtında təmin etməlidir;
- qiymətli kağızlar biznesinin hər hansı aspekti ilə məşğul olan şəxslərin və firmaların (qiymətli

kağızların emitentləri, anderrayterlər, distribüterlər, həmçinin maliyyə idarəetməsi və investisiya konsaltinqi firmaları) bu fəaliyyətləri icra etməzdən əvvəl müvafiq tənzimləyici orqandan rəsmi icazə almalıdır;

- qiymətli kağızlar sənayesinin iştirakçılarından fəaliyyət göstərdikləri biznes növü üçün məqsədəuyğun kapitala malik olmaları tələb edilməlidir;
- qiymətli kağızlar üzərində əməliyyatlar aparan müəssisələrdən öz bank hesabları ilə işçilərinin bank hesablarını müştərilərinin bank hesablarından ayırmaq tələb edilməlidir;
- investorları brokerlərin diqqətsizliyindən və ya xidməti cinayətlərdən, yaxud müvafiq ödənişlərin ödənilməməsi təhlükəsindən qorumaq üçün zəmanət fondları və ya digər zəmanət mexanizmləri təsis edilməlidir;
- brokerlər üçün kompensasiya rəqabətədavamlı komissiyon yığımlar sisteminə əsasən tətbiq edilməlidir;
- qaydalara riayət edilib-edilməməsini yoxlamaq üçün hər bir iştirakçı müəssisənin daxili və xarici audit və nəzarət mexanizmlərinə malik olması tələb edilməlidir;
- brokerlərə, investisiya konsaltinqi firmalarına və s. bu tipli müəssisələrə qarşı iddialar qaldırmaq üçün investorların hər hansı münasib qiymətli sistemə - adətən arbitraj məhkəməsinin bir növünə - girişi təmin edilməlidir;
- müvafiq tənzimləyici orqan sənayedə davranış qaydalarını qəbul etməlidir. Bu qaydalarda göstərilməlidir ki, brokerlər:
  - öz müştərilərinin maliyyə ehtiyaclarını başa düşməli və investisiyaların yararlılığına dair müvafiq məsləhətlər verə bilməlidirlər;
  - maraqların toqquşması ehtimalları barəsində öz müştərilərinə məlumat verməlidirlər;
  - məxfi informasiya ilə məqsədəuyğun tərzdə davranmalıdırlar;
  - əməliyyatlara dair öz diskresion hüququna arxalanaraq müştərilərinin kapitalını onların ehtiyaclarına uyğun olaraq mümkün olan ən yaxşı qiymətlərlə investisiya şəklində yatırmalı; və
  - öncə müştərilərin hesabları ilə məşğul olmalıdırlar.

Kapital bazarlarının tənzimlənməsi prosesində bazar iştirakçılarının “özünüidarəetmə təşkilatları” (ÖİT-lər) eyni zamanda maliyyə bazarlarının tənzimlənməsi zamanı hökumətlərin zəruri tərəfdaşı hesab edilir. Hökumətlər çox vaxt aşağıdakı fəaliyyətlərin icra edilməsi səlahiyyətini ÖİT-lərə həvalə edir:

- qiymətli kağızlar təklifləri və ya listinqləri üzrə məlumat və ağlabatan siyasətlərə dair tələbləri müəyyən etmək;
- açıq satışa buraxılan qiymətli kağızlar üzərində əməliyyatların aparılmasına dair icazə vermək, qadağa qoymaq və ya dondurmaq;
- qiymətli kağızlar emitentlərinin informasiya tələblərinə riayət etmələrini dəqiqləşdirmək üçün onların fəalyyətini yoxlamaq;
- qiymətli kağızlar üzərində əməliyyatların şəffaflığına və qanuniliyinə dair qaydaları müəyyən etmək;
- sahə (kapital bazarı – red.) üçün yararlılığa və üzvlüyə dair tələbləri müəyyən etmək;
- sahə üçün maliyyə hesabatlılığı standartlarını təsis etmək;
- öz üzvlərinin nizamlılığını təmin etmək; və
- maliyyə alətlərinin işlənməsi, əməliyyatlar üzrə nağdsız hesablaşma və ödənişlər, həmçinin zəmanət və kompensasiya fondlarının idarə edilməsi üçün sahə praktikasını formalaşdırmaq.

## *Bank hüququ və siyasəti*

Bankların məqsədəuyğun idarə edilməsi və fəaliyyətinin tənzimlənməsi maliyyə sahəsində xidməti cinayətlərin və təsərrüfatsızlığın qarşısının alınması üçün mühüm əhəmiyyət kəsb edir. Bu həm də banklara qarşı ictimai etibar hissini gücləndirmək üçün lazımdır. Həqiqətən də Vəsaitin hazırlanması prosesində aparılmış sorğuya cavab verən respondentlərdən biri qeyd etmişdi ki, Mərkəzi Asiyada gələcək iqtisadi inkişafa təkan vermək üçün “maliyyə sektorunun genişləndirilməsinə” böyük ehtiyac vardı. Eyni respondent həm də izah edirdi ki, onun ölkəsində “zəif inkişaf etmiş bank sistemi” kredit girovlarının tətbiqi üçün məqsədəuyğun olmayan mexanizmlərin istifadə edilməsinin, “mülkiyyət (məsələn, daşınmaz əmlak/ torpaq mülkiyyəti) hüquqlarının zəif icrası”nın və “xarici bankların daxili bazara çətinliklə daxil ola bilməsi”nin məntiqi nəticəsidir.

1975-ci ildə On Ölkə Qrupunun mərkəzi banklarının idarəedicilər tərəfindən yaradılmış bank işinə nəzarət orqanlarının komitəsi - Bank Nəzarətləri üzrə Bazel Komitəsi - 1997-ci ilin sentyabr ayında bank işinin effektiv idarə edilməsinin Başlıca Prinsiplərini[34] işləyib hazırladı. Digər məsələlərlə yanaşı, Başlıca Prinsiplərdə

bank fəaliyyəti üzərində nəzarət və qanunvericilik çərçivəsi təsvir edilir, bankların icazə verilən fəaliyyətləri müyyən edilir, lisenziya prosedurları dəqiq ifadə edilir və prudensial nəzarətə dair minimum kapital, risklərin idarə edilməsi və daxili nəzarət mexanizmləri (məsələn, məxfi informasiyadan istifadə etməklə kreditin verilməsi və vahid müştəri üçün kredit təcrübələri üzərində), o cümlədən fırıldaqçılığın və çirkli pulların yuyulmasının qarşısının alınması kimi iqtisadi qayda və tələblər təsvir edilir[35] Başlıca Prinsiplərdə bank işinə nəzarət edilməsində ən yaxşı təcrübələr üzrə beynəlxalq konsensus ifadə edilir.

Kipr Respublikasının bank işi haqqında qanununun[36] aşağıdakı bəndləri son vaxtlar həyata keçirilmiş beynəlxalq hüquqi analizdə[37] Başlıca Prinsiplərin məqsədəuyğun icrasının nümunəsi kimi qiymətləndirilmişdir:

• Hansı orqanın bank işinə nəzarətlə əlaqədar ümumi məsuliyyət daşımasının aydın ifadə edilməsi. Kipr qanununun 26-cı maddəsinin 1-ci bəndində qeyd edilir ki, "Bank sisteminin nizamlı fəaliyyət göstərməsinin təmin edilməsi üzrə banklara nəzarət edən məsul orqan Mərkəzi Bankdır."

• Mərkəzi Bankın icra səlahiyyətləri. 30-cu maddədə bildirilir ki, əgər hər hansı bir Kipr bankı bank işi haqqında qanunun qüvvədə olan bir bəndinə və ya həmin bəndə uyğun olaraq qəbul edilmiş hər hansı normativ akta riayət etməzsə və yaxud Mərkəzi Bank bu bankın aktivlərinin likvidliliyinin və xüsusiyyətlərinin bəyan edildiyindən fərqli olduğunu, və ya bankın öz öhdəliklərini vaxtında icra etmək qabiliyyətinin təhlükə altında olduğu qənaətinə gələrsə, Mərkəzi Bank aşağıdakılar da daxil olmaqla bir sıra tədbirlər görə bilər:

- bankın depozitlər qəbul etməsinə və ya kredit verməsinə qadağa qoya bilər;
- bankı nəzarət altına ala bilər; və
- bankın lisenziyasını ləğv edə bilər.

• Kapital kafiliyi səviyyələri. 21-ci maddənin 1-ci bəndinə görə, "Mərkəzi Bank… banklardan kapital kafiliyi səviyyəsini Mərkəzi Bank tərəfindən hər bir bankın xüsusiyyətləri nəzərə alınmaqla fərdi zəmində müəyyən edilmiş minimal səviyyədə saxlamağı… tələb edə bilər; bu şərtlə ki, həmin səviyyə eyni kateqoriyanı təmsil edən bütün banklar üçün eyni olsun". 41-ci maddənin 2-ci bəndində qeyd edilir ki, bu və ya digər səlahiyyətlərin icrası zamanı Mərkəzi Bank müvafiq "beynəlxalq təcrübə"yə əsaslanmalıdır.

• Məxfi məlumatların istifadəsi ilə kreditlərin verilməsi. 11-ci maddənin 1-ci bəndinin (c) və (e) yarımbəndlərində göstərilir ki, Kipr bankları:

- "heç bir direktora… kredit xətti ayıra bilməz; bu yalnız o halda mümkün ola bilər ki, sövdələşmə Direktorlar Şurası üzvləri sayının üçdə ikisi çoxluğu ilə qəbul edilsin və sözügedən direktorun özü Direktorlar Şurasının bu mövzu ətrafında müzakirələrində və müvafiq səsvermədə iştirak etməsin"; və ya
- "bütün direktorlara təqdim edilən hər hansı zəmanətsiz kredit xətlərinin ümumi dəyərinin… bankın kapital bazasının beş faizindən və ya Mərkəzi Bank tərəfindən müəyyən edilmiş hər hansı digər bu cür aşağı əmsaldan çox olmasına icazə verə bilməz".

• Mərkəzi Bankın informasiya təminatı. Kipr qanununun 24 və 25-ci maddələrində bankların maliyyə hesabatlarını və digər müvafiq informasiyanı (illik hesabatlarının auditor tərəfindən təsdiq edilməsi şərtilə) müntəzəm olaraq Mərkəzi Banka təqdim etmələri ilə əlaqədar konkret tələblər irəli sürülür.

Başlıca Prinsiplərin qəbul edilməsi, o cümlədən, bank sektorunda peşəkar inkişafa nail olmaq üçün güclü iradə və resursların təminatı keçid dövrü iqtisadiyyatlarına malik olan ölkələrə iqtisadi inkişaf yönümlü mühitin yaradılmasında kömək edə bilər.

## *Mənfəətin və kapitalın repatriasiyası*

Bəzi ölkələr şirkətlərin kapitalı repatriasiya etmək və ya mənfəəti və dividendləri bank köçürmələri yolu ilə köçürmək imkanlarını məhdudlaşdırır. Bu cür siyasətlər xarici investisiyaların yolunu kəsir və köçürmə/ transfer qiymətlərinin formalaşması kimi qeyri-effektiv və qeyri-şəffaf təcrübələrin yaranmasına gətirib çıxarır. XBİ axınlarının artırılması məqsədilə ölkələr kapitalın repatriasiyası və mənfəətin köçürülməsi üçün müvafiq şəraitləri təmin etməlidir. Hazırda bir çox ATƏT ölkələri gəlirlərin repatriasiyası ilə əlaqədar məhdudiyyətləri aradan qaldırmışdır.

MƏTN BLOKU 5.2

**ATƏT-ə üzv ölkələrin bəzilərində mənfəətin və kapitalın liberal repatriasiyası siyasətləri**

**Azərbaycan –** *„Xarici İnvestisiyalar haqqında" qanuna əsasən, xarici investorlar müvafiq vergi və digər rüsumların ödənişindən sonra öz mənfəətini konversiya edilə bilən valyuta ilə repatriasiya etmək hüququna malikdirlər.*

**Azərbaycanda Biznes üzrə Soraq Kitabı (Ernst & Young, 2005-ci il)**

**Qazaxıstan** - *1996-cı ildə Qazaxıstan BVF-nun Maddələr Razılaşmasının 8-ci maddəsini qəbul etdi. Bu maddəyə əsasən, valyuta konversiyası və ya investisiya gəlirlərinin repatriasiyası kimi cari hesab əməliyyatlarına heç bir məhdudiyyət qoyulmayacaq.*

**Qazaxıstanda Biznes: ABŞ Şirkətləri üçün ölkə üzrə kommersiyaya dair Vəsait (ABŞ və Xarici Kommersiya Xidməti və ABŞ Dövlət Departamenti, 2004-cü il).**

**Rusiya –** *„Xarici İnvestisiyalar haqqında" qanunda… mənfəətin və kapitalın repatriasiyasına icazə verilir.*

**Robert Setrom və Dmitriy Jdanov,
Rusiyada xarici investisiyalar: islahatlar və yenidən tənzimləmə,
Amerikanın Rusiyadakı Ticarət Palatası (10 yanvar, 2006).**

**Ukrayna -** *Müvafiq vergi normativ aktlarında göstərilən tələblərin yerinə yetirilməsindən sonra xarici investorların öz mənfəətini maneəsiz olaraq və birbaşa xaricə repatriasiya etmək hüquqları təmin edilir.*

**Ukraynada investisiyalar (KPMG, 2005)**

## *Xarici valyuta üzərində nəzarət*

Xarici valyutanın istifadəsi ilə əlaqədar məhdudiyyətlər həm ixracatçılara, həm də idxalçılara mənfi təsir göstərir. Bir qayda olaraq, bu cür tənzimləmə sistemlərində gəlirlərini xarici valyuta ilə alan şəxslərdən öz əməliyyatlarını mərkəzi bankda qeydiyyatdan keçirmək və xarici valyuta ilə qazandıqlarının bir hissəsini və ya hamısını mərkəzi banka təqdim edərək əvəzində yerli valyuta almaq tələbi irəli sürülür. Mərkəzi bankın icazəsi olmadan yalnız səlahiyyətli dilerlər və səlahiyyətli depozitarilər xarici valyutanı öz nəzarəti altında saxlaya bilərlər.

Xarici valyuta üzərində nəzarət mexanizmləri adətən hökumət tərəfindən təsdiq edilmiş idxal və digər yüksək əhəmiyyətli əməliyyatlarda valyutanın istifadəsinə yönəldilir. Rəsmi valyuta mübadilə kursunda xarici valyutaya olan tələb bir qayda olaraq mərkəzi banka təqdim edilən məbləğdən yüksək olur. Beləliklə də, ayrı-ayrı malların (məsələn, ən zəruri malların və müəyyən sənaye sahələri üçün istehsalat resurslarının) idxalının təmin edilməsi məqsədilə rəsmi mübadilə kursunda təmin edilən xarici valyuta üzrə normalar müəyyən edilməlidir.

Mötəbər bir iqtisadi tədqiqatda xarici valyuta üzərində nəzarətin xüsusilə də kiçik iqtisadiyyatlarda iqtisadi inkişafa necə böyük zərbə endirə bilməsi təsvir edilir:

> Xarici valyuta üzərində nəzarətlər idxal malları üçün kvotaların tətbiqinə gətirir və beləliklə də, idxalın ölkədaxili nisbi qiymətini qaldırır (müvafiq tariflərin tətbiqi zamanı olduğu kimi). Xarici valyuta üzərində nəzarətin tətbiqi ticarət balansını və ödəniş balansını (və ya valyuta kursunu) yaxşılaşdıra bilsə də, bu nəzarətlər açıq tipli kiçik bir iqtisadiyyatın fəaliyyət imkanlarını məhdudlaşdırmağa meyllidir. Xarici valyuta üzərində nəzarətlərin tətbiqi idxal malları bazarını bir növ satılmayan mallar bazarına çevirir və… bu, nəticədə ticarət şoklarının daxili iqtisadiyyata mənfi proyeksiyalarla nüfuz etməsinə gətirib çıxarır.[38]

Xarici investorların nöqteyi-nəzərindən, xarici valyuta üzərində sərt nəzarətlər hər bir ölkənin investisiya məkanı kimi cəlbediciliyinə xələl gətirir. Bundan əlavə, daxili şirkətlər xarici kapitaldan istifadəni minimuma endirməklə və daha çox daxili maliyyə mənbələrindən istifadəyə

üstünlük verməklə xarici valyuta üzərində nəzarətlərdən xilas ola bilərlər. Bütün bu amillər sərt valyuta nəzarətlərinin mümkün qədər tez bir vaxtda aradan qaldırılmasının məqsədəuyğunluğunu sübut edir.

# *Rəqabət hüququ və siyasəti*

İqtisadiyyatın mərkəzi planlaşdırılması sistemindən rəqabət zəminli sistemlərə keçid dövrünü yaşayan ölkələr böyük çətinliklərlə üzləşmişdir. Onlar özlərinin ümumi iqtisadi strukturunu və düşüncə tərzini kökündən dəyişməyə məcbur olmuşdur. Eyni zamanda, onların bir çoxu həm də müstəqil respublikalara çevrilmişdir; bu isə müvafiq bazarların fəaliyyət konsepsiyalarını yenidən formalaşdıran kəskin dəyişiklik deməkdir. Yeni iqtisadi paradiqma kimi rəqabət anlayışını inkişaf etdirmək üçün yeni institutların fəaliyyətə başlaması istiqamətində təqdirəlayiq səylərin göstərilməsinə baxmayaraq, bu ölkələrin bir çoxu hələ də bütün hökumət səviyyələrində və ümumilikdə cəmiyyətdə iqtisadi məsələlərə hökumətin əsaslı surətdə müdaxiləsini gözləyən, dərin kök salmış mədəniyyətlə mübarizə aparmalıdır.

Aİ-nin üzv dövləti olan və ya Aİ-yə üzvlüyə namizəd olan ATƏT ölkələrinin bəziləri rəqabətlə əlaqədar dövlət siyasətlərinin Brüsseldə müəyyən edilmiş siyasətlərlə uyğunlaşdırılması prosesini başa çatdırmış, digərləri isə hələ də uyğunlaşdırma prosesindədir. Əsasən Almaniyanın rəqabət hüququna söykənən Aİ sistemi Aİ-nin bütün üzv dövlətləri üçün icbaridir. Bu sistemin məqsədi açıq bazarların yaradılması və güclü dövlət qanunvericiliyi ilə iqtisadi hakimiyyətdən sui-istifadənin cəzalandırılmasıdır. Dövlət ümumi götürdükdə qeyri-müdaxiləçi və qeyri-nəzarətçi mövqe tutur. Şimali Amerikanın rəqabət haqqında qanunları da Aİ sisteminə oxşardır, lakin onun təkrarı deyil.

Hər hansı bir ölkənin Aİ üzvlüyünə can atıb-atmamasından asılı olmayaraq, Vəsaitdə verilən tövsiyələr Aİ-nin və Şimali Amerikanın rəqabət siyasətlərinə çox uyğundur. Bazar əsaslı iqtisadiyyatlar ümumiyyətlə belə bir ideyaya əsaslanır ki, rəqabət resursların səmərəli paylaşdırılmasına gətirib çıxarır və aşağı qiymətlərlə keyfiyyətin, mal və xidmətlərin optimal ahəngini təklif etməklə istehlakçılar üçün sərfəli seçim imkanı yaradır[39]. Rəqabət siyasətinin çoxsaylı məqsədləri istehlakçı rifahının və ya sosial rifahın maksimum səviyyəyə çatdırılması, iqtisadi inkişafın dəstəklənməsi və sair sözügedən ölkənin siyasi dəyərlərindən və regional iqtisadi qruplaşmasından asılı olaraq müxtəlif cür olur[40]. Buna baxmayaraq, belə bir fikir geniş təşəkkül tapmışdır ki, rəqabət haqqında qanun iqtisadiyyatda effektiv bazar qüvvələrinin fəaliyyətini təmin edən hüquqi çərçivə rolunu oynaya bilər.

Keçid dövrü iqtisadiyyatlarına malik olan ölkələr rəqabət üzrə aydın siyasətlər işləyib hazırlamalıdır. Rəqabət mədəniyyəti bütünlükdə qanunlardan, normativ aktlardan və siyasətlərdən ibarət ola bilməz. Bu səbəbdən də, həmin ölkələr yeni iqtisadi siyasətləri ictimaiyyətə izah etmək üçün maarifləndirici kampaniyalar keçirməlidir ki, bu siyasətlər yeni mühitdə qol-budaq ata bilsin.

Ümumi rəqabət siyasəti rəqabətçilər arasında "pisniyyətli kartel sözləşmələri"ni, yəni qiymət sözləşmələrini, bazarın seqmentləşdirilməsini, müştərilərin bölüşdürülməsini və hərracların saxtalaşdırılmasını aydın şəkildə qadağan etməlidir, çünki adi hallarda iqtisadiyyatda bu cür təcrübələrə heç cür haqq qazandırmaq mümkün deyil.

"Rəqabətin şaquli məhdudlaşdırılması"nın nəticələrini, yəni sənaye zəncirinin yüksək səviyyəsində olan biznes sahəsi ilə aşağı səviyyəsində olan biznes sahəsi arasında müqavilələr və biznes sövdələşmələrini istər tam müsbət, istərsə də tam mənfi təcrübələr kimi qiymətləndirmək çox çətindir. Bunlara təkrar satış zamanı qiymətlərin saxlanması kimi təcrübələr daxildir42. Rəqabətin şaquli məhdudlaşdırılması rəqiblərin meydandan çıxarılması və onların yolunda maneələr yaradılması kimi nəticələrə gətirib çıxarsa da, o, "pulsuz gediş" kimi distribüter problemini yumşaltmaqla satışın səmərəliliyini artıra bilər. Beləliklə rəqabətin şaquli məhdudlaşdırılması rəqabətin inkişafı üçün faydalı ola bilər. Buna görə də əksər ölkələr rəqabətin şaquli məhdudlaşdırılmasını qadağan etmir (pərakəndə satış qiymətlərinin saxlanması istisna olmaqla) və hər hansı bir təcrübəni qanuni və ya qeyri-qanuni elan etməzdən əvvəl bir sıra amilləri nəzərdən keçirir. Bunun üçün, bəzi hallarda həmin təcrübənin rəqabətyönlü nəticələrini onun mənfi təsirləri ilə müqayisə edirlər.

Şirkətlərin birləşdirilməsi və bir şirkətin digər şirkətin səhmlərini almaqla onu öz şirkətinə birləşdirməsi kimi təcrübələr səmərəli nəticələrə gətirib çıxara və effektivliyi artıra bilər. Bununla belə, bu cür praktika həm də inhisarçı mövqelərin qorunub saxlanması vasitəsi kimi də tətbiq edilə bilər. Buna görə də rəqabət haqqında əksər qanunlar bu sövdələşmələri tənzimləyir və onların qüvvədən salınması və baş verməsinin qarşısının alınması üçün potensial vasitə kimi tətbiq edilə bilər. Bu sahə ilə əlaqədar normativ aktlarda bir qayda olaraq bazarların qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi və inhisarın qiymətləndirilməsi metodları tənzimlənir. Normativ aktlar həmçinin tələb edir ki, dəyəri müəyyən edilmiş həddən, və ya bazarın müəyyən hissəsi həddindən yüksək olan birləşmə və ittifaqın yaradılması planları barədə öncə rəqabət orqanına müvafiq bildiriş verilsin[43].

Rəqabət haqqında qanunların qəbulu və onlarda dəyişiklik edilməsi həyatı və fəaliyyətləri bu qanunlarla tənzimlənən biznes ictimaiyyəti və istehlakçıların hüquqlarını müdafiə edən ictimai qurumlarla məsləhətləşmə şəraitində həyata keçirilməlidir.

Rəqabət siyasətinin formalaşdırılmasına cavabdeh olan dövlət orqanları çalışmalıdır ki, bu siyasət formal və ya mexaniki tətbiq edilməsin və həm siyasət, həm də qanun ölkədəki iqtisadi reallıqlara söykənsin.

Rəqabət siyasətinin tərtib edilməsi öz-özlüyündə kifayət deyil. O, müvafiq qanun və qaydalara uyğun olaraq həyata keçirilməlidir. Rəqabətədavamlı iqtisadiyyatları qorumaq üçün bir sıra hökumətlər inhisarçılar tərəfindən sui-istifadə hallarının qadağan edilməsi, rəqabət aparmalı olan firmalar arasında gizli razılaşma təcrübələrinin məhdudlaşdırılması, həmçinin birləşmə və ittifaq yaratma nəticəsində bazar mövqelərinin qeyri-mütənasib konsentrasiyasının qarşısını almaq üçün qanunlar qəbul etmişdir. Bu qanunlarda belə bir reallıq öz əksini tapır ki, rəqiblərin öz maraqlarını güdməsi sonda ictimai maraqla üst-üstə düşən nəticələrə gətirib çıxara bilər, lakin hər hansı bir bazar iştirakçısının arzuladığı nəticə istehlakçıların arzularına uyğun gəlməyə də bilər.

Rəqabət haqqında müasir qanunlarda, bir qayda, olaraq aşağıdakı komponentlər olur: (1) ümumi müddəalar; (2) əvvəlki rəqiblər arasında gizli razılaşmaların və ya bu qəbildən olan davranışın, məsələn, sabit qiymətin müəyyən edilməsi, qiymətlərin tənzimləmsi kimi təcrübələrin qadağan edilməsi; (3) hər hansı bir müvafiq bazarda inhisarçı və ya dominant mövqedən sui-istifadənin qadağan edilməsi; (4) xüsusi və ya müstəsna hüquqlara malik olan müəssisələr və ya təbii inhisarlardan bəhs edən müddəalar44; (5) dövlət yardımı haqqında müddəalar; (6) birləşmə proseslərinə nəzarət barədə normalar; (7) ədalətsiz rəqabət haqqında müddəalar; (8) dövlət rəqabət orqanlarının fəaliyyətini idarə edən normalar; (9) rəqabət haqqında qanunun pozulması hallarına dair sanksiyalar (cərimələr, həbsetmə, və/və ya hüquqi-mülki məsuliyyət) haqqında normalar və (10) vergilərdən azad etmələr, prosedurlar və digər mürəkkəb məsələlərdən bəhs edən daha müfəssəl normativ aktlar toplusu.

Rəqabətə dair qanunların qəbul edilməsi və ya onlarda dəyişiklik edilməsi məsələsini nəzərdən keçirən ölkələrin bir sıra seçim imkanları var. Bir sıra beynəlxalq təşkilatlar inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələr üçün rəqabətə dair qanun modellərini işləyib hazırlamışdır. Məsələn, 1999-cu ildə Dünya Bankı İƏİT ilə birlikdə rəqabət haqqında qanunun modelini nəşr etdirdi. 2002-ci ildə MDB Katibliyi rəqabətə dair qanun modelini nəşr etdirdi. UNCTAD 2003-cü ildə özünün hələlik axırıncı qanun modelini nəşr etdi. Avropa İttifaqının rəqabət haqqında normaları Avropa İqtisadi Birliyi Müqaviləsinin 81 və 82-ci maddələrində, həmçinin bir sıra qaydalarda, direktivlərdə və məhkəmə qərarlarında öz əksini tapmışdır və regionda geniş təsir qüvvəsinə malikdir, belə ki, Aİ üzvlüyünə namizəd ölkələr öz qanunlarını Aİ modelinə uyğunlaşdırmalıdırlar. Yaxın gələcəkdə Aİ üzvlüyünə namizəd olmayan ölkələr belə, rəqabət haqqında qanunlarını beynəlxalq təcrübə ilə uyğunlaşdırmalıdır.

Bundan əlavə, rəqabət haqqında qanunun icrasına məsul orqanlar hər hansı bir tərəfin dominant mövqeyə malik olub-olmadığını və ya müəyyən fəaliyyətlərin əsaslı iqtisadi nəticələrə səbəb olub-olmayacağını təyin edərkən müvafiq bazarın təsviri məqsədilə tətbiq edilən metodologiyaya, siyasi çərçivələrə, məlumatlara və digər xüsusiyyətlərə diqqət yetirməlidir. Bu xüsusilə də bir vaxtlar daha böyük bir dövlətin tərkibində olub yenicə müstəqillik əldə etmiş ölkələr üçün çətin ola bilər. Belə ki, sözügedən ölkələr artıq fərqli sərhədlərə malikdir və müvafiq bazarın formalaşması prosesinə təsir göstərə bilən əhəmiyyətli hüquqi, siyasi, mədəni və linqvistik şəraitlər meydana çıxa bilər.

## *Əqli mülkiyyət və elektron ticarət qanunvericiliyi*

İxtiraçılara və yaradıcı əsərlərin müəlliflərinə verilən əqli mülkiyyət hüquqları onların əsərlərindən başqalarının istifadə etməsinin qarşısını almaq imkanı yaradır. Bu hüquqlar müasir iqtisadi həyatın əsas mövzularından birini təşkil edir. Bununla belə, bu qəbildən olan qanunlar bir sıra ölkələrdə mübahisəli məsələ olaraq qalır. Əqli mülkiyyətə dair effektiv qanunların qəbul edilməsi və əsaslı şəkildə həyata keçirilməsi çox çətinliklə başa gəlir. Patentlər haqqında zəif qanunlara malik və patentləşdirilməmiş dərmanları istehsal edən şirkətlərin mövcud olduğu ölkələrdə innovativ nailiyyətlərdən daha az xərclərlə istifadə edilir. Halbuki, həmin nailiyyətlərin əldə edildiyi ölkələrdə güclü patent mühafizəsi əczaçılıq şirkətlərinə tədqiqat və təcrübə-sınaq prosesinə sərf etdiyi investisiyaları geri qaytarmaq imkanı yaradır. Bu vəziyyətin dəyişdirilməsi siyasi cəhətdən qeyri-populyar və çətin ola bilər.

Lakin əqli mülkiyyət hüquqlarının pozulması baha başa gələ bilər. Əqli mülkiyyətin qeyri-effektiv müdafiəsi yüksək inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan və ya keçid dövrünü yaşayan ölkələr arasında getdikcə daha böyük kommersiya mübahisələrinin mövzusuna çevrilir. Əqli mülkiyyətlə əlaqədar zəif qanunlara malik olan

ölkələr də itkilərə məruz qalır. Burada dövlət büdcəsinin əqli mülkiyyətin qeydiyyatdan keçmiş sahibləri tərəfindən ödənilən gömrük rüsumları və vergilərlə birlikdə potensial gəlirinin müəyyən hissəsi itirilmiş olur. Bundan əlavə, daim artan tədqiqatlardan belə bir nəticəyə gəlmək olur ki, əqli mülkiyyətin məqsədəuyğun şəkildə müdafiəsi, o cümlədən bazarın liberallaşması və rəqabətyönlü siyasətlərin tətbiqi xarici investisiyaların və iqtisadi inkişafın dəstəklənməsinə yönəldilmiş dövlət siyasətlərinin zəruri tərkib hissəsidir[45]. Əksinə, bəzi iqtisadçılar aşkar etmişlər ki, hər hansı bir ölkənin əqli mülkiyyətə dair qanunlarının qeyri-mükəmməlliyi şirkətləri əqli mülkiyyət müdafiəsinin güclü olduğu ölkələrə investisiya yatırmağa və bu cür müdafiənin zəif olduğu ölkələrə yeni texnologiyaların gətirilməsini məhdudlaşdırmağa və ya dayandırmağa vadar edir.

Əqli mülkiyyətin adekvat müdafiəsi həmçinin ÜTT-yə üzv qəbul olunmaq üçün irəli sürülən tələblərdən biridir. Bu təşkilat öz üzvlərindən Ticarətlə Əlaqədar Əqli Mülkiyyət Hüquqları haqqında Müqaviləyə (TRIPS Müqaviləsinə) riayət etməyi tələb edir[47]. TRIPS Müqaviləsində patentlər, ticarət nişanları, müəllif hüquqları, coğrafi adlar, mikro-sxemlərin eskizləri, kommersiya sirləri, lisenziyalarla əlaqədar anti-rəqabətyönlü təcrübələr və icra sahələrində başlıca, minimum müdafiə səviyyələri müəyyən edilir[48].

*Tarazlığın əldə edilməsi.* Əqli mülkiyyətlə əlaqədar siyasətləri formalaşdırarkən ölkələr ixtiraçıların mükafatlandırılması ehtiyacını ictimaiyyətin faydalı informasiyanın əldə olunması imkanları ilə uzlaşdırmalıdır. Patentlər, müəllif hüquqları, seleksiyaçı bitkiçilik mütəxəssislərinin hüquqları və digər bu qəbildən olan əqli mülkiyyət hüquqları (ƏMH-lər) belə bir ideyaya əsaslanır ki, insanların müəyyən bir zaman ərzində öz ixtiralarından iqtisadi gəlir əldə etmək üçün müstəsna hüquqlarla təmin edilməsi yeniliklər və yaradıcılıq proseslərinə güclü təkan verə bilər. Bu fikri təsdiq edən əsaslı iqtisadi faktlar mövcuddur. Lakin mövcud biliklərdən və yaradıcı əsərlərdən ödənişsiz istifadə imkanları hər bir xalqın sosial, mədəni və iqtisadi rifahı üçün eyni dərəcədə əhəmiyyətə malikdir. Həqiqətən də qeyri-məhdud biliklər ehtiyatından istifadə etmək imkanı da yeniliklərin yaranması üçün zəruri şərtdir. Hədsiz dərəcədə məhdud və tarazlaşdırılmamış ƏMH-lər faktiki olaraq müəyyən yeniliklərin yaradılması prosesinə əngəl törədə bilər[49].

Bu tarazlıq bir qayda olaraq ƏMH qanunvericiliyinin özəyində yaradılır. Məsələn, hər hansı bir patentlə təmin edilən müstəsna hüquqlar əvəzinə ixtiraçı həmin ixtiranın necə təkrarlanması və istifadə edilməsi haqqında dərhal ictimaiyyətə məlumat verməlidir. Patentin etibarlılıq müddəti başa çatdıqdan sonra (adətən patent ərizəsi doldurulduqdan 20 il sonra) həmin ixtira məhdudiyyətsiz olaraq hər kəs tərəfindən istifadə edilə bilir və bütün əlaqədar informasiya ictimai mülkiyyətin bir hissəsinə çevrilir. Ölkələr öz ƏMH qanunvericiliklərini yeniləşdirərkən əqli mülkiyyətin effektiv müdafiəsinin təmin olunması ilə yanaşı ictimai intellektual və mədəni inkişaf məsələlərini yaddan çıxarmamalıdır.

Diskriminasiyanın (ayrı-seçkiliyin – red.) qəbulolunmazlığı. TRIPS Müqaviləsində, Sənaye Mülkiyyətinin Mühafizəsinə dair Paris Konvensiyasında, İncəsənət və Ədəbi İşlərin Mühafizəsinə dair Bern Konvensiyasında, o cümlədən əqli mülkiyyətlə əlaqədar digər başlıca müqavilələrdə üzv ölkələrdən ümumiyyətlə digər üzv dövlətlərdən olan əqli mülkiyyət sahibləri ilə öz vətəndaşları ilə davrandıqları kimi davranmaq tələb olunur. Bu, əqli mülkiyyət hüquqlarının icrası ilə əlaqədar reallıqları əks etdirən çox məqsədəuyğun bir prinsipdir. Bununla belə, ƏMH-lərin praktik icrası zamanı bütün ölkələr əcnəbilərə qarşı qərəzçi münasibətə yol verməmək üçün müvafiq tədbirlər görməlidir. Əks halda xarici investorlar bunu mənfi siqnal kimi qəbul edərlər və nəticədə ölkənin nüfuzuna xələl gələr, nüfuzun bərpa edilməsi isə çətin başa gələn prosesdir.

*Girov kimi istifadə.* Bütün digər aktivlər kimi ƏMH-lərin də obyektiv şəkildə hesablana bilən iqtisadi dəyəri vardır. Doğrudan da, bugünkü şirkətlərin bir çoxunun ən böyük üstünlüyü onların əqli ixtiralarıdır. Buna baxmayaraq, zəmanətli kredit sistemlərində çox vaxt ƏMH girovlarının kredit almaq üçün girov kimi qəbul edilməsi aydın ifadə edilmir. Bu isə kredit əməliyyatlarında qeyri-müəyyənliyə gətirib çıxarır və biliyə əsaslanan müəssisələri kreditdən məhrum edir və ya onların xərclərini lazımsız olaraq artırır. Buradan belə bir nəticəyə gəlmək olur ki, qanunvericilikdə ƏMH sahibkarlarının öz əqli mülkiyyətlərindən zəmanət kimi istifadə etmək hüququ birmənalı şəkildə təmin edilməlidir.

*Rəqabət haqqında qanunla əlaqə.* Çox vaxt əqli mülkiyyət qanunları ilə rəqabət haqqında qanunlar arasındakı əlaqə aydın görünmür. ƏMH-lərin qanuni istifadəsi ilə bu müstəsna hüquqlardan sui-istifadə hallarını bir-birindən fərqləndirmək üçün məhkəmələrin müəyyən məlumatlara ehtiyacı vardır. Əqli mülkiyyət haqqında qanunların yeniləşdirilməsi ilə məşğul olan ölkələr Aİ-nin Texnoloji Ötürmələrə dair Qrup İstisnalar barədə Əsasnaməyə[50] və müvafiq Texnoloji Ötürmələrə dair Direktivlərə[51], həmçinin ABŞ-ın Ədliyyə və Federal Ticarət Komissiyasının Əqli Mülkiyyətin Lisenziyalaşdırılması üzrə Anti-İnhisar Direktivlərinə[52] istinad edə bilər.

*İcra ilə əlaqədar məsələlər.* ÜTT-nin bir sıra üzv dövlətləri özlərinin TRIPS Müqaviləsində göstərilmiş öhdəliklərini həyata keçirmək üçün TRIPS standartlarına prinsip etibarilə uyğun gələn qanunlar qəbul etmişdir. Bununla belə, həmin ölkələrin ƏMH-lərin faktiki icrası və müdafiəsi ilə əlaqədar əldə etdyi nəticələrin bəziləri məyusedici olmuşdur. Bu, aşağıdakılar da daxil olmaqla

bir sıra amillərlə izah edilə bilər: (1) əqli mülkiyyətin mülkiyyət növlərindən biri olmasının və ondan icazəsiz istifadənin oğurluğun bir forması olmasının heç vaxt sona qədər başa düşülməməsi; (2) hakimlərin, prokurorların və digər əlaqədar rəsmi şəxslərin əqli mülkiyyət məsələləri üzrə kifayət qədər təlim keçməməsi; (3) milli qanunvericilikdə hüquq pozuntuları ilə əlaqədar qeyri-adekvat məhkəmə müdafiəsi imkanları; (4) milli məhkəmə sistemində ümumi effektivliyin aşağı səviyyədə olması. İcra məsələlərinin təkmilləşdirilməsi istiqamətində ölkələrin görə biləcəyi tədbirlərə aşağıdakılar daxildir: (1) ƏMH-lərin iqtisadi dəyəri və onların mənimsənilməsinin ciddi qanun pozuntusu olması haqqında ictimaiyyətin məlumatlılıq səviyyəsini artırmaq üçün maarifləndirmə kampaniyalarının təşkili; (2) məhkəmə və hüquq mühafizə rəsmiləri üçün ixtisaslaşmış təlimlərin keçirilməsi; (3) ƏMH məsələləri ilə məşğul olmaq üçün ixtisaslaşmış məhkəmələrin və/və ya inzibati prosedurların yaradılması; (4) TRIPS Müqaviləsinin 50-ci maddəsinə uyğun olaraq, qanun pozuntularının qarşısının tezliklə alınması məqsədilə müvəqqəti qadağan əmrləri və müvafiq məhkəmə qərarları da daxil olmaqla müvəqqəti tədbirlərin görülməsi; (5) milli məhkəmə sisteminin ümumi təkmilləşdirilməsi.

*Patent qanununun əhatə dairəsi.* Patent hər hansı bir ixtiranın müəllifinə həmin ixtiranın başqaları tərəfindən istehsalının, istifadəsinin, idxalının və ya satışının müəyyən məhdud zaman ərzində qarşısının alınması üçün hökumət tərəfindən verilən hüquqdur. TRIPS Müqaviləsində tələb olunur ki, patent müdafiəsi bütün texniki sahələrdə bütün ixtiralar üçün təmin edilsin, bu istər məhsul, istər istərsə də texnologi proseslər olsun, bir şərtlə ki, ixtira yenidir, yenilikçi addımdır və sənaye məqsədilə istifadə edilə bilər[53]. Nələrin patentləşdirilə bilməsini təsvir edən bu geniş tərif (çox vaxt "patentləşdirilə bilən predmet" adlandırılır) nisbətən yeni tapıntı olub siyasi cəhətdən mübahisəlidir. Bununla belə, TRIPS Müqaviləsində patentlərin əhatə dairəsindən çıxarıla bilən müəyyən ixtira kateqoriyaları da təsvir edilir. Bunlara misal olaraq, ictimai asayişə və ya mənəviyyata zidd olan ümumi ixtiralar kateqoriyasını göstərmək olar.

Patent qanunlarının əksəriyyətində ictimai asayişin və ya mənəviyyatın pozulmasına səbəb olan xüsusi ixtira növləri təsvir edilmir. Məsələnin bu cür ikibaşlılığı biotexnologiya sahəsində olan ixtiralar ilə əlaqədar əsaslı qeyri-müəyyənliklərə gətirib çıxarır. Biznes proseslərinin proqnozlaşdırılması imkanlarını artırmaq üçün qanunvericilikdə bu cür qeyri-müəyyənliklərə mümkün qədər yol verilməməlidir. Patentləşdirmədə ictimai asayişə və ya mənəviyyata zidd olmanın sərhədlərini müəyyən edən qanunvericiliyin parlaq nümunəsi kimi Polşanın „Sənaye mülkiyyəti haqqında" qanununun 93-cü maddəsinin 3-cü bəndini göstərmək olar. Qanunda deyilir ki, aşağıdakılar "istifadəsi ictimai asayişə və ya mənəviyyat normalarına zidd olan biotexniki ixtiralar" hesab edilməlidir:

(1) insanların klonlaşdırılmasını nəzərdə tutan proseslər, (2) insanların genetik mənsubiyyətinin özül xəttinin dəyişdirilməsinə yönəldilmiş proseslər, (3) insan embrionlarının sənaye və ya kommersiya məqsədləri ilə istifadəsi və (4) son nəticədə insana və ya heyvana heç bir əsaslı tibbi fayda gətirmədən heyvanlara əzab verməklə onların genetik mənsubiyyətinin dəyişdirilməsini nəzərdə tutan proseslər və bu cür proseslər nəticəsində yaranan heyvanlar.[54]

*Patentin keyfiyyəti.* Texnologiyanın qlobal iqtisadi əhəmiyyəti artdıqca hər il dövlət patent idarələri patent ərizələrinin sayının böyük sayda artmasının şahidi olurlar. Bu cür çoxsaylı ixtiralar yükü patentin keyfiyyətinə mənfi təsir göstərə bilər. Üzərində hüquqların təmin edilməsi məqsədilə təqdim edilən ixtiranın yeni olub-olmadığını və çağdaş dövrdə müəyyən yenilikçi addım kimi çıxış edib-etməyəcəyini, yəni ərizənin doldurulduğu vaxtda həmin ixtiranın mövcud ixtiralardan xəbərdar olan hər hansı texniki işçiyə məlum olub-olmamasını müəyyənləşdirmək üçün patent ərizələri patent yoxlayıcıları tərəfindən nəzərdən keçirilməlidir. Patent yoxlamasını həyata keçirən şəxslərin müəyyən texniki sahələr üzrə təlim keçmiş olmaları və sözügedən ixtiranı artıq mövcud olan elmi, texniki və digər ədəbiyyatla müqayisə etmələri tələb olunur. Resursların məhdudluğuna və patent ərizələrinin sayının fasiləsiz artdığına görə, yoxlayıcılar heç də həmişə müfəssəl və düzgün yoxlama apara bilmirlər. Nəticədə bəzən "ixtiraçılar"a ya qətiyyən yeni olmayan, ya da artıq ictimaiyyətə məlum olan biliyin cüzi dəyişdirilməsi nəticəsində hasil olan "ixtiralara" görə patent verilir. Bu, ciddi problemə çevrilə bilər, çünki belə olan halda, kimsə ictimai mülkiyyətin bir hissəsini "özəlləşdirə" bilər və ya daha çox bilik və yeniliklərin müəyyən hissəsinin statusunu qeyri-müəyyən şəkldə sala bilər. Bu cür qeyri-müəyyənlik yeniliklərin yaradılması prosesini inkişafdan saxlaya bilər, bu isə patent qanunlarında nəzərdə tutulan məqsədlərin tam əksini təşkil edir. Bu səbəblərdən, hökumətlər keyfiyyətli patent yoxlaması məsələsinə böyük diqqət yetirməli, patent yoxlama prosesinə və zəruri xüsusiyyətlərə malik olan yoxlayıcıların işə götürülməsi, təlim keçməsi, işdə saxlanması və mükafatlandırılması məsələlərinə adekvat resurslar ayırmalıdır.

*Faydalı modellər.* Faydalı modellərin qeydiyyatdan keçirilməsi bəzi ölkələrdə kiçik ixtiralara və ya mövcud texnologiyaların təkmilləşdirilməsinə görə təmin edilən müstəsna hüquqdur. Ümumi götürdükdə, faydalı modellərin müdafiəsi üçün patent müdafiəsindən az ixtira

həcmi tələb olunur və faydalı modellərin müdafiə müddəti çox vaxt patentin müdafiə müddətindən qısa olur. Bu modeldən adətən faydalı və praktik olan, lakin müvafiq sahədə xüsusi əhəmiyyətli bir yenilik hesab edilməyən alət və ləvazimat ixtiralarını müdafiə etmək üçün istifadə edilir.

TRIPS Müqaviləsində ÜTT üzvü olan dövlətlərin faydalı modellər haqqında qanunlar qəbul etməsi tələb olunmur. Lakin, son dövrlərdə bir sıra inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələr faydalı model sistemlərini qəbul etmişdir. Faydalı model müdafiəsinin iqtisadi təsirlərini tədqiq edən bəzi mütəxəssislər belə bir fikrə gəlib çıxmışlar ki, ƏMH müdafiəsinin bu zəif forması texniki biliyin lokal mənimsənilməsinə və "hər hansı bir ölkədə xarici ixtiraların dərkinə" təkan verir[56]. 1980-ci illərdə Braziliyada kənd təsərrüfatı avadanlıqları sənayesi ilə əlaqədar aparılmış bir tədqiqatda göstərilirdi ki, bu sənaye sahəsində fəaliyyət göstərən kiçik firmalar fermalarda istifadə edilən alətlərdə müəyyən kiçik təkmilləşdirmələrin aparılmasına xüsusi diqqət yetirir və xüsusi firmalar bazarlarına nüfuz edərək daha böyük firmalarla rəqabət aparmaq üçün faydalı model sistemindən istifadə edirdilər[57]. Hələ faydalı model sisteminə malik olmayan ölkələr belə bir modelin qəbul edilməsinin onların milli şəraitlərinə uyğun gəlib-gəlməyəcəyini tədqiq etməlidir.

*Ticarət sirləri.* TRIPS Müqaviləsinin 39.2 maddəsində ÜTT-yə üzv dövlətlərdən ticarət sirlərinin, yəni adətən müəyyən bir sahə üzrə biliklərə malik olan şəxslərin bilmədiyi, sirr olduğuna görə kommersiya dəyərinə malik olan və müvafiq informasiyaya malik olan şəxsin sirr olaraq saxlamaq üçün əsaslı tədbirlər gördüyü açıqlanmayan informasiyanın qorunması tələb olunur. Ticarət sirlərinin qorunması təkcə yüksək texnologiyalara əsaslanan biznes sahələri üçün deyil, həm də rəqibləri olan hər hansı müəssisə üçün zəruri əhəmiyyət daşıyır.

*Müəllif hüquqları.* Müəllif hüquqları orijinal müəllif işlərinin o cümlədən, kitablar, əsərlər, musiqi, məqalələr, filmlər, memarlıq çertyojları və kompüter proqramları58 kimi ədəbi, incəsənət və elmi işlərin müəlliflərinə həmin işlərin başqaları tərəfindən təkrarlanmasının, ictimai şəkildə açıqlanmasının, yayımlanmasının, nümayiş etdirilməsinin və ya kommersiya məqsədləri ilə hər hansı başqa tərzdə istifadə edilməsinin qarşısını almaq hüququ verir59. Proqram təminatı və bu qəbildən olan digər rəqəmli informasiya vasitələri ilə əlaqədar tətbiq edildiyinə görə, müəllif hüquqları elektron ticarət üçün müstəsna əhəmiyyət kəsb edir.

İnternet ticarətində əqli mülkiyyətin satışı və lisenziyalaşdırılması məsələləri ilə tez-tez üzləşmək olar. Bu ticarət sahəsinin inkişaf etdirilməsi üçün iki şərt tələb olunur, satıcılar əmin olmalıdırlar ki, onların əqli mülkiyyəti oğurlanmayacaq, alıcılar isə əmin olmalıdırlar ki, aldıqları məhsul orijinaldır. Əyləncədən təhsilə, biznes proqram təminatlarından elmi tədqiqatlar üçün məlumat bazalarına qədər hər növ informasiya məhsullarının yayılması prosesində elektron ticarətin təmin etdiyi imkanlardan bəhrələnmək üçün məhsul təminatçıları öz məhsullarının pirat təhlükəsindən kənar olduğuna əmin olmalıdırlar. Bu məhsulların əksəriyyətinin müəllif hüquqları haqqında qanunların predmeti olmasına baxmayaraq, qlobal elektron ticarətini reallığa çevirən texnoloji irəliləyişlər eyni zamanda qanun pozucuları üçün əqli mülkiyyət hüquqları ilə qorunan hər növ işlərin və əsərlərin mükəmməl nüsxələrinin yaradılması və yayılması prosesini asan və ucuz edir. Bu isə proqram təminatı istehsalçılarının və informasiya texnologiyaları şirkətlərinin mövcudluğu üçün təhlükə yaradır.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-nin) Müəllif Hüquqlarına dair Sazişində (ÜMHS) və ÜƏMT-nin İcra Fəaliyyətlərinin Nəticələri və Fonoqramlar haqqında Sazişində (ÜİFNFS) - hər ikisi 1996-cı ildə qəbul edilmişdir - texnoloji müdafiə, müəllif hüquqlarının idarə edilməsinə dair informasiya və ictimaiyyətə bəyan etmə hüququ ilə əlaqədar maddələr də daxil olmaqla "rəqəmli dilemma"nın həll edilməsinə yönəldilmiş müddəalar vardır. Ayrıca olaraq, ÜMHS-nin 11-ci maddəsində göstərilir ki, müqavilə bağlayan dövlətlər "müəlliflərin bu Müqavilədə və ya Bern Konvensiyasında göstərilmiş hüquqlarının həyata keçirilməsi üçün tətbiq etdiyi və sözügedən müəlliflərin və ya qanunun icazəsi olmadan onların işləri ilə əlaqədar qanunsuz fəaliyyətləri məhdudlaşdıran effektiv texnoloji tədbirlərdən yayınmalardan adekvat hüquqi müdafiəni təmin etməli və bu istiqamətdə effektiv hüquqi tədbirlər görməlidirlər"[60]. Düzdür, yayınmalar əleyhinə müddəa bəzi ölkələrdə mübahisəli şəkildə həyata keçirilmişdir, lakin məsələ ondadır ki, ÜMHS maddəsinin özündə qarşıya qoyulan məqsədə nə cür nail olmaq üçün üzv dövlətlərə kifayət qədər düşüncə azadlığı verilir. İnternetlə əlaqədar müəllif hüquqları haqqında müqavilələrə qoşulub-qoşulmamalarından asılı olmayaraq, keçid dövrünü yaşayan ölkələr rəqəmli mühitdə müəllif hüquqlarının təmin edilməsi üçün xüsusi müdafiə növlərini tətbiq etməlidir.

*Müəllif hüquqlarını pozan piratçılığın yüksək səviyyədə olduğu ölkələr son dövrlərdə Ukraynada, bu ölkənin beynəlxalq mövqeyinin yaxşılaşdırılması və müasir informasiya iqtisadiyyatında tam iştirak etməsinə yol açmaq üçün görülən tədbirlərə nəzər salmalıdırlar. ƏMH-nin qeyri-adekvat qorunması problemlərini həll etmək cəhdləri göstərən Ukrayna 2005-ci ilin iyul ayında pirat məhsullarının CD və DVD disklərində qeyri-qanuni istehsalına və yayılmasına son qoymaq üçün ölkənin müvafiq icra səlahiyyətlərini gücləndirən bir qanun qəbul etdi. O vaxtdan bəri Ukraynanın hüquq mühafizə əməkdaşları optik disklər istehsal etmək üçün müvafiq lisenziyaya malik olan zavodlarda bir sıra yoxlamalar aparmış və müəllif hüquqlarını pozan məhsulların kommersiya məqsədilə satılması ilə məşğul olan biznes sahələrinə reydlər etmişlər. Ukraynada bir çox qanun pozucuları müəllif hüquqları haqqında qanunları pozduqlarına görə böyük cərimələr ödəməli olmuşlar. Bütün bu səylər nəticəsində 2006-cı ilin yanvar ayında Amerika Birləşmiş Ştatları özünün Ukrayna üzrə ümumiləşdirilmiş imtiyazlar sistemini bərpa etdi və Ukraynanın "Xüsusi 301" statusunu ABŞ-ın Prioritet Nəzarət Tələb Edən Ölkələrin Siyahısında "Prioritet xarici ölkə" pilləsindən daha mülayim pilləyə endirdi.*[61]

*Ticarət nişanları.* Ticarət nişanı hər hansı bir müəssisənin mal və ya xidmətlərinin müəyyən edilməsi və onların digər bir müəssisə tərəfindən istehsal edilən mal və xidmətlərdən fərqləndirilməsi üçün istifadə edilən söz, brend, simvol və ya vasitədir. Patentlərdən, müəllif hüquqlarından və faydalı modellərdən fərqli olaraq, ticarət nişanları hüquqlarının məqsədi ilk növbədə ixtira, kəşf və ya hər hansı yeniliyin dəstəklənməsi deyil. Ticarət nişanlarına dair qanunların məqsədi ictimaiyyətin mal və xidmətlərin kommersiya mənbələri ilə əlaqədar çaşqınlığının qarşısını almaq və hər hansı bir biznes müəssisəsinin adının digər müəssisə tərəfindən fərqli surətdə təqdim edilməsi və ya mənimsənilməsi yolu ilə ticarət fırıldaqçılığından qorumaqdır. Yanlış nişanlardan istifadə etmək məhsulların saxtalaşdırılması və istehlakçının aldadılmasının bir növüdür. Bunun nəticəsində hökumət vergilərin bir qismindən məhrum edilə və ərzaq, dərmanlar və s. kimi insanlar üçün nəzərdə tutulan məhsullar istehlakçıların sağlamlığına və təhlükəsizliyinə xələl gətirə bilər.

Ticarət nişanları ilə əlaqədar qanun pozuntuları qanuni fəaliyyət göstərən biznes sahələri üçün də aydın mənfi nəticələrə səbəb olur. Şirkətlər öz müştərilərinin etimadını qazanmaq üçün çoxlu vaxt, pul və gərgin əmək sərf edirlər. Bu strategiyada ticarət nişanları aparıcı elementdir, çünki onlar müştərilərə biznes fəaliyyətini davam etdirməyə layiq olan şirkətləri müəyyən etməyə imkan verir. Hər hansı bir firmanın biznes nüfuzu və bazardakı mövqeyi onun öz məhsullarının satışı üçün istifadə etdiyi nişanları ilə əlaqələndirilməyə başlayır. Buna görə də hər hansı bir müəssisə öz rəqibinin ticarət nişanından qeyri-münasib yolla istifadə edərkən və ya müəyyən çaşqınlığa səbəb ola biləcək dərəcədə oxşar nişanı qəbul edərkən ticarət nişanları haqqında qanuna uyğun olaraq müvafiq tədbir görülür.

- *Kollektiv nişanlar.* Kollektiv nişan hər hansı bir kooperativ müəssisənin, assosiasiyanın, birliyin və ya digər bir kollektiv qrupun və ya təşkilatın üzvlərinin müstəsna istifadəsi üçün qeydiyyatdan keçirilmiş xüsusi ticarət nişanıdır64. Hər hansı bir mal və ya xidmət üzərində kollektiv nişan tətbiq edilərkən həmin nişandan yalnız həmin üzvlərin istifadə etməsinə icazə verilir və onlar bu nişandan öz mal və ya xidmətlərini adlandırmaq və onları kənar mal və ya xidmətlərdən fərqləndirmək məqsədilə istifadə edirlər65. Kollektiv nişanlar kiçik biznes qrupların və hətta fərdi sahibkarların bazarda gözə çarpması imkanlarını artıra və onlara bu nişanların nüfuzundan bəhrələnmək imkanı verə bilər. KOM-ların gücləndirilməsi üçün ölkələr kollektiv nişanlardan istifadənin inkişafı məsələsini nəzərdən keçirməlidir.

- *Sertifikatlaşdırma nişanları.* Sertifikatlaşdırma nişanları məhsulların müəyyən tələblərə uyğun gəlib-gəlməməsinin yoxlanması üçün tətbiq edilən məhsulların sertifikatlaşdırılması sxeminin ayrılmaz tərkib hissəsini təşkil edir. Qeyd edilən tələblərə aşağıdakılar daxildir: (1) müəyyən coğrafi regionda istehsal edilmə; (2) ekoloji cəhətdən sağlam şəkildə istehsal edilmə; (3) ədalətli ticarət standartlarına66 uyğun olaraq istehsal edilmə və bazara çıxarılma; və ya (4) təmiz şəraitdə istehsal edilmə. Bir qayda olaraq, hər hansı bir assosiasiya və ya ticarət təşkilatının sertifikatlaşdırma nişanı olur və yalnız məhsullarının müəyyən keyfiyyət standartlarına uyğun gəldiyini və/və ya müəyyən bir regionda istehsal edildiyini sübut edə bilən istehsalçıya bu nişandan istifadə etmək hüququ (lisenziya) verilir. Sertifikatlaşdırma nişanları çoxsaylı istehlakçılara istehsal edilən malların keyfiyyətinə, coğrafi mənşəyinə və ya digər

xüsusiyyətlərinə etibar etmək imkanı verir67. Özəl assosiasiyalar tərəfindən istifadə edilə bilən sertifikatlaşdırma nişanlarını tətbiq etməklə ölkələr marketinqdə yaradıcılığı və keyfiyyət standartlarının özəl təşəkkülünü inkişaf etdirə bilərlər; bunların hər ikisi yerli biznes növləri üçün daha böyük gəlirlər gətirə bilər.

*İnternet domen adlarının mühafizəsi.* Domen adı "delta.com" və ya "pioneer.com" kimi "insanlar üçün həm müəyyən edilməsi, həm də yadda saxlanması asan olan İnternet ünvanıdır"[68]. Elektron ticarət bütün dünyada inanılmaz sürətlə inkişaf etdiyinə görə domen adlar qanuni fəaliyyət göstərən müəssisələr üçün zəruri əhəmiyyət kəsb edən biznes atributuna çevrilmişdir. Hamıya məlum olan bir söz formasında olan nişanlara malik şirkətlər çox vaxt nişanı ünvanda göstərməklə domen adları qeydiyyatdan keçirir. Bununla belə, bəzi İnternet dəllalları öz rəqiblərinin və ya məşhur şirkətlərin nailiyyətlərindən bəhrələnmək məqsədilə onların ticarət nişanlarını öz domen adlarında yerləşdirmişlər. Milli hüquq sistemləri istehlakçıları və ticarət nişanlarının qanuni sahiblərini məşhur bir ticarət nişanının daxil edildiyi domen adları qeydiyyatdan keçirərək onları həmin nişanı qanuni sahiblərinə geri satmağa ümid edən "domen adlarının mənimsəyiciləri"nin özgə mülkiyyətini mənimsəməsindən və ya oğurlamasından qorumalıdır.

*Sənaye dizaynları.* TRIPS Müqaviləsinin 25-26-cı maddələrində ÜTT üzvlərindən yeni və orijinal sənaye dizaynlarının ən azı on il müddətində müdafiəsini təmin edən qanunlar qəbul etmək tələb edilir. Bu tip müdafiə sənaye obyektlərinin dizaynının yalnız qeyri-funksional elementlərinə tətbiq edilir. İnkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələr sənaye dizaynlarının qorunması məsələsinə dırnaqarası baxmamalıdır; bu müdafiənin məqsədi həmin ölkələrin sənətkar və dizaynerlərinin tam potensiallarının ÜDM-yə yönəldilməsini təmin etməkdir.

*Elektron ticarətin inkişafını dəstəkləyən ümumi qanunvericilik.* Məxsusi olaraq qəbul edilən "elektron qanunvericilik" hökumətin, şirkətlərin və ayrı-ayrı şəxslərin öz mal və xidmətlərini İnternet vasitəsilə və ya elektron yolla məxfi təklif etməsi və alması üçün hüquqi çərçivələr yaratmaqla rəqəmli sövdələşmələrin tətbiqinin genişləndirilməsinə gətirib çıxara bilər. 2005-ci il noyabrın 23-də BMT-nin Baş Assambleyası Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Müqavilələrdə Elektron Kommunikasiyaların Tətbiqinə dair Konvensiyasını69 qəbul etdi. Bu konvensiyanın məqsədi elektron kommunikasiyaların beynəlxalq müqavilələrlə əlaqədar istifadəsində əminlik və proqnozlaşdırma imkanlarını artırmaqdır. Konvensiyada hər hansı bir elektron sövdələşmədə tərəflərin hər birinin yerləşməsi ilə əlaqədar məsələlərin müəyyən edilməsindən, təhvil və təslim vaxtı və yerindən, müqavilələrin formalaşdırılması üçün avtomatlaşdırılmış məlumatlar mübadiləsi sistemlərindən və elektron kommunikasiyalar ilə "kağız üzərində olan" sənədlər arasında funksional bərabərliyin yaradılması məsələlərindən bəhs edilir. Konvensiyada həmçinin sənədlərin əsliliyinin elektron identifikasiyası üsulları müəyyən edilir.

Avropa İttifaqı elektron ticarətin asanlaşdırılması üçün elektron ticarətə dair ümumi direktiv[70], həmçinin elektron imzaların hüquqi qüvvəsini təsdiq edən[71], müəyyən rəqəmli xidmətlərdə ƏDV-nin tətbiqini tənzimləyən[72] və elektron kommunikasiyalarda məlumatların qorunmasından bəhs edən[73] xüsusi qanunvericilik də daxil olmaqla bir sıra direktivlər qəbul etmişdir. Aİ-yə üzv dövlətlər və Aİ üzvlüyünə qəbul olmaq arzusunda olan ölkələr öz qanunvericiliklərini bu direktivlərə uyğunlaşdırmalıdır. Digər ATƏT ölkələri də öz qanun layihələrini hazırlayarkən Aİ-yə istinad edə bilər.

# *Hökumət tədarükləri*

Hökumətlərin mal və xidmətlər tədarükləri qlobal ÜDM-nin böyük bir hissəsini təşkil edir. Bir çox ölkələrdə hökumət mal və xidmətlərin ən böyük alıcısıdır. Lakin bir sıra dövlətlərdə tədarük prosesində şəffaflıq qənaətbəxş səviyyədə deyil və xarici rəqabətin üzünə bağlıdır. Qapalı və ya qeyri-şəffaf tədarük sistemləri həmçinin fırıldaqçılığın, maliyyə vəsaitlərinin boş yerə xərclənməsinin və korrupsiyanın inkişafına təkan verə bilər. Bununla belə, hətta əgər hər hansı bir ölkə müəyyən qanuni səbəblərdən yalnız yerli tədarükçülər ilə müqavilə bağlamaq qərarına gəlmişsə, tədarük prosesində xarici şirkətlərə qarşı ümumi ayrı-seçkilik siyasəti ciddi çətinliklərə və ölkənin xarici investisiyalarla əlaqədar nüfuzuna xələl gətirə bilər.

Tədarük qanunlarının təkmilləşdirilməsi məqsədilə beynəlxalq razılaşmaların əldə olunması istiqamətində səylər yalnız qismən uğurlu olmuşdur. ÜTT-nin Hökumət Tədarüklərinə dair Razılaşmada[74] mərkəzi və yerli hökumət tədarüklərində xarici şirkətlərə qarşı ayrı-seçkiliyə yol verilməməsi və hüquqi norma və prosedurlarda şəffaflığa riayət edilməsi tələb olunur. Razılaşmada hökumətlərdən daxili prosedurlarda, bəzi ölkələrdə "hərrac etirazları" adı ilə tanınan imkanların tətbiq edilməsi tələbi irəli sürülür. Bu imkanlardan istifadə edən narazı tədarükçülər hökumətin tədarüklə əlaqədar qərarlarına qarşı iddia qaldıra və sözügedən qərarların Razılaşmanın müddəalarına zidd olduğu halda kompensasiya ala bilər. Lakin Hökumət Tədarüklərinə dair Razılaşma (HTR) "çoxtərəfli" müqavilə kimi işlənib hazırlanmışdır; ÜTT üzvlərinin onun şərtlərinə riayət etməsi tələb olunmur. Bu günə qədər Tədarük Razılaşmasını yalnız 28 ölkə - onlardan 25-i Avropa İttifaqının üzvləridir - imzalamışdır. Razılaşmanın

imzalanması ilə əlaqədar danışıqlar aparan ATƏT ölkələrinə Albaniya, Bolqarıstan, Gürcüstan, Qırğızıstan Respublikası və Moldova daxildir. Bundan əlavə, bir sıra ATƏT ölkələri HTR-in müşahidəçiləridir. Bu ölkələr Albaniya, Ermənistan, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Qırğızıstan Respublikası, Moldova və Rumıniyadır.

BMT-nin Beynəlxalq Ticarət Qanunu üzrə Komissiyası da həmçinin "Malların, tikinti və xidmətlərin tədarükünə dair" Model Qanunu elan etmişdir (1994-cü il)75. Qanunda sözügedən sahə üzrə ən mükəmməl təcrübələrin müfəssəl kolleksiyası təqdim edilir. Model Qanun belə bir ümumi qaydaya əsaslanır ki, "tədarükçü və podratçılara milli mənsubiyyətlərindən asılı olmayaraq tədarük proseslərində iştirak etməyə icazə verilməlidir və xarici tədarükçülər və podratçılar heç bir başqa formada ayrı-seçkiliyə məruz qalmamalıdırlar"[76]. Bu məqsədə nail olmaq üçün Model Qanunda təkliflər üçün müraciətlərin, podratçıların ilkin qiymətləndirilməsi (prequalification) üçün dəvətnamələrin və sair bu kimi sənədlərin həm daxili, həm də xarici tədarükçülər tərəfindən alınmasını nəzərdə tutan prosedurlar göstərilir. Lakin Model Qanunda etiraf edilir ki, ikitərəfli kömək proqramlarının şərtləri və regional iqtisadi inteqrasiya əraziləri kimi amillər tədarüklə əlaqədar müəyyən milli zəminli məhdudiyyətlər nəzərdə tuta bilər. Model qanunun 4-cü fəslində narazı tədarükçü və podratçıların tədarüklə əlaqədar qərarlara qarşı iddia qaldıracağı halda onların inzibati və hüquqi məqsədlərlə nəzərdən keçirilməsi prosedurları təsvir edilir. BMT-nin Beynəlxalq Ticarət Qanunu Komissiyasının Model Qanunu Albaniya, Azərbaycan, Xorvatiya, Estoniya, Qazaxıstan, Qırğızıstan, Polşa, Moldova, Rumıniya, Slovakiya və Özbəkistan da daxil olmaqla bir sıra ATƏT ölkələrinin qanunvericiliyinə öz təsirini göstərmişdir.

MƏTN BLOKU 5.3

### Rumıniyada dövlət elektron tədarükü

2002-ci ilin mart ayında Rumıniya hökuməti əsas, standartlaşdırılmış məhsullar üzrə dövlət elektron tədarükü layihəsinə başladı. Bütün tender elanları, tender prosesi və təkliflərin qiymətləndirilməsi İnternet vasitəsilə həyata keçirilir. Hələ də davam edən və artıq bitmiş tenderlər, podratçı təşkilatın vəzifəli əməkdaşların adları və son qiymətlər ilə əlaqədar informasiya ictimaiyyətə açıq şəkildə təqdim edilir. Belə bir fikir geniş təşəkkül tapmışdır ki, bu sistem xərcləri azaltmış, səmərəliliyi yüksəltmiş və korrupsiyanı məhdudlaşdırmışdır.

## Qanunvericiliyin icrası və şəxsi hüquqların müdafiəsi

Bu fəslin əsas hissəsində qanunvericilikdən və normativ aktlardan bəhs edilir. Lakin effektiv hüquqi sistem yalnız məqsədəuyğun qanuvericilikdən ibarət deyil. Əslində qanunların qəbul edilməsi, güman ki, hüquqi institutların yaradılmasının ən asan hissəsidir. Qanunların və mülkiyyət hüquqlarının məhkəmə sisteminin köməyilə tez və səmərəli icrası olmadan qanunvericilik effektiv fəaliyyət göstərə bilməz və nəticədə iqtisadi inkişafa xələl gələr.

İqtisadi fəaliyyət hüquq və öhdəliklərin həyata keçirilməsi üçün müəyyən hüquqi sistemlər olmadan da baş verir[77]. Bir-biri ilə uzun müddət uğurlu əməkdaşlıq edən müəssisələrdə qarşılıqlı etibar hissi yaranır və məhkəmə müdaxiləsini lüzumsuz edir. Həmçinin bir çox müqavilələr heç bir məcburiyyət olmadan həyata keçirilir, çünki tərəflərin hər biri üçün davamlı qarşılıqlı münasibətlər faydalıdır və ticarətin dayandırılması təhlükəsi onların hər birini öz vədlərini yerinə yetirməyə təhrik edir. Nüfuz amili də tərəflərin müqavilələri icra etməsi üçün güclü motivasiyanı təmin edir, çünki öz öhdəliklərini yerinə yetirməyən müəssisə ilə heç kim əməkdaşlıq etmək istəməz[78]. Bir çox hallarda bu qeyri-rəsmi icra üsulları effektivdir. Lakin onlar tanış olmayanlar arasındakı sövdələşmələrin asanlaşdırılması üçün çox az işləkdir. İqtisadiyyat sahəsində Nobel mükafatı laureatı Ç. Duqlas Nortun yazdığı kimi, şəhər cəmiyyətlərində mal və xidmətlərin ixtisaslaşmış istehsalçıları fəaliyyət göstərir və burada müqavilələr şəxsiyyət amilinə əsaslanmadan təmin edilməlidir, "çünki daha mürəkkəb və şəxsiyyət amilinə əsaslanmayan mübadilə formalarının genişlənməsi ilə şəxsi əlaqələr, [şəxsiyyət amilinə əsaslanan razılaşmalar] və qamçılama artıq öz effektivliyini itirməyə başlayır"[79].

Latın ifadəsi olan "pacta sunt servanda" - müqavilələr onlarda göstərilən şərtlərə uyğun olaraq icra edilməlidir - ümumilikdə müqavilə hüququnun fundamental prinsipini təşkil edir. Düzdür, müqavilənin qeyri-qanuni fəaliyyətlər, fırıldaqçılıq, qarşılıqlı səhv və s. bu kimi amillərlə müşayiət olunması qeyd edilən prinsipə istisnadır, lakin tərəflərin müqaviləni yerinə yetirməsi öhdəliyinə dair ümumi prinsip kommersiya münasibətlərində əminliyin və proqnozlaşdırma imkanlarının təmin edilməsi üçün labüd əhəmiyyət kəsb edir.

Hər bir sağlam iqtisadiyyat üçün hüquqların rəsmi təminatı mühüm əhəmiyyətə malikdir. Sistemin ədalətsiz və ya sadəcə çox asta, qeyri-effektiv və həddsiz baha olması, beləliklə də hüquqi tədbirlərin görülməsi mənasız vaxt itkisi kimi qəbul edilməsi çox zərərli təsəvvürdür. Cədvəl 5.1-də bəzi ATƏT ölkələrində müqavilələrin icrası prosesində xərc və yubatma amilləri tutuşdurulur.

CƏDVƏL 5.1

## Şərqi və Mərkəzi Avropada və Mərkəzi Asiyada müqavilələrin icrası

Dünya Bankının Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti (FIAS) ayrıca olaraq hər bir ölkədə müqavilələrin icrasına dair məlumatlar toplayır. Digər məlumatlarla yanaşı, FIAS müqavilələrlə əlaqədar mübahisələrin həll edilməsinə sərf edilən vaxtı təqvim günləri ilə, adi və ya inzibati məhkəmələrə xərclənən vəsaitləri, həmçinin vəkil xərclərini borc məbləğinin faizi kimi hesablayır. Aşağıdakı cədvəldə FIAS-ın müvafiq məlumatlara malik olduğu Şərqi və Mərkəzi Avropa, həmçinin Mərkəzi Asiya ölkələrində müqavilələrin icrasına dair statistik məlumatlar təqdim edilir.

| Ölkə | Vaxt (günlər) | Xərc (borc %-i) | Ölkə | Vaxt (günlər) | Xərc (borc %-i) |
|---|---|---|---|---|---|
| Albaniya | 390 | 28.6 | Makedoniya | 590 | 32.8 |
| Ermənistan | 185 | 17.8 | Moldova | 340 | 16.2 |
| Azərbaycan | 267 | 19.8 | Polşa | 980 | 8.7 |
| Belarus | 225 | 26.7 | Rumıniya | 335 | 12.4 |
| Bosniya və Hersoqovina | 330 | 19.6 | Rusiya Federasiyası | 330 | 20.3 |
| Bolqarıstan | 440 | 14 | | | |
| Xorvatiya | 415 | 10 | Serbiya və Çernoqoriya | 635 | 18.1 |
| Çex Respublikası | 290 | 9.1 | Slovak Respublikası | 565 | 15.0 |
| Estoniya | 150 | 10.6 | Sloveniya | 913 | 15.2 |
| Gürcüstan | 375 | 31.7 | Türkiyə | 330 | 12.5 |
| Macarıstan | 365 | 8.1 | Ukrayna | 269 | 11.0 |
| Qazaxıstan | 380 | 8.5 | Özbəkistan | 368 | 18.1 |
| Qırğızıstan Respublikası | 490 | 47.9 | | | |
| Litva | 154 | 9.1 | | | |

Mənbə: www.doingbusiness.org/ExploreTopics/EnforcingContracts

*Effektiv, qərəzsiz və müstəqil məhkəmələr.* Gündəlik biznes fəaliyyətlərində mübahisələr çox tez-tez baş verir. Bəzən tərəflər hər hansı bir qanun, müqavilə, əhd və ya digər sənədin nə qədər diqqətlə tərtib olunmasından asılı olmayaraq orada nəzərdə tutulmuş hüquq və öhdəliklərlə əlaqədar razılığa gələ bilmir. Bu münaqişələrin həllində məhkəmələr mühüm rol oynasa da, onların rolu ayrı-ayrı işlər üzrə qərar çıxartmaqdan xeyli genişdir:

> *Məhkəmələrin mübahisələrin həllində oynadığı rolu iddiaların həllinə dair qərar çıxarmaqla məhdudlaşmır. Məhkəmələrin başlıca töhfəsi... həm özəl, həm də dövlət sektorunda danışıqları və tənzimləməni norma və prosedurlarla təmin etməkdən ibarətdir. Məhkəmələrin rolu həmçinin potensial iddiaçılara məsələni məhkəmə yolu ilə həll edəcəkləri halda nəyin baş verəcəyi haqqında məlumatın verilməsindən ibarətdir.* [80]

Məhkəmələrin gücləndirilməsi struktur və prosessual islahatlar, o cümlədən məhkəmə idarəetməsi üçün yeni üsullar tələb edə bilər. Məhkəmə sistemlərinin təkmilləşdirilməsindən bəhs edən mötəbər ədəbiyyatda bir sıra ümumi məsələlər qeyd edilir:

- iqtisadi inkişaf üçün müəyyən çərçivənin yaradılmasında hakimlərin oynadığı rolu nəzərə alaraq demək olar ki, kifayət qədər yüksək məvacib alan və bilikli hüquqşünas heyəti ilə təmin edilmiş müstəqil məhkəmə sistemi hər bir ölkənin uzunmüddətli rifahı üçün mühüm əhəmiyyət kəsb edir;
- obyektiv fəaliyyət göstərən hakim heyətinin təmin edilməsi üçün hakimlərin səsvermələrdə qalib gəlmiş vəzifəli şəxslərin və qanunvericilik hakimiyyətinin siyasi təzyiqlərindən azad edilməsi zəruridir.

Məsələnin qismən həlli səsvermə yolu ilə seçilməsindən və ya təyin edilməsindən asılı olmayaraq hakimlərin tutduğu vəzifədən yalnız ciddi və aydın müəyyən edilmiş səbəblərə əsasən azad edilməsi prinsipini tətbiq etməklə onların müəyyən dərəcədə xidməti təhlükəsizliklə təmin edilməsidir;

• qanunvericiliyi təhlil edib onun konstitusiyaya zidd olduğunu açıq şəkildə bəyan edən hakimlər heyəti hakimiyyətin digər budaqları üçün əhəmiyyətli nəzarətçi rolunu oynayır;

• məhkəmə etikasına dair kodekslərdə hakimlərin özlərinə dair maraqlar konflikti müşahidə olunan məhkəmə işlərini aparmamaları (və ya rədd etmələri) tələb edilməklə onların obyektivliyi təmin edilməlidir;

• məhkəmə qərarları yazılı şəkildə həm tərəflərin, həm də əsaslı appelyasiya yoxlamasının düzgün başa düşməsi üçün kifayət qədər aydın şəkildə ifadə edilməlidir. Xüsusi hallar istisna olmaqla, bu qərarlar ictimaiyyətə açıq olmalıdır;

• xüsusi predmetlər məsələn, mürəkkəb kommersiya işləri və ya əqli mülkiyyət məsələləri üzərində ixtisaslaşmış yurisdiksiyaya malik olan məhkəmələr qanunun mürəkkəb hissələrdə daha effektli və sistemli şərhini və tətbiqini təmin edə bilər;

• məhkəmə idarəetməsinə yeni yanaşmada hakimlərin gündəlik inzibati tapşırıqlardan azad edilməsi, dəftərxana işinin mərkəzləşdirilməsi, hakimlərin məhkəmə idarəetməsi ilə əlaqədar ixtisaslaşmış təlimlər keçməsi və məhkəmə prosesinin avtomatlaşdırılması tələb edilə bilər.

*Münaqişələrin alternativ həlli üsullarının mövcudluğu.* Arbitraj - hər hansı bir mübahisəni bir və ya daha çox kənar (mübahisədə maraqı olmayan – red.) şəxsə qəti və icbari qərarın verilməsi üçün təqdim edilməklə münaqişənin qeyri-məhkəmə yolu ilə həlli üsuludur. Arbitraj bir sıra səbəblərdən beynəlxalq mübahisələrin məqsədəuyğun həlli üsulu hesab edilir:

1) bu, qapalı və məxfi prosesdir;

2) burada tərəflərə öz iddialarını dəqiq təsvir etmək üçün prosesə müəyyən ixtisaslaşmış biliyə malik olan şəxsləri cəlb etmək imkanı verilir;

3) arbitraj proseduru ümumiyyətlə məhkəmə prosedurlarından daha elastikdir və tərəflərin xüsusi ehtiyaclarına cavab vermək üçün müəyyən formaya salına bilər;

4) arbitraj məhkəməsinin qəbul etdiyi qərarlar appelyasiya məhkəməsinə təqdim edilə bilməz; yalnız xüsusi hallar istisna olmaqla bu qərarlar qəti və icbari hesab edilir;

5) arbitraj adi məhkəmə proseslərindən daha sürətli və ucuz başa gələ bilər;

6) arbitraj məhkəməsində hər hansı bir əcnəbi ölkədən olan tərəf müəyyən anlaşılmazlıqlarla daha az üzləşir;

7) dövlətin iddiaçı tərəflərdən biri olduğu halda arbitraj məhkəməsində dövlət tərəfinin münaqişənin həlli ilə əlaqədar müəyyən təzyiqlər göstərmək üçün məhdud imkanları olur;

8) hazırda bir sıra arbitraj müqavilələrini imzalamış iştirakçı ölkələrdə arbitraj qərarları tam praktik şəkildə icra edilir.

Beynəlxalq sövdələşmə tərəflərinin öz aralarındakı mübahisələrin həlli üçün çox vaxt arbitraj məhkəmələrinə üstünlük vermələrinin bir sıra səbəblərlə izah edilməsinə baxmayaraq, bəzi hökumətlər mübahisələrin qapalı həlli mexanizmlərinə müsbət münasibət bəsləmir. Arbitraj məhkəməsinə qarşı bu cür münasibət özünü müxtəlif formalarda göstərir; məsələn, arbitraj prosesinin tətbiqi ilə əlaqədar icbari prosedurların təyin edilməsini və ya arbitraj hakimi kimi çıxış edə bilən şəxslərin müxtəlif amillərlə məhdudlaşdırılmasını nəzərdə tutan, həmçinin məhkəmələrə “işin arbitraj məhkəməsinə verilməli olmadığını əsaslandırmaq üçün ‘qənaətbəxş bir səbəbin’ olduğunu hesab etdikləri halda arbitraj müqaviləsinə zidd olaraq başlanmış məhkəmə prosesinə davam etməkdən imtina etmək”81 imkanı verən qanunlar qəbul edilir. Arbitraj məhkəməsinin mövcudluğu və effektiv fəaliyyəti yolunda qoyulan bu məhdudiyyətlər xarici investisiyaların və öz mal və xidmətlərini digər ölkələrə ixrac etmək, və ya sərhədlərarası müştərək müəssisələrlə əməkdaşlıq etmək arzusunda olan daxili bizneslərin beynəlxalq fəaliyyətə aparan yolunda maneələr yaradır.

Dövlətlər ümumiyyətlə özəl tərəflərə öz kommersiya mübahisələrini arbitraj məhkəməsi yolu ilə mümkün qədər az məhdudiyyətlərlə həll etmək imkanı yaratmalıdır. Bundan əlavə, əgər hələ dövlətlər “Dövlətlər və digər dövlətlərin vətəndaşları arasında investisiya iddialarının həllinə dair Konvensiya”ya82 qoşulmayıblarsa, bu məsələni də nəzərdən keçirməlidir. Konvensiyada xarici investorlar ilə onların investisiya yatırdıqları ölkələrin hökumətləri arasında yaranan mübahisələrin arbitraj yolu ilə həllinə dair prosedur müəyyən edilmişdir. Bu, adətən ikitərəfli investisiya müqavilələrində göstərilən mübahisəli

halların həlli üçün üstün tutulan vasitədir. Bundan başqa, ölkələr həmçinin Xarici Arbitraj Qərarlarının Qəbul və İcra Edilməsinə dair 1958-ci il tarixli Nyu York Konvensiyasına (Nyu York Konvensiyası kimi tanınır) qoşulmaq məsələsini də nəzərdən keçirməlidir. Müəyyən istisnaları çıxmaq şərtilə, Nyu York Konvensiyasında onu imzalayan üzv dövlətlərdən digər üzv dövlətlərdə qəbul edilən arbitraj qərarlarına hörmət etmək tələb olunur.

Mübahisəli halların arbitrajdan başqa alternativ həlli üsullarına vasitəçilik və barışdırıcı prosedur daxildir. Bu terminlər bəzən bir-birinin əvəzinə də istifadə edilir və onların hər ikisi tərəflərin öz fikir ayrılıqlarını məhkəmə yolu ilə deyil, müzakirələr yolu ilə həll etməyi üstün tutduğu prosesi ifadə etmək üçün işlədilir. Bir qayda olaraq, barışdırıcı prosedur (həmçinin adətən vasitəçilik prosesi) mübahisənin həllində kömək edən bir vasitəçinin iştirakı ilə həyata keçirilir. Arbitrajdan fərqli olaraq, bu prosedurlarda məqsəd mübahisənin tərəflərdən hər hansı birinin iddiaları, arqumentləri və ya dəlillərinin üstünlüklərinin qeyd edilməməsi şərtilə həll olunmasıdır. Mübahisələrin bütün bu alternativ həll üsullarının tətbiqini dəstəkləyən dövlətlər məhkəmələrin getdikcə artan iş yükünü azalda və iqtisadi resursları bahalı və vaxt aparan məhkəmə proseslərinə deyil, həqiqətən də səmərəli fəaliyyətlərə yönəldə bilər.

## *İkitərəfli investisiya müqavilələri*

Sərhədlərarası investisiya axınlarına təkan vermək üçün ölkələr öz ticarət tərəfdaşları ilə getdikcə daha sürətlə ikitərəfli (və ya çoxtərəfli regional) müqavilələr bağlayır. Bu məsuliyyətli beynəlxalq müqavilələrdə bir dövlət tərəfin investorlarının digər dövlət tərəfin ərazisində müdafiə ilə təmin edilməsi nəzərdə tutulur. Sözügedən müqavilələrdə adətən bu fəsildə müəyyən edilmiş bir sıra prinsiplərə, o cümlədən: (1) xarici investorla ayrı-seçkiliyə yol verilmədən davranmaq; (2) "xarici investorla ədalətli və bərabər hüquqlu davranmaq";84 (3) icra tələblərinin aradan qaldırılması; (4) kapitalın və gəlirlərin məhdudiyyətsiz repatriasiyası; (5) aktivlərin ədalətli bazar qiyməti ilə kompensasiyası da daxil olmaqla beynəlxalq hüquqi standartlara uyğun olaraq müsadirədən müdafiə və (6) mübahisələrin icbari üçüncü tərəf arbitraj məhkəmələri yolu ilə həlli prinsiplərinə əsaslanan müddəalar öz əksini tapır. Bu cür müqavilələr investisiya axınlarını artıra bilər və iqtisadi inkişafa təkan vermək arzusunda olan ölkələr tərəfindən diqqətlə nəzərdən keçirilməlidir.

# Nəticələr və tövsiyələr

Uğurlu iqtisadi inkişaf strategiyasının bir sıra elementləri bir-birindən qarşılıqlı surətdə asılıdır və hər hansı bir strategiyanın müxtəlif komponentlərinin qeyri-mütənasib şəkildə vurğulanması onun ümumi effektivliyinə xələl gətirə bilər. Bu, xüsusilə də hüquqi sistemlərə aiddir. Burada tarix, mədəniyyət, təhsil və maliyyə resursları kimi qeyri-hüquqi amillərin qanunların qüvvəyə minməsinə, qəbul edilməsinə və onlara könüllü surətdə riayət edilməsinə təsiri var. Bundan əlavə, möhkəm hüquqi baza və konkret olaraq mülkiyyətə, müqavilələrə, həmçinin mülki, iqtisadi və siyasi azadlıqlara və ədalət sisteminə istinad imkanlarına dair normalar hüquqi mexanizmlərin (o cümlədən qiymətli kağızlar bazarının fəaliyyətini tənzimləyən) düzgün fəaliyyət göstərməsi üçün zəruridir. Müəyyən bir sahə ilə əlaqədar qanun və normativ aktların güclü və zəif cəhətləri həm də digər sahələr üzrə qanunvericiliyin fəaliyyət göstərməsinə birbaşa təsir edə bilər. Bütün bu səbəblərdən, hər hansı bir ölkənin qanunlarını bütövlükdə və yerli şəraitləri nəzərə almadan digər bir ölkəyə qəbul etdirmək çox nadir hallarda arzuolunan və ya səmərəli nəticələrə gətirib çıxara bilər. Bununla belə, əldə edilən məlumatlardan görmək olar ki, ATƏT regionunda iqtisadi artıma kömək edə bilən hüquqi sistemlərin müəyyən ümumi cəhətləri vardır. Bu ümumi cəhətlər aşağıdakı tövsiyələrdə ümumiləşdirilmişdir.

*Mülkiyyət və müqavilə hüquqları*
- Dövlətin özəl mülkiyyəti müsadirə etmək səlahiyyətlərinin yalnız həmin mülkiyyətin ictimai məqsədlərlə istifadəyə verilməsinin nəzərdə tutulduğu hallarla məhdudlaşdırılması.
- Kompensasiyanın məhz hansı müsadirə növləri üçün ödənilməli olduğunun dəqiq müəyyənləşdirilməsi.
- Müsadirə edilən əmlakın sahibkarına onun üçün ədalətli olan səviyyədə icbari kompensasiyanın təmin edilməsi.
- Müsadirə və müsadirə edilən əmlakın sahiblərinə kompensasiya ödənişi ilə əlaqədar hökumət orqanlarının qərarlarını nəzərdən keçirmək və lazım gəldikdə rədd etmək səlahiyyətinə malik olan müstəqil bir orqanın yaradılması.
- Kommersiya sövdələşmələrində tam müqavilə azadlığına icazə verilməsi.

*Tənzimləmə islahatları*
- Hədsiz sayda normativ aktlar toplusun təmizlənməsi məqsədilə "gilyotinləmə" prosesinin tətbiqi məsələsinin nəzərdən keçirilməsi.
- Yeni normativ aktların işlənib hazırlanması zamanı istifadə etmək üçün tənzimləmə təsirinin qiymətləndirilməsi prosedurunun qəbul edilməsi.

*Kommersiya, korporasiyalar və qiymətli kağızlara dair qanunvericilik*
- İnvestorların məhz öz şəraitlərinə uyğun gələn biznesin təşkili formasını seçə bilməsi üçün müxtəlif təşkilati formaların təmin edilməsi. Bura həm məhdud məsuliyyətli cəmiyyətlər kimi ayrıca hüquqi şəxslər, həm də franşiz münasibətləri kimi biznesin müqavilə formaları daxildir.
- Qanunvericiliyin İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə uyğunlaşdırılması.
- Kapital bazarı strukturlarının yaradılması zamanı brokerlərin və qiymətli kağızlar üzrə digər mütəxəssislərin fəaliyyətinə nəzarətin təmin edilməsi üçün özünü-idarəetmə təşkilatlarının köməyindən istifadə edilməsi.
- İnvestorların müdafiəsi və qiymətli kağızlarla əlaqədar iddiaların məhkəmə yolu ilə effektiv həlli mexanizmlərinin yaradılması.

*Kreditorların hüquqları*
- Kreditorların həm torpaq, həm də daşınar əmlak formasında girova dair hüquqlarının qeydiyyatı üçün müvafiq sistemlərin təsis edilməsi.
- Qanunvericilikdə əqli mülkiyyətin, alınası borcların və digər toxunulmaz aktivlərin kredit üçün girov/zəmanət kimi qəbuluna icazə verilməsi.
- BMT-nin Beynəlxalq Ticarət Qanunu Komissiyasının borcun ödənilə bilməməsi haqqında Vəsaitində göstərilən tövsiyələrin müvafiq hallarda tətbiq edilməsi.

*Bank hüququ və siyasəti*
- Qanunvericiliyin Bank İşinə Nəzarət üzrə Bazel Komitəsinin Bank İşinin Effektiv İdarə Edilməsinin Başlıca Prinsipləri ilə uyğunlaşdırılması.

*Valyuta siyasəti*
• Xarici valyutalar üzərində nəzarətin mümkün qədər tam aradan qaldırılması.
• Vergilərin ödənilməsindən sonra kapital və mənfəətin repatriasiya edilməsi üçün xarici investorlara tam sərbəstliyin verilməsi.

*Rəqabət qanunvericiliyi və siyasəti*
• Rəqabət qanunvericiliyinin başlıca prinsiplərinin müəyyən edilməsi. Adətən, iqtisadi səmərəlilik və istehlakçı rifahının maksimum səviyyəyə çatdırılması rəqabət siyasətinin ən ümdə məqsədlərini təşkil edir.
• Rəqabət mədəniyyətinin formalaşdırılması üçün ictimai maarifləndirmə və reklam kampaniyalarının keçirilməsi.
• Rəqabət qanunvericiliyi və siyasətinin formal mülahizələrə deyil, hərtərəfli iqtisadi təhlillərə əsaslanması.
• Birləşmələrə və bir şirkət tərəfindən digər şirkətin alınmasına dair icazə verilməsi şəitlərinin sərtləşdirilməsi. Bu bazarda kiminsə hakim mövqelərə malik olmasının və müvafiq dövlət qurumunun hədsiz yüklənməsinin qarşısını ala bilər.

*Əqli mülkiyyət və elektron ticarət*
• Milli qanunverilciliyin TRIPS standartları ilə uyğunlaşdırılması. Patentlər, müəllif hüquqları və s. müdafiəsinə dair bütün məsələlərin dəqiq müəyyən edilməsinə xüsusi diqqət yetirilməlidir.
• Patentlərin yoxlanması prosesinə kifayət qədər resurs və işçi heyəti ayırmaqla yüksək keyfiyyətli nəticələrin əldə edilməsinə çalışmaq lazımdır.
• ƏMH-lərə hörmətlə yanaşılmasını təmin etmək və bu hüquqların pozulmasının cinayət və/və ya mülki qanun pozuntusu kimi ciddi məsələ olduğunu ictimaiyyətə çatdırmaq üçün ictimai bilik və maarifləndirmə proqramlarının həyata keçirilməsi.
• ƏMH-lərin həm hüquqi, həm də texniki aspektləri ilə məşğul olan hakim və hüquq-mühafizə əməkdaşları üçün təlim və təhsil proqramlarının həyata keçirilməsi.
• Kommersiya piratlığı baş verən zaman yoxlamalar, müsadirələr və həbslər keçirmək üçün əqli mülkiyyət üzrə ixtisaslaşmış hüquq mühafizə bölmələrinin yaradılması.
• Əqli mülkiyyət sahəsində ixtisaslaşmış məhkəmə və ya tribunalların yaradılması məsələsinin nəzərdən keçirilməsi.

*Dövlət tədarükləri*
• Dəyəri müəyyən maliyyə həddindən yüksək olan tədarüklərlə əlaqədar icbari rəqabətli tenderlər keçirilməli və müvafiq şərtlər geniş ictimaiyyətə çatdırılmalıdır (yaxşı olardı ki, İnternet vasitəsilə).
• Alış prosesi şəffaf olmalı, tenderdə müvafiq etirazların bildirilməsi və tədarüklə əlaqədar qərarların müstəqil yoxlanması mümkün olmalıdır.
• Rəqabətli tender, bir qayda olaraq, xarici şirkətlərin üzünə açıq olur. Bu norma üzrə istisnalar ciddi məhdudlaşdırılmalı, aydın müəyyən edilməli və xüsusi, əhəmiyyətli dövlət siyasətləri ilə əsaslandırılmalıdır.

*Müqavilələrin və digər özəl hüquqların icrası*
• Müstəqil, effektiv və peşəkar məhkəmə sistemləri üçün tələb olunan struktur, prosessual və idarəetmə islahatlarının həyata keçirilməsi.
• Kommersiya mübahisələrinin arbitraj üsulu ilə həlli və arbitraj qərarlarının tətbiqi ilə əlaqədar bütün gərəksiz məhdudiyyətlərin aradan qaldırılması.
• Məhkəmə üsulundan başqa, mübahisələrin həlli üçün bütün alternativ formalardan (o cümlədən vasitəçilikdən və barışdırıcı prosedurdan) istifadənin dəstəklənməsi və inkişaf etdirilməsi.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

OECD, Competition Law and Policy in Russia – A Peer Review (2004), <http://www.oecd.org/dataoecd/10/60/32005515.pdf>

OECD, Competition Law and Policy in the European Union (2005), <http://www.oecd.org/dataoecd/7/41/35908641.pdf>

Mads Adenas and Gerard Sanders, eds., Enforcing Contracts in Transition Economies: Contractual Rights and Obligations in Central Europe and the Commonwealth of Independent States (London: EBRD and British Institute of International and Comparative Law, 2005).

International Monetary Fund & World Bank, Implementation of the Basel Core Principles for Effective Banking Supervision: Experiences, Influences, and Perspectives (2002), <http://www.imf.org/external/np/mae/bcore/2002/092302.pdf>

U.K. Commission on Intellectual Property Rights, Integrating Intellectual Property Rights and Development Policy (2002), <http://www.iprcommission.org/graphic/documents/final_report.htm>

James R. Barth, Gerard Caprio, Jr., and Ross Levine, Bank Regulation and Supervision: What Works Best?, World Bank Policy Research Working Paper 2725 (2001), <http://www-wds.worldbank.org/servlet/WDSContentServer/WDSP/IB/2002/01/17/000094946_01120104231862/Rendered/PDF/multi0page.pdf>

Olena V. Antonyuk and William A. Kerr, “Meeting TRIPS Commitments in Ukraine: An Important Challenge in the Quest for WTO Accession”, 8 Journal of World Intellectual Property 271 (2005).

Rafael La Porta, Florencio Lopez-de-Silane, Andrei Shleifer, and Robert W. Vishny, Legal Determinants of External Finance, NBER Working Paper 5879 (Jan 1997)

## QEYDLƏR

1 See generally Rafael La Porta, Florencio Lopez-de-Silane, Andrei Shleifer, and Robert W. Vishny, Legal Determinants of External Finance, NBER Working Paper no. 5879 (Jan 1997).

2 See Douglass C. North, “Institutions”, 5 The Journal of Economic Perspectives 97 (1991): “A capital market entails security of property rights over time and will simply not evolve where political rulers can arbitrarily seize assets or radically alter their value. Establishing a credible commitment to secure property rights over time requires either a ruler who exercises forbearance and restraint in using coercive force, or the shackling of the ruler’s power to prevent arbitrary seizure of assets.”

3 World Bank Development Report 2005: A Better Investment Climate for Everyone, chap. 4, “Stability and Security”, <http://siteresources.worldbank.org/INTWDR2005/Resources/06_WDR_PO2_Ch04.pdf>

4 Michael G. Parisi, “Moving Toward Transparency? An Examination of Regulatory Takings in International Law”, 19 Emory International Law Review 383 (2005).

5 The following formulation by a panel of the International Centre for Settlement of Investment Disputes, based in part on jurisprudence of the European Court of Human Rights, is instructive: “[T]he measures adopted by a State, whether regulatory or not, are an indirect de facto expropriation if they are irreversible and permanent and if the assets or rights subject to such measure have been affected in such a way that ‘any form of exploitation thereof’ has disappeared; i.e. the economic value of the use, enjoyment or disposition of the assets or rights affected by the administrative action or decision have been neutralized or destroyed. Under international law, the owner is also deprived of property where the use or enjoyment of benefits related thereto is exacted or interfered with to a similar extent, even where legal ownership over the assets in question is not affected, and so long as the deprivation is not temporary. The government’s intention is less important than the effects of the measures on the owner of the

assets or on the benefits arising from such assets affected by the measures; and the form of the deprivation measure is less important than its actual effects.” Award in Tecnicas Medioambientales Tecmed S.A. v. The United Mexican States Case No. ARB (AF)/00/2 (ICSID 2003), <http://www.worldbank.org/icsid/cases/laudo-051903%20-English.pdf>

See also: Biloune v Ghana Investments Centre, 95 International Law Reports 1830 (1989); International Technical Products Corp v Government of the Islamic Republic of Iran, 9 Iran-U.S. Claims Tribunal Reports 206 (1985); Tippetts, Abbett, McCarthy, Stratton v TAMS-AFFA Consulting Engineers of Iran, 6 Iran-U.S. Claims Tribunal Reports 219 (1984); and ITT Indus. v Iran, 2 Iran-U.S. Claims Tribunal Reports 348 (1983).

6 Elena Suhr, “Good Intentions and Bad Consequences: How Overregulation Impedes Uzbekistan’s Growth”, Center for International Private Enterprise Economic Reform Feature Service (29 Jan 2004), <http://www.cipe.org>

7 Ibid.

8 <http://www.asycuda.org>

9 “Ukraine Adopts Law on Business Permits Drafted by IFC”, International Finance Corporation Press Release (7 Sept 2005), <http://www.ifc.org/ifcext/media.nsf/content/SelectedPressRelease?OpenDocument&UNID=5AAAACFB66DC11CD8525707500483635>

10 Russell Muir and Xiaofang Shen, Land Markets: Improving Access to Land and Buildings by Investors, (FIAS, World Bank Group, Oct 2005) <http://www.bdsknowledge.org/dyn/be/docs/77/Session3.1Shen-MuirDoc.pdf>

11 J. David Stanfield, Creation of Land Markets in Transition Countries: Implications for the Institutions of Land Administration, Working Paper no. 29 (Land Tenure Center, University of Wisconsin-Madison 1999).

12 Terence Daintith, “Contractual Discretion and Administrative Discretion: A Unified Analysis”, 68 Modern Law Review 554 (2005).

13 “International Institute for the Unification of Private Law (the ‘UNIDROIT’) Principles of International Commercial Contracts” (1994): “The principle of freedom of contract is of paramount importance in the context of international trade.” <http://www.unidroit.org/english/principles/blackltr.pdf >

14 For example, although Article 1:102(1) of the Principles of European Contract Law – entitled “Freedom of Contract” – proclaims that “parties are free to enter into a contract and to determine its contents,” this freedom is expressly made “subject to the requirements of good faith and fair dealing, and the mandatory rules established by these Principles.” <http://www.jus.uio.no/lm/eu.contract.principles.parts.1.to.3.2002/1.102>

15 “Recent legal developments in transition countries” (EBRD, June–Dec 2005), <http://www.ebrd.com/country/sector/law/new/develop.pdf>

16 Edict of the President of the Republic of Belarus no. 373 of Aug 15, 2005, “Certain Issues of Concluding Agreements and Fulfillment of Obligations on the Territory of the Republic of Belarus”.

17 Boris Kasolowsky and Dieter Thalhammer, Austria: “Car Dealer v. Defendant Distributor – Competition Law and Arbitration Clause”, 8 International Arbitration Law Review N1-3 (2005).

18 Willem H. Buiter, What have we learnt from fifteen years of transition in Central and Eastern Europe (National Bureau of Economic Research, 2004), <http://www.nber.org/~wbuiter/vietnam.pdf>

19 OECD Principles of Corporate Governance (2004), <http://www.oecd.org/dataoecd/32/18/31557724.pdf>

20 Law No.1134-XIII On Joint Stock Companies, adopted on Apr 2, 1997, <http://www.law-moldova.com/laws/emg/law-on-joint-stock-companies-english.htm>

21 Alum Bati, “Corporate Governance Reform in Azerbaijan”, 5th Meeting of the OECD Eurasian Corporate Governance Committee, <http://www.oecd.org/dataoecd/5/27/3>

22 <http://www.nbs.yu/english/regulations/2_1_7e.pdf>

23 Law of the Republic of Armenia on Joint Stock Companies (Armenian JSC Law), art. 85(5), <http://www.armex.am/en/regulation/l_en_JSCL.pdf>

24 <http://www.ebrd.com/country/sector/law/st/about/prin/index.htm>

25 EBRD, “Towards international standards on insolvency: the catalytic role of the World Bank, Law in transition”, in Insolvency law and practice (Spring 2000), <http://www.ebrd.com/pubs/legal/4330c.pdf>

26 <http://www.uncitral.org/pdf/english/texts/insolven/05-80722_Ebook.pdf>

27 <http://www.uncitral.org/pdf/english/texts/insolven/insolvency-e.pdf>

28 Law Commission Report No. 52, Cross-Border Insolvency: Should New Zealand Adopt the UNCITRAL Model Law on Cross-Border Insolvency? (1999), <http://www.iiiglobal.org/country/newzealand/New_Zealand_Report_Should.pdf>

29 Law on Bankruptcy Proceedings, Republic of Serbia, passed by the National Assembly on 23 July 2004, Official Gazette of the Republic of Serbia, no. 84/04, <http://www.mpriv.sr.gov.yu/upload/documents/zakoni/pdf/bankruptcy_law.pdf>

30 "Code of Ethics for Bankruptcy Receivers", <http://www.alsu.sr.gov.yu/images/akti/code_of_ethics.doc>

31 "Second round of bankruptcy trustees receive licenses" (Serbian Government press release, 25 Oct 2005), <http://www.srbija.sr.gov.yu/vesti/vest.php?id=17200&q=bankruptcy>

32 Ross Levine and Sara Zervos, "Stock Markets, Banks, and Economic Growth", 88 American Economic Review 537 (1998).

33 The best practices for capital markets regulation listed in this chapter are adopted from Hugo Nemirowsky and Jesse Wright, Issues Surrounding Security Regulation in Latin America and the Carribean (Inter-American Development Bank, 1996), <http://www.iadb.org/sds/publication/publication_23_e.htm#2>

34 <http://www.bis.org/publ/bcbs30a.pdf>

35 See James R. Barth, Gerard Caprio, Jr. and Ross Levine, Bank Regulation and Supervision: What Works Best?, World Bank Policy Research Working Paper 2725 (2001), <http://www-wds.worldbank.org/servlet/WDSContentServer/WDSP/IB/2002/01/17/000094946_01120104231862/Rendered/PDF/multi0page.pdf>

36 Banking Law (no. 66(I) of 1997) of the Republic of Cyprus, <http://www.centralbank.gov.cy/media/pdf/BCLWE_BANKINGLAW.pdf>

37 John W. Head, "Getting down to basics: strengthening financial systems in developing countries", 18 Transactional Lawyer 257 (2005).

38 Jeremy Greenwood and Kent Kimbrough, "An Investigation into the Theory of Foreign Exchange Controls", 20 The Canadian Journal of Economics 271 (1987).

39 "Competition Policy and Intellectual Property Rights", OECD Doc. no. DAFFE/CLP (98) 18 (21 Sept 1998).

40 Casey Lee, "Model Competition Laws: The World Bank-OECD and UNCTAD Approaches Compared" (10 Aug 2004), <http://www.competition-regulation.org.uk/conferences/southafrica04/lee.pdf>

41 See generally "A Framework for the Design and Implementation of Competition Law and Policy" (World Bank & OECD, 1999), <http://rru.worldbank.org/Documents/PapersLinks/2427.pdf>

42 See "Resale price maintenance", OECD Doc. No. OCDE/GD(97)229 (1997), <https://www.oecd.org/dataoecd/35/7/1920261.pdf>

43 See, for instance, Art. 24, Bulgarian Law on Competition Protection, published in the SG no. 52/1998, as amended, SG nos. 112/1998, 81/1999, 28/2002, 9/2003 and 107/2003, <http://www.cpc.bg/system/storage/zak_en_1_119.doc>; Arts. 10-11, Turkish Act on the Protection of Competition, act no. 4054, adopted 7 Dec 1994, <http://www.rekabet.gov.tr/word/ekanun.doc>

44 See, for example, Law of the Russian Federation no. 147-Fz (I) on Natural Monopolies of 17 Aug 1995 (as amended on 8 Aug and 30 Dec 2001), <http://www.fas.gov.ru/english/legislation/5414.shtml>

45 Keith E. Maskus, "Intellectual Property Rights and Foreign Direct Investment", Centre for International Economic Studies, Policy Discussion Paper no. 0022, <http://www.adelaide.edu.au/cies/papers/0022.pdf>

46 See Edwin Mansfield, "Intellectual Property Protection, Foreign Direct Investment and Technology Transfer", IFC Discussion Paper no. 19 (1994), <http://www.bvindecopi.gob.pe/colec/emansfield.pdf>

47 <http://www.wto.org/english/tratop_e/trips_e/t_agm0_e.htm>

48 For a recent review of an OSCE country's efforts to comply with TRIPS, see Olena V. Antonyuk and William A. Kerr, "Meeting TRIPS Commitments in Ukraine, An Important Challenge in the Quest for WTO Accession", 8 Journal of World Intellectual Property 271 (2005).

49 See Integrating Intellectual Property Rights and Development Policy (UK Commission on Intellectual Property Rights 2002), <http://www.iprcommission.org/graphic/documents/final_report.htm>

50 Commission Regulation (EC) no. 772/2004 of 27 Apr 2004 on the application of Article 81(3) of the Treaty to categories of technology transfer agreements, Regulation EC 772/2004, OJ 2004 L123/11.

51 Commission Notice: Guidelines on the application of Article 81 of the EC Treaty to technology transfer agreements, OJ 2004 C101/2.

52 <http:// www.usdoj.gov/atr/public/guidelines/ipguide.htm>

53 TRIPS Art. 27.1.

54 <http://www.uprp.pl/Formularze/ustawa2000_gb.doc>

55 Utility models are known in some countries as petty patents or innovation patents.

56 Commission on Intellectual Property Rights, Workshop 1, "Technology, Development and Intellectual Property Rights", <http://www.iprcommission.org/papers/text/workshops/workshop1.txt> Describing the conclusions of Dr. Nagesh Kumar, it runs: "The second-tier systems encouraged minor adaptations and inventions by local firms. Later on, the IPR systems became stronger partly because local technological capacity was sufficiently advanced to generate a significant amount of innovation, and also as a result of international pressure."

57 Sonia Dahab, "The Agricultural Machinery and Implement Industry in Brazil: its historical development and inventive activity", (unpublished Ph.D. dissertation, Yale University, 1985, on file with author), 235–36.

58 Berne Convention for the Protection of Literary and Artistic Works, art. 2(1), <www.wipo.org/clea/docs/en/wo/wo001en.htm> See also TRIPS Agreement, Art. 10(1): "Computer programmes, whether in source or object code, shall be protected as literary works under the Berne Convention."

59 See, for example, Universal Copyright Convention, art. IV$^{bis}$. Copyright also gives authors the right to control the making of adaptations or alterations – known in some countries as derivative works – of the original work. See Berne Convention, Art. 12.

60 Article 18 of the WPPT contains nearly identical language.

61 "USTR Reinstates Generalized System of Preferences Benefits for Ukraine", U.S. Trade Representative press release of 23 Jan 2006, <http://www.ustr.gov/Document_Library/Press_Releases/2006/January/USTR_Reinstates_Generalized_System_of_Preferences_Benefits_for_Ukraine.html?ht=>

62 Some countries use the term "trade mark" to refer to a mark that is applicable to goods and "service mark" to refer to a mark that applies to services. For most purposes this distinction is insignificant; the same general principles apply to all marks, regardless of whether they identify goods or services.

63 See Article 15 of the TRIPS Agreement: "Any sign, or any combination of signs, capable of distinguishing the goods or services of one undertaking from those of other undertakings, shall be capable of constituting a trademark."

64 Article 20(1), Law on Trademarks, Service Marks and Appellations of origin (Republic of Armenia March 20, 2000): "A trademark of any economic association, intended to designate goods possessing combined qualitative or other general characteristics, and manufactured and/or produced thereby shall be regarded as a collective mark", <http://www.armpatent.org/english/database/trademarks.html>; Art. 2(1), The Law of Trademarks (Former State Union Serbia and Montenegro): "A collective trademark shall mean a trademark of a legal person representing a certain type of association of manufactures and/or providers of services, which may be used by persons who are members of such association", <http://www.yupat.sv.gov.yu/pdf/eng/propisi/zigovi/trademark_law.pdf>; Art. 96(1) Hungarian Law No. XI of 1997 on the Protection of Trademarks and Geographical Indications: "Collective marks are marks that are capable of distinguishing goods or services of the members of a social organization, public body or association ... from the goods or services of other undertakings according to the quality, origin or other characteristics of goods or services bearing the collective mark."

65 U.S. Manual of Trademark Examining Procedure § 1302.

66 For a discussion of the use of the Fairtrade certification mark, see "How you can help developing farmers get some fair pay", Bath Chronicle (27 Feb 2004): 14.

67 See, for instance, Trademark Act of Malta (Act XVI of 2000) §46(1): "A certification mark is a mark indicating that the goods or services in connection with which it is used are certified by the proprietor of the mark in respect of origin, material, mode of manufacture of goods or performance of services, quality, accuracy or other characteristics."

68 WIPO Arbitration and Mediation Center, "Guide To WIPO Domain Name Dispute Resolution": 3.

69 <http://www.uncitral.org/pdf/english/texts/electcom/2005Convention.pdf>

70 Directive 2000/31/EC of the European Parliament and of the Council of 8 June 2000 on certain legal aspects of information society services, in particular electronic commerce, in the Internal Market, <http://europa.eu.int/ISPO/ecommerce/legal/documents/2000_31ec/2000_31ec_en.pdf>

71 Directive 1999/93/EC of the European Parliament and of the Council of 13 December 1999 on a community framework for electronic signatures, <http://europa.eu.int/eur-lex/pri/en/oj/dat/2000/l_013/l_01320000119en00120020.pdf> An excellent review of practical issues relating to the use of digital signatures appears in the study “The Legal and Market Aspects of Electronic Signatures”, Study for the European Commission - DG Information Society (Sept 2003), <http://europa.eu.int/information_society/eeurope/2005/all_about/security/electronic_sig_report.pdf>

72 Council Directive 2002/38/EC of 7 May 2002 amending and amending temporarily Directive 77/388/EEC as regards the value added tax arrangements applicable to radio and television broadcasting services and certain electronically supplied services, <http://europa.eu.int/eur-lex/en/dat/2002/l_128/l_12820020515en00410044.pdf>

73 Directive 2002/58/EC of the European Parliament and of the Council of 12 July 2002 concerning the processing of personal data and the protection of privacy in the electronic communications sector, <http://europa.eu.int/eur-lex/pri/en/oj/dat/2002/l_201/l_20120020731en00370047.pdf>

74 <http://www.wto.org/English/docs_e/legal_e/gpr-94_e.pdf>

75 <http://www.uncitral.org/pdf/english/texts/procurem/ml-procurement/ml-procure.pdf>

76 24, Guide to Enactment of Model Law on Procurement of Goods, Construction and Services.

77 An excellent discussion of the non-legal means which Russian enterprises have used to ensure contract performance can be found in Kathryn Hendley, Peter Murrell, and Randi Ryterman, “Law, Relationships, and Private Enforcement: Transactional Strategies of Russian Enterprises”, Europe-Asia Studies 52/4 (June 2000): 627–656, <http://www.bsos.umd.edu/econ/murrell/papers/transtrs.pdf>

78 Some enterprises also collect problem debts through coercion and intimidation by private “security” agents, although the extent to which such criminal methods are actually used cannot be readily measured.

79 Douglass C. North, “Institutions”, 5 The Journal of Economic Perspectives 97 (1991).

80 Marc Galanter, “Justice in Many Rooms: Courts, Private Ordering, and Indigenous Law”, 19 Journal of Legal Pluralism 1 (1981).

81 See Satu Kähkönen, Young Lee, Patrick Meagher, and Haji Semboja, “Contracting Practices in an African Economy: Industrial Firms and Suppliers in Tanzania” (University of Maryland, IRIS Center Working Paper 242, 2001), <http://www.iris.umd.edu/download.aspx?ID=b88f8fd6-1735-446c-a2bb-8d3b308d6e7b>

82 18 Mar 1965, 4 I.L.M. 532, (1965).

83 UNCTAD, “Trends in International Investment Agreements”, UNCTAD/ITE/IIT/13 (1999), <http://www.unctad.org/en/docs/iteiit13_en.pdf>

84 OECD, Fair and Equitable Treatment in International Investor Law, OECD Working Papers on International Investment 2004/3, <http://www.oecd.org/dataoecd/22/53/33776498.pdf>

# 6-cı Fəsil


IV Burgenland

# İnvestisiyaların dəstəklənməsi

Bir sıra ölkələr İnvestisiyaların Dəstəklənməsi Agentliklərinin (İDA-ların) köməyilə investisiyalar cəlb etməyə müvəffəq olmuşlar. İDA-lar investorların ehtiyaclarına xidmət edilməsi, biznesyönümlü siyasətlərin dəstəklənməsi və ölkənin investisiyalar məkanı kimi müsbət imicinin yaradılması və inkişaf etdirilməsi də daxil olmaqla bir sıra əhəmiyyətli funksiyaları yerinə yetirir. İDA-lardan əlavə, investisiya güzəştlərinin - aşağı korporativ vergi dərəcələrinin, zəif inkişaf etmiş lakin dəstəklənən zonaların, o cümlədən, sənaye parklarının - düzgün ölçülüb-biçilmiş tətbiqi biznes mühitinin təkmilləşdirilməsində kömək edə bilər, o şərtlə ki, bu zaman investorlar arasında ayrı-seçkiliyə yol verilməsin və həmin güzəştlər bu Vəsaitdə tövsiyə edilən institusional islahatların yerini tutmasın. Müsbət investisiya mühitinin aparıcı elementlərinin hələ tam tətbiq olunmadığı ölkələrdə suveren zəmanətlər və siyasi riskdən sığortalar investorlara biznesin təşkilinə könülsüz münasibətlərini qismən aradan qaldırmaqda kömək edə bilər.

# *İnvestisiyaların dəstəklənməsi*

XBİ-nin əksər iqtisadiyyatlarda mühüm əhəmiyyət kəsb etməsinə görə, demək olar ki, bütün ATƏT iqtisadiyyatları daxilə investisiya axınlarını fəal surətdə dəstəkləyir. UNCTAD-ın məlumatına görə, investisiyaların dəstəklənməsi "…bazarla əlaqədar informasiyalardan tutmuş texniki-iqtisadi əsaslandırma tədqiqatlarına və ətraf mühitə təsirin qiymətləndirilməsinə qədər çoxsaylı xidmət növlərini əhatə edir."1 Dünya Bankının nəzdində yaradılmış İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik (MIGA) özünün siyasi risklərdən sığortalanma ilə əlaqədar başlıca funksiyalarını icra etməkdən əlavə, inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatları investisiyaların dəstəklənməsi ilə əlaqədar təlimat və məsləhətlərlə də təmin edir. Əgər hər hansı bir ölkə investisiya axınlarını dəstəkləmirsə, deməli, özünün investisiya imkanlarının tədqiqi yükünü investorların üzərinə atır və beləliklə də, onun investisiyaların cəlb edilməsi ilə əlaqədar hər hansı digər regional iqtisadiyyatla rəqabətdə uduzmaq ehtimalı daha böyük olur.

# *İnvestisiyaların dəstəklənməsi agentlikləri (İDA-lar)*

İnvestisiyaların dəstəklənməsi agentlikləri XBİ-nin cəlb edilməsi üçün əhəmiyyətli mexanizmdir. Milli və ya xarici investisiyaların dəstəklənməsi üzrə agentliklər hər bir ölkənin investisiyalar məkanı kimi imicinin inkişaf etdirilməsi, investisiya mühitinin təkmilləşdirilməsi və xarici investorların fəal surətdə cəlb edilməsi üçün əlaqələndirici zəncir halqası rolunu oynayır (Mətn bloku 6.1).

İnvestisiyaların dəstəklənməsi üzrə hər bir agentliyin müvəffəqiyyəti son nəticədə onun ən ümdə məqsədə - xarici birbaşa investisiya axınlarının artırılmasına nə dərəcədə nail olması ilə ölçülür. Yeni sahələrin investisiyalarla təmin edilməsi hər bir İDA-nın əsas məqsədi olmalıdır. İDA-lar bu məqsədə aşağıdakı üsullarla nail olur:

- investisiyaların yolundakı maneələrin aradan qaldırılmasına hiss edilə bilən və əsaslı təsir göstərilməsi, həmçinin investorların tələblərini başa düşməyə çalışmaqla, həmçinin siyasət və proqramların alternativ variantlarının işlənib hazırlanması, investisiyalar yönümlü siyasətlərin dəstəklənməsi və digər hökumət orqanları ilə səmərəli əməkdaşlıq və ünsiyyət qurmaqla biznes mühitinin inkişaf etdirilməsi;
- investisiyaların dəstəklənməsi və toplanması sahəsində ən mütərəqqi təcrübələrdən istifadə etməklə ölkənin cəlbedici investisiya məkanı imicinin yüksəldilməsi;
- perspektivli investorların faydalı biznes

MƏTN BLOKU 6.1

**CzechInvest:**
**Şərqi Avropada aparıcı İDA-dir**

Özünün investisiyaların dəstəklənməsi sahəsində təcrübələrinə görə tez-tez istinad edilən bir təşkilat CzechInvest agentliyidir. O, Çex Respublikasına investisiyaların təşviqi üzrə eksklüziv agentlikdir və investisiyaların dəstəklənməsi üzrə digər təşkilatları təlimat və məlumatlarla təmin edir. CzechInvest agentliyinin missiyası genişləndirilərək Aİ-nin struktur fondlarının və KOM proqramlarının idarəetməsi məsələlərini də əhatə edir.

CzechInvest-in müvəffəqiyyətinin sirri nədədir? Aşağıda müəyyən başlıca təcrübələr göstərilir:

- *Keyfiyyət:* CzechInvest investisiyaların dəstəklənməsi sahəsində göstərdiyi bütün xidmətlər üzrə ISO 9001:2000 standartına müvafiq olan keyfiyyətli idarəetmə sistemini qurmuş yeganə təşkilatdır.
- *Diqqətin siyasətçilər deyil, investorlar üzərində cəmlənməsi:* İnvestisiya agentlikləri çox vaxt xüsusi investorların yerləşdirilməsi və ya müəyyən maliyyə məqsədlərinə nail olunması sahəsində "məsul" hesab edilən siyasi orqanlara çevrilərək fəaliyyətlərini investorlara xidmətlər göstərilməsi və biznes mühitinin təkmilləşdirilməsi məsələləri ətrafında cəmləmirlər. Dünya Bankından Kendiyoti Saçanın qeyd etdiyi kimi, hökumətlər öz məhdud gündəliklərində nəzərdə tutulmuş işləri həyata keçirməyə meyllidir və bu gündəliklərdə prioritet məsələlər investorların ehtiyaclarına xidmət etməyə çalışmaq deyil, əsasən çoxmilli korporasiyaların əlverişsiz ərazilərə cəlbedilməsindən ibarətdir. CzechInvest agentliyinin fəaliyyəti yalnız təbligat və reklamdan ibarət deyil, eyni zamanda Çex Respublikasında fəaliyyət göstərən mövcud və yeni sahibkarların, həmçinin əcnəbi investorların məsləhətlərlə təmin edilməsi və dəstəklənməsidir.
- *Xarici İnvestisiyalar üzrə Assosiasiya:* CzechInvest agentliyi Xarici İnvestorlar Assosiasiyası vasitəsilə xarici investorlara öz investisiya layihələrini hazırlamaqda kömək göstərən məsləhətçi təşkilatlarla tərəfdaşlıq qurmuşdur. Sözügedən məsləhətçi təşkilatlar assosiasiyaya üzv olur və müəyyən şərtlərə riayət etməyə razılaşır. CzechInvest agentliyi nəinki özü pulsuz xidmətlər təmin edir, həm də investorları pulsuz xidmətlərə əlavə pullu xidmətlər almaq üçün onların assosiasiyanın üzvlərinə doğru yönəldir. CzechInvest agentliyi investorlar üçün ixtisaslaşmış xidmətlər göstərən müəssisələrin siyahısını tərtib etmişdir və üzvlərin üzvlük haqqı ödənişləri ilə maliyyələşən assosiasiya tərəfindən maliyyələşdirilir. Məsləhətçi təşkilatlar isə müştəri əldə edir.
- *Növbəti dalğanı görərək:* ATƏT-in keçid dövrünü yaşayan iqtisadiyyatlarında bir sıra İDA-lar qərblə müqayisədə öz fəaliyyətlərini rəqabətədavamlılıq üzərində cəmləşdirmişlər. Qloballaşma nəticəsində dünya iqtisadiyyatının xidmətlər və insan kapitalına əsaslanan hissəsi artmış və artmaqda davam edəcəkdir və beləliklə də, Şərqi Asiya ilə rəqabət daha da mürəkkəbləşəcək. CzechInvest bunu lap əvvəldən başa düşmüş və texnologiya, biotexnologiya, elmi-tədqiqat, həmçinin yüksək əlavə dəyər təmin edən digər sənaye sahələrini dəstəkləməyə başlamışdır.

informasiyalarına ehtiyacı yaranan kimi həmin məlumatların təmin edilməsi yolu ilə investisiyaların toplanması prosesinin sürətləndirilməsi və investisiya məkanı kimi ölkəni təsvir edən reklam materiallarının hazırlanması;
•\ mövcud investorların hökumətlə əlaqələr qurmasında və müvafiq güzəştlər ilə əlaqədar məlumatlar əldə etməsində kömək edən, o cümlədən, investisiya yatırımı sürətini və həcmini artırmaq məqsədilə özünü müvafiq xidmətlər göstərən mərkəzi orqan kimi təqdim etməsi ;
• ölkədaxili siyasi proseslərdən uzaq olaraq öz fəaliyyətini keyfiyyət, müştərilərə xidmət, həmçinin investisiyaların artımı məsələləri üzərində cəmləşdirmiş müstəqil təşkilat kimi fəaliyyət göstərməsi.

Bu məqsədlərə nail olmaq üçün hər bir İDA aşağıdakı vasitələrdən istifadə edir:

• xarici investorlar üçün investisiyalar ombudsmanı rolunu oynaması;
• peşəkar, bacarıqlı, bir çox xarici dil bilən və ədalətli məvacib alan işçi heyətinin yaradılması;
• müştəri xidmətlərinə yanaşma tərzinin təkmilləşdirilməsi;
• öz prinsipial əhəmiyyətli fəaliyyətlərinin icrasında müvəffəqiyyət əldə etməyə cəhd göstərməsi.

**İDA-nın başlıca fəalyyət növləri hansılardır?**

*Siyasətin dəstəklənməsi, İnvestisiya maneələrinin aradan qaldırılması:* Hər bir İDA müntəzəm surətdə özünün müstəqil və qeyri-siyasi mövqeyini qoruyub saxlayaraq investisiyaları stimullaşdıran və beynəlxalq norma və standartlara cavab verən iqtisadi siyasətləri dəstəkləməyə çalışır. İnvestisiya maneələrinin aradan qaldırılmasında İDA-ların rolu üç sahə üzərində cəmləşir:

• *Xarici investorlarla məsləhətləşmələr yolu ilə mühüm investisiya maneələrinin müəyyən edilməsi.* İnvestisiya mühitinə hiss olunan təsir göstərə bilmək üçün islahatlar məqsədəuyğun olmalı və əsaslı təsir gücünə malik olmalıdır. İnvestisiyaların yolunda ən mühüm və ən “asan ləğv edilən” maneələrin müəyyən edilməsi zamanı hər bir İDA məsələni xarici investorun nöqteyi-nəzərindən təhlil etməlidir. İDA xarici investorlardan aldığı məlumatlara əsaslanan xüsusi siyasət və proqramlara dair tövsiyələrini hökumətə təqdim edir.

• *Tənzimləmə yükünün azaldılması istiqamətində göstərilən səylərin dəstəklənməsi.* İDA peşəkarlarının daha məqsədəuyğun fəaliyyət göstərən tənzimləmə mühitinə olan ehtiyacı başa düşmələri faktı onu göstərir ki, onlar müəssisələrin qeydiyyatı və lisenziyalaşdırılması, həmçinin vergi inzibatçılığı kimi sahələrdə təkmilləşdirmələrin həyata keçirilməsinə çalışırlar. İDA xarici investorların ən məqsədəuyğun təcrübələrinin və yenilikçi ideyalarının müəyyən edilməsində kömək edə və investorların dəyişikliklərdən razı olub-olmamalarını qiymətləndirə bilər.

• *Özəl sektorla sistematik dialoqun və əməkdaşlığın qurulması.* Güclü investisiya mühiti üçün özəl sektorla sistematik dialoqların aparılması zəruri əhəmiyyət kəsb edir. Məsələn, kommersiya ilə əlaqədar qanun layihələri işlənib hazırlanarkən qeydlər üçün müddətlər təyin edilir və özəl sektorun tövsiyələrinin daxil edilməsi nəticəsində qanunvericiliyin keyfiyyəti artır. İnvestor problemlərinin dərk edilməsini yüksəltmək və hökumət strategiyaları və ya proqramlarını izah etmək üçün müzakirə forumları, ictimai dinləmələr və digər üsullardan istifadə edilir. İDA-lar xarici investorun “səsinin” hökumət tərəfindən eşidilməsini təmin edir. Bundan əlavə, İDA informasiyaların dövlət nazirliklərindən xarici investisiyalar icmasına axınını və paylaşmasını koordinasiya edə bilər.

*Müsbət imicin dəstəklənməsi:* İDA-lar hər bir ölkənin cəlbedici investisiya məkanı imicinin dəstəklənməsində aparıcı rol oynayır. Onun vəzifələrinə ölkə imici konsepsiyasının tərtib edilməsinə köməklik və əsas ismarıcların hazırlanması və investorlara çatıyaradılması daxildir. İsmarıcların potensial mövzularına aşağıdakılar daxildir:

• *Siyasi və makro-iqtisadi sabitliyin ümumi artımı.* Siyasi sabitsizliyin, mülki münaqişələrin və ya iqtisadi böhranların baş verdiyi inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrə siyasi və iqtisadi sabitlik sahəsində irəliləyişləri dəstəkləmək və bu barədə ictimaiyyətə məlumatlar vermək məsləhət görülür.

• *Bazara giriş.* Xərclərin aşağı olduğu bir ölkə Aİ və ya Rusiya kimi ölkələrlə strateji sərhədlərə malikdirsə bu, həmin ölkənin rəqabətədavamlı üstünlüyüdür və dəstəkləyici ismarıclarda qeyd edilməlidir. Eyni sözləri Orta Şərq, Asiya və s. kimi ərazilərə strateji giriş haqqında da demək olar.

• *Daxili bazar.* Hər hansı bir ölkənin çoxsaylı əhalisi var-

sa və xüsusilə də, orada güclü iqtisadi artım müşahidə olunursa İDA həmin ölkənin genişlənməkdə olan daxili bazar imicini inkişaf etdirməlidir.

• *Təbii ehtiyatlar.* Ölkə neft, təbii qaz, odun, kənd təsərrüfatı torpaqları, minerallar və ya digər dəyərli ehtiyatlara malikdirsə İDA investisiya imkanlarının mövcudluğu haqqında investorlara məlumat verməlidir.

• *Regional və beynəlxalq inteqrasiya.* İDA ölkənin Aİ və ya ÜTT kimi təşkilatlara daxil olması, həmçinin sərbəst ticarət haqqında müqavilələrə qoşulması və ya digər beynəlxalq ticarət razılaşmalarında iştirakı barədə aydın siqnallar göndərməlidir. Sərbəst ticarət, əməliyyatların aşağı qiymətlərə başa gəlməsi, bazara tam giriş imkanları qlobal və regional intqerasiya prinsiplərinə sədaqət hər bir iqtisadiyyatın imicinə müsbət təsir göstərir.

• *Rəqabətədavamlı xərclər, investisiyalardan gəlir əldə edilməsi.* Xarici investisiyalar ümumiyyətlə onlardan müəyyən gəlirin əldə edilməsi prinsipinə əsaslanır; burada isə müəyyən risk ehtimalı mövcuddur. Ölkə insan kapitalı, torpaq və /və ya enerji üzrə rəqabətədavamlı qiymətlər təklif edirsə onda həmin ölkə investisiyalardan cəlbedici gəlir əldə edilməsinin təminatı nöqteyi-nəzərindən çox mühüm rəqabətədavamlı üstünlüyə malikdir.

*Məlumatlar* köməkçi vasitələrlə, daha dəqiq desək, məlumatların çatdırılması şəbəkələrinin köməyilə çatdırılır. İDA-larin, bir qayda olaraq, təklif etdiyi vasitələrə aşağıdakılar daxildir:

• *Təqdimatlar.* Təqdimatlar perspektivli investorlara ya İDA heyəti, ya da hökumət rəsmiləri tərəfindən çatdırıla bilər. Təqdimatlar investor auditoriyasının xüsusiyyətlərinə: onların xüsusi maraqlarına, fəaliyyət sektorlarına, milli mənsubiyyətinə və s.-ə uyğunlaşdırıla bilmək üçün dəyişkən formada olur.

• *Marketinq materialları.* Hər bir İDA həm ingilis, həm də digər əcnəbi dillərdə broşürlər, informasiya vərəqələri, dövri məlumatlar və CD, həmçinin İnternet əsaslı təqdimatlar kimi daima təzələnən və cəlbedici materiallar istehsal edir və paylayır.

• *İDA veb-saytı.* Hər bir İDA-nın digər aparıcı şəbəkələrlə əlaqələndirilmiş və axtarış sistemlərinə geniş çıxışı olan dinamik vebsaytı olmalıdır. Həmin saytda sözügedən ölkəyə investisiya yatırımının üstün cəhətlərinə dair informasiya öz əksini tapmalıdır. Bir qayda olaraq, belə veb-saytlarda investisiya imkanları, investisiya güzəştləri və müəssisələrin qeydiyyatı prosesi ilə əlaqədar informasiyaların təqdim edildiyi digər saytlara çıxış xətləri də göstərilir.

• Media əlaqələri. Yaxşı İDA direktoru milli və beynəlxalq mediada müntəzəm surətdə peyda olur. İDA yeni böyük investisiyalar, bazara daxil olan yeni şirkətlər, iqtisadi və siyasi hadisələr, reytinq üzrə məlumatların yeniləşdirilməsi və s. ilə əlaqədar press-relizlər tərtib edərək yayır.

• İcmanın iştirakı. İDA xarici investorlar icmasının biznes mühitindəki yeniliklər və investisiyalar sahəsində yeni fəaliyyətlər haqqında məlumatlılığını artırmaq məqsədilə investorlar və hökumət rəsmiləri ilə forumlar, sual-cavab sessiyaları və dəyirmi masalar kimi tədbirlərə sponsorluq edə bilər.

• Ekspert sahəində liderlik. İDA heyəti tez-tez öz fəaliyyət sahələrinə uyğun olan jurnal və qəzetlərdə məqalələr dərc etdirir, konfranslarda fəal iştirak edir və müvafiq peşəkar təşkilatlara üzv olur; bütün bu fəaliyyətlərdə məqsəd ölkənin xarici investisiyaların cəlb edilməsində maraqlı olduğunu bəyan etməkdir.

İnvestisiyaların toplanması: Hər bir İDA satış, marketinq və reklam tipli fəaliyyətlərlə yararlı XBİ-nin cəlb edilməsində kömək edir. Bu fəaliyyətlərə aşağıdakılar daxildir:

• *İnformasiya sahəsində kömək.* İDA heyəti perspektivli investorlarla görüşür və ölkənin rəqabətədavamlı üstünlüklərini müzakirə edir, o cümlədən, potensial investisiya imkanları və biznes tərəfdaşları, regional və yerli müəssisələrlə əlaqə məlumatları, həmçinin müəssisələrin qeydiyyatı da daxil olmaqla investisiya prosedurları haqqında məlumatların təmin edilməsində "xidmətlər paketinin təminatçısı " rolunu oynayır.

• *Əhəmiyyətli məlumatların toplanması.* Hər bir İDA aşağıdakı fəaliyyətlər yolu ilə əhəmiyyətli məlumatların - perspektivli investorlara dair kontakt informasiyası, satış və marketinq ilə əlaqədar məlumatlar - toplanmasında maraqlıdır:
- xarici səfirliklər və biznes assosiasiyaları ilə əlaqələr;
- investisiyaların dəstəklənməsi ilə məşğul olan regional və yerli təşkilatlarla müntəzəm əlaqələr və əməkdaşlıq;
- xarici ölkələrdəki iqtisadi nümayəndələr və konsullar ilə əlaqələr;
- konfrans, forum və seminar iştirakçılarının siyahılarının əldə edilməsi və təhlili;
- regionda korporativ tədqiqatlarla əlaqədar yeniliklərin daim izlənməsi.

• *Digər hökumət müəssisələrinin dəstəklənməsi.* İDA perspektivli investorları ölkənin özəlləşdirmə təşkilatı, investisiyaların dəstəklənməsi ilə məşğul olan regional və yerli təşkilatlar, artıq mövcud olan sənaye obyektləri təklif etmək imkanlarına malik olan nazirlik və ya müəssisələr kimi xarici investisiya axtarışında olan digər hökumət orqanlarına yönəldir və müvafiq əlavə məlumatları təmin edir.

• *İnvestisiya missiyaları.* İDA xarici ölkələrdə investisiya missiyaları təşkil edir və bu zaman əsas diqqəti ən cəlbedici sektorlara, yerlərə və perspektivli investorlara yönəldir.

• *İnvestorların hədəfə alınması.* İnandırıcı biznes təkliflərinin alınması üçün təqdim edilən informasiya investorların maraqlarına uyğun olmalıdır. İDA-lar bunun üçün aşağıdakı tədbirləri görür:

- broşürlərin, təqdimatların və veb-səhifələrin məzmununda ən rəqabətədavamlı sektorlara/ sənaye sahələrinə xüsusi yer ayırır;
- potensial investor olan şirkət qruplarını müəyyən edir;
- təqdimatları və reklam materiallarını "ən maraqlı" ölkələrin dillərinə tərcümə edir;
- sənaye sahələri üzrə konfranslarda iştirak edir və təqdimatlar edir.

*İnvestor xidmətlərinin təminatı:* Perspektivli investorları XBİ-yə dair məlumatlarla təmin etməkdən əlavə, İDA-lar mövcud investorları informasiya və müştəri xidmətləri ilə də təmin edirlər. Bu xidmətlərə aşağıdakılar daxildir:

• müəssisələrin qeydiyyatı üzrə kömək. Perspektivli investorları XBİ-nin gəlirliliyinə dair məlumatlarla təmin etməkdən əlavə, İDA heyəti müəssisələrin qeydiyyatı prosesini izah edir, prosesə başlamaq üçün blanklar təqdim edir və investorları müvafiq başlanğıc nöqtəsinə istiqamətləndirir;
• məkan seçimi ilə əlaqədar məlumatlar. İDA-lar investorlara məqsədəuyğun məkan axtarışında kömək etmək üçün onları hər hansı bir ölkədə müvafiq məkanlarla əlaqədar (demoqrafik, nəqliyyat şəbəkələri, qiymətlər və s. haqqında) məlumatlarla təmin edir;
• investisiyaların genişləndirilməsində kömək. İDA-

MƏTN BLOKU 6.2

## Ukraynada regional investisiyalar beynəlxalq standartlara uyğun şəkildə dəstəklənir

Qərbi Ukraynada investisiyaların dəstəklənməsi məsələsinə müasir yanaşmalar tətbiq edilir. InventInRivne Təşkilatı ATƏT-in Ukraynadakı Layihə Koordinatorunun (ATƏT ULK) işləyib hazırladığı Xarici Birbaşa İnvestisiyaların Cəlb Edilməsində Ukrayna Regionlarına Kömək Layihəsi çərçivəsində ATƏT ULK və şimal-qərbi Ukrayna regionu olan Rivnedəki yerli hakimiyyət orqanları tərəfindən birgə yaradılmışdır. Təşkilatın yaradılmasında Dünya Bankı Qrupunun bir üzvü olan İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Təşkilat tərəfindən işlənib hazırlanmış ən mükəmməl təcrübələrin təsvir edildiyi İnvestisiyaların Dəstəklənməsi üçün Vasitələr Toplusu model rolunu oynamışdı. Bu model Ukrayna qanunvericiliyinə uyğunluğun təmin edilməsi, həmçinin investisiyaların cəlb edilməsi prosesini sürətləndirmək və regionun iqtisadi inkişafını dəstəkləmək məqsədilə yerli orqanlar və regiondakı digər başlıca səhmdarlar ilə əməkdaşlığın dəstəklənməsi üçün müvafiq formaya salınmışdı.

Təşkilat investisiyaların təsdiqlənməsi, şirkətin qeydiyyatdan keçirilməsi və lisenziyaların alınması, o cümlədən, Ukraynada əməliyyatlara başlamaq üçün tələb olunan digər icazələrin alınması prosesini sürətləndirmək məqsədilə investorlar üçün "xidmətlər paketinin təminatçısı" rolunu oynayır. Təşkilat həmçinin bazarın tədqiqi, texniki-iqtisadi əsaslandırmalar, şəraitin müəyyənləşdirilməsi və işçi heyətin işə götürülməsi kimi məsələlərdə investorlara mərkəzi büro kimi xidmətlər göstərir. Bundan əlavə, Ukraynanın Rivne regionunun cəlbedici investisiya məkanı kimi tanıdılmasında kömək edir və yerli hakimiyyət orqanlarına investisiya mühitinin təkmilləşdirilməsinə dair məsləhətlər verir.

Son vaxtlar təşkilatın göstərdiyi səylər Financial Times jurnalında xüsusi qiymətləndirilmişdir. InventInRivne təşkilatı jurnalın Gələcək 2006/07-ci İllərin Avropa Şəhərləri və Regionları müsabiqəsində Avropada Ən Sərfəli Şəhər və Region nominasiyasında qalib gəlmişdir. InventInRivne Təşkilatı həm də Qərbi MDB üzrə qalib elan edilərək bütün Şərqi Avropa üzrə Gələcəyin Regionu kateqoriyasında ikinci yeri tutmuşdur. Rivne regionu Ukraynanın həmin jurnalın mükafatlarına layiq görülmüş ilk ərazisi olmuşdur.

"InventInRivne modelinin əldə etdiyi nüfuz və populyarlıq onun müvəffəqiyyətini sübut edir və real investisiyalar gətirir", deyə ATƏT-in sözügedən təşəbbüs üzrə məsuliyyət daşıyan Baş Layihə İcraçısı Dr. Volker Frobart bildirir.

lar maliyyə mənbələri, biznes tərəfdaşları, xidmətlər təminatçıları, dilerlər və ya öz investisiyalarını artırmaq, yaxud genişləndirmək üçün imkanlar axtaran mövcud investorları informasiya ilə təmin edir;

• kommunal xidmətlər və infrastruktur təminatçıları ilə əlaqələr. Müəyyən şəraitdə icazə və lisenziya prosesini başa çatdırmış investorlar elektrik enerjisinin hələ təmin olunmaması və ya hansısa yolun tikilib qurtarmamasına görə iqtisadi fəaliyyətə başlamaq üçün aylarla gözləməli olurlar. Bu zaman, investorun enerji paylayıcı şirkətlər, su və çirkab suları üzrə xidmət təminatçıları, həmçinin ictimai işlər üzrə şöbələrlə əlaqə yaratmaq sahəsində çətinlikləri varsa İDA onlarla əlaqə yaradır;

• investorun izlənməsi. İDA-lar investisiyaların müvəffəqiyyətini yoxlayır və cari investisiyaların, perspektivli investorların və rəhbərlərin başlıca maraq sahəsinə, üz tutduğu ölkəyə, vaxt tələblərinə, investisiyaların həcminə və s. amillərə uyğun fəaliyyət göstərməsini təmin edir. Bundan başqa, investorlarla müvafiq məlumatlarla əlaqədar müəyyən yekunlaşdırma işlərinin aparılmasını da təmin edir;

• investisiya imkanlarına dair məlumatlar bazası. İDA-lar çox vaxt investisiya imkanlarına dair onlayn məlumatlar bazasının yaradılması üzrə mərkəzi əlaqələndirmə nöqtəsi kimi də fəaliyyət göstərir;

• hesabat vermə. İDA-lar investisiya yenilikləri, statistik məlumatlar və biznes mühitinin vəziyyəti haqqında hökumətə, geniş ictimaiyyətə və mediaya məlumatlar, hesabatlar verir;

• informasiya xahişləri. İDA-lar media üzvlərinin, QHT-lərin, xarici hökumətlərin, elmi müəssisələrin və xarici birbaşa investisiyalarla əlaqədar məlumatlarla maraqlanan digər təşkilatların investisiyalarla əlaqədar informasiya xaşihlərini yerinə yetirir.

# *İnvestisiya güzəştləri*

İnvestisiya güzəştlərinin rolu: Vəsaitin bütün fəsillərində ayrı-seçkiliyə yol verilməyən, sadə, şəffaf və ümumiyyətlə aşağı xərclərin tələb olunduğu biznes və investisiya mühitinin yaradılması məsələsi vurğulanır. Əgər investisiya güzəştləri diqqətlə idarə edilməzsə, nəticədə tarazlaşdırılmamış və ayrı-seçkiliyə yol verilən biznes mühiti yarana bilər, bu səbəbdən də, həmin təşəbbüslər və güzəştlər minimal səviyyədə saxlanmalıdır.

Buna baxmayaraq, müəyyən güzəştlər düzgün həyata keçirilərsə XBİ axınlarına təkan verə bilər. Bu Vəsaitin işlənib hazırlanması prosesində ATƏT müəyyən bir regionda həmin regionun biznes mühiti mütəxəssislərinin iştirakı ilə bir yekun sessiya təşkil etmişdi. Mövzu investisiya güzəştlərinin tətbiqi idi. Mütəxəssislərdən bir çoxunun bildirdiyinə görə, “Əgər qonşular güzəştlər edirlərsə, sən də güzəştlər etməlisən”. Bu məntiq Dünya Bankının aşağıdakı fikirləri ilə üst-üstə düşür: ümumiyyətlə güzəştlər regionlar, yəni Çin və ya Şərqi Avropa arasındakı seçimə təsir göstərməyəcək, lakin biznes mühiti ilə əlaqədar digər amillərin əksəriyyətinin bərabərlik təşkil etdiyi zaman onlar regionlararası seçimə təsir göstərə bilər. Sessiyada belə bir ümumi fikir əldə edilmişdi ki, güzəştlər biznes və investisiya mühitində təkmilləşdirmələr aparılmasını əvəz edə bilməz; onları mövcud əlverişli investisiya mühitinə əlavə kimi nəzərdən keçirmək lazımdır. Bu fikri əsas tutaraq, aşağıda ölkələr üçün bəzi mövcud potensial güzəşt mexanizmlərinin və ən yaxşı müvafiq təcrübələrin təsviri verilmişdir.

# *Vergi güzəştləri*

Hökumətlər öz ölkələrini daha əlverişli investisiya məkanına çevirmək üçün investorlara, adətən xarici investorlara maliyyə və ya vergi güzəştləri təklif edir. Ümumi maliyyə güzəştlərinə aşağıdakılar daxildir:

• korporativ gəlir vergilərinin azaldılması;

• korporativ gəlir vergilərindən şirkətin əməliyyatlarına investisiya şəklində yenidən yatırılan gəlirlərin çıxılması imkanı;

• vergi bayramları və ya vergilərin azaldılması günləri; bu zaman şirkətlər müəyyən vaxt ərzində korporativ gəlir vergilərini və ya sosial zəmanət vergisini ödəməli olmur;

• investisiyaların ilkin mərhələlərində üz vermiş itkilərin növbəti illərə keçirilməsi imkanı;

• işsiz şəxslərin, ali təhsil müəssisələrini yeni bitirmiş məzunların, keçmiş hərbi heyət zabitlərinin və s.-in işə götürülməsinə görə aşağı və ya sıfır sosial vergi öhdəlikləri;

• ƏDV-dən azad edilmə və ya ƏDV ödənişi vaxtının uzadılması;

• ƏDV ödənişi vaxtının biznes əməliyyatlarının başlamasına qədər uzadılması;

• ƏDV ödənişlərinin sadələşdirilmiş və sürətli sisteminin tətbiqi;

• kapital investisiyalarına görə ƏDV-dən və ya gömrük rüsumlarından azad edilmə və ya müvafiq ödəniş vaxtının uzadılması;

• korporativ gəlir vergisindən kapital investisiyasının dəyərinin və ya dəyərinin müəyyən hissəsinin çıxılması;

• kapital investisiyalarının sürətli amortizasiyası;

• kənd təsərrüfatı torpaqlarının sənaye torpaqlarına çevrilməsinə görə vergilərdən azad edilmə;

• zəif inkişaf etmiş ərazilərdə təlim təşəbbüslərinə və ya iş yerlərinin yaradılmasına görə qrantların təmin edilməsi.

Güzəştləri effektivliyə görə kateqoriyalaşdırmaq çətindir. Onların nisbi effektivliyi investisiyanın növü və sektoru, investisiyanın başa çatdırılması üçün tələb olunan vaxt, hər bir ölkənin nisbi zənginliyi və hökumətin güzəştləri idarə etmək qabiliyyəti kimi amillərdən asılı olur. Estoniyada gəlirlərin yenidən investisiya şəklində yatırımı güzəşti çox uğurlu nəticələrə gətirib çıxarmışdır. Xorvatiya vergi bayramlarının tətbiqi sayəsində müəyyən investisiyaları cəlb edə bilmişdir. Rumıniyanın yerli hakimiyyət orqanları iş yerləri yaradan və vergi bazasını genişləndirən layihələrin icrası zamanı kənd təsərrüfatı torpaqlarının sənaye torpaqlarına çevrilməsinə görə vergini ləğv edir.

Bu Vəsaitin əsas ideyası ayrı-seçkiliyə yol verməyən, daha sadə və daha mütərəqqi investisiya mühitini təbliğ etməkdir. Bu səbəbdən də, Vəsaitdə İƏİT-in investisiya güzəştləri siyasəti dəstəklənir. Sözügedən siyasətdə güzəştlərin şəffaf, xarici və daxili investorların üzünə açıq, yalnız sənaye üzərində mərkəzləşməmiş və asan idarə edilən olması tövsiyyə edilir. Güzəştlər müəyyən qaydalara uyğun olaraq tətbiq edilməli və fərdi zəmində ayrı-ayrı layihələr üçün nəzərdə tutulmamalıdır. Güzəştlərin seçimi zamanı aşağıdakı prinsiplər tətbiq edilməlidir:

• Güzəştlərlə əlaqədar ümumi hökumət strategiyası olmalıdır. İnvestisiya güzəştləri nazirliklər vasitəsilə koordinasiya edilməlidir. Hökumətlər “ifrat” güzəştlərə yol verməməyə çalışmalıdır. İnvestorlar tez-tez əslində onların cəlb edilməsi üçün lazım olduğundan qat-qat çox müxtəlif güzəştlər alır və bu, nəticədə maliyyə çatışmazlıqlarına gətirib çıxarır.

• Güzəştlər şəffaf olmalıdır. Hökumət sözügedən güzəştlərin səmərəliliyini və şirkətlərin müvafiq qaydalara riayət edib-etməməsini yoxlamağa qadir olmalıdır. Hökumətlər güzəştlərin maliyyə səmərəliliyini hər il nəzərdən keçirməlidir.

• Güzəştlər məhdud zaman müddətləri üçün təsis edilməli və onların qüvvədə olması müddəti aydın şəkildə ifadə edilməlidir. İƏİT beş ildən çox olmayan müddəti tövsiyə edir, lakin bu müddət də öz-özlüyündə hədsiz çoxdur. Güzəştlərin məqsədi hər hansı bir müəssisənin maliyyə dəstəyi və ya subsidiya ilə təmin edilməsi deyil, investorların cəlb edilməsi və biznesin ilkin mərhələlərində onlara kömək edilməsidir.

• Güzəştlər investorun hansı ölkədən olmasına və ya konkret bir sənaye sahəsinə deyil, investisiyanın məbləğinə və ya konkret bir regiona uyğun olaraq və ayrı-seçkiliyə mümkün qədər yol verilməməsi şərtilə tətbiq edilməlidir.

• Dövlət bütün güzəştlərin qeydiyyatını aparmalıdır. Dövlət saytlarında və ictimai girişin təmin edildiyi hökumət sənədlərində bütün güzəşt proqramları və qaydaları aydın şəkildə göstərilməlidir.

Konkret bir güzəşt formasına - uzun-uzadı vergi bayramlarına xüsusi diqqət yetirmək lazımdır. Bu cür tədbirlər nəinki maliyyə uyğunsuzluqlarına gətirib çıxara və rəqabətədavamlılığa məhvedici təsir göstərə bilər, həmçinin müvafiq müddətin başa çatmasından sonra müəyyən yeni bir müddət təyin edilməzsə, şirkətlər daha ucuz yerlər axtarışına başlaya və ya oxşar şəraitlərin təmin olunmayacağına qədər əməliyyatların davam etdirilə bilməyəcəyindən şikayətlənə bilərlər.

Bundan əlavə, hökumətlərə xarici investorlar üçün korporativ gəlir vergilərinin azaldılmasına yönəldilmiş mürəkkəb güzəşt sxemləri əvəzinə sadəlik və aşağı dərəcələr prinsiplərinə əsaslanan və beləliklə də, bütün biznes sahələri üçün əlverişli olan korporativ gəlir strukturunun yaradılması və saxlanması məsləhət görülür. Mürəkkəb güzəştlər sxeminin idarə edilməsi həm hökumət, həm də biznes sahələri üçün çətindir, bazarda uyğunsuzluqlara səbəb olur və korrupsiya üçün daha geniş imkanlar yaradır.

Aİ direktivlərində potensial zərərli tədbirlərin müəyyən edilməsi üçün aşağıdakı meyarlar xüsusilə qeyd edilir:

• müvafiq ölkədə tətbiq edilən vergilərin ümumi səviyyəsindən cüzi dərəcədə aşağı olan effektiv vergiqoyma səviyyəsi;

• yalnız qeyri-rezidentlər üçün tətbiq edilən vergi güzəştləri;

• ölkə iqtisadiyyatından təcrid edilmiş və bu səbəbdən də, dövlət vergiləri bazasına heç bir təsir göstərməyən fəaliyyətlər üçün vergi güzəştləri;

• hər hansı faktiki iqtisadi fəaliyyətin həyata keçirilmədiyi təqdirdə belə vergi imtiyazlarının təmin edilməsi;

• çoxmilli bir qrupa daxil olan şirkətlər üçün gəlirin müəyyənləşdirilməsi prinsiplərinin beynəlxalq qay-

dalardan, xüsusilə də İƏİT tərəfindən təsdiq edilmiş qaydalardan fərqlənməsi;

- şəffaflığın çatışmaması.

Ümumiyyətlə, Aİ güzəştlərin regional zəmində və ƏDV-yə dair, həmçinin gömrük sahələrində tətbiqini dəstəkləyir. Çoxmilli xarici investorların cəlb edilməsini nəzərdə tutan geniş həcmli milli güzəştlərin tətbiqi isə məqsədəuyğun hesab edilmir. Aİ-yə üzvlüyə qəbul olduqdan sonra Slovakiya kimi bəzi yeni üzvlər investorlara təklif edilən güzəştlərin səviyyəsini azaltmışlar.

İnvestisiya güzəştlərinin tətbiqinin fundamental prinsiplərinə dair məlumat üçün İƏİT-in İnvestisiyalar haqqında Çoxtərəfli Sazişinə istinad etmək olar. Daha geniş məlumatı İƏİT-in veb-saytında əldə etmək olar.

## *Zəif inkişaf etmiş ərazilər*

Zəif inkişaf etmiş ərazilərdə güzəştlərin təmin edilməsi iqtisadi inkişaf üçün tətbiq edilən ənənəvi üsuldur. Biznes sahələri və vətəndaşlar üçün yaşayış keyfiyyətinin rəqabətədavamlı olduğu halda şəhər biznes zonalarının və ya zəif inkişaf etmiş zonaların yaradılması uğurlu nəticələrə gətirib çıxarır. İnfrastrukturun olmadığı kasıb ərazilərdə zəif inkişaf etmiş zonaların yaradılması nəticəsində rəqabətədavamlı olmayan ərazilər üstün mövqe əldə edir. Bu isə, ümumi rəqabətədavamlılıq balansına xələl gətirir və sözügedən ərazilərin iqtisadi inkişafı üçün heç də düzgün üsul deyil. Güzəştlərin tətbiqi investorları və ya yeni biznes müəssisələrini fundamental şəkildə cəlbedici olmayan ərazilərə cəlb edə bilməz (Mətn bloku 6.3).

MƏTN BLOKU 6.3

### Amerika Birləşmiş Ştatlarında şəhər biznes zonaları

Amerika Birləşmiş Ştatlarında böhranlı vəziyyətə düşmüş ərazilərin yenidən canlandırılması məqsədilə artıq bir neçə onillik ərzində şəhər biznes zonaları modeli tətbiq edilir. Bu ərazilərdə şəhər biznes zonalarına investisiya yatırmaq üçün biznes sahələrinə müəyyən müddət ərzində gəlir vergilərində güzəştlər və məhdud, yaxud sıfır əmlak vergiləri təklif edilir. 1980-ci illərdə Baltimor şəhəri şəhər böhranı, yüksək cinayətkarlıq göstəricisi və biznes müəssisələrinin ərazini tərk etməsi faktları ilə üzləşdi. Şəhərin köhnə zavod və istifadəsiz qalmış anbarların yerləşdiyi mərkəzi hissəsinə yaxın ərazilərdə şəhər biznes zonaları yaradıldı. Bu zonalar biznesin cəlb edilməsi üçün işlənib hazırlanmış xüsusi güzəştlər təklif edirdi. Onlara aşağıdakılar daxil idi:

- buradakı müəssisələr üçün alınan avadanlıqlar üçün satış vergisinin tətbiq edilməməsi;
- ərazinin şəhər müəssisə zonası hesab edildiyi müddət ərzində daşınmaz əmlak vergisinin tətbiq edilməməsi;
- işçilərin gəlir vergilərinə görə korporativ ödənişlərdə güzəştlərin tətbiqi.

Beləliklə də, biznes sahələrinə torpaq alışı, biznesə sərmayə yatırımı və işçilərin işə götürülməsi ilə əlaqədar güzəştlər təklif edildi. Yaşayış ərazilərində hüquqi səbəblərdən müsadirə edilmiş, boş qalmış, səhiyyə və təhlükəsizlik səbəblərindən istifadəyə yararsız elan edilmiş və ya sahiblərinin maliyyə səbəblərindən haqqını ödəyə bilmədiyi evlər cəmi bir dollara satışa çıxarıldı; bu şərtlə ki, həmin evlərin alıcıları növbəti bir neçə il ərzində onların təmiri və bərpası işlərinə ən azı 100 000 ABŞ dolları sərf etməlidir. Həmin evlərin bir çoxunun cari dəyəri artıq 500 000 ABŞ dollarını ötmüşdür.

Baltimorda əldə edilmiş müvəffəqiyyətin açarı onda idi ki, inkişafdan qalmalarına baxmayaraq, sözügedən şəhər biznes zonaları yollar, ev təminatı, mədəni mərkəzlərə və mağazalara yaxınlıq, həmçinin Vaşinqton şəhərinə coğrafi yaxınlıq kimi bir sıra müsbət şərtlər təklif edirdi.

# *Azad zonalar/ Xüsusi iqtisadi zonalar (XİZ-lər)*

Eyni sözləri sərbəst zonaların və ya xüsusi iqtisadi zonaların yaradılması haqqında da demək olar. Bu zonalar da investorları rəqabətədavamlı məkanla təmin edən yerlərdə yaradılmalıdır. Sərbəst zonalar xüsusi güzəştlərin, adətən ƏDV və gömrük rüsumlarından azad etmənin tətbiq edildiyi zonalardır. Lakin burada ekoloji və ya əmək standartlarının azaldılması kimi daha böyük güzəştlər də tətbiq edilə bilər.

Bu zonaların səmərəliliyi məsələsi mübahisələrə səbəb olur. Bir tərəfdən, manufaktura əsaslı ixracat üçün sərfəli ticarət şərtləri təklif etməklə XİZ-lər investisiya və xarici valyuta cəlb edə, məşğuluq səviyyəsini artıra və mütərəqqi texnologiyaların və infrastrukturun inkişafına güclü təkan verə bilər. Digər tərəfdən isə, tənqidçilər iddia edir ki, XİZ-lər etibarlı rəqabətədavamlı şəraitlər yaratmaqla deyil, yalnız təhrif edilmiş güzəştlər təklif etməklə investisiya cəlb edir. Onlar həmçinin iddia edir ki, bu güzəştlər vergi ödəyiciləri (ölkə üzrə - red.) üçün əlavə vergi yükü yaradır, üstəlik ekoloji və əmək standartlarına xələl gətirir. Tənqidçilərin fikrincə, ərazi imtiyazlarının saxlanması üçün birbaşa və dolayısı xərclər iqtisadiyyatın qalan hissəsi üçün sərfəli deyil və tərəqqinin məhdudlaşdırılmasına gətirib çıxarır.

Hazırda 120 ölkədə 3000 XİZ fəaliyyət göstərir. Onların ixrac əməliyyatlarının ümumi dəyəri 600 milyard ABŞ dollarını ötmüş, təmin etdikləri birbaşa iş yerlərinin sayı isə 50 milyondan çoxdur. Beləliklə aydındır ki, sərbəst zonalar müəyyən ərazilərdə tətbiq edilir və müvəffəqiyyətli nəticələr nümayiş etdirir. Sərbəst zonaların müvəffəqiyyəti yenə də həmin ərazinin rəqabətədavamlılığından və xüsusilə də, yerləşmə xüsusiyyətlərindən asılıdır. Nəqliyyata və ya əmək qüvvələrinə heç bir çıxış imkanı yoxdursa, həmin zona müvəffəqiyyət əldə etməyəcək. Rumıniyada yaradılmış Arad-Kurtiki Sərbəst Ticarət Zonası Macarıstanla sərhədə yaxın yerləşdiyindən uğurlu olmuşdur. Bu xüsusiyyət şirkətlərə Aİ ölkəsi ilə sərhədin lap yaxınlığında, Rumıniyada ucuz qiymətlərlə "lövbər salmaq" imkanı verir. Aİ-yə üzvlüyə qəbul olunmasının daima təxirə salındığına görə, Rumıniya özünün sərbəst zonalar haqqında qanunlarında dəyişikliklər etməyə məcbur olmuşdur. Bununla belə, əlverişli coğrafi xüsusiyyətləri və mütərəqqi infrastrukturuna görə Arad Zonası populyar investisiya məkanı olmaqda davam edir. Sərbəst zonaların fəaliyyəti ilə əlaqədar ən faydalı təcrübələri Egey Sərbəst Zonasının nümunəsindən götürmək olar (Mətn bloku 6.4).

MƏTN BLOKU 6.4

## Sərbəst zonaların inkişafında Egey Sərbəst Zonasının ən faydalı təcrübələri

Egey Sərbəst Zonası (ESBAS) Türkiyədə, İzmir şəhəri yaxınlığında yerləşən böyük, fəal və daima inkişaf edən sərbəst zonadır. 1990-cı ildən bəri bu sərbəst zonada fəaliyyət göstərən beynəlxalq ticarətin ümumi dəyəri 17 milyard ABŞ dollarını ötmüşdür. Bu, Türkiyənin ən böyük sərbəst zonasıdır. ESBAS-ın direktoru 2005-ci ildə XBİ Jurnalında ilin şəxsiyyəti adına, ESBAS vebsaytı isə 2004-cü ildə Ümumdünya Sərbəst Zona Assosiasiyasının təsis etdiyi ilin vebsaytı mükafatına layiq görülmüşdür.

ESBAS necə müvəffəqiyyət əldə etmişdir? Onların ən yaxşı təcrübələrinə aşağıdakılar daxildir:

- *Əlverişli yerləşmə şəraitləri.* Türkiyənin üçüncü ən böyük şəhəri olan İzmir yaxınlığında yerləşməsi sayəsində zona bol işçi qüvvəsi, mükəmməl yaşayış şəraitləri, inkişaf edən iqtisadiyyat və ixracat yönümlü limanın yaxınlıqda yerləşməsi kimi müsbət xüsusiyyətlərə malikdir.
- *Nəqliyyatın planlaşdırılması.* ESBAS limandan cəmi 20, hava limanından isə cəmi 10 dəqiqəlik məsafədə yerləşir və üstəlik, zonanın daxilində də mükəmməl yol şəbəkəsi salınmışdır.
- *İnfrastruktur və xidmətlər.* Biznes sahələri hazır infrastruktura malik ərazilər və ya fəaliyyətə hazır fabriklər arasında seçim edə bilərlər. Zona ABŞ və ya Qərbi Avropa standartlarına uyğun, tam xidmətlər seriyası ilə təmin edilmiş ərazilər təklif etməsi ilə fəxr edir.
- *Süründürməçiliyin və bürokratiyanın minimal səviyyədə olması.* ESBAS investorların zonada fəaliyyət göstərməsini asanlaşdırır, həmçinin icazə və lisenziya proseslərində kömək edir. Zonanın qanun və nizamnamələrində həmçinin qazanc və gəlirlərin pulsuz köçürülməsi də nəzərdə tutulmuşdur.
- *Güzəştlərin məqsədəuyğun idarə edilməsi.* Zona 2009-cu ilə qədər və ya Türkiyənin Avropa İttifaqına daxil olmasına qədər, daha dəqiq desək, bu iki müddətdən hər hansı biri bitənə qədər gömrük rüsumlarından azaddır. Beləliklə də, Egey Sərbəst Zonası cəlbedici güzəştlər təklif edir, lakin eyni zamanda, onların həcmi və etibarlılıq müddəti ilə əlaqədar müəyyən məhdudiyyətlər də irəli sürür.

# Sənaye parkları

Sənaye parkı anlayışını sənaye məqsədləri ilə istifadə və inkişaf etdirilmək üçün ayrılmış torpaq sahəsi kimi tərif etmək olar. Sənaye parklarının və ya torpaqlarının üç əsas sahibkarlıq modeli vardır:

- dövlət sənaye parkı və onu idarə edən orqan;
- özəl sektorun mülkiyyətində və idarəsində olan;
- dövlət ilə özəl sektor arasında dövlət-özəl tərəfdaşlıqları və ya müştərək müəssisələr.

Sənaye parkı sahələri həmişə olmasa da, çox vaxt mükəmməl rabitə və nəqliyyat infrastrukturuna, elektrik enerjisinə giriş imkanlarına və işçi qüvvələri ehtiyatına malik olan ərazilərdə yerləşir. Sənaye parkları müxtəlif cür - sənaye torpaqları, ixrac-emal zonaları, biznes parkları, ali texnologiya parkları, sənaye inkişaf zonaları və eko-sənaye parkları kimi - adlandırıla bilsə də, onların iki ümumi fərqləndirici xüsusiyyəti vardır. Birincisi, həmin məqsəd üçün ayrılmış torpaq sahəsində bir neçə firma bir-birinə yaxın olmaqla yerləşdirilir, və ikincisi, onların ümumi infrastrukturu, kommunal xidmətləri, yanğınsöndürmə və təhlükəsizlik xidmətləri və ümumi əraziləri olur. Sənaye parkları həmçinin park fəaliyyətlərini idarə edən ümumi idarəetmə strukturuna malik olur.

Beynəlxalq standartlara cavab verən sənaye parkları adətən icarədarlara aşağıda sadalanan imkanları təklif edir:

- istər icarəyə verilən, istərsə də satışa çıxarılan sənaye torpaqları üçün bazara uyğun qiymətlər;
- qonşuluqda yerləşən şəhərlərdəki və qəsəbələrdəki işçi qüvvəsindən istifadə imkanları;
- şəhər əraziləri, hava limanları, qatar terminalları, dəniz limanları və konteyner terminalları kimi əhəmiyyətli ərazilərə nəqliyyat xətləri;
- telefon və İnternet xidmətlərini təklif edən effektiv telekommunikasiyalar şəbəkəsi və digər müasir xidmətlər;
- yollar, drenaj sistemləri, çirkab suları, elektrik enerjisi və su təchizatı üzrə tam xidmətlər spektri ilə təmin edilmiş, düzgün planlaşdırılmış və peşəkarcasına istifadəyə verilmiş torpaq sahələri;
- mal və avadanlıqların çatdırılması üçün sənaye parklarına və geriyə aparan yollar;
- sənaye parkı idarəsi və ya mərkəzi də daxil olmaqla hər hansı bir struktur, avtobus dayanacağı və maşınların saxlanması parkları kimi ictimai nəqliyyat xidmətləri və landşaftlı ərazilər də daxil olmaqla xoşagələn mühit;
- parka daxil olma və əməliyyatlara başlama üçün məqsədəuyğun prosedurlar;
- icarədarlarla əcnəbi və yerli investorlar arasında ayrı-seçkiliyə yol vermədən davranış.

Sənaye parklarının üstünlüyü ondadır ki, onlar investisiya layihələrinin inkişafını və ya KOM-ların gəlir əməliyyatlarına başlaması prosesini sürətləndirir. Sənaye parkından kənar ərazilərdə yerləşən biznes müəssisələri isə aşağıdakı çətinliklərlə üzləşməli ola bilər:

- torpaq əldə etmək üçün müraciət etmək və müvafiq ödənişi həyata keçirmək;

MƏTN BLOKU 6.5

**Səhmdarların cəlb edilməsi təcrübələrinin ən mükəmməl nümunələrindən biri - Nyu York**

Öz sənaye bazasını qorumaq və daha da genişləndirmək məqsədilə Nyu York şəhəri xüsusi ərazilərin "sənaye biznesi zonaları" kimi adlandırıldığı bir proqram irəli sürmüşdür. Boş torpaqlar və vergilərin ödənilməməsinə görə müsadirə edilmiş torpaq sahələri də daxil olmaqla Nyu York şəhərinə məxsus olan torpaqlar sənaye parkları ilə birlikdə sənaye inkişafı məqsədləri ilə ayrılıb saxlanmışdır.

Bu proqramın həyata keçirilməsi üçün Nyu York şəhərində Sənaye və İstehsalat Biznesləri İdarəsi yaradılmışdır. İdarə sənaye və istehsalat biznesləri ilə əlaqədar siyasətlərin icrası və sözügedən bizneslərin xidmətlərlə təminatı üzrə məsuliyyət daşıyır. Bu idarənin fəaliyyətinin tənzimlənməsi və idarə edilməsi məqsədilə Sənaye və İstehsalat Biznesləri Şurası yaradılmışdır. Şura özəl-dövlət tərəfdaşlığından ibarətdir və üzvləri şəhər meri tərəfindən təyin edilir. Şura sənaye siyasətləri ilə əlaqədar məsləhətlər təmin edir və şəhərdə sənaye sektorunun ehtiyacları haqqında strateji düşüncə tərzini inkişaf etdirir. Şuranın bütün sənaye sektoru ilə əlaqədar maraqları təmsil edən 15 üzvü vardır. Üzvlər arasında ərazidəki sənaye korporasiyalarının nümayəndələri, biznes rəhbərləri, daşınmaz əmlak sənayesinin tədqiqatçıları və müvafiq sahə üzrə ixtisaslaşmış elm adamları vardır. Şura sənaye siyasətinin yaradılması (o cümlədən, sənaye parklarının inkişafı), bütün səhmdarlar arasında davamlı dialoqun dəstəklənməsi və diqqət mərkəzində qalmaq kimi məsələlərlə əlaqədar yaradıcı düşüncə tərzini inkişaf etdirir.

**Mənbə: USAID Ukraine ÜTT-yə Daxil Olma və İnvestisiyaların İnkişafı Layihəsi**

• torpağı müvafiq istifadə üçün hazır şəklə gətirmək və hamarlaşdırmaq;
• kommunal xidmətlərə giriş imkanı əldə etmək üçün əlavə təzminat ödəmək;
• tullantıların emalı sistemlərini tikdirmək;
• əraziyə münasib giriş strukturunu təmin etmək;
• yerli hakimiyyət orqanlarından müvafiq icazələrin alınması prosesində bürokratiya halları ilə üzləşən zaman kömək üçün müəyyən xidmət təminatçılarına müraciət etmək;
• sənaye parkında təklif edilən ümumi xidmətlərin bu ərazidə təklif edilməməsi.

Bu xidmətlər ortaq olduğuna görə əməliyyatların ümumi dəyəri çox vaxt sənaye parklarında daha sərfəli olur və KOM-lar biznes ittifaqlarından bəhrələnir. Düzgün təşkil edilmiş sənaye parkları biznes sahələrinə icazə və lisenziya məsələləri, qaydalar və kommunal xidmətlərə giriş imkanları ilə əlaqədar kömək edə bilər. Bundan əlavə, onların müvəffəqiyyəti çoxmilli şirkətləri cəlb etməklə və KOM-ların inkişafına təkan verməklə daha böyük iqtisadi rəqabətədavamlılığın əldə edilməsinə, bu isə öz növbəsində biznes mühitinin təkmilləşdirilməsinə gətirib çıxara bilər. Bir məsələni də vurğulamaq lazımdır ki, sənaye parkları

MƏTN BLOKU 6.6

## Çex Respublikasında və Macarıstanda sənaye parkları

Çex Respublikası və Macarıstan sənaye parklarının yaradılması yolu ilə sənayeni müvəffəqiyyətlə inkişaf etdirmiş növbəti iki ölkədir. Çex Respublikasında dövlət və özəl tərəfdaşlıqlara əsaslanan qarışıq tipli sənaye parkları fəaliyyət göstərir. Ticarət Nazirliyi və CzechInvest təşkilatının məlumatlarına görə, artıq 84-dən çox sənaye zonaları mövcuddur və 2004-cü ildə investorlar bu məqsədlərlə ayrılmış torpaqların 70%-də yerləşərək onları sənaye məqsədləri üçün inkişaf etdirirdilər. Hesablamalara görə, Çex Respublikasında dövlətə məxsus sənaye parklarının inkişaf etdirilməsi və formalaşdırılması üçün xərclənən hər bir krona görə özəl şirkətlər parklar daxilindəki yeni istehsal strukturlarına təxminən 36 kron məbləğində investisiya yatıracaqlar. Macarıstan sənaye parklarının çox geniş seçim çeşidini təklif edir: investorlar öz biznes növlərinə uyğun olaraq 160-dan çox fəal sənaye parkı arasında seçim edə bilərlər. Macarıstandakı parklarda sənaye fəaliyyəti sənaye ixracatının 40%-ni və sənaye məhsullarının 25%-ni təşkil edir. Sənaye parklarında məhsuldarlıq orta sənaye göstəricisindən 70% yüksək, Aİ üzrə orta göstəricidən isə cəmi 15% aşağıdır.

əlverişli biznes mühitini əvəz edə bilməz. Lakin birinci dərəcəli şirkətlərin cəlb edilməsi çox vaxt Slovakiya, Rumıniya və Bolqarıstan nümunələrində olduğu kimi biznes mühitinin keyfiyyətini daha da artırır və ölkələrə daha mükəmməl biznes mühitinin dəyərini dərk etməkdə kömək edir.

There are many examples of best practices in industrial pHəm dövlət, həm də özəl sənaye parklarında ən mükəmməl təcrübələrin bir sıra nümunələri vardır. Özəl və ya dövlət maliyyələşdirilməsinə əsaslanmasından asılı olmayaraq, müvəffəqiyyətin üç açarı vardır:

• *Məkan.* Daşınmaz əmlakın artmasının qızıl qanunu həm də sənaye parklarının inkişafında tətbiq edilir: "məkan, məkan və məkan". Sənaye parkının yerləşdiyi ərazi düzgün seçilməyibsə istehsalat fəaliyyəti ilə məşğul olan çoxlu sayda firmaları cəlb etməyəcək. Müvafiq meyarlara aşağıdakılar daxildir:
- dəmiryolu şəbəkəsinə, hava limanına, dəniz və ya çay limanına, yaxud şosse şəbəkəsinə coğrafi yaxınlıq. Ən yaxın şəhər mərkəzinə çatmaq üçün nəqliyyat vasitələri sürətli, ucuz və etibarlı olmalıdır;
- ucuz və bacarıqlı işçi qüvvəsinin mövcudluğu.

• *İnfrastruktur xidmətləri.* İstehsalat fəaliyyəti ilə məşğul olan firmaların elektrik enerjisi, telefon, İnternet, çirkab suların emalı sistemləri və nəqliyyat da daxil olmaqla müxtəlif xidmətlərə ehtiyacı vardır.

• *İdarəetmə heyəti.* İdarəetmə heyəti peşəkar və sənaye parkı əməliyyatlarında təcrübəli olmalıdır. Bundan əlavə, onlar həssas olmalı və icarədarların ehtiyaclarına xüsusi əhəmiyyət verməlidir.

Hökumətlərə yenilikçi təcrübələr təklif edən iki maraqlı nümunə Rumıniyada yerləşən Ployesti Sənaye Parkı, Serbiya və Çernoqoriyada yerləşən Beokin Biznes Parkıdır.

Sənaye parkları XBİ-nin cəlb edilməsində kömək edə və KOM-lar üçün yer təmin edə bilər, lakin onlar bazar tələblərinə cavab verməli və sağlam sənaye bazasının bir hissəsini təşkil etməlidir. Sənaye parkları biznes mühiti və ya müəssisələrin inkişafına yönəldilmiş sağlam strategiyaları əvəz edə bilməz. Bundan başqa, sənaye parkları yalnız öz üstünlüklərindən istifadə edə bilən biznes sahələrinə kömək edir. Sənaye parklarının inkişafı əhəmiyyətli sayda biznes sahələrinə kömək edə bilməz. Nəticə etibarilə sənaye parkları siyasət və ya proqramlar deyil, müəssisələrdir. Onlar icmalara mühüm təsir göstərsələr də və iqtisadi inkişafın təşəkkülündə vasitəçilik etsələr də, sənaye parklarının milli iqtisadi inkişaf məqsədləri ilə yüklənməməsi mühüm əhəmiyyət kəsb edir.

MƏTN BLOKU 6.7

**Rumıniyada və Serbiyada sənaye parkları**

Ployesti Sənaye Parkı Buxarestdən 56 km şimalda yerləşən Ployesti şəhərindəki köhnədən mövcud olan və yeni sənaye ərazilərini,obyektlərini əhatə edir. Beynəlxalq hava limanı Ployesti və Buxarest şəhərləri arasında yerləşir. Beləliklə də, park Buxarestə nisbətən daha aşağı xərclərlə hava limanına və paytaxta girişi təmin edir. Bu sənaye parkının yerində bir vaxtlar hərbi zavod yerləşirdi. Sonralar hökumət bu torpaqları yerli bələdiyyənin və rayon hakimiyyətinin ixtiyarına verdi. Sənaye parklarının mütəxəssisləri qonşuluqdakı xam torpaq sahələrini hərbi zavod torpaqlarının ərazisi ilə birləşdirdilər və beləliklə də, parkın menecerləri əvvəllər mövcud olan strukturları və ya torpaqları sənaye məqsədləri ilə istifadə üçün təklif etməyə başladılar. Rumıniya hökuməti infrastruktura yatırılan ümumi investisiyaların təxminən 20 faizi civarında gəlir vergisinin çıxılmasını, ƏDV ödənişləri vaxtının uzadılmasını, həmçinin yerli hökumət orqanları ilə ayrı-ayrılıqda razılaşdırılmış xüsusi güzəştlər də daxil olmaqla güzəştlər təklif edir. Yazaki və Johnson Controls kimi şirkətlər parkda müəyyən strukturlar formalaşdırmışlar.

Beokin Biznes Parkı Serbiya və Çernoqoriyada Lafarge şirkəti tərəfindən başlanmış korporativ ictimai məsuliyyət layihəsidir. Biznes Parkı qeyri-mənfəət layihəsidir və nisbətən ucuz torpaq və Lafarge ilə şərik torpaqlar kimi bütün faydalı üstünlüklər birbaşa investora təklif edilir. Layihə hökumət tərəfindən əsaslı surətdə dəstəklənir. Beynəlxalq İqtisadi Münasibətlər Nazirliyi bütün zəruri icazələrin alınması prosesində investorlara birbaşa kömək edir. Serbiya və Çernoqoriyanın ən inkişaf etmiş biznes ərazisində, Voyvodina regionunda (Novi Saddan 20 km, Belqraddan 120 km, Xorvatiya sərhədindən 30 km, Macarıstan sərhədindən 120 km və Rumıniya sərhədindən 100 km məsafədə) yerləşən Biznes Parkı yüksək təcrübəyə malik olan ucuz əmək qüvvəsindən birbaşa istifadə imkanları təklif edir. Bütün investorlar üçün təmin edilən güzəştlərdən başqa heç bir əlavə güzəşt təmin edilmir. Serbiya və Çernoqoriya Şərqi Avropada ən aşağı korporativ vergi dərəcəsi (cəmi 10%) tətbiq edən ölkələrdir. Parkın cəlbedici xüsusiyyətlərinə sənaye torpaqlarının mövcudluğu, əməliyyatlara başlamaq üçün az vaxt sərfinin tələb edilməsi, keyfiyyətli infrastruktur və xidmətlər təminatı, həmçinin coğrafi xüsusiyyətlər daxildir. Üç beynəlxalq investor - Lafarge, Asamer və Wietersdorf Beokin Biznes Parkında yerləşmişlər.

## *İnvestisiya zəmanətləri və siyasi riskin sığortası*

Müəyyən şəraitlərdə şirkətlər investisiyanın perspektivlərini təhlil edir və belə nəticəyə gəlirlər ki, əldə edilən gəlirlər tələblərə cavab verir və investisiyaların gələcək maliyyələşdirilməsi mümkündür. Bununla belə, ölkənin investisiya mühitinin və siyasi şəraitin investisiya yatırımının davam etdirilməsi üçün hədsiz çox risklər yaratması ehtimalı onları bir qədər də düşünməyə məcbur edə bilər. Belə hallarda investisiyaların dəstəklənməsi üçün ölkələr "dövlət zəmanətini" təmin edir. Dövlət zəmanəti ilə hökumət ölkənin siyasi və ya hüquqi, yaxud bəzi hallarda iqtisadi şəraitdən qaynaqlanan itkilər və ya ödənişlərin həyata keçirilməməsi əleyhinə maliyyə zəmanəti təmin edir. Vətəndaş qarşıdurmaları, iqtisadi böhran, sarsıdıcı hakimiyyət dəyişiklikləri, hökumətin aktivləri müsadirə etməsi və müqavilələrin pozulması investisiya layihəsinin başa çatdırılmasına mane ola bilər və bu hallarda dövlət zəmanətlərinə ehtiyac yaranır. Zəmanətlərin məqsədi investorların əlverişsiz biznes təkliflərindən qorunması deyil, hadisələrin əvvəlcədən proqnozlaşdırıla bilmədiyi bir mühitdə həssas biznes layihələrinin həyata keçirilməsində onlara kömək etməkdir.

Bir çox investorlar əlverişsiz investisiya mühitinə və biznes şəraitinə malik olan ölkələrin hökumətindən dövlət zəmanəti almaq arzusunda deyillər. Bunun əvəzində, investorlar ya üçüncü tərəflərin təmin etdiyi zəmanətləri axtarır, ya da siyasi risk sığortası alırlar. Belə hallarda, üçüncü tərəfi təmsil edən zəmanətçi, adətən inkişaf bankı, suveren hökumətlə əlaqəsi olmayan bir zəmanət və ya hökumət tərəfindən təmin edilən zəmanətə "əlavə zəmanət" təklif edir.

AYİB və Dünya Bankı ATƏT-in inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarında həyata keçirilən layihələr üçün investorları zəmanətlərlə təmin edirlər. Hazırda Dünya Bankının zəmanət proqramı əslində tam istifadə edilməyib və əlavə iştirakçılara ehtiyac vardır. Bir çox zəmanət proqramları infrastruktur və sənaye

layihələri üzərində təmərküzləşib, lakin digər sahələr üzrə variantlar hələ də qalmaqdadır. Məsələn, 2003-cü ildə Özbəkistanda bir yerli bank Nestle İsveçrə firmasına sonuncunun öz biznesini genişləndirməsi üçün iki tam onda beş milyon avro məbləğində kredit verdi. AYİB isə həmin yerli bankı hər hansı əməliyyat uğursuzluqlarından qorumaq üçün zəmanətlə təmin etdi. Zəmanətlər üçün də xərc tələb olunur. Zəmanət şəklində təmin edilən məbləğin müəyyən bir faizi investordan çıxılır. Bu məbləğ adətən ədalətli olur və birrəqəmli ədədlərlə ifadə edilir. Bununla belə, zəmanətlərin tətbiqi hər bir investisiyanın dəyərini artırır, bu isə, əlverişli biznes mühiti müvafiq xərclərin azatmasını təmin edir prinsipini bir daha sübuta yetirir.

Siyasi risk sığortası investorların qənaətbəxş layihələri aşağıdakı itkilərdən sığortalamaq məqsədilə aldığı məhsuldur (sığorta edən qurumun məhsulu – red.):

- valyuta köçürmələrində məhdudiyyətlər;
- mülkiyyətin özgəninkiləşdirilməsi;
- müharibə və vətəndaş münaqişələri;
- müqavilənin pozulması.

Siyasi risk sığortası layihə ilə əlaqədar xərcləri artırsa da, əgər investora maliyyə mənbəyi lazımdırsa, siyasi risk sığortası bəzən onun daha əlverişli maliyyələşdirmə ilə təmin edilməsinə imkan verir, çünki layihə ilə əlaqədar risk təhlükəsi aşağıdır. İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Təşkilat (MIGA) və Xarici Özəl İnvestisiyalar Korporasiyası (OPIC) siyasi risk sığortalarının inkişaf yönümlü iki əsas təminatçılarıdır (Mətn bloku 6.8).

MƏTN BLOKU 6.8

## MIGA Moskvada

MIGA Moskvadan bir qədər aralıda yerləşən, Rusiyanın ilk özəl sutəmizləyici stansiyası üçün ümumilikdə 56,4 milyon ABŞ dolları ayırmışdır. Şəhərin su təchizatına daima artan tələbatının ödənilməsini nəzərdə tutan bu layihədə Moskvanın içməli su ehtiyatı həcmini 4 faiz artıracaq sutəmizləyici stansiyasının tikintisi nəzərdə tutulur. Tikinti işləri 2003-cü ilin sentyabr ayında başlamış və özəl şirkətlə əməkdaşlıqda aparılır. 13,5 il ərzində davam edəcək konsessiya özəlləşdirmə, istismara verilmə və ötürülmə (TÖİÖ) sxeminə əsaslanır. Su Moskva çayından sutəmizləyici stansiyasına kanalla çatdırılacaq və burada ən müasir texnologiyaların köməyilə filtirlərdən keçiriləcəkdir. İnvestisiyaların dəstəklənməsi agentliklərinə Avropa İnvestisiya Bankı, AYİB, Beynəlxalq Maliyyə Korporasiyası (BMF), MIGA, Dünya Bankı, Xarici Özəl İnvestisiyalar Korporasiyası (OPIC), Birləşmiş Ştatların Ticarət və İnkişaf Təşkilatı (USTDA) və digər təşkilatlar tərəfindən təmin edilən maliyyə resursları ilə əlaqədar məlumatlarla tanış olmaq tövsiyə edilir.

# Nəticələr və tövsiyələr

Daha böyük XBİ axınlarını cəlb etmək arzusunda olan ölkələr investisiyaların dəstəklənməsi fəaliyyəti ilə məşğul olmalıdır. İnvestisiyaların dəstəklənməsinə müvafiq siyasətin hazırlanması və tədbiqi, ölkə imicin inkişaf etdirilməsi, investisiyaların toplanması və investorlara xidmətlərin təqdim edilməsi daxildir. Çex Respublikası, İrlandiya və Baltik Dövlətləri kimi ATƏT-in üzv dövlətləri investorlar "axtarışında" müvəffəqiyyətlər əldə etmişlər.

Nəticə etibarilə, daha əlverişli investisiya mühiti investorlara daha məqsədəuyğun biznes təklifinin edilməsi üçün şərait yaradır. İnvestisiya güzəştləri əlverişli biznes mühitini əvəz edə bilməz; onları mövcud əlverişli investisiya mühitinə əlavə kimi nəzərdən keçirmək lazımdır. Hökumətlər hədsiz çox sayda güzəştlər tətbiq etməməyə və bu güzəştlərin maliyyə nəticələrini qiymətləndirməyə və tam başa düşməyə çalışmalıdır. Əks halda, onlar korrupsiya və zəif maliyyə göstəriciləri ilə üzləşə bilər. Güzəştlər ayrı-seçkiliyə yol verilmədən və həm xarici, həm də daxili firmalar üçün eyni səviyyədə tətbiq edilməlidir.

Tövsiyyə edilən ən məqsədəuyğun təcrübələrə aşağıdakılar daxildir:

*İnvestisiyaların dəstəklənməsi*

- İnvestisiyaların dəstəklənməsi agentliklərinin fəaliyyətinin təkmilləşdirilməsi: strateji və əməliyyatlar ilə əlaqədar ən məqsədəuyğun təcrübələri IDA Ireland və CzechInvest kimi aparıcı İDA-ların fəaliyyətlərindən görmək olar. İDA-lara MIGA və İnvestisiyaların Dəstəklənməsi Təşkilatlarının Ümumdünya Assosiasiyası (WAIPA) kimi təşkilatlarla əlaqələr yaratmaq məsləhət görülür.
- Nəzərdə tutulmuş investisiyaların dəstəklənməsi kampaniyalarının inkişaf etdirilməsi: ölkələr öz iqtisadiyyatlarının ən rəqabətədavamlı aspektlərini - ən dinamik sektorları, inkişaf etməkdə olan regionları - ən potensial investorlara təbliğ etməyə qadir olmalıdır.

*İnvestisiya güzəştləri*

- Ümumi aşağı vergi dərəcələri və daha sadə vergi sistemi investorun hansı ölkədə doğulmasına və ya konkret sənaye sahəsinə əsaslanan çoxsaylı mürəkkəb vergi güzəştlərindən daha məqsədəuyğundur.
- Vergi güzəştləri beş ildən çox müddət ərzində tətbiq edilməməlidir.
- Sərbəst zonalar və ya ixracat zonaları kimi xüsusi iqtisadi zonalar investisiya məkanının rəqabətədavamlılığını zəiflədən, cəlbedici olmayan köhnə sənaye obyektlərində deyil, investorlar üçün arzuolunan ərazilərdə yerləşməlidir.

*Sənaye parkları*

- Sənaye parkları iqtisadi inkişaf üçün tətbiq edilən vasitə deyil, bazar tələbatlarına cavabdır. Bununla belə, sənaye parkları demək olar ki, bütün mütərəqqi bazar iqtisadiyyatlarında mövcuddur. Dövlət özəl parkların təşkilatçılarının məqsədəuyğun qiymətlərlə torpaq ehtiyatlarına malik olmasını təmin etməli, o cümlədən, investorların tələblərinə cavab verən və özəl sektorun öz sənaye parklarını yaratmasına mane olmayan, dövlət tərəfindən maliyyələşdirilən parkları inkişaf etdirməlidir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

MIGA: <www.miga.org>

FDI Promotion Center: <www.fdipromotion.com>

World Association of Investment Promotion Agencies: <www.waipa.org>

OECD Investment Compact: <www.investmentcompact.org>

OECD Investment Division: <www.oecd.org/topic/0,2686,en_2649_34529562_1_1_1_1_34529562,00.html>

UNIDO Investment and Technology Promotion: <www.unido.org/doc/18264>

UNCTAD Foreign Direct Investment: <www.unctad.org/Templates/StartPage.asp?intItemID=2527&lang=1>

World Free Zone Convention: <www.freezones.org>

## QEYDLƏR

1 “Do the Benefits of Special Economic Zones Outweigh the Costs?”, online discussion, <http://rru.worldbank.org/Discussions/Topics/Topic40.aspx>



# 7-ci Fəsil



OSCE | Helen Santiago Fink

# Kiçik və orta müəssisələr: inkişaf və dəstək

Kiçik və orta müəssisələrin (KOM-ların) inkişafı ölkədə iqtisadi inkişafın əsas komponentidir. KOM sektoru məşqulluğun və innovasiyaların vacib mənbəyidir. KOM-lar iqtisadi inkişafın və rəqabətin dinamik artımı və inkişafını sürətləndirir. Bu Fəsildə kiçik və orta müəssisələrin (KOM-ların) ATƏT-in üzv dövlətlərinin iqtisadi və sosial inkişafına təsiri və KOM sektorunun inkişafı üçün əlverişli biznes və investisiya mühitinin əhəmiyyəti təsvir edilir. Fəsildə maliyyə, təhsil və müəssisələrin dəstəklənməsi sahələrində hökumətlərin başladığı KOM-yönlü tədbirlərin bazar disproporsiyalarına səbəb olmadan KOM sektorunun inkişafına necə təkan verməsi məsələsi də müzakirə edilir.

# *KOM-ların inkişafının əhəmiyyəti*

The growth of SMEs is a fundamental component of economic development. SMEs comprise greater than 90 per cent of businesses, and generally serve as the largest engine of job growth in developing and transition economies, often accounting for 60 per cent of employment. The vast majority of companies have staffs of less than 100. A survey of sixty thousand indigent persons in more than fifty countries revealed that starting a new business was viewed as the most effective method of escaping poverty (Figure 7.1).

The development of new enterprises brings new people into the workforce, and new taxpayers, products, and services into the local, regional, and global marketplaces. "SMEs are a source of employment, competition, economic dynamism, and innovation; they stimulate the entrepreneurial spirit and the diffusion of skills. Because they enjoy a wider geographical presence than big companies, SMEs also contribute to better income distribution."[1]

DİAQRAM 7.1

**Yoxsulluqdan səmərəli çıxış yolları haqqında fikirlər (respondentlərin ümumi sayının %-ı)**




**Qeyd: 50-dən çox ölkədən olan 60000 yoxsul insanla aparılmış müsahibələrə əsaslanır**
**Mənbə: Narayan və başqaları (2000-ci il).**

# *KOM-ların iqtisadi təsiri*

Cədvəl 7.1-də inkişaf etmiş ölkə iqtisadiyyatlarında KOM sektorunun oynadığı mühüm rol öz əksini tapmışdır. KOM-lar ABŞ, Yaponiya, Almaniya, Fransa. İtaliya və BB kimi dünyanın ən böyük inkişaf etmiş ölkələrdə ÜDM-nin və məşğulluğun əsas hissəsini təmin edir.

CƏDVƏL 7.1

**İnkişaf etmiş ölkələrdə KOM-ların inkişafı və dəstəklənməsinin əsas göstəriciləri**

| Göstəricilər | ABŞ | Kanada | Yaponiya | Almaniya | Fransa | İtaliya | Böyük Britaniya |
|---|---|---|---|---|---|---|---|
| KOM-ların ÜDM-ə töhfəsi | 52% | 43% | 52% | 57% | 50% | 55% | 52% |
| KOM-ların məşğulluğa töhfəsi | 50% | 47% | 70% | 70% | 57% | 71% | 56% |
| KOM-lar şirkətlərin faiz göstəricisi kimi | 98% | 99.8% | 99% | 99% | 98% | 99% | 99% |

**Mənbə: Kiçik Biznes üzrə 5-ci Ümum-Rusiya Konfransı, mart 2004-cü il.**

KOM-lar ÜDM və məşğulluq məsələlərində mühüm rol oynadığı inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkə iqtisadiyyatlarında daha aşağı təsir qüvvəsinə malikdir. İqtisadi keçid prosesində ən aşağı sürət templərinə malik olan ölkələrdə KOM-lar adambaşına düşən ÜDM və ümumi məşğulluq üzrə ən aşağı faiz göstəricisi nümayiş etdirir (uyğun olaraq 28% və 29%) (Cədvəl 7.2). Mütəxəssislərin qiymətləndirmələrinə görə, KOM sektorunun iqtisadiyyata, məşğulluğa və təhlükəsizliyə əsaslı təsir göstərməsi üçün "[rəsmi qeydiyyatdan keçən] kiçik müəssisələrin məşğulluq sahəsində və əlavə dəyərin yaradılmasında təxminən 40%-lik iştirak payı olmalıdır. Bu halda onlar köhnə sektorların resurslarını mənimsəyib onları davamlı inkişafa doğru istiqamətləndirə bilər. Sadəcə məhdud sayda çox məhsuldar kiçik müəssisələrin olması kifayət deyil. Məşğulluq sahəsində öz payını sürətlə artıra bilməyən kiçik biznes sektoru ümumi iqtisadi artımı təmin edəbiləcək kritik kütlə toplamaq iqtidarında olmayacaq".[2]

CƏDVƏL 7.2

**Keçid dövrü ölkələrində KOM-ların inkişafının orta göstəricisi**

| Təsvir | İnkişaf etmiş, yaranmaqda olan bazar iqtisadiyyatları | Sürətlə inkişaf edən ölkələr | Orta keçid mərhələsində olan ölkələr | Asta sürətlə inkişaf edən ölkələr |
|---|---|---|---|---|
| Ümumən iqtisadiyyatda özəl sektorun payı (%) | 65.9 | 67.5 | 64.0 | 46.9 |
| ÜDM-də KOM sektorunun payı (%) | 51.9 | 46.5 | 40.0 | 27.9 |
| Ümumi məşğulluqda KOM işçilərinin payı (%) | 63.1 | 41.8 | 35.9 | 29.2 |
| Adambaşına düşən ÜDM, $ABŞ | 5,758 | 2,882 | 1,368 | 877 |
| ÜDM-də KOM-ların payı, $ABŞ | 1,354 | 436 | 158 | 33 |
| KOM-ların inkişafı göstəricisi | 0.22 | 0.13 | 0.10 | 0.038 |

**Mənbə: UNECE Əməliyyat Fəaliyyətlərinə dair məlumatlar bazasının Koordinasiya Bölməsi (Cenevrə, 2004); AYİB-in Keçid Dövrü hesabatları; KOM-ların əsas milli xüsusiyyətləri.**

# *Qeyri-rəsmi iqtisadiyyata görə KOM-ların səmərəliliyinin azalması*

"Rəsmi iqtisadiyyat"la müqayisədə "qeyri-rəsmi iqtisadiyyat"ın həcmi və cəlbediciliyi KOM-ların iqtisadi təsirini aşağı salır. Diaqram 7.2-də məhdud gəlirlərə malik olan ölkələrdə qeyri-rəsmi sektor tərəfindən təmin edilən məşğulluq və istehsalatın KOM sektorundan çox olduğu vəziyyət təsvir edilir. İqtisadi fəaliyyətin qeyri-rəsmi iqtisadiyyatdan qanuni biznes sahələrinə keçirilməsi iqtisadi inkişaf üçün zəruridir.

DİAQRAM 7.2




Mənbə: M.Ayyaqari, T.Bek və A.Demirqueç-Kunt, "Planetdə fəaliyyət göstərən kiçik və orta müəssisələr", Dunya Bankı, Siyasətlərin Tədqiqi, İşçi Sənəd 3127, Vaşinqton, avqust 2003-cü il, səh. 27-28.

Qanuni fəaliyyət göstərən müəssisələrdə məşğulluq təqaüdlər, təhlükəsizlik qaydaları və səhiyyə müavinatlarının köməyilə daha çox sayda işçi qüvvəsinin mühafizəsini təmin edir; bu, xüsusilə də qeyri-rəsmi sektorun işçi qüvvəsinin dörddə üçünü təşkil edən qadın və uşaqlara aiddir. ATƏT özünün Gənc Sahibkarlıq Proqramı (GSP) vasitəsilə gənclərə Cənub Şərqi Avropada və keçmiş Sovet İttifaqı dövlətlərində öz qanuni bizneslərinin yaradılmasında xüsusilə fəal kömək göstərir. Bu cür təşəbbüslər bazar prinsiplərinin daha geniş kütlələr tərəfindən başa düşülməsini təmin edir və özəl sektorun fəaliyyətinin artmasına gətirib çıxarır. Nəhayət, qanuni məşğulluq səviyyəsinin artımı toplanan vergilərin çoxalmasına, sonuncu amil isə sosial müavinatların artmasına gətirib çıxarır.

# *Yaxşılaşdırılmış biznes mühiti vasitəsilə KOM potensialının həyata keçirilməsi*

KOM sektorunun iqtisadi inkişafa, yeni iş yerlərinin yaradılmasına və yoxsulluğun azaldılmasına öz töhfəsini vermək üçün nəhəng potensialı var. İstər ABŞ-dakı Silikon Vadisində yeni fəaliyyətə başlayan bizneslər, istərsə də Banqladeşdə, yaxud Afrikadakı kiçik tekstil biznesləri olsun, yeni müəssisələr güclü transformasiya qabiliyyətinə malikdir. Bununla belə, KOM-ların nəzərdə tutulmuş nəticələrə gətirib çıxarması üçün sahibkarların qanuni müəssisələr yaratmaq motivasiyası olmalıdır və bu müəssisələr məhv olmamalıdır. Sahibkarları qanuni fəaliyyət göstərməyə inandırmaq və onların bizneslərinin "sağ qalması"na kömək etmək üçün ən əhəmiyyətli amil biznes mühitidir. Əgər maneələr potensial qazancları üstələyirsə, bizneslərin qeyri-rəsmi iqtisadiyyatı tərk etmək arzusu da olmur. Hətta ən mükəmməl biznes mühitlərində belə, yeni müəssisələrin əksəriyyəti uğursuzluğa məruz qalır. Yüksək vergilərin, korrupsiyanın olduğu əlverişsiz bir mühit, üstəlik cansıxıcı bürokratiya müvəffəqiyyət perspektivlərinin qarşısını kəsir.

Vəsaitə əlavə edilən Sorğu Vərəqəsindəki sualların cavablarına istinad etsək, görərik ki, respondentlərin əksəriyyəti KOM-ların inkişafı yolunda ən əsaslı maneələr kimi aşağıdakı amilləri daha tez-tez səsləndirib:

- biznesin ifrat və ziddiyyətli tərzdə tənzimlənməsi;
- inzibati yüklər (qeydiyyat, lisenziyalaşdırma, vergilər və sair);
- korrupsiya; və
- müqavilələrin icrası və münaqişələrin həllində çətinliklər.

Sahibkarlığın qarşısındakı bu maneələr Sorğu Vərəqəsində həmçinin XBİ-nin qarşısındakı maneələr sualına verilən cavablara oxşardır. Sorğu Vərəqəsində konkret olaraq KOM-larla əlaqədar qeyd edilmiş maneələr aşağıdakılardır:

- biznesə başlamaq və onu inkişaf etdirmək üçün ilkin kapitalın azlığı;
- yüksək vergilər;
- aktivlərdən məhdud istifadə imkanları;
- idarəetmə bacarıqlarının olmaması.

Vəsaitə əlavə edilən Sorğu Vərəqəsindəki sualların cavablarından əldə edilən nəticələr beynəlxalq inkişaf agentlikləri (FIAS, BMF, AYİB) və milli tədqiqat institutları tərəfindən keçid dövrünü yaşayan 27 ölkədə müntəzəm olaraq həyata keçirilən KOM tədqiqatlarının nəticələri ilə üst-üstə düşür. Fəaliyyət meydanında qalmaq üçün Diaqram 7.3-də göstərilən vacib komponentlər KOM-lar üçün əlçatan olmalıdır. Hökumətlərdən özəl müəssisələri birbaşa dəstəkləmək tələb olunmur, lakin onlar perspektivli müəssisələr üçün köməkçi çərçivə yaratmağa məsuldur. Bazarlara, maliyyə, təhsil, torpaq və texnologiya sistemlərinə və köməkçi xidmətlərə əlçatanlığın genişləndirilməsi nəticəsində rəqabətədavamlı müəssisələr fəaliyyət meydanında qalmaq və sərbəst bazarlarda inkişaf etmək imkanı əldə edir.

DİAQRAM 7.3



# *KOM-ları dəstəkləyən siyasətin formalaşması*

2003-cü ildə ATƏT-in üzv dövlətləri təşkilatın İqtisadi və Ekoloji Ölçülər üzrə Strateji Sənədini təsdiq etdi. Bu sənəddə üzv dövlətlərin biznesyönlü mühit yaratması və KOM-ları dəstəkləməsi öhdəliyi öz əksini tapmışdı: "Yaxşı idarəetmə üçün biznesin tərəqqi edəcəyi və investorların inamının artacağı iqtisadi siyasətlərin, təsisatların və qanunvericiliyin müəyyən çərçivəsi yaradılmalıdır. Bunun üçün biznesyönlü, özəl sahibkarlığı dəstəkləyən və qoruyan, iqtisadi fəaliyyətlərlə əlaqədar aydın qayda və qanunlar irəli sürən, həmçinin prosedur və rəsmiyyətçilikləri müəyyən istiqamətə yönəldən qanunvericilik formalaşmalı və icra edilməlidir. Biz KOM-lar da daxil olmaqla biznesin inkişafına və investisiyaların dəstəklənməsinə gətirib çıxaracaq aydın hüquqi və təşkilati çərçivələr yaratmağa qərar vermişik"[3].

2000-ci ilin iyun ayında Avropa Komissiyası ölkələrinin dövlət və hökumət başçıları sahibkarlığın inkişafına təkan vermək və kiçik müəssisələr üçün biznes mühitini təkmilləşdirmək məqsədilə Kiçik Müəssisələrə dair Avropa Xartiyasını qəbul etdilər.[4]

Beləliklə də, onlar on geniş sahə üzərində işləmək öhdəliyini qəbul etdilər:

- sahibkarlar üçün təhsil və təlim;
- biznesə daha az xərclərlə və daha sürətlə başlamaq imkanları;
- daha məqsədəuyğun qanunvericilk və tənzimləmə;
- bacarıqların artırılması;
- internetdən istifadə imkanlarının artırılması;
- vahid bazar sistemi imkanlarından bəhrələnmənin artırılması;
- vergilər və maliyyə şərtlərinin yaxşılaşdırılması;
- kiçik müəssisələrin texnoloji imkanlarının gücləndirilməsi;
- uğurlu elektron biznes modelləri və əla səviyyəli dəstək;
- KOM-ların maraqlarının Aİ-nda və dövlət səviyyəsində daha güclü və daha səmərəli təmsilinin inkişaf etdirilməsi.

KOM-lara dair xartiyalar təkcə Aİ ölkələrində qəbul edilmir. 2003-cü ildə Kiçik Müəssisələr haqqında Avropa Nizamnaməsi həm də Qərbi Balkan ölkələri və Moldova tərəfindən qəbul edildi. KOM-ların dəstəklənməsi prosesində Aİ-nın iştirakı bu ökələrə KOM-ların inkişafı üzrə öz milli siyasətlərini və fəaliyyət planlarını düzgün istiqamətə yönəldərək nəzərdə tutulmuş aydın məqsəd və göstəricilərə nail olmanın illik qiymətləndirilməsinə kömək etdi. MDB ölkələrinin Ticarət Palataları KOM-ların inkişafında MDB-nin təcrübəsini müəyyən edərək KOM təriflərini və dəstəkləyici təcrübələri standartlaşdırmaq üçün cəhdlər etmişdir.

MƏTN BLOKU 7.1

### Qazaxıstanda KOM siyasəti

2005-ci il, fevralın 18-də xalqa "Qazaxıstan Sürətli İqtisadi, Sosial və Siyasi Yeniliklər Yolunda" başlıqlı müraciətində Qazaxıstan prezidenti KOM-ların inkişafı haqqında öz baxışlarını belə ifadə etmişdi:

"Əsl sahibkarlıq ruhu ideyasının gerçəkləşməsi kiçik və orta müəssisələr üçün əlverişli mühitin yaradılması kimi yeni fundamental inkişaf ideologiyasına əsaslanır. Özəl müəssisələrə yeni bir təkan vermək üçün köməkçi funksiyalar kiçik və orta müəssisələrə ötürüləcək".

Prezidentin hökumətlə özəl sektor arasındakı tərəfdaşlığı inkişaf etdirmək çağırışı və hökuməti KOM-ların inkişafı üçün əlverişli mühit yaratmağa dəvət etməsi xüsusilə mühüm əhəmiyyət kəsb edir. 2006-cı ildə Qazaxıstan əvvəlki qanunlardan daha mütərəqqi olub KOM-lara dair qaydaları müəyyən məcraya yönəldən "Özəl sahibkarlıq haqqında" yeni bir qanun qəbul etdi.

Vəsaitə əlavə edilən Sorğu Vərəqəsindəki suallara verilən cavablara görə, Qazaxıstanda KOM-ların inkişafı üzrə altı dövlət proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir. Bu proqramlar "KOM sektorunun davamlı inkişafına, prioritet iqtisadi sektorlarda KOM-ların iştirakının artması, yeni iş yerlərinin yaradılması, əsl rəqabətədavamlı mühitin formalaşdırılması, KOM-ların hüquqi müdafiəsinin təkmilləşdirilməsi, kredit və maliyyə ehtiyatlarının əldə edilməsinin asanlaşdırılması, mütərəqqi biznes təlimləri və KOM-lar üçün informasiya resurslarının əldə edilməsi imkanlarına" artıq öz töhfəsini vermişlər.

# KOM-ların üzərindəki yükün azaldılması

Əlverişsiz biznes mühiti böyük bizneslərdən daha çox KOM-lara təsir göstərir, çünki adətən sonuncuların daha zəif siyasi təsir qüvvəsi, hüquqi prosedurların öhdəsindən gəlmək və ya uduzmamaq üçün cüzi nağd pul ehtiyatları və müxtəlif tənzimləmələr üçün qeyri-kafi resursları olur. 11 ATƏT ölkəsində həyata keçirilmiş tədqiqat nəticəsində məlum olmuşdur ki, ən kiçik KOM-ların hər bir işçiyə görə inzibati xərcləri ən böyük KOM-larla müqayisədə təxminən beş dəfə çox olur (Diaqram 7.4)5. Kiçik firmalar tənzimləmə xərclərini yerbəyer etmək üçün böyük əməliyyatlar həyata keçirmək iqtidarında deyil.

DİAQRAM 7.4

**Hər işçiyə görə illik inzibati xərclər**




**Mənbə: İƏİT (2001-ci il), Bürokratiyanın təsirinə biznes müəssisələrinin baxışı.**

# KOM-lar üçün xüsusi məhdudiyyətlərin azaldılması tədbirləri

Xarici investorlara və böyük şirkətlərə mənfi təsir göstərən məhdudiyyətlərin bir çoxu (Biznes Mühitini Təkmilləşdirən Hökumət Tədbirləri və Siyasəti adlı 4-cü Fəsildə müzakirə edilib) KOM-lara təsir göstərən maneələrlə eynidir. USAID, Aİ və digər təşkilatların köməyi ilə bir sıra ölkələr bizneslə əlaqədar məhdudiyyətlərin azaldılması istiqamətində tədbirlər görür. KOM-lara xüsusi təsir göstərən iki konkret məhdudiyyət biznesin qeydiyyatı prosesi və dövlət yoxlamalarıdır. Əgər böyük bir korporasiya iki il ərzində planlaşdırma və tikinti işlərinin tələb olunduğu bir zavoda beş milyon avro dəyərində investisiya yatırırsa, otuz günlük qeydiyyat prosesi və məsləhətçi və hüquqşünas xidmətləri üçün əlli min avro ayırmaq onun üçün nisbətən kiçik rəqəmdir. Lakin, ilk layihəsinə başlamaq arzusunda olan KOM üçün qeydiyyat xərcləri və gecikdirmələr məhvedici ola bilər.

*Biznesin qeydiyyatı.* Bazara vaxtında daxilolma mikromüəssisələrin fəaliyyətə başlaması üçün xüsusilə mühüm əhəmiyyət kəsb edir. Hər hansı bir müəssisənin qeydiyyatı üçün tələb olunan vaxt çox zaman biznes mühiti keyfiyyətinin düzgün göstəricisi hesab edilir. Ən inkişaf etmiş ölkələrdə biznesin qeydiyyatı prosesi cəmi bir gün çəkir; halbuki digər ölkələrdə bu proses bir neçə ay davam edə bilər. Biznesin qeydiyyatı prosesinin sürətləndirilməsində ən əlverişli təcrübələrdən biri Bir-Pəncərə (One-Stop-Shope) modelidir. Bir-Pəncərə

modelində sahibkardan yalnız müəyyən bir yerə gedərək bizneslə əlaqədar bütün sənədləri təqdim etmək tələb olunur. Son vaxtlarda Ukrayna Bir-Pəncərə modeli üzrə müvəffəqiyyətlər əldə edib. Ukraynanın Hüquqi Şəxslərin və Fərdi Sahibkarların Dövlət Qeydiyyatı haqqında 2004-cü ildə qəbul edilmiş Qanununda qeydiyyat prosesi mümkün qədər asanlaşdırılmışdır. Sahibkarlar artıq altı müxtəlif dövlət təşkilatına müraciət etməli deyillər. Yeni qanun sahibkarın dövlət rəsmiləri ilə ünsiyyətini cəmi bir nəfərə qədər azaltmışdır. Həmin bir nəfər - Dövlət Qeydiyyatçısı ərizələri qəbul edir və bütün qeydiyyat və müvafiq hesabat funksiyalarını icra edir. Məsələyə bu cür yanaşmada bütün prinsipial problemlər nəzərə alınır və qeydiyyat prosesinə cəmi dörd gün sərf olunur.6 Lakin, əgər qeydiyyat prosesi hələ də çox vaxt aparırsa və şəffaf həyata keçirilmirsə, Bir-Pəncərə modeli bürokratik qeydiyyat əngəllərindən sahibkarı xilas edə bilmir.

*Dövlət yoxlamaları.* Yoxlamalar KOM-lar vaxtını aparan bahalı bir prosesdir. Ümumiyyətlə, audit, maliyyə yoxlamaları və ya təftişlər zamanı məhsuldarlığın azalması KOM-lar üçün daha mürəkkəb bir problemdir. KOM-lar böyük hüquq və maliyyə heyətlərinə əlavə pul ödəmək imkanına və müfəttişlərə kömək edəcək inzibati heyətlərə malik deyil. Adətən maliyyə-vergi, sanitariya, yanğınsöndürmə orqanlarının çoxsaylı yoxlamaları ilə əlaqədar işləri KOM-ların daxili işçi heyəti görməli olur. Məsələn, Rusiya biznes müəssisələrində maliyyə və digər yoxlamaların sayının minimuma endirilməsi istiqamətində tədbirlər görür. Hökumət kiçik bizneslərin mövcud olduğu ilk üç il ərzində onların fəaliyyətinin yoxlanmasına moratorium tətbiq edilməsi təklifini irəli sürmüşdür. Hökumət növbəti beş il ərzində KOM-ların əlavə inzibati maneələrinin 90 faiz civarında azaldılması məqsədini qarşıya qoymuşdur və bu, son vaxtlar Rusiyada həyata keçirilən inzibati islahatın əsas elementlərindən birini təşkil edir. Ölkələrin görə biləcəyi digər tədbirlərə aşağıdakılar daxildir: il ərzində şirkətdə aparıla biləcək yoxlamaların sayının məhdudlaşdırılması; şirkətin hər hansı bir yoxlama zamanı hüquq və vəzifələri haqqında sənədin işlənib hazırlanması; və yoxlama nəticəsində aşkar edilmiş pozuntuların qaydaya salınması yollarının müəyyənləşdirilməsi.

*KOM-lara dair tənzimləmə təsirlərinin qiymətləndirilməsi (TTQ-lər).* Bir çox ölkələr yeni qaydaların qəbul edilməsinə qədər TTQ-ləri həyata keçirmirlər. Lakin onu da qeyd etmək lazımdır ki, bütün TTQ-lərdə KOM-lara xüsusi diqqət yetirilməsi zəruridir, çünki yeni qaydalar çox vaxt böyük bizneslərlə müqayisədə məhz KOM-lara böyük təsir göstərir. Böyük Britaniyada bütün yeni qaydalar/tənzimləmələr üzərində əvvəlcə "kiçik bizneslər üçün lakmus testi" də daxil olmaqla TTQ həyata keçirilir. Burada məqsəd yeni qaydaların kiçik müəssisələr üzərinə böyük yükün qoyulmamasının təmin edilməsidir. ABŞ-ın bir sıra ştatlarında kiçik bizneslər üçün "tənzimləyici elastik" qanunlar qəbul edilməkdədir.

KOM-lar üzərinə düşən tənzimləmə yükünün azaldılması istiqamətində hökumətlərin tətbiq edə biləcəyi digər strategiyalara aşağıdakılar daxildir:

- qanunların təkmilləşdirilməsi və islahatlar prosesində KOM-ların baxışlarını ifadə etmək üçün müəyyən dövlət orqanının yaradılması və ya bu işin KOM-ların inkişafı ilə məşğul olan dövlət agentliyi və ya nazirlikdən olan bir nümayəndəyə həvalə edilməsi;
- biznes siyasəti ilə əlaqədar dövlət və özəl sektorlar arasındakı dialoqda kiçik biznes sektorunun öz fikirlərini səsləndirmək imkanının təmin edilməsi;
- konkret olaraq KOM-larla əlaqədar sadə qanun layihələrinin işlənib hazırlanması və onlara riayət olunmasının təmin edilməsi;
- KOM-ların elektron idarəetmə imkanlarından bəhrələnməsi üçün IT resurslarına malik olmalarının təmin edilməsi.

## KOM-ların inkişafına dair dövlət dəstəyi proqramının hazırlanması

Bu Vəsaitin fəsillərində verilən tövsiyələrdə biznes və investisiya mühitinin güzəştlər və ya bahalı dövlət proqramları vasitəsilə deyil, lazımsız qaydalar yükünün aradan qaldırılması, daha məqsədəuyğun qanunlar, şəffaflıq və s. kimi yollarla təkmilləşdirilməsi məsələsi xüsusi vurğulanır. Ümumi məqsəd iqtisadi rəqabətədavamlılıqdır, çünki rəqabətədavamlı iqtisadiyyat XBİ-nin cəlb edilməsinə və sahibkarlığın inkişafına gətirib çıxarır. Makrosəviyyədə KOM-ların mövcudluğu iqtisadiyyatın rəqabətədavamlılığını artırır. Mikrosəviyyədə isə KOM-lar daha böyük müəssisələrlə rəqabətdə çətinliklərlə üzləşir. KOM-lar getdikcə genişlənərək və təcrübə əldə edərək dövlətin göstərdiyi dəstəyi doğruldacaq bir səviyyəyə çata bilər, lakin bu, onların fəaliyyətinin davamlı surətdə dövlət tərəfindən dəstəklənməsinə əsas vermir. Bazar iqtisadiyyatları səmərəsiz biznesləri dəstəkləmir, sadəcə məntiqi tənzimləyici qaydaları müəyyənləşdirir və KOM-ların maliyyə və bilik resursları əldə etməsi üçün müvafiq şərait yaradır. Müəssisə rəqabətədavamlı bir səviyyəyə çatdıqdan sonra həmin güzəştlərdən istifadə etmək hüququndan məhrum olur.

# *KOM-lar üçün vergi güzəştləri*

Böyük və ya kiçik olmasından asılı olmayaraq, bütün müəssisələr öz ədalətli vergi paylarını ödəməlidir. Kiçik bizneslərə inkişaf edib tamhəcmli vergi ödəyicilərinə çevrilməkdə kömək etmək üçün hökumətlər KOM-lar üçün məhdud vergi güzəştlərinin tətbiqi məsələsini nəzərdən keçirə bilər.

*Sadələşdirilmiş vergilər.* Mürəkkəb vergi sistemi KOM-lar üçün ağır yükdür. Bahalı mütəxəssis xidmətləri tələb edən mürəkkəb vergiödənişi prosesi KOM-ların gəlirliliyini aşağı salır. Vergi məbləğinin və vergi hesabatlarının sadələşdirilməsi KOM-lara diqqəti müəssisənin inkişafı məsələsi üzərində cəmləşdirmək imkanı verir. Məhdud işçi qüvvəsinə və dövriyyəyə malik olan müəssisələr üçün əksər vergi sistemləri gəlir və ya dövriyyənin sadəcə faiz göstəricisinə əsaslanır. Məsələn, Litvada ildə 100 000 litdən ($26 000) çox olmayan ümumi gəlirə malik müəssisələr sadələşdirilmiş vergi sistemindən istifadə edə bilər. Rumıniyada təxminən 10 nəfər işçi qüvvəsinə və 100 000 avro civarında ümumi illik gəlirə malik olan mikro-müəssisələr həmin ümumi gəlirin 3 faizi həcmində vergi ödəyir. Albaniyada illik dövriyyəsi təxminən 2 milyon lik ($14 000) olan mikro-müəssisələr üçün sabit vergi dərəcəsi tətbiq edilir. İllik dövriyyəsi 2-8 milyon likə çatan kiçik müəssisələr isə dövriyyənin 4 faizi həcmində cəmi bir vergi ödəyir.

Rusiyada sadələşdirilmiş vergi sistemi üzrə vergi ödəyən KOM-lar üçün gəlirin 6 faizi həcmində və ya xərcləri çıxmaqla gəlirin 15 faizini təşkil edən vahid vergi dərəcəsi tətbiq edilir. Sahibkar vergi sistemləri arasında seçim edə bilər. Sadələşdirilmiş vergi sistemindən istifadə edən biznes müəssisələri ƏDV ödəmir (Rusiya Federasiyasının gömrük ərazisinə idxal edilən mallara görə ƏDV istisna olmaqla).

KOM-lara sadələşdirilmiş vergi sxemlərini təklif edərkən hökumətlər vergi ödənişləri üzrə "astana" mərhələlərində qalmaq və imtiyazlı vergi dərəcələrindən istifadə etmək məqsədilə özlərini saxta yollarla kiçik müəssisə kimi qələmə verməyə çalışan şirkətlərə xüsusi diqqət yetirməlidirlər.

# *KOM-ların sahibkarlıq mədəniyyətinin və insan kapitalının inkişaf etdirilməsi*

ATƏT-in İqtisadi və Ətraf Mühit üzrə Strateji Sənədində qeyd edildiyi kimi: "İqtisadi, biznes, inzibati, hüquqi və elmi məsələlər üzrə bilik və bacarıqların tələb olunduğu iqtisadi artım və inkişaf prosesi üçün insan ehtiyatları zəruri amildir. Biz təhsil və təlimlərin dəstəklənməsi istiqamətində müvafiq tədbirlər görəcək və yüksək təqaüdlər və təcrübə proqramları vasitəsilə təhsil, tədqiqat və təlim müəssisələrindən istifadə imkanlarının asanlaşdırılması və genişləndirilməsi kimi sahələrdə ixtisaslaşmış təşkilatlar və müəssisələrlə əməkdaşlığı inkişaf etdirəcəyik"[7].

Müvafiq hüquqi və tənzimləyici çərçivə yaradıldıqdan sonra müəssisələrin həmin çərçivəyə uyğun uğurlu fəaliyyət göstərmələri üçün insan kapitalı mövcud olmalıdır. Milli təhsil sistemlərinə biznes və sahibkarlıqla əlaqədar dərslərin əlavə edilməsi müəssisələrin fəaliyyət meydanında qalması və inkişaf etməsini təmin etmək üçün atılan çox əhəmiyyətli bir addımdır.

*Sahibkarlıq təhsili.* Bir çox ATƏT ölkələri iqtisadi inkişafın müxtəlif mərhələlərində sahibkarlıq üzrə təhsilin əhəmiyyətini başa düşərək müvafiq dövlət proqramları təsis etmişlər. Finlandiyada Dövlət Təhsil Şurası məktəblərdə (icbari təhsildən orta təhsilə qədər) bütün səviyyələr üçün mərkəzi tədris planı tərtib etmişdir. Sahibkarlığın dəstəklənməsi məsələsi tədris planına həm ümumiyyətlə tədris planının əsas mövzusu, həm də ayrıca fənn şəklində daxil edilmişdir. 2004-2006-cı illərdə sahibkarlığın əhəmiyyətini vurğulayan yeni bir tədris planı işlənib hazırlandı. Finlandiyadakı bütün orta təhsil məktəblərində sahibkarlıq təhsili könüllü seçilən predmet kimi təklif edilir, bütün peşə məktəblərində isə sahibkarlıq təhsili icbari predmet kimi tədris planına daxil edilmişdir. Proqramların konkret icrasına gəldikdə, məktəblərlə biznes müəssisələri arasında sistematik əməkdaşlıq həyata keçirilir və müəllimlər üçün ayrıca təlimlər təşkil edilir.

Polşada Dövlət Təhsil və İdman Nazirliyi sahibkarlığı dövlət təhsil proqramına daxil etmişdir. 2002-ci ildən bəri orta və peşə təhsili məktəblərində "Sahibkarlığın əsasları" adlanan icbari fənn tədris edilir. Burada qarşıya qoyulan məqsəd sahibkarlıq münasibətlərinin inkişafı və müəssisənin necə yaradılması haqqında biliklərin əldə edilməsidir. Təhsil Nazirliyi məktəblərin yerinə yetirməli

olduğu vəzifələri aydın müəyyən etmişdir. Məktəblər QHT-lər tərəfindən təklif edilən proqramlar da daxil olmaqla mövcud proqramlardan istifadə edə və ya təhsil orqanı tərəfindən müəyyən edilmiş meyarlara uyğun olaraq yeni proqramlar yarada bilər.

*Peşə bacarıqlarının inkişaf etdirilməsi.* Orta həcmli bizneslər çox vaxt uğurlu fəaliyyət üçün "bacarıqlı əmək qüvvəsinin çatışmaması"nı "maliyyə resurslarının əldə edilməsi imkanları"ndan da böyük maneə adlandırır. Əksər KOM-ların işdə təlim və peşə təhsili üçün müvafiq resurslara malik olmadığına görə ATƏT ölkələri gənclər arasında peşə bacarıqlarının inkişafı məsələsi ilə ciddi məşğul olur.

Bu qəbildən olan proqramlara daha bir nümunə olaraq Albaniyanın KOM-lar üçün Milli Təlim Proqramını göstərmək olar. Proqramın məqsədi sahibkarlıq mədəniyyətinin inkişaf etdirilməsi, biznes xidmətləri göstərənlərin bilik və bacarıqlarının artırılması və mövcud müəssisələrin rəqabətədavamlılığının yüksəldilməsidir. Proqram baza və yüksək biznes modullarından, həmçinin sektor və/və ya qrup yönümlü biznes modulları və konsaltinqdən ibarətdir9.

Avstriyanın İqtisadiyyat və Əmək Nazirliyi "yüksək texnologiyalar sahəsində ixtisaslaşan tələbələr", üçün nəzərdə tutulmuş və tələbələrə praktik təlimlər vasitəsilə təhsil haqqında sertifikat almaq imkanının verilməsi ilə nəticələnən yeni təhsil proqramlarını işləyib hazırlamışdır.

# *Maliyyə resurslarının əldə edilməsində KOM-ların problemləri*

İnkişaf etmək üçün KOM-ların kapitala ehtiyacı vardır. Onlar icarəyə yer götürməli, avadanlıq almalı və işçiləri isə qəbul etməlidir. Kommersiya bankları tərəfindən kreditlərin təmin edilməsi Şərqi Avropa və Mərkəzi Asiyada təşəkkül tapsa də, KOM-ların maliyyə imkanları xüsusilə də keçid dövrünü yaşayan ölkələrdə qeri-kafi səviyyədə qalır. Düzünü desək, ümumiyyətlə faiz dərəcələrinin azalması meyli müşahidə olunur və KOM bazarı üçün proqramlar işləyib hazırlayan bankların sayı getdikcə artır. Buna baxmayaraq, maliyyə resurslarının əldə edilməsi imkanları çox vaxt məhdud olur.

Maliyyə resurslarının əldə edilməsi yolunda KOM-lar qarşısında əsas maneələr aşağıdakılardır:

- bankların nisbətən kiçik kreditlərə riskli və hədsiz çox vaxt aparan investisiyalar kimi baxması;
- bankların yüksək faiz məzənnələri və bahalı girovlar tələb etməsi;
- fəaliyyətə dair qeydlərin aparılmaması və biznes planlarının olmaması;
- idarəetmə heyətinin qeyri-peşəkar olması haqqında fikirlər;
- bankların paytaxtda və iri şəhərlərdə yerləşməsi KOM-ların şəhərkənarı regionlarda müraciət imkanlarını azaldır.

KOM-lar ənənəvi kredit xətlərini əldə etməkdə çətinlik çəkdiyinə görə hökumətlər və donor təşkilatlar KOM-lar üçün alternativ maliyyələşdirmə mexanizmlərinin işlənib hazırlanmasında iştirak etmişlər.

# *Alternativ maliyyələşdirmə mexanizmləri*

Mikromaliyyə proqramları. Mikromaliyyə sənayesi ənənəvi bank işi ilə müqayisədə nisbətən yeni sənayedir - əslində o, təxminən iyirmi ildir ki, fəaliyyət göstərir. Bununla belə, mikromaliyyə adi bank krediti əldə edə bilməyən mikro-sahibkarlara kömək üçün ən səmərəli üsullardan biri olduğunu sübuta yetirmişdir. Mikromaliyyə müəssisələrinə (MMM-lərə) KOM-ların İnkişafı Dövlət Fondları, donor mikromaliyyə təşkilatları, kredit ittifaqları və kredit kooperativləri daxildir. MMM-lər geniş həcmli kredit və monitorinq texnikalarını işləyib hazırlamış və öz mikromüştərilərinin yüksək ödəniş səviyyələrini nümayiş etdirir.

Mikromaliyyə proqramları iqtisadi inkişafa nail olmaq və yoxsulluğu azaltmaq üçün səmərəli vasitədir. Mikro- və kənd maliyyə sistemləri əhalinin ənənəvi bazar iqtisadiyyatının əhatə dairəsindən kənarda qalan hissəsi ilə işləməklə sabit və bazaryönlü inkişafı dəstəkləyir. Fəaliyyəti yoxsul insanlar üzərində cəmləşdirmək və kredit, həmçinin biznes dəstəyi təmin etməklə bu proqramlar insanlara öz gəlirlərini artırmaqda kömək edir və onların fəaliyyət imkanlarını artırır, iş yerlərinin sayının artması isə Türkmənistan nümunəsində təsvir edildiyi kimi (Mətn bloku 7.2) qazanc imkanlarına daha geniş girişi təmin edir.

MƏTN BLOKU 7.2

## ATƏT Türkmənistanda Könüllü Fermerlər Assosiasiyalarını dəstəkləyir

ATƏT-in Aşğabaddakı Mərkəzi 2004-cü ilin əvvəllərindən etibarən Axal və Lebap regionlarında könüllü fermerlər assosiasiyaları (KFA-lar) üçün dövri mikro-kredit pilot layihəsini həyata keçirir. Bu layihə Avropa İttifaqının Tasic Proqramı ilə əməkdaşlıq zəminində, ortaq xərclər razılaşmasına uyğun olaraq həyata keçirilir. ATƏT-in məsuliyyəti dairəsində olan komponentə təlim, avadanlıq və dövri mikro-kredit fondu daxildir. ATƏT-in iş təhlükəsizliyi və məşğulluğun yaradılması sahəsində dəstəyinin pilot fazası üçün dörd KFA seçilmişdi. İştirakçı fermerlər əvvəlcə başlıca biznes təcrübələri, mühasibatlıq, planlaşdırma və ticarət bacarıqlarına dair üç aylıq icma səviyyəli təlim kursu keçmiş, sonra isə müvafiq biznes planları üçün öz fərdi kredit ərizələrini hazırlamışlar. 100-250 ABŞ dolları civarında paylanan, türkmən manatı ilə ödənilәsi kredit 2004-cü ilin oktyabr ayında ödənilmişdi. Bu maliyyələşdirmə ev heyvanları, toxum və tumlar, mal-qara və quşçuluq təsərrüfatları, istixanalar, torpaq və drenaj infrastrukturu, həmçinin kanalların inkişafı kimi məsələlər üçün nəzərdə tutulmuşdu.

KFA-lar kreditləri heç bir qüsura yol vermədən 100 faiz ödəmişdi. Layihə üzrə əraziyə monitorinq səfərləri zamanı iştirakçı fermerlər layihədən razı qaldıqlarını ifadə edərək bildirmişlər ki, mikrokreditlər olmadan bu nailiyyətləri əldə edə bilməzdilər, çünki onların kreditə və ya kapital maliyyələşdirməsinə heç bir alternativ giriş imkanları yoxdur. Dörd KFA-nın hamısı layihəni davam etdirməyə və üzvlər bazasını genişləndirməyə hazır olduqlarını bildirmidir. Hazırda Mərkəz KFA layihəsini genişləndirmək və iştirakçıların sayını və tərkibini genişləndirmək, və ya kredit ittifaqları strukturlarını inkişaf etdirməklə bu sektora köməyini davam etdirməyi planlaşdırır.

**Mənbə: ATƏT-in Aşqabaddakı Mərkəzi, Yeniliklər məcmuəsi, 2005-ci il**

İlkin kredit portfelinin təmin edilməsi, heyət üçün təlimlərin keçirilməsi, mühasibat və idarəetmə informasiyaları üzrə proqram təminatı, texniki təminat, seyflər, mebel və təlimlər üçün MMM-lərə çox vaxt hökumətin və/və ya donor təşkilatlarının (kredit kooperativləri istisna olmaqla) ilkin dəstəyi lazım gəlir. Lakin, nəticə etibarilə mikromaliyyə təsisatları əməliyyat və kommersiya nöqteyi-nəzərindən perspektivli olmalıdır ki, mikro-müəssisələr maliyyə xidmətləri ilə uzun müddətə təmin edilə bilsinlər və beləliklə də, bu xidmətlərin həcm və çeşidində əhəmiyyətli və əsaslı artım əldə edilsin. Bu məqsədə nail olmaq üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- MMM-lərin depozit qəbul etmə və kredit vermə əməliyyatlarını həyata keçirə bilməsi üçün müvafiq hüquqi çərçivənin yaradılması;
- xüsusilə də kiçik aktivlərə malik olan KOM-lar üçün daha elastik zəmanət formalarının və ya qrup halında zəmanətlərin tətbiqi kimi zəmanətlərlə əlaqədar problemlərin mütərəqqi həlli yolları;
- kredit alma imkanlarının qiymətləndirilməsi zamanı balansa deyil, nağd pul axınına daha böyük diqqət yetirilməsi;
- kredit ərizələrinin effektiv və şəffaf qiymətləndirilməsi metodları.

2003-cü ildə Qırğızıstan Respublikası Mikromaliyyə Təşkilatları haqqında qanun10 qəbul etdi; 2003 və 2004-cü illərdə isə uyğun olaraq Qazaxıstan və Tacikistan bu nümunədən istifadə edərək müvafiq qanunlar qəbul etdilər. MMM-lər üçün hüquqi status təmin edən bu qanunlar qəbul edildikdən sonra yerli təşkilatlar mikromaliyyə əməliyyatlarını icra etmək hüququ əldə etdilər.

İxtisaslaşmış mikrokredit bankları. Son 15 ildə aparıcı beynəlxalq inkişaf və maliyyə təşkilatları ATƏT-in bir sıra keçid dövrü iqtisadiyyatlarında çoxsaylı ixtisaslaşmış mikrokredit bankları yaratmışlar. Bu sənayeyönlü mikrokredit bankları, məsələn, Rusiyadakı KMB Bank, daha böyük bankların bazardakı minimal əhatə dairəsini azaltmaq və pərakəndə əməliyyatlarını genişləndirmək üçün əhəmiyyətli rəqabətədavamlı təzyiq yaradır, həmçinin mikro və kiçik bizneslərə praktik məhsullar təklif edir. Həm donor, həm də özəl banklar tərəfindən maliyyələşdirilən ProCredit Bank Şərqi Avropa və Mərkəzi Asiyada aktiv fəaliyyət göstərir.

Kredit zəmanətləri sxemləri. Zəmanətlər bankın girovla əlaqədar müvafiq tələblərini ödəmək üçün kifayət qədər mülkiyyətə malik olmayan kiçik bizneslərin kreditlə təmin edilməsi vasitələrindən biridir. Zəmanətlər hökumət, biznes assosiasiyaları və/və ya özəl banklar tərəfindən təmin edilə bilər. Onlar kredit məbləğinin 50 və ya 90 faizini təşkil edir və zəmanət komissiyası (haqqı – red.) uyğun olaraq 1-5 faiz civarında məyyən edilir. Zəmanətlər banka zəmanət məktubu, qiymətli kağızlar və/və ya bank depoziti şəklində təqdim edilə bilər. Dövlət zəmanətləri bir qayda olaraq zəmanət və ya KOM inkişaf fondu tərəfindən idarə edilir, kredit ərizələri isə bankın əməkdaşları tərəfindən

qiymətləndirilərək bank və zəmanət fondu tərəfindən birgə yoxlanılır.

KOM-ların Zəmanətlərlə Təmin Edilməsi İmkanlarının Genişləndirilməsi Proqramı Avropa İttifaqında 1998-ci ildən bəri fəaliyyət göstərir. O, banklara KOM kreditlərinin ödənişinə dair zəmanətlər, həmçinin dövlət və regional zəmanət sxemləri üçün əlavə zəmanətlər təqdim edir. 2003-cü ilin sonlarında Proqram çərçivəsində 48 vasitəçi maliyyə müəssisəsi ilə ümumi dəyəri 308 milyon avro təşkil edən müqavilələr imzalandı. Elə həmin dövrdə bu Proqramın xidmətlərindən bəhrələnən KOM-ların ümumi sayı 166.279-a çatdı (cəmi bir il əvvəl isə bu rəqəm 127.812-yə bərabər idi). Yekun hesablamalara görə, işçilərinin sayı 10 və ya daha az olan kredit almış KOM-lar KOM-ların ümumi sayının 93, işçilərinin sayı 50-dən az olanlar isə KOM-ların ümumi sayının 97 faizini təşkil edirdi.11

ATƏT-in bəzi üzv dövlətləri zəmanətlərin icrası prosesində müəyyən müvəffəqiyyətlər əldə etmişlər. ATƏT ölkələrində həyata keçirilən kredit zəmanətləri sxemlərindən öyrənilən ən yaxşı təcrübələri aşağıdakı kimi ümumiləşdirmək olar:

- ilk dəfə verilən zəmanət istər kredit alan, istərsə də bank tərəfindən zəmanətlə əlaqədar məsuliyyətsiz davranışın qarşısını almaq üçün kredit məbləğinin 50 faizindən çox olmamalıdır;
- potensial itkilərin kompensasiya ediləcəyini təmin etmək üçün dövlət tərəfindən təmin edilən zəmanətlərin ümumi məbləği zəmanət fondunun müvafiq bankdakı hesabından çox olmamalıdır;
- zəmanətin idarə edilməsi ilə əlaqədar xərclərin təmin edilməsi məqsədilə zəmanətin təmin edilməsindən əvvəl illik komissiya ödənişlərinə əlavə olaraq 1 və ya 3 faizlik komissiya ödənişi təmin edilməlidir;
- fırıldaqçılıq hallarına yol verməmək üçün zəmanət fondu müstəqil və şəffaf tərzdə idarə edilməlidir; bundan başqa, razılaşmada zəmanət fondu portfelinin istənilən zaman obyektiv qiymətləndirilməsinin mümkünlüyü qeyd edilməlidir.

MƏTN BLOKU 7.3

## KOM-lar üçün vençur kapitalının mənbəyi olan pul köçürmələri. Nümunə üzrə təhlil: SiliconArmenia.

Mühacirlərin öz evlərinə göndərdiyi pullar - pul köçürmələri - nəinki onların ailələri, həm də vətənləri üçün əhəmiyyətli gəlir mənbəyidir: inkişaf etməkdə olan ölkələrdə pul köçürmələri yalnız XBİ-dən sonra ikinci xarici maliyyə mənbəyidir və son beş il ərzində pul köçürmələri beynəlxalq yardım axınlarının həcmini əhəmiyyətli dərəcədə üstələmişdir. Pul köçürmələri əsasən istehlak məqsədilə istifadə edilir, lakin bundan əlavə evlərin tikintisi və biznesə başlamaq üçün investisiya şəklində də tətbiq edilə bilər. Pul köçürmələrinin diaspora investisiyası kimi istifadəsinə mükəmməl nümunə olaraq SiliconArmenia portalını göstərmək olar.

SiliconArmenia Ermənistanın yüksək texnologiyalar/IKT üzrə əsas sənaye portalı kimi təsis edilmişdir. Portal beynəlxalq bazarlara, perspektivli müştərilərə, tərəfdaşlara və investorlara geniş təqdimat yolu ilə Ermənistanın inkişaf etməkdə olan texnologiya sektorunun dəstəklənməsi məqsədilə yaradılmışdır. SiliconArmenia Ermənistanın strateji əhəmiyyətli ali texnologiyalar/İKT sənayesi ilə bu sektorun tərəqqisinə kömək etmək imkanında olan Ermənistan diasporasının üzvləri arasında körpü rolunu oynayır. Ermənistanda fəaliyyət göstərən şirkətlər, Ermənistan diasporası və qlobal texnologiya icması arasında biznes əlaqələri və dinamik şəbəkə yaratmaqla portal erməni diasporasının Ermənistanın iqtisadi inkişafını dəstəkləmək imkanlarından istifadə etməsinə çalışır.

Missiya:

- Ermənistanın yüksək texnologiyalar/İKT sənayesində məşğulluğun, məhsuldarlığın və müvafiq bazar payının artmasına kömək etmək;
- Ermənistanın yüksək texnologiyalar/İKT sənayesinə əlavə xarici investisiyalar cəlb etmək məqsədilə ideal biznes mühitinin yaradılmasını dəstəkləmək;
- Ermənistanda informasiya cəmiyyətinin və biliyə əsaslanan iqtisadiyyatın yaranmasını sürətləndirmək;
- Ermənistanı qlobal bazarda yüksək dəyərli/aşağı riskli yüksək texnologiyalar/İKT məkanı kimi yerləşdirmək və tanıtmaq.

Ermənistan da daxil olmaqla inkişaf etməkdə olan ölkələrdə şirkətlərin, xüsusilə də KOM-ların genişlənməsi yolunda yeganə ən mühüm maneə bazarla əlaqədar biliklərin azlığı və yeni bazarlara daxil olmaq üçün yüksək xərclərin tələb olunmasıdır. Bu layihə öz vətənlərində fəaliyyət göstərən yerli şirkətlərlə diaspora tərəfindən idarə edilən biznes müəssisələri arasında biznes əlaqələrinin sürətləndirilməsi yolu ilə sözügedən maneənin azaldılmasına yönəlmişdir. Diaspora resurslarının mövcudluğu başlıca potensial nisbi üstünlükdür. SiliconArmenia Ermənistanın İT şirkətlərinə həmin nisbi üstünlükdən bəhrələnməkdə kömək etməyə çalışır.

**Mənbə: SiliconArmenia.**

## *Müəssisələrin dəstəklənməsi xidmətlərindən istifadə*

Çox vaxt bizneslərin əsası sahibkarların doğma vətənlərində qoyulduğundan KOM-lar tez-tez idarə və sənaye yerlərinin, sərfəli istehsal texnologiyasının, idarəetmə və nəzarət sistemlərinin, həmçinin konsaltinq və İT imkanlarının azlığından əziyyət çəkirlər. Müəssisələrin dəstəklənməsi xidmətləri KOM-ları hər bir müvəffəqiyyətli müəssisə üçün zəruri olan bu imkanlarla təmin edir.

Bizneslərin dəstəklənməsi mərkəzləri. Köməkçi müəssisələr arasında biznes məsləhətləri, məsləhət və informasiya mərkəzləri sahibkarlara yeni bizneslərin yaradılmasında və ilk vaxtlar fəaliyyət meydanında qalmaqda, həmçinin mövcud müəssisələrin möhkəmləndirilməsində kömək etmək üçün xüsusilə effektiv vasitələr olduğunu sübut etmişdir. Bizneslərin dəstəklənməsi xidmətlərinin əsas məqsədi yeni bizneslərin yaradılmasında kömək etmək və mövcud KOM-ların rəqabətədavamlılığını artırmaqdır (Mətn bloku 7.4). Yeni müəssisələr üçün bu xidmətlərin əksəriyyəti aşağı qiymətlərlə və ya pulsuz təmin edilməlidir (Cədvəl 7.3).

CƏDVƏL 7.3

**Bizneslərin dəstəklənməsi mərkəzlərinin təmin etdiyi səciyyəvi xidmətlər**

| Kompüter və müvafiq xidmətlər | Peşəkar xidmətlər hüquqi fəaliyyətlər | Kirayə və icarə xidmətləri | Əməklə əlaqədar xidmətlər | Əməliyyatlarla əlaqədar və digər xidmətlər |
|---|---|---|---|---|
| texniki təminatla əlaqədar məsləhətlər | | nəqliyyat və tikinti avadanlığının icarəsi | şəxsi heyətin işə götürülməsi | təhlükəsizlik fəaliyyəti |
| proqram təminatına dair məsləhətlər | mühasibat - vergi konsaltinqi | kompüterlər də daxil olmaqla ofis avadanlıqlarının icarəsi | Şəxsi heyətlə təminat | sənaye sahələrinin təmizləməsi |
| məlumatların işlənməsi | idarəetmə üzrə konsaltinq | | | katib xidmətləri |
| məlumatlar bazası xidmətləri | bazarın tədqiqi | | | tərcümə fəaliyyəti |
| texniki yoxlama və analiz | reklam | | | qablaşdırma fəaliyyəti |
| | texniki xidmətlər - memarlıq fəaliyyəti - mühəndislik fəaliyyəti | | | sərgilər və yarmarkalar |

MƏTN BLOKU 7.4

## Biznesin dəstəklənməsi mərkəzlərindən nümunələr

Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (UNECE) ərazisində 500-dən çox biznes üzrə məsləhətlər və informasiya mərkəzləri, o cümlədən, biznesin dəstəklənməsi təşkilatları mövcuddur; onlardan 274-ü Avropa Komissiyasının dəstəyi ilə yaradılmış Euro Info Centre (EIC) Avropa İnformasiya Mərkəzləridir (AİM). Mərkəzi və Şərqi Avropada 43 AİM fəaliyyət göstərir. Baltik dövlətlərində iki AİM və bir məktublaşma mərkəzi vardır. ABŞ-da mindən çox biznesin dəstəklənməsi müəssisələri təsis edilmişdir.

Azərbaycanda 40-dan çox Biznes Məsləhət Mərkəzi bütün ölkə ərazisində kiçik və orta bizneslərə inkişaf etməkdə kömək edir.

Rusiyada regional KOM-ların Dəstəklənməsi Fondları və Rusiyanın KOM-larının İnkişafı Agentliyi kimi KOM-ların inkişafını dəstəkləyən müxtəlif çoxsaylı xidmətlər fəaliyyət göstərir. Adı çəkilən Agentlik öz növbəsində Rusiyada 50-dən çox regionu əhatə edən regional agentliklər şəbəkəsini yaratmışdır. Bu agentliklər investisiya layihələrinin yoxlanması ilə əlaqədar xidmətlər, həmçinin audit və mühasibat kimi məsələlərlə əlaqədar peşəkar maliyyə məsləhətləri təklif edir. Onlar potensial biznes tərəfdaşları, regionun biznes mühiti, həmçinin qanunvericilik, vergilər, mühasibat qaydaları və hesabat haqqında məlumatlarla təmin edirlər. Onlar həmçinin müqavilə və sənədlərin hazırlanmasında kömək edir, danışıqlarda və qeydiyyat prosedurlarında hüquqi köməyi təmin edir və Rusiyada biznesin idarə edilməsinə dair kurs və seminarlar təşkil edirlər.

Biznes inkubatorları. Biznes inkubatoru yenicə fəaliyyətə başlayan şirkətlər üçün əlverişli şərait yaradan təşkilat kimi tərif edilir. İnkubator biznes müəssisələrinə kreditor və investorları, ofis avadanlıqlarını, konsaltinq xidmətlərini və təlim proqramlarını əldə etməkdə kömək edir (Mətn bloku 7.5).

Biznes inkubasiyası anlayışı son 30 ildə meydana gəlmişdir. Biznes inkubatorlarının "ilk nəsli" (1980-ci illər) əsasən diqqətlə seçilmiş sahibkar qruplarına münasib qiymətlərlə yer və ortaq avadanlıqlar təklif edirdi. 1990-cı illərdə inkubatorlar ərazidəki icarədarlara və kənar ərazilərdəki filial idarələrinə iş yerləri əvəzinə məsləhətlər, bacarıqların genişləndirilməsi və şəbəkələşmə xidmətləri təklif edirdi. İnkubatorların biznes modelində də dəyişiklik baş vermişdir: onlar qeyri-mənfəət yönlü xidmətlərdən mənfəət yönlü, yəni pullu xidmətlərə çevrilmişlər. Mənfəət yönlü inkubatorların yaradılmasında məqsəd İKT sahəsində fəaliyyət göstərən şirkətlərin canlandırılmasıdır.

MƏTN BLOKU 7.5

## Ermənistanın Gorus vilayətində biznes inkubatoru fəaliyyətə başlamışdır

Ermənistanda ATƏT-in ərazi idarəsi tərəfindən dəstəklənən yerli iqtisadi inkişaf fəaliyyətlərindən biri də Gorus vilayətində biznes inkubatorunun yaradılması olmuşdur. Region ÜDM-inin təxminən 80 faizinin dörd mədən şirkəti tərəfindən təmin edilməsi faktı onu göstərir ki, iqtisadi şaxələnmə və KOM-ların dəstəklənməsi bir nömrəli prioritet məsələlərdir.

ATƏT-in Yerevandakı İdarəsi UNDP Armenia (BMT İP Ermənistan - tərc.) ilə birlikdə Gorusda biznes inkubatorunun yaradılması üçün texniki-iqtisadi əsaslandırma və planlaşdırma əməliyyatlarını maliyyələşdirmişdir. Əldə edilən nəticələr yerli hakimiyyət orqanları tərəfindən təmin edilən şəraitlərin yeniləri ilə əvəz edilməsi məqsədilə donor fondlarının cəlb edilməsini nəzərdə tutan fəaliyyət planını işləyib hazırlamaq üçün biznes inkubasiyası sahəsində ən faydalı təcrübələr üzrə mütəxəssisə təqdim edilmişdir. Yeniləşdirmə prosesi başa çatdırıldıqdan sonra "Uğurlu Başlanğıc" təşəbbüsünə başlanacaq; bu təşəbbüs əsasən praktik biznes ideyalarının və onları həyata keçirməyə qadir olan sahibkarların müəyyən edilməsi üçün GTZ Pro SME layihəsi ilə birgə həyata keçiriləcək.

Mənbə: ATƏT-in Ərazi İdarəsi, Yerevan, Ermənistan.

Yeniliklər (İnnovasiya – red.) mərkəzləri. Yeniliklər həm sürətlə inkişaf edən yüksək texnologiya sektorlarında, həm də daha ənənəvi sektorlarda güclü rəqabətədavamlılığın əsas şərtlərindən biridir. Ən kiçik bizneslərin fəaliyyət meydanında qalmaq, inkişaf etmək və yeni keyfiyyətli iş yerləri yaratmaq imkanları getdikcə daha çox onların öz biznes strategiyalarının özəyində yenilikləri yerləşdirməsi bacarığından asılı olmağa başlayır. Bunun əvəzində, kiçik yenilikçi firmalar regional və milli yeniliklər sistemlərinin fəaliyyət göstərməsini təmin etməklə inkişaf potensialının artırılmasında mühüm rol oynayır. Yeniliklər tsikli bazar tələblərinə cavab verən məhsulun yaradılmasına qədər orta hesabla beş-yeddi il sürür. Hətta yüksək riskli vençur kapitalı belə yeniliklərin erkən mərhələlərini dəstəklə təmin edə bilmir. Hökumət yenilikçi başlanğıcları dəstəkləyə və texnologiyanın kommersiyalaşdırılması mərhələsində özəl tərəfdaşları cəlb edə bilər. Misal olaraq, Rusiyada fəaliyyət göstərən FASIE-ni göstərmək olar (Mətn bloku 7.7). Yeniliklər mərkəzləri yenilikçi KOM-ların inkişafı üçün imkanlar yaradır.

MƏTN BLOKU 7.6

## Oksford Yeniliklər Mərkəzləri, Böyük Britaniya

Yeniliklər mərkəzləri biznesin dəstəklənməsi mərkəzlərindən və idarə edilən iş yerinə malik olan ofislərdən (biznes – inkubatorlardan – red.) fərqlənir. Onlar kiçik şirkətləri köməkçi və məqsədəuyğun mühitdə iş yeri ilə təmin edir. Onların məqsədi inkişaf potensialına malik olan bizneslərin formalaşdırılması və inkişafının maksimal səviyyəyə çatdırılmasıdır. Onların tipik xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- peşəkar kiçik şirkət infrastrukturu və imici;
- oxşar ideyalara malik sahibkarlar, ayrı-ayrı şəxslər və şirkətlərdən təşkil olunan cəmiyyət;
- cəmi bir ay gözləmək şərtilə elastik lisenziya ilə birbaşa təminat;
- biznesin etibarlılığını və inkişaf potensialını təmin etmək məqsədilə qəbul mərhələsində seçim;
- informasiya mənbələri və məsləhətçilər şəbəkələrinə girişlə əlaqədar praktik kömək;
- ərkəzin idarəetmə orqanı ilə müştəri bizneslər arasında sıx əlaqələrin olması;
- şirkətlərin sürətlə inkişaf etməsi üçün köməkçi tədbirlərin diqqət mərkəzində saxlanması.

BB Kiçik Biznes Xidmətinə görə, biznesin dəstəklənməsi üçün Oksford yeniliklər formulası sözün əsl mənasında işə yarayır. Onların apardığı tədqiqatda göstərilir ki, Oksford yeniliklər mərkəzlərindən istifadə edən yeni bizneslərin müvəffəqiyyət əldə etmək şansları daha böyükdür: ən zəruri ilk iki il ərzində onların fəaliyyət meydanında qalmaq şansları 89 faiz təşkil edir, bu isə BB üzrə orta göstərici olan 78 faizdən daha müsbət nəticədir.

Mənbə: http://www.oxin.co.uk/busenv/index.php

MƏTN BLOKU 7.7

## Rusiya Kiçik Yenilikçi Müəssisələrə Yardım Fondu (KYMYF)

KYMYF 1994-cü ildə yaradılmış qeyri-kommersiya dövlət təşkilatıdır. Onun illik büdcəsi federal tədqiqatlar və inkişaf büdcəsinin 1,5%-ni (2006-cı ilin valyuta məzənnəsi ilə bir milyard dollardan bir qədər çox) təşkil edir və onun Rusiya Federasiyasının 29 regionunda idarələri vardır.

Fondun əsas məqsədlərinə aşağıdakılar daxildir:

- kiçik yenilikçi müəssisələrin inkişafı və dəstəklənməsini nəzərdə tutan hökumət siyasətinin həyata keçirilməsi;
- kiçik yenilikçi müəssisələrə birbaşa maliyyə, informasiya və digər sahələrdə köməyin təklif edilməsi, həmçinin yeni yüksək texnologiya məhsullarının inkişaf etdirilməsi və istehsalı ilə əlaqədar layihələrin icrası;
- KOM-lar üçün infrastrukturun yaradılması və inkişaf etdirilməsi.

KYMYF kiçik bizneslərin dövlət və sosial yardımları ilə təmin edilməsini nəzərdə tutan qanun və qanunvericilik aktlarının işlənib hazırlanmasının təşəbbüsçüsü və iştirakçısıdır.

Yarandığı vaxtdan bəri fonda bütün ölkə ərazisində fəaliyyət göstərən 4000-dən çox KOM müraciət etmişdir. Fondun tender komissiyası və mütəxəssisləri maliyyə dəstəyi ilə təmin edilmək üçün təxminən 2000 layihə seçmişlər.

2006-cı il yanvarın 1-nə olan məlumatlara əsasən, KYMYF fonduna tədqiqat və inkişaf üzrə 10000-dən çox layihə üzrə ərizələr daxil olmuş və onlardan 4000-i 2,5 milyard rubldan çox maliyyə dəstəyi ilə təmin edilmişdir. Layihələr alimlərdən, iqtisadçılardan və marketinq mütəxəssislərindən ibarət olan müstəqil ekspert heyətləri tərəfindən qiymətləndirilir. Layihələrin seçilməsi prosesinə ümumilikdə 2455 müstəqil ekspert cəlb edilir.

KYMYF fondu qrantlarının əksəriyyəti maşınqayırma və alətlər istehsalı (21%), KOM-lar üçün köməkçi infrastruktur (18%), dərmanlar və əczaçılıq (17%), tikinti və yeni tikinti materialları (13%), kompüter proqram təminatı və texniki təminat (12%), ərzaq sənayesi və aqrar sənaye (10%), o cümlədən elektrik və enerji mühəndisliyi (9%) sahələrində fəaliyyət göstərən kiçik, yenilikçi və texnologiyalar yönlü şirkətlərin elmi, tədqiqat və konstruktor fəaliyyətlərinin  kommersiyalaşdırılmasına yönəldilir.

KYMYF fondu büdcəsinin təxminən 15 faizi yeniliklər və texnologiya mərkəzləri, tədqiqat və inkişaf məsələləri üzrə kommersiya idarələri, tələbələrin və gənc alimlərin tədqiqat və inkişafla əlaqədar kommersiya fəaliyyətlərinə cəlb edilməsi, o cümlədən idarəetmə təlimləri kimi məsələlərə xərclənir. Rusiyada ümumi ərazisi 100000 kvadrat metrdən çox olan, yenilikçi KOM-lar tərəfindən bazar qiymətlərindən ucuz qiymətlərlə icarəyə götürülən otuzdan çox yenilikçi texnoloji mərkəz yaradılmışdır.

KYMYF fondu tərəfindən dəstəklənən KOM-lar dövri istehsalata 1000-dən çox patent daxil etmiş və satış əməliyyatlarından on milyardlarla rubl gəlir əldə etmişdir; bundan başqa, onların ödədiyi vergilər federal büdcənin onların layihələrinə yatırdığı investisiyaların məbləğini 2,4 dəfə ötmüşdür. Sözügedən KOM-lar məhsuldarlıq sahəsində əsaslı irəliləyişlər nümayiş etdirmişdir. KYMYF fondu tərəfindən dəstəklənən KOM-lar fəaliyyət göstərdikləri sənaye sahələrində, məsələn, proqram təminatı, elmi və ekoloji cihazqayırma sahələrində Rusiya bazarının əhəmiyyətli bir hissəsini təşkil edir.

KYMYF fondu yeniliklər tsiklinin ilkin mərhələlərində olan layihələri dəstəkləməkdə və vençur strukturları və digər maliyyə agentlikləri ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır.

Mənbə: www.fasie.ru

# *Bazarlara giriş və klasterlərin inkişafı*

KOM-lar daha böyük firmalar və xarici firmaların filialları ilə əlaqələr qurmaqla əlavə dəyərin müxtəlif yaradılması mərhələlərində beynəlxalq zəncirlərə inteqrasiya edərək qlobal ticarətin potensial üstünlüklərindən bəhrələnmək imkanı əldə edə bilər. KOM-lar üçün bu əlaqələr çatışmayan zəruri resurslara, xüsusilə də beynəlxalq bazarlara, maliyyə sistemlərinə, texnologiyalara, idarəetmə üzrə bilik və bacarıqlara giriş imkanı deməkdir.

KOM-lar böyük firmaların əlavə dəyərin yaranması zəncirini davam etdirərək müştərilərlə daha sıx əlaqələr və qərarların daha sürətlə qəbul edilməsi hesabına bazar elastikliyi və aşağı sövdələşmə qiymətlərindən bəhrələnir. Beləliklə də, rəqabətədavamlılıq - irihəcmli iqtisadiyyatlara nisbətən dar ixtisaslaşmanın elastikliyi və üstünlüklərinin birləşdirilməsi yolu ilə kiçik və böyük firmaların düzgün kombinasiyası və əmək qüvvəsinin adekvat paylaşdırılmasını nəzərdə tutur.

MƏTN BLOKU 7.8

## Rusiyada transmilli korporasiyalar və KOM-lar

Məlumatlara görə, Boinq şirkəti bir neçə Rusiya firmasına beynəlxalq avialayner istehsalı üçün tələb olunan beynəlxalq keyfiyyət standartlarına uyğun gəlməkdə kömək etmişdir. Eyni zamanda, Ikea, Pratt & Whitney və McDonalds şirkətləri də KOM-ların yerli təchizat şəbəkələrini inkişaf etdirmişlər. BMK Ford şirkətinin Rusiyadakı əməliyytlarına investisiya yatırması ilə əlaqədar olaraq özünün Backward Linkages proqramı vasitəsilə oxşar təchizat şəbəkələrini inkişaf etdirmək niyyətindədir. Bu halların hər birində yerli KOM-lar dinamik və çoxmillətli korporativ müştərilərin dəqiq ifadə edilən keyfiyyət standartlarına cavab vermək üçün müəyyən təlimlər keçirlər. Nəticə etibarilə, bu yerli KOM-lar əlavə dəyərin yaranması ilə əlaqədar qlobal zəncirdə öz yerlərini tutmuşdur.

Mənbə: Bilikdən Sərvətlərə Doğru: Rusiya Elminin və Texnologiyasının Müasir Bilik İqtisadiyyatına Transformasiyası. Dünya Bankının Siyasət Tədqiqatları, İşçi Sənəd 2974, fevral, 2003-cü il.

KOM klasterləri. Növbəti faydalı təcrübə KOM-larla çoxmilli müəssisələr (ÇMM-lər) arasındakı əlaqələrin möhkəmləndirilməsidir. Bir qayda olaraq, ÇMM-lər və KOM-lar qarşılıqlı əlaqə saxlayarkən nəticədə daxili təchizat şəbəkələri, klasterlərin və texnoloji mübadilənin inkişafı baş verir. Hökumətlər ümumi və "elçilik" xarakterli məlumatlarla təmin etməklə bu əlaqələri sürətləndirə bilərlər. İƏİT özünün Kiçik və Orta Şirkətlər və Çoxmilli Müəssisələr Arasında Əlaqələrin Dəstəklənməsi nəşrində1 siyasət təcrübələri ilə əlaqədar daha ətraflı məlumatlarla təmin edir.

Ən uğurlu klasterlər məsələn, İtaliyadakı Silicon Valley, Emilia Romagna və cənubi Almaniyadakı Baden-Württemberg - KOM klasterləri yanaşmasının kollektiv səmərəli fəaliyyət yolu ilə regional inkişafı sürətləndirə bilməsini nümayiş etdirir. Klaster şəbəkələrinin yaradılması ayrı-ayrı KOM-ların eyni zamanda öz problemlərini həll etməsi və rəqabətədavamlı mövqelərini inkişaf etdirmək üçün əhəmiyyətli üsuldur. ATƏT ölkələrində klaster təşəbbüsləri sübut etmişdir ki, müəssisələr bir-birinə yaxın fəaliyyət göstərərkən və məhsullar, infrastruktur tələbləri, və ya xarici rəqabətə davam gətirmək ehtiyacı kimi ortaq biznes maraqları olarkən şəbəkələrin yaradılması daha uğurlu nəticələrə gətirib çıxarır. Bu cür qruplar və ya klasterlər daxilində müəssisələrin birgə təşəbbüsləri maraqlı tərəflərin sayının hədsiz çox olduğuna görə daha güclü, ortaq sabit xərclərə görə isə daha sərfəli olur. Bundan əlavə, coğrafi yaxınlıq qarşılıqlı tanışlıq və etibar hisslərini artırdığına görə fəaliyyətlərin koordinasiyası daha asanlıqla başa gəlir.[12]

MƏTN BLOKU 7.9

## Ukraynada KOM klasterləri

1997-ci ildə Xmelnitski regionunun yerli sahibkarları və hakimiyyət orqanları birgə əməkdaşlıq edərək sektoral klasterlərin yaradılmasına çalışırdılar. Məsələn, tikinti klasterinin yaradılması nəticəsində 5000, tekstil klasterinin yaradılması nəticəsində isə 3000 yeni iş yeri açıldı. 1990-cı illərin əvvəllərində Xmelnitski regionunda bazarın təklif etdiyi geyimlərin 90 faizindən də çox bir hissəsi Polşadan, Türkiyədən və BƏƏ-dən idxal edilirdi. On il sonra, dəbdə olan geyimlərin 75 faizi tekstil klasterinə daxil olan müəssisələr tərəfindən istehsal edilirdi. 1999-2003-cü illərdə Kamenets-Podolski regionunda turizm klasterinin inkişafı nəticəsində turistlərin ümumi sayı üç dəfə artdı. Turizm biznesinin inkişafı yerli tikinti və ərzaq sənayesi klasterlərinin inkişafına da təkan verdi. Qruplaşmaların müsbət nəticələri Ukraynanın digər region və şəhərlərində də (məsələn, Prikarpatyedə, Polesyedə və Krımda) bu təcrübənin tətbiq edilməsi fikrini ortaya qoydu. Ukraynada klaster biznes-modellərinin inkişafı həm hökumət, həm də qeyri-hökumət təşkilatları tərəfindən dəstəklənir. Onlar şirkətlər və yerli idarəetmə orqanları üçün informasiya məqsədli iclas və təlim seminarları təşkil edirlər.

Mənbə: <http://www.unece.org/ie/wp8/industres.html>

Sənaye rayonlarının və ya klasterlərin başlıca atributlarına aşağıdakılar daxildir:
- KOM-ların coğrafi yaxınlığı;
- sektoral ixtisaslaşma;
- kiçik və orta həcmli firmaların sayının çoxluğu;
- firmalar arasında sıx əməkdaşlıq;
- yeniliklərin yaradılması üçün firmalararası rəqabət;
- etibarı gücləndirən sosial-mədəni xüsusiyyətlər;
- fəal özünəkömək təşkilatları;
- regional hakimiyyət və bələdiyyə orqanlarının dəstəyi.

Ən müvəffəqiyyətli klasterlər Rusiyanın Sankt-Peterburq, Zelenoqrad və Tomsk vilayətlərindəki elektron mühəndislik klasterləri və ya Ukraynanın yerli səviyyədə klaster təşəbbüsləri hökumət tərəfindən dəstəklənən aşağıdan-yuxarı təşəbbüslərdir (Mətn bloku 7.9).

Real servis mərkəzləri. İtaliyanın sənaye rayonlarının inkişafında diqqəti çəkən bir element hər hansı bir ərazinin konkret sənaye ənənələrinə uyğunlaşdırılmış biznesin inkişafının dəstəklənməsi üzrə xidmətlər təklif edən "real servislər"dir. Aşkar edilmişdir ki, 56 sənaye rayonunda 130-dan çox real servis mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər aşağıdakılar da daxil olmaqla geniş xidmətlər çeşidi təklif edir:
- kredit zəmanətləri;
- ixrac sığortaları və/və ya ixracatın dəstəklənməsi;
- ticarət yarmarkalarının təşkili;
- bazarların/texnologiyanın təkamülü ilə əlaqədar məlumatlara giriş imkanları;
- müştərilərin reytinqi siyahısının tərtib edilməsi;
- məsləhətlər;
- təlim;
- tullantıların emalı;
- ətraf mühitin çirklənməsinə nəzarət;
- keyfiyyət sertifikatlaşdırması və ticarət markalarının təminatı;
- məhsulun reklamı;
- yeniliklərin dəstəklənməsi;
- istehsalat resurslarının böyük həcmdə alqısı;
- məhsulların yoxlanması.

Bu mərkəzlər istehsalçılar assosiasiyaları, yerli hökumət və ya KOM-ların dəstəklənməsi təşkilatları, və yaxud bu orqanların tərəfdaşlıq kombinasiyaları tərəfindən idarə edilir.

# *Nəticələr və tövsiyələr*

İş yerlərinin yaradılmasında, yoxsulluğun azaldılmasında, iqtisadi inkişafda və yeniliklər prosesində KOM-ların əhəmiyyətini nəzərə alaraq hökumətlər onların inkişafının dəstəklənməsi üzrə məsuliyyəti öz üzərinə götürməlidir. Aşağıda "KOM-yönlü" hüquqi, tənzimləyici və inzibati mühit yaratmaq arzusunda olan hökumətlərə tövsiyə edilən tədbirlər öz əksini tapmışdır.

KOM siyasətləri və proqramları sahəsində:

- KOM-lara bazar uğursuzluqlarının nəticələrini dəf etməkdə kömək edəcək, lakin bazar strukturlarının təhrifinə gətirib çıxarmayacaq və ya rəqabət üçün əngəllər yaratmayacaq KOM proqramlarının işlənib hazırlanması və onların səmərəliliyinin və məqsədəuyğunluğunun müntəzəm şəkildə qiymətləndirilməsi.
- Proqramların aşağıdakı məsələlər üzərində mərkəzləşməsi: idarəetmə bacarıqlarının təkmilləşdirilməsi; münasib şərtlərlə maliyyə resurslarının təklif edilməsi; KOM-ların hökumət tədarükləri sahəsində rəqabət aparması imkanlarının artırılması; KOM-ların məsləhət və informasiya ilə sürətli təmin edilməsi; KOM-ların informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək bacarığının yaradılması; və yenilikçi klasterlərin yaranması və inkişafını dəstəkləmək məqsədilə digər KOM-lar və böyük firmalarla əlaqələrin möhkəmləndirilməsi.

Biznesin tənzimlənməsi sahəsində:

- ədalətli vergi dərəcələrinin tətbiq edildiyi sadə, şəffaf və prosedur qiymətlərinin ucuz olduğu vergi sisteminin yaradılması və bu zaman mikromüəssisələr üçün aşağı və/və ya sadələşdirilmiş vergilərin təminatı məsələsinə diqqətin yetirilməsi;
- biznesin qeydiyyatı sisteminin sadələşdirilməsi və İnternet üsulu ilə qeydiyyat variantının təmin edilməsi;
- bizneslərin lisenziya təminatı ilə əlaqədar tələblərin sadələşdirilməsi.

Maliyyə xidmətləri sahəsində:

- maliyyə sektorunda (bank işi, sığorta, lizinqlə əlaqədar) tətbiq edilən qaydalarda KOM-ların məhdud imkanlarının nəzərə alınmasının və KOM-ların malik olduğu aktivləri girov kimi istifadə edə bilməsi üçün müvafiq hüquqi və tənzimləyici sənədlərin mövcudluğunun təmin edilməsi.

Biznes mədəniyyəti, təhsil və təlim sahəsində:

- biznes təhsili vasitəsilə sahibkarlıq mədəniyyətinin inkişafı və sahibkarlığın müsbət imicinin dəstəklənməsi;
- KOM-ların üzvlük təşkilatları yaratması və onlara qoşulması üçün əlverişli şəraitlərlə təmin edilməsi.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

OSCE, Office of the Co-ordinator of OSCE Economic and Environmental Activities: <http://www.osce.org/eea/>

OSCE, Strategy Document for the Economic and Environmental Dimension, <http://www.osce.org/item/16350.html>

OSCE, Best Practices in Combating Corruption, <http://www.osce.org/eea/item_11_13568.html>

OECD, Centre for Entrepreneurship, SMEs and Local Development:
< http://www.oecd.org/department/0,2688,en_2649_33956792_1_1_1_1_1,00.html>
< http://www.doingbusiness.org/>

EBRD, Transition Report and Business Environment and Enterprise Performance Survey (BEEPS),
<http://www.ebrd.com/pubs/econo/series/tr.htm>

European Charter for Small Enterprises, <http://europa.eu.int/scadplus/leg/en/lvb/n26002.htm>

The Istanbul Ministerial Declaration on Fostering the Growth of Innovative and Internationally Competitive SMEs, <http://www.oecd.org/document/16/0,2340,en_2649_201185_32020176_1_1_1_1,00.html>

OECD, Encouraging Linkages Between Small and Medium-Size Companies and Multinational Enterprises,
< http://www.oecd.org/dataoecd/62/30/35795105.pdf>

Oxford Innovation Centres: < http://www.oxin.co.uk/busenv/index.php>

## QEYDLƏR

1 Dr. Supachai, Secretary-General of UNCTAD, 2006.
2 Supachai Panitchpakdi, Transition: The First Ten Years, World Bank (2002).
3 OSCE Strategy Document for the Economic and Environmental Dimension, <http://www.osce.org/item/16350.html>
4 European Charter for Small Enterprises, <http://europa.eu.int/scadplus/leg/en/lvb/n26002.htm>
5 OECD, Promoting Entrepreneurship and Innovative SMEs in a Global Economy: Towards a More Responsible and Inclusive Globalisation, (2004), <www.oecd.org/searchResult/>
6 IFC Ukraine.
7 OSCE Strategy Document for the Economic and Environmental Dimension, <http://www.osce.org/item/16350.html>
8 See Summary Report of the Conference on the European Charter for Small Enterprises, Luxemburg (European Commission Enterprise and Industry Directorate-General, 15–16 June 2005), <http://europa.eu.int/comm/enterprise/events/charter/doc/2005_lux/lux_summary.pdf>
9 Report on the Implementation of the European Charter for Small Enterprises in Moldova and the countries in the Western Balkans (Brussels, 2005).
10 <http://counterpart.org.kg/Russian/useful/59>
11 EU, The activities of the European Union for small and medium-sized enterprises (SME Envoy Report, 2005).
12 <http://www.unido.org/doc/4310>

# 8-ci Fəsil



OSCE

# Daha əlverişli biznes və investisiyalar mühitinin qorunub saxlanması və möhkəmləndirilməsi

Hökumətlər iqtisadi inkişaf məsələsinə uzunmüddətli yanaşma tətbiq etməli və qısamüddətli gəlirlər xatirinə gələcək nəsilləri gəlirlərdən məhrum etməməlidir. Dayanıqlı inkişaf fəlsəfəsi cari ehtiyacların ödənilməsi və eyni zamanda, gələcək nəsillərin də bu cür hərəkət etmək imkanlarına xələl gətirilməməsi ideyası üzərində qurulmuşdur. Burada həm də ətraf mühitin çirklənmədən, meşəsizləşmədən, səhralaşmadan və biomüxtəliflik məhv olmadan qorunması məsələsi də nəzərdə tutulur. Ətraf mühitə qarşı etinasız münasibət gələcəkdə ölkənin investisiya məkanı kimi cəlbediciliyini aşağı salacaqdır. Ətraf mühitin mühafizəsinə dair qaydalar məntiqi olmalı və hər hansı ümumi bir sahədə fəaliyyət göstərən müəssisələr arasında ayrı-seçkiliyə yol vermədən həyata keçirilməlidir. Nəhəng təbii ehtiyatlara malik olan ölkələr hasilat sənayelərində və bu sənayeləri tənzimləyən orqanlarda şəffaflığın və məsuliyyətliliyin təmin edilməsinə çalışmalıdır. Hökumətlər şirkətləri məcbur etmədən korporativ sosial məsuliyyətin (KSM-in) inkişafı istiqamətində müsbət tədbirlər görə bilər; bu məqsədlə onlar şirkətlərin öz bizneslərini cəmiyyətin onlardan gözlədiyi etik, hüquqi, kommersiya və ictimai standartlara uyğun şəkildə idarə etmələrini təşviq edə bilər. Bundan başqa, hökumətlər firmalarla əməkdaşlıq zəminində hamı tərəfindən qəbul edilən mənəviyyat normalarına əsaslanan və müxtəlif sənaye sahələrinə ünvanlanmış peşə etik davranış kodekslərini işləyib hazırlamaqla korporativ davranış tərzinin yüksək səviyyəyə çatdırılması istiqamətində tədbirlər də görə bilər.

## Dayanıqlı inkişaf

Bu vaxta qədər Vəsaitdə əsasən ATƏT ölkələrinin iqtisadi tərəqqi səviyyəsinin qaldırılması məqsədilə daha məqsədəuyğun və daha səmərəli biznes və investisiya mühitinin dəstəklənməsi istiqamətində tədbirlər müzakirə edilirdi. Daha böyük XBİ axınlarını və sahibkarlığın inkişafını arzulayan ölkələrə öz iqtisadiyyalarını "açmaq" və lazımsız qayda-qanunları ləğv etmək məsləhət görülürdü. Bununla belə, ölkələr cəlb etdikləri investisiyaların və bunun məntiqi davamı olan iqtisadi inkişafın dayanıqlığına əmin olmalıdır. Hökumətlər biznes fəaliyyətləri sahəsində öz iştirakını və sahibkarlıq üzərində nəzarəti məhdudlaşdırmalıdır, lakin eyni zamanda biznes fəaliyyətlərinin sosial duruma və ətraf mühitə təsirlərinə nəzarət etməlidir.

Aşağıda çox vaxt davamlı inkişafın üç dayağı adlandırılan elementlər qeyd edilir:

- iqtisadi artım;
- ətraf mühitin mühafizəsi;
- sosial inkişaf.

Vəsaitin əsasən iqtisadi artım ideyası ətrafında cəmləşməsinə baxmayaraq, ATƏT ölkələrində investisiyaların uzunmüddətli davamlılığının təmin edilməsi üçün digər iki elementin əhəmiyyətini qeyd etməmək diqqətsizlik olardı.

## Ətraf mühitin mühafizəsi

Minilliyin Bəyannaməsi və Minilliyin İnkişaf Məqsədləri (MİM) dünya ictimaiyyətini yoxsulluq və aclığın azaldılması, həmçinin təhsil və səhiyyənin genişləndirilməsi üçün geniş qlobal kontekstdə ekoloji dayanaqlığa nail olmağa çağırır. Biznes mühitlərində olduğu kimi sağlam ekoloji siyasətlərin həyata keçirilməsi sahəsində də Şimali Avropa ölkələri kimi daha rəqabətədavamlı və zəngin ölkələr yenə də ön sıralardadırlar.

Beləliklə də, hökumətlər XBİ cəlb etmək üçün hüquqi standartları zəiflətməzdən və ya onların icrası ilə əlaqədar müyyən güzəştlərə getməzdən əvvəl daha yaxşı düşünməlidir. Düzdür, ətraf mühitə zərərli təsir göstərən bəzi sənaye sahələri ekoloji standartlarla əlaqədar sərt tələblər irəli sürən ölkələrdən müvafiq standartların zəifləddildiyi ölkələrə üz tuta bilər, lakin bu təcrübə gələcəkdə həmin ölkələrin milli dayanıqlılığı üçün labüd təhlükə yaradacaq. Xüsusilə də kənd təsərrüfatına əsaslanan iqtisadiyyatlarda şəhərlərin ekoloji çirklənməsi ətraf aqrar regionların ekosisteminə məhvedici təsir göstərir; əlbəttə, burada əhalinin ümumi sağlamlığı barəsində heç danışmaq da lazım gəlmir. Sahilyanı ərazilərdə çirkab suların axıdılması üzrə qeyri-adekvat strukturların olması yerli balıqçılıq sənayesinə ciddi zərbə endirə bilər. Turizm sənayesi də ətraf mühitin qorunmasından asılıdır: sadəcə təmiz çimərliklərin və sair bu kimi amillərin turizm üçün əhəmiyyətini yada salmaq kifayət edər. Düzdür, ətraf mühitin mühafizəsi ilə iqtisadi və texnoloji tərəqqi arasında düzgün tarazlığı təmin etmək çətindir, lakin ekoloji riskin elmi qiymətləndirilməsi tələbinin irəli sürülməsi iqtisadi inkişafa lazımsız xələl gətirmədən ətraf mühitin qorunmasına gətirib çıxaracaq. Lakin hökumətlər hər hansı bir fəaliyyətin şişirdilərək risk adlandırılmasına əsaslanan tənzimləyici qayda və tədbirlərə də yol verməməlidir.

Ekologiyaya dair tənzimləyici normalar ayrı-seçkiliyə yol vermədən, eyni fəaliyyət sahəsində çalışan bütün müəssisələr üzərində tətbiq edilməlidir. Sərt ekoloji standartlar fəaliyyət iştirakçılarının yalnız müəyyən bir hissəsi - məsələn, xarici şirkətlər - üçün tətbiq edilərsə, bu standartlar ətraf mühitin mühafizəsinin ümumi strukturuna xələl gətirər, iqtisadi inkişafı boğar, korrupsiya və tanışbazlığın təşəkkülünə imkan yaradar. Digər tərəfdən isə, hamının standartlara riayət etməsi bazar iqtisadiyyatının bünövrəsini təşkil edən rəqabətin tərəqqisinə təkan verən bərabər şərait yaradır.

Ətraf mühitin mühafizəsi və dayanıqlılıq investisiylar üçün yaxşı imkanlar yaradır. Ölkələr çirkləndirici tullantılar üzrə kvotaların beynəlxalq ticarət mexanizmləri vasitəsi ilə satışından lazımi vəsaitlər əldə edərək sənayedə karbon tullantılarının məhdudlaşdırılmasına dair yüksək texnologiyalar cəlb edə bilər. Kioto Protokolunu təsdiq etmiş ölkələr Birgə İcra (Bİ) və Aydın İnkişaf Mexanizmi (AİM) layihələrinin öz ölkələrində tətbiqi təşəbbüsü ilə çıxış edə bilər.

MƏTN BLOKU 8.1

**Rusiyada ətraf mühitə investisiya imkanları**

Şimal Ölçüsü Ekoloji Proqramı (ŞÖEP) Rusiya Federasiyasının və beynəlxalq ictimaiyyətin şimal-qərbi Rusiyadakı ən mühüm ekoloji problemlərin bəzilərinin həllinə çağırışlarına cavab olaraq həyata keçirilən yeni tipli əməkdaşlıq təşəbbüsüdür. Proqram AYİB, Şimali Avropa İnvestisiya Bankı (ŞAİB), Avropa İnvestisiyalar Bankı (AİB) və Dünya Bankı tərəfindən birgə həyata keçirilir.

16 prioritet layihədən ibarət olan ŞÖEP-in ümumi dəyəri təxminən iki milyard avro təşkil edir. Layihələrin məqsədi şimal-qərbi Rusiyada regionların istilik sistemləri ilə təminatı, bərk tullantıların istifadəsi və elektrik enerjisindən səmərəli istifadə kimi sahələrdə düzgün ekoloji həll yollarının tətbiqidir. ŞÖEP-in həyata keçirilməsi şimal-qərbi Rusiyanın və ümumilikdə Şimali Avropa ölkələrinin ətraf mühiti və insanları üçün həqiqətən faydalı nəticələrə gətirib çıxarır.

ŞÖEP hökumətlərin, beynəlxalq maliyyə təsisatlarının, özəl investorların, Rusiya hakimiyyət orqanlarının və digər orqanların regionun çoxdankı ekoloji problemlərinin həlli istiqamətində birgə fəaliyyət göstərməsi üçün müvafiq maliyyə resursları ilə dəstəklənən güclü beynəlxalq çərçivəni təmin edir. ŞÖEP Avropa Komissiyasının, Rusiya Federasiyasının, AYİB-in, AİB-in, ŞAİB-in və Dünya Bankının ətraf mühitlə əlaqədar bütöv layihələr zəncirinin yaradılması və həyata keçirilməsi üçün öz təcrübə və resurslarından istifadə etməsinin parlaq bir nümunəsidir.

Mənbə: www.ndep.org

Ətraf mühitin pisləşməsi, təbii ehtiyatların çatışmazlığı, qeyri-bərabər paylanması və ya əksinə ehtiyatların artıq olması ölkə daxilində və ya ölkələrarası gərginliyə səbəb olan və ya onu gücləndirən amillərdir. Ətraf mühitin tənəzzülü və ehtiyatların çatışmazlığı səbəb-nəticə torunun yalnız iki ipidir, halbuki bu tor bir çox sosial-iqtisadi problemlərdən toxunub. Ətraf mühitin pisləşməsi və təbii ehtiyatların çatışmazlığı sosial-iqtisadi problemlərin həm səbəbi, həm də nəticəsidir və ya bu problemlərlə kəskinləşməkdədir.

İqtisadi vəziyyət və təbii mühitin qorunmasına dair ATƏT-in Strateji sənədində qeyd edilir ki, "Ətraf mühitin tənəzzülü, təbii ehtiyatlardan qeyri-rasional istifadə, bu ehtiyatların qeyri-məqbul emalı və tullantıların zəif işlədilməsi əhalinin sağlamlığına, rifahına, sabitliyinə və təhlükəsizliyinə ciddi zərər vurur və ekoloji sistemi dağıtmaq iqtidarındadır". Buna görə, ətraf mühitin qorunması sahəsində ATƏT öz "Ətraf mühitin qorunması və təhlükəsizlik üzrə təşəbbüs"ü (www.envsec.org) vasitəsilə ölkələr arasında əməkdaşlığın inkişafına hərtərəfli dəstək verir.

## *Sosial inkişaf*

Xəzər Dənizində neft ehtiyatlarına malik olan ölkələrdə son dövrlərdə xarici investisiya axınlarının və iqtisadi inkişafın güclü artımı müşahidə edilir. Buna baxmayaraq, bu ölkələrin ümumi əhalisinin yarısının gündəlik xərc imkanları bir dollardan da azdır. İqtisadi inkişaf sosial inkişafa və yoxsulluğun azaldılmasına çox məhdud təsir göstərirsə, deməli, sözügedən ölkə heç də böyük fərq hiss etmir və xalqın daha faydalı biznes mühitini dəstəkləmək arzusu azalır. Hökumətlər biznes mühitini təkmilləşdirmək və möhkəmləndirmək arzusundadırsa bizneslərin öz korporativ sosial məsuliyyətini dərk etməsinin vacibliyini onalra bidirməklə məhdudlaşmamalıdır, həm də müvafiq fəaliyyətləri dəstəkləməlidir. Hökumətlə biznes arasındakı əməkdaşlıq sosial inkişaf prosesini sürətləndirir.[1]

## *Korporativ Sosial Məsuliyyət (KSM)*

Biznes rəhbərləri korporativ sosial məsuliyyətin vacibliyini getdikcə daha çox hiss edirlər. Bu, BMT-nin Ümumdünya Müqaviləsinin On Prinsipini qəbul edən qurumların sayının getdikcə artmasından (Mətn boku 8.2) və biznes ictimaiyyətinin BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə nail olunması istiqamətində həyata keçirilən tədbirlərindən görünür.

KSM-i necə tərif etmək olar? Korporativ sosial məsuliyyət şirkət və təşkilatların sosial və ekoloji problemlərin həllini könüllü olaraq öz fəaliyyətinə daxil edilməsini və bu barədə ictimaiyyət qarşısında müntəzəm hesabat verirlməsini nəzərdə tutan qlobal hərəkat kimi tərif edilir.2 Korporativ sosial məsuliyyəti inkişaf etdirən mühüm amillərə rəqabətədavamlılıq üstünlüklərinin genişləndirilməsi mümkünlüyü, "nüfuzun idarə edilməsi", təzyiq qrupu və istehlakçı siyasəti, qanunlar və ya onların qəbul edilməsi təhlükəsi, həmçinin istehsalatın və bazar fəaliyyətinin qlobal səviyyədə təşkil edilməsi prinsiplərində dəyişikliklər daxildir.

MƏTN BLOKU 8.2

**Birləşmiş Millətlər Təşkilatının Qlobal Razılaşma Prinsipləri**

**İnsan Haqları**

1-ci prinsip: Biznes müəssisələri öz təsir dairələrində beynəlxalq səviyyədə bəyan edilmiş insan haqlarını dəstəkləməli və onlara hörmətlə yanaşmalıdır;

2-ci prinsip: Özünün insan haqlarının pozulmasına cəlb edilmədiyinə əmin olmalıdır.

**Əmək**

3-cü prinsip: Biznes müəssisələri ittifaq yaratmaq azadlığına hörmət etməli və kollektiv müqavilələr hüququnu tanınmalıdır;

4-cü prinsip: Məcburi və icbari əməyin bütün formalarının ləğv edilməsi;

5-ci prinsip: Uşaq əməyinin ləğv edilməsi;

6-cı prinsip: İşəgötürmə və peşə ilə əlaqədar ayrı-seçkiliklərin aradan qaldırılması.

**Ətraf mühit**

7-ci prinsip: Biznes müəssisələri ekoloji məsələlərə ehtiyatlı yanaşmanı dəstəkləməlidir;

8-ci prinsip: Ekoloji məsuliyyətin gücləndirilməsinin dəstəklənməsi üzrə təşəbbüslərlə çıxış etməlidir;

9-cu prinsip: Ətraf mühitin mühafizəsi yönümlü texnologiyaların inkişafını və geniş şəkildə tətbiqini dəstəkləməlidir.

**Anti-Korrupsiya Fəaliyyətləri**

10-cu prinsip: Biznes müəssisələri şantaj və rüşvətxorluq da daxil olmaqla korrupsiyanın bütün formalarına qarşı mübarizə aparmalıdır.

## *KSM və dövlət sektoru*

Beynəlxalq Maliyyə Korporasiyasının icraçı vitse-prezidenti Piter Voykun qeyd etdiyi kimi, "Biznes müəssisələrinin öz sosial və ekoloji fəaliyyətlərini təkmilləşdirmələri üçün dövlət sektoru iki əsas amili: (1) öz qanunlarının və bütün firmalardan tələb etdiyi baza standartların aydınlığını və (2) hökumət müdaxiləsinin əvvəlcədən proqnozlaşdırıla bilməsini təmin etməlidir." Özəl müəssisələrin könüllü KSM təcrübələri yaxşı idarəetmənin effektiv əvəzedicisi deyil və ola da bilməz. KSM öz təbiəti etibarilə könüllü olduğundan, çox vacibdir ki, hökumətlər şirkətləri KSM-in tədbiqinə hər hansı şəkildə məcbur etməsin. Bu, biznes mühitinə xələl gətirir və korrupsiya spektrini genişləndirir. Əlverişli biznes mühitinin yaradılması hökumətlərin KSM-in dəstəkləməsi istiqamətində görə biləcəyi ən yaxşı tədbirdir. Məsuliyyətli davranış nümayiş etdirən hökumət düzgün davranışın modelini yaradır və bütün səviyyələrdən olan (beynəlxalq, dövlət və yerli) şirkətlərin düzgün davranışını təmin edir. Hökumətlər şirkətləri KSM tələblərinə uyğun fəaliyyət göstərməyə məcbur etməklə və ya müvafiq davranışı idarə etməklə deyil, onların davamlı olaraq inkişaf edə və məsuliyyətli davranış nümayiş etdirə biləcəyi mühiti yaratmaqla biznes mühitini dəstəkləyə və möhkəmləndirə bilər.3

Dövlət sektoru həmçinin KSM üçün təşəbbüslərin təşviq edilməsində də müəyyən rol oynaya bilər. Bir çox ölkələr vergi ödəyicilərinə QHT-ləri və ya xeyriyyə təşkilatlarını pul vəsaitləri ilə təmin etməyə icazə vermişlər, Macarıstan və Rumıniya isə şirkətlərin öz mənfəət

vergilərinin bir faizini qeydiyyatdan keçmiş konkret QHT və ya xeyriyyə təşkilatı üçün ayırmalarına icazə verən qanun qəbul etmişdir. Hökumətlər həmçinin enerji yönümlü sənayedə fəaliyyət göstərən şirkətlərin enerji ehtiyatlarını şaxələndirmək üçün həmçinin müsbət maliyyə nəticələrinə gətirib çıxaracaq və "ekoloji izləri" (təsiri – red.) azaldacaq enerjidən səmərəli istifadəyə onları təşviq edə bilər.

## *Sənaye üçün davranış kodeksləri*

Yüksək səviyyəli biznes, etik, ictimai və ekoloji davranışın təmin edilməsinə yönəldilmiş kodekslərini könüllü şəkildə işləyib hazırlayan sənaye sahələrinin sayı durmadan artır.

Kimberli Prosesi. Kimberli Prosesi qiyamçı hərəkatların qanuni hökumətlərə qarşı müharibələrin maliyyələşdirilməsi məqsədilə edilən qeyri-qanuni almaz ticarətinin kökünü kəsmək üçün hökumət, vətəndaş cəmiyyəti və almaz sənayesi tərəfindən birgə irəli sürülən təşəbbüsdür. Bu bahalı daşların qeyri-qanuni ticarəti Anqola, Kot de Vuar, Konqo Demokratik Respublikası və Sierra Lion kimi ölkələrdə amansız münaqişələrin geniş təşəkkül tapmasına səbəb olmuşdur. Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi yenilikçi və könüllü sistemdir. Onun iştirakçıları xam almaz yüklərinin içində münaqişə mövzusu olan almazların olmamasını təsdiqləmək öhdəliyini könüllü olaraq üzərilərinə götürürlər. Kimberli Prosesinin Avropa Birliyi da daxil olmaqla 45 rəsmi iştirakçısı vardır. Kimberli Prosesinin iştirakçıları bütün dünyada xam almaz istehsalçılarının təxminən 99,8 faizini təşkil edirlər.

Elektron Mallar Sənayesinin Davranış Kodeksləri. Bu, son dövrlərdə işlənib hazırlanmış kodekslər elektron mallar sənayesinin qlobal təchizat zəncirində vahid sosial məsuliyyət normalarını müəyyənləşdirmək və dəstəkləmək məqsədini daşıyır. HP şirkəti bu kodekslərə riayət edilməsi üçün özü Dell, IBM, həmçinin elektron mallar istehsal edən Celestica, Flextronics, Jabil, Sanmina SCI və Solectron şirkətləri arasında əməkdaşlıq prosesində vasitəçilik etmişdir. 2005-ci ildə nəşr edilmiş kodekslər əmək və işəgötürmə praktikası, sağlamlıq və təhlükəsizlik, etika və ətraf mühitin mühafizəsi də daxil olmaqla bir sıra sahələrdə təchizatçıların öz fəaliyyətlərində sosial məsuliyyət prinsiplərinə riayət etmələsinə nəzarətin əsasını qoyur.

Aparıcı şirkətlər insan haqları ilə əlaqədar öhdəliklərinin korporativ praktikada öz əksini tapması üçün tədbirlər görmüşlər. Bəzi sənaye sahələrində, xüsusilə də geyim sənayesində şirkətlər nəinki davranış kodekslərini qəbul etmiş, həmçinin özlərinin və təchizatçılarının üzərinə götürdükləri öhdəlikləri yerinə yetirəcəklərini təmin etmək üçün Ədalətli Əmək Assosiasiyasının prinsiplərinə əsaslanan müstəqil monitorinq yoxlamasının keçirilməsinə də razılaşmışlar.

## *KSM: biznes modeli*

"Vicdanlı iş görmək və səmərəli işləmək qarşılıqlı əlaqəsi olan və getdikcə daha çox ehtiyac duyulan fəaliyyət tərzləridir" ifadəsi KSM-in biznes modelini daha aydın şəkildə təcəssüm etdirir (Mətn bloku 8.3). Biznes müəssisələrinin daha məsuliyyətli davranışa görə mükafatlandırılmasını və əks fəaliyyətlərə görə cəzalandırılmasını nəzərdə tutan rəqabətədavamlılıq anlayışı artıq normaya çevrilməkdədir. Bir çox tədqiqatlar təsdiq edir ki, hər bir şirkətin sosial və ekoloji məsələləri idarə etməsi tərzi çox vaxt ümumi risk səviyyəsinin və ümumi idarəetmə keyfiyyətinin düzgün göstəricisi olur; bu xüsusiyyətlərin hər ikisi şirkətlərin uzunmüddətli müvəffəqiyyətinin mühüm həlledici amilləridir5. Misal üçün, Qoldman Saksın neft və qaz sənayesinə dair son hesabatında belə bir nəticəyə gəlinir ki, sosial məsuliyyət sahəsində ən yaxşı təcrübələrə malik olan və gələcəkdə havanın tərkibində az miqdarda karbonun olması ideyasını dəstəkləyən şirkətlər eyni zamanda strateji layihələrin bazardakı payında dominant mövqe tutan şirkətlərdir. Aİ böyük bizneslər və xüsusilə də KOM-lar arasında məsuliyyətli sahibkarlıq və KSM ideyalarını dəstəkləyir. KSM həm də KOM-lar üçün əhəmiyyətli ola bilər; belə ki, korporativ sosial məsuliyyət yeni biznes imkanları yarada, müştəriləri daha da razı sala və onların etibarını qazandıra, daha motivasiyalı işçi heyətinin yaranmasına, yerli ictimaiyyət və hakimiyyət orqanları ilə münasibətlərin yaxşılaşdırılmasına, xərclərin azaldılmasına və şirkətin nüfuzunun artmasına gətirib çıxara bilər

MƏTN BLOKU 8.3

## Sosial məsuliyyətə dair kiçik biznes nümunəsi, Türkiyə

ARGE 1991-ci ildə təsis edilmiş, 15 işçiyə və bir milyon avro dəyərində dövriyyəyə malik olan idarəetmə konsaltinqi firmasıdır. ARGE biznes strategiyası, biznesin təkmilləşdirilməsi üsulları, təşkilati inkişaf və dəyişikliklərin idarə edilməsi kimi sahələrdə məsləhət xidmətləri təmin edir.

ARGE özünün bütün işçilərini ictimai həyatın keyfiyyətini yerli, milli və qlobal səviyyələrdə qaldırmaq məqsədilə həftədə bir ödənişli iş gününü QHT fəaliyyətlərinə həsr etməyə təşviq edir. Burada məqsəd vətəndaş cəmiyyəti təşkilatlarının idarəetmə keyfiyyətlərinin və effektivliyinin artırılmasıdır. ARGE-nin sədri 1998-ci ildə Türkiyədə Milli Keyfiyyət Hərəkatının, KOM-lar, dövlət sektoru və - Avropada ilk dəfə - QHT-lər üçün keyfiyyətin yeni mükafatlandırılması kateqoriyalarının əsasını qoyaraq, bu hərəkata rəhbərlik etməyə başlamışdır. ARGE QHT-lərə KİAF-ın (Keyfiyyətin İdarə Edilməsi üzrə Avropa Fondunun) müvəffəqiyyətli fəaliyyət modelinin tətbiqini nümayiş etdirmişdir.

ARGE həmçinin müxtəlif təşkilatlar arasında sektorlararası tərəfdaşlıqları da dəstəkləyir. Firma idarəetmə təcrübəsi olan şəxslərin natamam və ya tam iş günü hesabı ilə hər hansı bir QHT-də çalışmasını nəzərdə tutan ilk proqramın təməlini qoymuş və Türkiyə Keyfiyyət Assosiasiyası ilə birlikdə proqramda iştirak etmişdir. ARGE həmçinin özəl sektorda könüllü fəaliyyətlərin dəstəklənməsi üçün Korporativ Könüllülər Assosiasiyasının yaradılmasında da iştirak etmişdir. Firma müvafiq fəaliyyətlərin planlaşdırılması, idarə edilməsi və ictimaiyyətə çatdırılması sahəsində könüllü iş görməklə, həmçinin bu işin genişləndirilməsinin məzmun və metodologiyasını işləyib hazırlamışdır. İştirakçı şirkətlər işçilərinin adı çəkilən proqramda könüllü fəaliyyətlərini onların illik iş hesabatlarında qiymətləndirir.

ARGE QHT-lərin idarə edilməsində yaxşı idarəetmə prinsiplərinin dəstəklənməsi istiqamətində müxtəlif vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edir. ARGE Bosfor Universiteti ilə əməkdaşlıq zəminində QHT idarəetməsinin sertifikatlaşdırılması proqramını yaratmışdır.

Biznes sahəsində fayda:
- ARGE aparıcı biznes qəzetlərindən biri olan Dünya qəzetində dərc edilmiş icmalda Türkiyənin üç ən yaxşı idarəetmə konsaltinqi firmalarından biri adlandırılmışdır.
- Könüllü fəaliyyətlərin dəstəklənməsi həm də yüksək ixtisaslaşmış işçi heyətin motivasiyasına və iş yerində qalmasına kömək edir.

Cəmiyyət və ümumiyyətlə maraqlı tərəflər üçün fayda:
- Korporativ Könüllülər Assosiasiyası getdikcə daha çox peşəkar kadr cəlb edərək daha effektiv vətəndaş cəmiyyəti təsisatlarının yaradılmasına kömək edir.
- 1000-dən çox özəl vədövlət sektoru müəssisələri və QHT-lər öz idarəetmə qabiliyyətlərini təkmilləşdirmişlər, bu isə həm işçilər, həm də cəmiyyət üçün faydalıdır.

Mənbələr: http://www.generationeurope.eu.com; www.arge.com

# *Nəticələr və tövsiyələr*

Güclü biznes və investisiya mühiti olmadan dayanıqlı inkişaf baş verə bilməz. Firmaların fəaliyyət meydanında qalmaları və məsuliyyətli davranış nümayiş etdirmələri üçün düzgün idarəetmə və tənzimləmə çərçivəsi olmalıdır. Ətraf mühitin tənzimlənməsi elə bir fəaliyyət sahəsidir ki, burada hökumət həm milli maraqları, həm də müəssisələrin kommersiya bacarıqlarını qoruyacaq mütənasib idarəetməni təmin etməlidir. Münasib çərçivə yaradıldıqdan sonra hökumətlər müəssisələri məsuliyyətli davranışa məcbur etməklə və ya müəyyən təzyiq göstərməklə deyil, bu cür davranışı dəstəkləməklə biznes mühitinin uzunmüddətli dayanıqlılığını təmin edə bilər. Korporativ sosial məsuliyyət fəaliyyətinə dair qərarı hər bir müəssisənin özü qəbul etməlidir. KSM fəaliyyətlərində iştirak edən firmalar bir qayda olaraq daha gəlirli müəssisələrdir. Bu sahə üzrə ən faydalı təcrübələrə sənaye davranış kodekslərinin qəbul edilməsi və işçilərin könüllü işlərdə iştirak etmələrinin dəstəklənməsi daxildir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

UN Division for Sustainable Development: <www.un.org/esa/sustdev/>

OECD Sustainable Development:
<http://www.oecd.org/topic/0,2686,en_2649_37425_1_1_1_1_37425,00.html>

The UN Global Compact: <www.globalcompact.org>

Arge: <www.arge.com>

Northern Dimension Environmental Programme: <www.ndep.org>

## QEYDLƏR

1 UN Human Development Report 2005
2 <www.worldbank.org>
3 IFC, IBRD, Public Sector Roles in Strengthening Corporate Social responsibility: Taking Stock (2005).
4 Human Rights Watch (2005).
5 The Global Compact, Who Cares Wins: Connecting Financial Markets to a Changing World. Recommendations by the financial industry to better integrate environmental, social and governance issues in analysis, asset management and securities brokerage (2005).

# Əlavə

•

# Ədəbiyyat

•

# İzahlı lüğət

•

# Qısaltmalar



OSCE | Colin Spurway

# Əlavə

## Sorğu Vərəqəsinin Nəticələri və Analizi

Vəsaitin hazırlanması prosesində aparılmış Biznes və İnvestisiya Mühitlərinin Genişləndirilməsi üçün Ən Əlverişli Şəraitlər haqqında sorğu vərəqəsi 2006-cı ilin fevral ayında paylanmışdır. Ümumilikdə, sorğu vərəqəsinə 17 ATƏT ölkəsindən 16-sı cavab vermişdir:

- Albaniya
- Ermənistan
- Azərbaycan
- Bosniya və Hersoqovina
- Keçmiş Yuqoslav Respublikası olan Makedoniya
- Gürcüstan
- Macarıstan
- Qazaxıstan
- Malta
- Çernoqoriya
- Rusiya
- Serbiya
- Slovakiya
- Sloveniya
- Tacikistan
- Türkmənistan
- Ukrayna

Sorğu vərəqəsinin respondentləri arasında 9 çoxtərəfli təşkilatların ərazi idarələri, 10 milli investisiyaların dəstəklənməsi təşkilatı və 6 KOM-ların inkişafı agentlikləri olmuşdur.

**1. Əlverişli investisiya və biznes mühiti üçün nələr tələb olunur?**

| **Variantlar** | **Respondentlərin %-i** |
|---|---|
| Biznes qanunvericiliyi və tənzimlənməsi | 73% |
| İnvestisiya güzəştləri və dəstəyi | 65% |
| Hökumət siyasətləri | 54% |
| Siyasi və makro-iqtisadi fəaliyyət və sabitlik | 38% |
| Coğrafi məkan, təbii ehtiyatlar | 31% |
| Ölkənin imici və beynəlxalq reytinqi | 31% |
| Beynəlxalq müqavilələr, açıqlıq | 31% |
| Bank sistemi | 23% |
| Sabit maliyyə və vergi siyasəti | 19% |
| İnfrastruktur | 15% |
| Mühacirlərin pul köçürmələri | 15% |
| Əmək: bacarıqlar, təhsil səviyyəsi, xərclər | 12% |

**2. Xarici birbaşa investisiyaların qarşısını kəsən əsas maneələr hansılardır?**

| Variantlar | Respondentlərin %-i |
|---|---|
| Ümumiyyətlə qanunvericilik | 58% |
| Fiziki infrastruktur | 54% |
| Məhkəmə sistemi, investor hüquqlarının müdafiəsi | 38% |
| Hökumət siyasətləri | 35% |
| İnzibati maneələr | 35% |
| Korrupsiya | 35% |
| Biznesə giriş və lisenziya ilə əlaqədar çətinliklər | 27% |
| Ölkənin nüfuzu, iqtisadi və siyasi sabitlik | 27% |
| Torpaq və tikinti icazələri | 23% |
| Bacarıqlı işçi qüvvəsinin mövcudluğu | 19% |
| Bazar çatışmazlıqları (həcm, qiymət siyasətləri, inhisarçılıq ) | 15% |
| Coğrafi məkan, təbii ehtiyatlar | 15% |
| Vergi və gömrük sistemləri: tənzimləmə və idarəetmə | 12% |
| Bank sistemi | 12% |
| İnvestisiya güzəştləri və dəstəyi | 12% |
| Mühasibat standartları | 8% |

**3. KOM-ların inkişafı yolunda əsas maneələr hansılardır?**

| Variantlar | Respondentlərin %-i |
|---|---|
| Kredit alma imkanları | 54% |
| Qanunvericilik - ümumilikdə: | |
| qanun layihələrinin hazırlanması, qəbulu və icrası | 50% |
| Biznes bacarıqlarının çatışmaması | 50% |
| Korrupsiya | 46% |
| KOM-lar üçün köməkçi infrastruktur | 46% |
| Biznesin tənzimlənməsi və təzyiqlər | 35% |
| Vergi və gömrük sistemləri: tənzimləmə və idarəetmə | 31% |
| Ümumiyyətlə bürokratiya | 27% |
| Bazar çatışmazlıqları | 27% |
| Hökumət siyasətləri (və ya onların olmaması) | 23% |
| Fiziki infrastruktur | 19% |
| Böyük bizneslə əməkdaşlıq | 12% |
| Torpaq, tikinti sahələri və s.-dən istifadə imkanları | 12% |

**4. Ən müvəffəqiyyətli təcrübələr nümayiş etdirən ölkələr hansılardır?**

| ÖLKƏLƏR | Neçə dəfə qeyd edilib |
|---|---|
| Estoniya | 6 |
| Latviya | 4 |
| İrlandiya | 4 |
| Çex Respublikası | 4 |
| Finlandiya | 4 |
| Polşa | 4 |
| Litva | 3 |
| Norveç | 2 |
| Birləşmiş Krallıq | 2 |
| Qazaxıstan | 2 |
| Slovakiya | 2 |
| Macarıstan | 2 |
| Sloveniya | 1 |
| Qırğızıstan | 1 |
| Gürcüstan | 1 |
| Çernoqoriya | 1 |
| İslandiya | 1 |
| Hollandiya | 1 |
| İçveç | 1 |

SORĞU VƏRƏQƏSİNİN SUALLARI:

1. Siz öz ölkənizin ümumi biznes və investisiya mühitini necə təsvir edərdiniz?

2. Xarici birbaşa investisiyaların yolunda əsas maneələr hansılardır?

3. KOM-ların inkişafı və sahibkarlığın yolunda əsas maneələr hansılardır?

4. Son beş ildə biznes və investisiya mühitlərinin təkmilləşdirilməsi istiqamətində hər hansı əhəmiyyətli addım atılıbmı? Nə kimi tədbirlər görülüb və onlardan hansıları daha effektiv nəticələrə gətirib çıxarıb? Niyə? Heç də səmərəli olmayan və ya mənfi nəticələrə gətirib çıxaran hər hansı tədbir görülübmü? Onlar hansılardır və uğursuzluğun səbəbləri hansılardır?

5. Son vaxtlar xarici birbaşa investisiyaların artmasına gətirib çıxaran hər hansı xüsusi qanun və ya qaydalar artıq qəbul edilibmi və ya mövcud qayda və qanunlarda hər hansı dəyişiklik edilibmi?

6. Sizin fikrinizcə 2006-cı ildə biznes və investisiya mühiti üçün xüsusilə faydalı olacaq hər hansı qanunvericilik və ya tənzimləmə dəyişikliklərinin edilməsi gözlənilirmi?

7. Xarici birbaşa investisiyaların cəlb edilməsində və ya KOM-ların inkişafının dəstəklənməsində səmərəli nəticələrə gətirib çıxaran hər hansı konkret hökumət proqramları olmuşdurmu? Diaspor üzvləri tərəfindən investisiyalara pul göndərişlərinin və ya birbaşa maliyyələşdirmələrin cəlb edilməsi üçün hər hansı bir proqram vardırmı?

8. Sizin ölkəniz xarici investisiya axınlarının dəstəklənməsi üçün hansı mexanizmlərdən istifadə edir? İnvestisiyaların dəstəklənməsi təşkilatı? Regional investisiya qurumları? Güzəştlər? Bunlardan hansı daha səmərəli olmuşdur? Zəhmət olmasa, ətraflı cavab verin.

9. Sizin öz biznes və investisiya mühitinizin inkişafı üçün nümunə hesab etdiyiniz digər ölkələr, xüsusilə də ATƏT-ə üzv dövlətlər vardırmı? Hansı ölkələr və niyə? Onların hər hansı bir təcrübəsini həyata keçirməyə müvəffəq olmusunuzmu?

10. Xahiş edirik, öz ölkənizin biznes və investisiya mühiti ilə əlaqədar hər hansı əlavələrinizi və ya sizin fikrinizcə, Vəsait üçün faydalı olacaq hər hansı qeydlərinizi sərbəst şəkildə ifadə edin.

# Ədəbiyyat

Ad Hoc UNCITRAL Arbitral Awards
1989 Biloune v Ghana Investments Centre, 95 International Law Reports 1830

Adenas, M.
2005 Enforcing Contracts in Transition Economies: Contractual Rights and Obligations in Central Europe, British Institute of International and Comparative Law, London

Antonyuk, O.V., Kerr,W.A.
2005 "Meeting TRIPS Commitments in Ukraine, An Important Challenge in the Quest for WTO Accession", 8 Journal of World Intellectual Property 271

Armenia
2000 Law on Trademarks, Service Marks and Appellations of origin (20 March 2000)
2001 Law of the Republic of Armenia on Joint Stock Companies

AT Kearney
2004 "FDI Confidence Index", Global Business Policy Council, Alexandria, Virginia, USA

Barth, J., Caprio, G., Levine, R.
2001 Bank Regulation and Supervision: What Works Best?, World Bank Policy Research Working Paper 2725

Basle Committee on Banking Supervision
1997 Core Principles for Effective Banking Supervision, Basle

Bati, A.
2004 Corporate Governance Reform in Azerbaijan, 5th Meeting of the OECD Eurasian Corporate Governance Committee

Bath Chronicle
2004 "How you can help developing farmers get some fair pay", Bath Chronicle (27 February 2004)

Belarus
2005 Edict of the President of the Republic of Belarus no. 373 of 15 August 2005, "Certain Issues of Concluding Agreements and Fulfillment of Obligations on the Territory of the Republic of Belarus"

Black Sea Economic Cooperation Business Council
2005 "Helping Eliminate Barriers to Business and Improve Business Climate", Strategic Directions, http://www.bsec-business.org/sdirect.asp

Bradford, C.
2005 Prioritizing Economic Growth: Enhancing Macroeconomic Policy Choice, United Nations Conference on Trade and Development G-24 Discussion Paper Series

Buiter, W.H.
2004 What have we learnt from fifteen years of transition in Central and Eastern Europe, National Bureau of Economic Research

Bulgaria
2003 Law on Competition Protection, published in the SG no. 52/1998, as amended, SG no. 112/1998, 81/1999, 28/2002, 9/2003 and 107/2003

Clark, T.
2002 "VAT mess puts off foreign investors", The Moscow Times, 8 August 2002

Commission on European Contract Law
1998 Principles of European Contract Law, Parts I and II

Croatia
2005 "Prime Minister Ivo Sanader launches service enabling electronic filing of forms", Republic of Croatia Press Release (3 November 2005), http://www.vlada.hr/default.asp?mode=1&gl=200511030000011&jezik=2&sid=

Cyprus
1997 Banking Law (no. 66(I) of 1997) of the Republic of Cyprus
Dahab, S.
1985 The Agricultural Machinery and Implement Industry in Brazil: its historical development and inventive activity,

unpublished Ph.D. dissertation, Yale University, New Haven

Daintith, T.
2005 "Contractual Discretion and Administrative Discretion: A Unified Analysis", 68 Modern Law Review 554 (2005)

Deutsche Bank
2005 Opening economies succeed, Deutsche Bank Research (November 2005), http://www.dbresearch.com/PROD/DBR_INTERNET_EN-PROD/PROD0000000000189232.pdf

Dyck, A.
2001 "Privatization and Corporate Governance: Principles, Evidence and Future Challenges", 16 World Bank Research Observer 59 (2001)

Earle, J.S.
2006 "Employment and Wage Effects of Privatization: Evidence from Transition Economies", Employment Research (January 2006), http://www.upjohninst.org/publications/newsletter/JSE_106.pdf

Edmiston, K., Mudd, S., Valev, N.
2003 Tax Structures and FDI: The Deterrent Effects of Complexity and Uncertainty, William Davidson Institute, Working Paper no. 558 (April 2003)

European Bank for Reconstruction and Development (EBRD)
2000 "Towards international standards on insolvency: the catalytic role of the World Bank, Law in transition", Insolvency law and practice (Spring 2000)
2004 Strategy for Estonia, EBRD, www.ebrd.com/about/strategy/country/estonia/strategy.pdf
2005 Recent legal developments in transition countries, EBRD (June–December 2005)
2005 Transition Report 2005, EBRD, London
2005 The EBRD-World Bank Business Environment and Enterprise Performance Dataset 2002 and 2005, http://www.ebrd.com/pubs/econo/beeps.htm

European Union
1999 Directive 1999/93/EC of the European Parliament and of the Council of 13 December 1999 on a community framework for electronic signatures, OJ 2000 L13/12
2000 Directive 2000/31/EC of the European Parliament and of the Council of 8 June 2000 on certain legal aspects of information society services, in particular electronic commerce, in the Internal Market, OJ 2004 L178
2000 European Charter for Small Enterprises, European Council, 19-20 June 2000, http://europa.eu.int/scadplus/leg/en/lvb/n26002.htm
2002 Council Directive 2002/38/EC of 7 May 2002 amending and amending temporarily Directive 77/388/EEC as regards the value added tax arrangements applicable to radio and television broadcasting services and certain electronically supplied services, OJ 2002 L 128/41
2002 Directive 2002/58/EC of the European Parliament and of the Council of 12 July 2002 concerning the processing of personal data and the protection of privacy in the electronic communications sector, OJ 2002 L 201/37
2003 "The Legal and Market Aspects of Electronic Signatures", Study for the European Commission - DG Information Society (September 2003)
2003 Responsible entrepreneurship. A collection of good practice cases among small and medium-sized enterprises across Europe, EU, Enterprise DG, Brussels, http://europa.eu.int/comm/enterprise/csr/index.htm
2003 SME definition: Commission Recommendation of 06 May 2003, OJ L 124 of 20 May 2003, p. 36, http://ec.europa.eu/enterprise/enterprise_policy/sme_definition/index_en.htm
2004 Commission Regulation (EC) no. 772/2004 of 27 April 2004 on the application of Article 81(3) of the Treaty to categories of technology transfer agreements, Regulation EC 772/2004, OJ 2004 L123/11
2004 Commission Notice: Guidelines on the application of Article 81 of the EC Treaty to technology transfer agreements, OJ 2004 C101/2
2005 Commission Staff Working Document Report on the Implementation of the European Charter for Small Enterprises in Moldova and the Countries in the Western Balkans, SEC(2005)169, Brussels, 8 February 2005
2005 Conference on the European Charter for Small Enterprises, Luxemburg, Conference Summary Report, European Commission Enterprise and Industry Directorate-General, 15-16 June 2005, http://europa.eu.int/comm/enterprise/events/charter/doc/2005_lux/lux_summary.pdf
2005 Report on the Implementation of the European Charter for Small Enterprises in Moldova and the Countries in the Western Balkans, Brussels, http://www.copca.com/armari/calaix1/000/00/01/103/sec_2005_169_en.pdf
2005 Taxation mechanisms based on simplified and indirect evaluation of tax liabilities, S.N. Makedonskiy, EU Tacis, Moscow, http:www.recep.ru
2005 "The activities of the European Union for small and medium-sized enterprises (SMEs)" SME Envoy Report SEC(2005)170, Brussels, 8 February 2005

Ewing, J., Edmondson, G., Kranz, P.
2005 "Rise of a Powerhouse: How the young knowledge workers of Central Europe are pushing the region to a new level", Business Week 3963 (12 December 2005), 50,

http://www.businessweek.com/magazine/content/05_50/b3963021.htm

Galanter, M.
1981“Justice in Many Rooms: Courts, Private Ordering, and Indigenous Law”, 19 Journal of Legal Pluralism 1 (1981)

Greenwood, J., Kimbrough, K.
1987“An Investigation into the Theory of Foreign Exchange Controls”, 20 The Canadian Journal of Economics 271 (1987)

Guriev, S., Megginson, W.
2005Privatization: What Have We Learned? (2005), http://siteresources.worldbank.org/INTDECABC2006

Head, J.W.
2005“Getting down to basics: strengthening financial systems in developing countries”, 18 Transactional Lawyer 257 (2005)

Hendley, K., Murrell, P., Ryterman, R.
2000“Law, Relationships, and Private Enforcement: Transactional Strategies of Russian Enterprises”, Europe-Asia Studies 52/4 (June 2000), p. 627–656

Hungary
1997Hungarian Law No. XI of 1997 on the Protection of Trademarks and Geographical Indications

Human Rights Watch
2005World Report 2005, Events of 2004, USA

Indem Foundation
2004Business and Corruption: How To Combat Business Participation In Corruption, Final Report, K.I. Golovshinskii, S.A. Parkhomenko, V.L. Rimskii, G.A. Satarov, INDEM Foundation, Moscow, http://www.anti-corr.ru/cipe/CIPEen.pdf

International Centre for Settlement of Investment Disputes (ICSID)
2003Tecnicas Medioambientales Tecmed S.A. v. The United Mexican States, Case No. ARB (AF)/00/2 (ICSID 2003)

International Conference on Reforming the Business Environment
2005Conference Outcomes, Committee of Donor Agencies For Small Enterprise Development, Cairo, Egypt

International Finance Corporation (IFC)
2005“Ukraine Adopts Law on Business Permits Drafted by IFC”, International Finance Corporation Press Release, 7 September 2005

International Institute for the Unification of Private Law (UNIDROIT)
1994International Institute for the Unification of Private Law (the ‘UNIDROIT’) Principles of International Commercial Contracts (1994)

Iran-United States Claims Tribunal
1983 “ITT Indus. v Iran”, 2 Iran-U.S. Claims Tribunal Reports 348 (1983)
1984Tippetts, Abbett, McCarthy, “Stratton v TAMS-AFFA Consulting Engineers of Iran”, 6 Iran-U.S. Claims Tribunal Reports 219 (1984)
1985“International Technical Products Corp v Government of the Islamic Republic of Iran”, 9 Iran-U.S. Claims Tribunal Reports 206 (1985)

Jain, B.K.
2001Creating a Climate for Innovation and Entrepreneurship – Emerging Role of Higher Educational Institutions, Dr. B. K. Jain and Dr. Anita Gupta, Department of Science & Technology, Government of India

Kähkönen, S., Lee, Y., Meagher, P., Semboja, H.
2001 Contracting Practices in an African Economy: Industrial Firms and Suppliers in Tanzania, University of Maryland, IRIS Center Working Paper 242

Kasolowsky, B., Thalhammer, D.
2005 "Austria: Car Dealer v. Defendant Distributor – Competition Law and Arbitration Clause", 8 International Arbitration Law Review N1-3 (2005)

Kogut, B., Spicer, A.
2002 "Capital market development and mass privatization are logical contradictions: lessons from Russia and the Czech Republic", 11 Industrial and Corporate Change 1 (2002)

Kumar, N.
2001 Infrastructure availability, foreign direct investment inflows and their export-orientation: a crosscountry exploration (Research and Information System for Developing Countries 2001),
http://www.gdnet.org/pdf/nkumar.pdf

La Porta, R., Lopez-de-Silane, F. Shleifer, A and Vishny, R.
1997 Legal Determinants of External Finance, NBER Working Paper no. 5879, January 1997

Lee, C.
2004 Model Competition Laws: The World Bank-OECD and UNCTAD Approaches Compared, 10 August 2004

Levine, R., Zervos, S.
1998 "Stock Markets, Banks, and Economic Growth", 88 American Economic Review 537 (1998).

Malta
2000 Trademark Act of Malta (Act XVI of 2000)

Mansfield, E.
1994 "Intellectual Property Protection, Foreign Direct Investment and Technology Transfer", IFC Discussion Paper no. 19 (1994)

Marakand Minerals Limited
2003 Accountants' Report on the Khandiza Exploration Asset (28 November 2003)

Markarian, G.
2003 Rule-of-Law and Commercial Law Issues in Armenia, Armenian International Policy Research Group, Working Paper No. 03/17, January 2003

Maskus, K.E.
2000 Intellectual Property Rights and Foreign Direct Investment, Centre for International Economic Studies, Policy Discussion Paper no. 0022

Megginson, W.L., Netter, J.M.
2001 "From State to Market: A Survey of Empirical Studies on Privatization",
39 Journal of Economic Literature 321 (2001)

Moldova
1997 Law No.1134-XIII On Joint Stock Companies, adopted on Apr 2, 1997

Morriset, J.
2003 Using Tax Incentives to Attract Foreign Direct Investment, World Bank Infrastructure Group, January 2003

Muir, R., Shen, X.
2005 Land Markets: Improving Access to Land and Buildings by Investors, FIAS, World Bank Group, October 2005

New Zealand Law Commission
1999 "Cross-Border Insolvency: Should New Zealand Adopt the UNCITRAL Model Law on Cross-Border Insolvency?", Law Commission Report No. 52, (1999)

Nemirowsky, H., Wright, J.
1996 Issues Surrounding Security Regulation in Latin America and the Carribean, Inter-American Development Bank, 1999

North, D.
1991"Institutions", 5 The Journal of Economic Perspectives 97 (1991)

O'Rourke, B.
2001 "The EU: How Ireland Unleashed its "Celtic Tiger" Economy" (Part 1), RadioFreeEurope/Radio Liberty

Organisation for Economic Cooperation and Development (OECD)
1997Resale price maintenance, OECD Doc. No. OCDE/GD(97)229 (1997)
1998Competition Policy and Intellectual Property Rights, OECD Doc. no. DAFFE/CLP (98) 18 (21 September 1998)
1999A Framework for the Design and Implementation of Competition Law and Policy, World Bank & OECD, 1999
2000The OECD Guidelines for Multinational Enterprises, OECD, http://www.oecd.org/dataoecd/56/36/1922428.pdf
2000The Bologna Charter on SME Policies, 1st OECD Ministerial Conference on SMEs, Bologna, Italy, 13-15 June 2000, OECD, http://www.oecd.org/document/17/0,2340,en_2649_201185_1809105_1_1_1_1,00.html
2004OECD Principles of Corporate Governance, OECD
2004Effective Policies for Small Business. A Guide for the Policy Review Process and Strategic Plans for Micro, Small and Medium Enterprise Development, OECD/UNIDO, http://www.unido.org/en/doc/33172
2004"Fair and Equitable Treatment in International Investor Law", OECD Working Papers on International Investment 2004/3, OECD
20042nd OECD Conference of Ministers responsible for Small and Medium Enterprise Development (SMES), Istanbul, Turkey, 3-5 June 2004, Promoting Entrepreneurship and Innovative SMEs in a Global Economy: Towards a More Responsible and Inclusive Globalisation, Executive Summary of the Background Reports, http://www.oecd.org/dataoecd/5/24/31919590.pdf
2004The Istanbul Ministerial Declaration on Fostering the Growth of Innovative and Internationally Competitive SMEs, OECD, www.oecd.org/document/28/0,2340,en_ 2649_34197_32020176_1_1_1_1,00.html
2004Small and Medium-sized Enterprises in Turkey, Issues and Policies, OECD, http://www.oecd.org/dataoecd/5/11/31932173.pdf
2005A Policy Framework for Investment: Draft Preamble, Checklists and Preliminary Annotations, OECD, 25-27 October 2005, http://www.oecd.org/dataoecd/10/55/35488787.pdf>
2005"Designing the Future, Making Investment Happen For Employment and Growth In South East Europe", OECD Investment Compact
2005Encouraging Linkages between Small and Medium-sized Companies and Multinational Enterprises, An overview of good policy practice by the OECD Investment Committee, 10 November 2005, Paris, http://www.oecd.org/dataoecd/62/30/35795105.pdf
2005Investment Compact for South-East Europe, OECD/Stability Pact, http://www.investmentcompact.org

Organization for Security and Co-operation in Europe (OSCE)
2003OSCE Strategy Document for the Economic and Environmental Dimension, 11th OSCE Ministerial Council, MC(11).JOUR/2, 2 December 2003, Annex 1, Maastricht, http://www.osce.org/item/16350.html
2003„Promoting Stability and Growth in Central Asia through Expanded Business Opportunities", Speech of Helen Santiago Fink, Global Compact Policy Dialogue regional meeting, Almaty, OSCE/OCEEA, 13-14 November 2003
2004Best Practices in Combating Corruption, OSCE (2004), http://www.osce.org/publications/eea/2004/05/12211_87_en.pdf

Parisi, M.
2005"Moving Toward Transparency? An Examination of Regulatory Takings in International Law", 19 Emory International Law Review 383 (2005)

Romania
2003Fiscal Code of Romania (Law No. 571/2003), Official Gazette of Romania (Part One), no. 927 of 23 Dec 2003

Russian Federation
2001Law of the Russian Federation no. 147-Fz (I) on Natural Monopolies of 17 Aug 1995 (as amended on 8 Aug and 30 Dec 2001)

Serbia
2004Law on Bankruptcy Proceedings, Republic of Serbia, passed by the National Assembly on 23 July 2004, Official Gazette of the Republic of Serbia, no. 84/04
2004Law on Trademarks, Official Gazette of Serbia and Montenegro, No. 61, 24 December 2004. Entered into force 1 January 2005
2005Code of Ethics for Bankruptcy Receivers
2005"Second round of bankruptcy trustees receive licenses", Serbian Government press release, 25 October 2005

Spartareanu, M., Smarzynska, B.
2004Do foreign investors care about labour market regulations?, World BankPolicy Research Working Paper 3275, April 2004

Stability Pact
1999 Sarajevo Summit Declaration of the Heads of State and Government of the participating and facilitating countries of the Stability Pact and the Principals of participating and facilitating International Organizations and Agencies and regional initiatives, Sarajevo, 30 July 1999, http://www.stabilitypact.org/constituent/990730-sarajevo.asp

Stanfield, J.D.
1999 Creation of Land Markets in Transition Countries: Implications for the Institutions of Land Administration, Working Paper no. 29, Land Tenure Center, University of Wisconsin-Madison, (1999)

Suhr, E.
2004 Good Intentions and Bad Consequences: How Overregulation Impedes Uzbekistan's Growth, Center for International Private Enterprise Economic Reform Feature Service, 29 January 2004

The Economist
2005 "Simplifying tax systems: The case for flat taxes", The Economist, 14 April 2005, http://www.economist.com/displaystory.cfm?story_id=3860731

Turkey
1994 Act on the Protection of Competition, act no. 4054, adopted 7 December 1994

United Kingdom Commission on Intellectual Property Rights
2002 Integrating Intellectual Property Rights and Development Policy, UK Commission on Intellectual Property Rights 2002

United Nations
International Labour Organization (ILO)
1998 ILO Declaration on Fundamental Principles and Rights at Work

United Nations Commission on International Trade Law (UNCITRAL)
1994 Model Law on Procurement of Goods, Construction and Services with Guide to Enactment, http://www.uncitral.org/pdf/english/texts/procurem/ml-procurement/ml-procure.pdf
2005 Legislative Guide on Insolvency Law, http://www.uncitral.org/pdf/english/texts/insolven/05-80722_Ebook.pdf

United Nations Conference on Trade and Development (UNCTAD)
1999 Trends in International Investment Agreements, UNCTAD/ITE/IIT/13 (1999)
2004 World Investment Report 2004: The Shift Towards Service
2005 World Investment Report 2005: Transnational Corporations and the Internationalization of R&D

United Nations Development Programme (UNDP)
2003 Promoting Stability and Growth in Central Asia through Expanded Business Opportunities, Global Compact Policy Dialogue regional meeting, Almaty, 13-14 November 2003, http://www.undp.kz/img/docs/en/555.htm
2005 "International Co-operation at Crossroads: Aid, Trade and Security in an Unequal World", UN Human Development Report 2005, UNDP, New York, http://hdr.undp.org/reports/global/2005/
2005 "Who Cares Wins: Connecting Financial Markets to a Changing World., Recommendations by the financial industry to better integrate environmental, social and governance issues in analysis, asset management and securities brokerage", The Global Compact, UNDP/ Swiss Federal Department United Nations of Foreign Affairs, New York, http://www.innovestgroup.com/pdfs/WhoCaresWins.pdf

United Nations Economic Commission for Europe (UNECE)
2003 "The Development of the SME Sector in the Countries in Transition and Emerging Market Economies in the UNECE Region", UNECE Workshop on Policy and Regulatory Options for Promoting Industrial Restructuring in ECE Region, 23 April 2003, http://www.unece.org/ ie/ industry/ documents/ szabot.pdf
2005 Report on the Forum After Fifteen Years of Market Reforms in Transition Economies: New Challenges and Perspectives for the Industrial sector, UNECE Committee for Trade, Industry and Enterprise Development, Ninth session, 23-27 May 2005, Geneva,ECE/TRADE/360/Add.13 August 2005
2006 Public-Private Cooperation in Industrial restructuring, paper prepared by Professor Sailau Baizakov, Deputy Director General, Institute for Economic Research, Almaty, Kazakhstan, for UNECE/OSCE, New York and Geneva

United Nations Economic and Social Commission for Asia and Pacific (UNESCAP)
2004 "Addressing Supply-Side Constraints and Capacity-Building, Economic and Social Commission For Asia and the Pacific", Subcommittee On International Trade and Investment, First Session, 27-29 October 2004

United Nations Educational, Scientific and Cultural Organization (UNESCO)
1971 Universal Copyright Convention as revised at Paris on 24 July 1971

United Nations Industrial Development Organization (UNIDO)
2006 The UNIDO Cluster/Network Development Programme: The Italian Experience of Industrial Districts, http://www.unido.org/doc/4310

World Intellectual Property Organization (WIPO)
1971 Berne Convention for the Protection of Literary and Artistic Works (Paris Text 1971)
1996 WIPO Copyright Treaty
1996 WIPO Performances and Phonograms Treaty
2003 Guide To WIPO Domain Name Dispute Resolution, WIPO Arbitration and Mediation Center

United States
1995 Antitrust Guidelines for the Licensing of Intellectual Property, United States Department of Justice and Federal Trade Commission, Washington, DC
2004 "Investor Perceptions of Bulgaria's Competitive Opportunities and Constraints: Labour Market Focus", USAID Labour Market Project (October 2004)
2005 "Enhancing Ukraine's Industrial Base & Attracting FDI: Industrial Park Development", USAID Ukraine WTO Accession & Investment Promotion Project
2005 U.S. Manual of Trademark Examining Procedures, U.S. Patent and Trademark Office, April 2005
2006 "USTR Reinstates Generalized System of Preferences Benefits for Ukraine", U.S. Trade Representative press release, 23 January 2006

World Bank Group
2002 Transition: The First Ten Years. Analysis and Lessons for Eastern Europe and the Former Soviet Union, IBRD/World Bank, Washington D.C.
2003 Georgia: An Integrated Trade Development Strategy, World Bank Poverty Reduction and Economic Management Unit, Europe and Central Asia Region, 5 November 2003, http://www.wds.worldbank.org/servlet/WDSContentServer/WDSP/IB/2003/12/16/000090341_20031216104201/Rendered/INDEX/272640GE.txt
2004 Doing Business in 2004: Understanding Regulation, IBRD/IFC, Washington, http://rru.worldbank.org/doingbusiness
2004 "Business Environment in Ukraine", Ukraine SME Survey and Policy Development Project with the financial support of the Ministry of Foreign Affairs of Norway, December 2004, http://www.ifc.org/ifcext/eca.nsf/AttachmentsByTitle/UkraineSMESurvey_2004_Eng/$FILE/UkrSMESurvey_2004_Eng.pdf
2004 "Public Sector Roles in Strengthening Corporate Social Responsibility: Taking Stock", Corporate Responsibility for Environment and Development, International Institute for Environment and Development for the Corporate Social Responsibility Practice of the World Bank Group
2005 Administrative Barriers to Investment within Subjects of the Russian Federation. Estimating Costs of Administrative Barriers to Russian Economy, IFC/FIAS, Draft for Comments, September 2005, Russian, www.worldbank.org/russia/fias
2005 "Business Environment in Uzbekistan as seen by Small and Medium Enterprises", Survey results based on 2004, IFC, Tashkent, http://www2.ifc.org/centralasia/sme/uzsurvey.htm
2005 Doing Business in 2005: Removing Obstacles to Growth, IBRD/IFC, Washington, http://rru.worldbank.org/doingbusiness
2005 World Bank Development Report 2005: A Better Investment Climate for Everyone
2006 Doing Business in 2006: Creating Jobs, IBRD/IFC, Washington, http://rru.worldbank.org/doingbusiness
2006 Monitoring the Administrative Barriers to Small Business Development in Russia, the Fifth Round, November 2005, World Bank/USAID/CEFIR, http://www.cefir.ru/index.php?id=32

World Economic Forum
2005 "The Best Places to Do Business", http://www.weforum.org/site/knowledgenavigator.nsf/Content/_S12848
2005 "Resource-based Economy to Sector Diversification in Russia" (18 Oct 2005), http://www.weforum.org/site/knowledgenavigator.nsf/Content/_S15467?open&event_id=

World Trade Organization (WTO)
1994 Agreement on Trade Related Aspects of Intellectual Property Rights
1994 Agreement on Government Procurement

Zalm, G.
2005 "The Other Path to Growth: Private Sector Development" (Speech), Annual Bank Conference Of Development Economics, Amsterdam

# İzahlı lügət

Vəsaitdə istifadə edilmiş terminlər aşağıda ifadə edildiyi kimi başa düşülməlidir.

**Arbitraj:** mübahisələrin həll edilməsi üçün məhkəmə üsulunun alternativ variantı; burada tərəflər hər hansı bir mübahisəni üçüncü tərəfin qəti qərarına təslim edirlər.

**Barışdırıcı prosedur:** mübahisələrin alternativ (məhkəməsiz) qeyri-məcburi həlli üsulu; bu zaman neytral bir tərəf mübahisə tərəflərinə mübahisənin həll edilməsində vasitəçilik edir. Barışdırıcı prosedurun əsas məqsədi fikir ayrılıqlarını güzəşt imkanları axtarmaqla həll etməkdir. Barışdırıcı prosedur termini tez-tez vasitəçilik termini ilə əvəz edilir, lakin hər hansı bir kontekstdə bu iki termin müxtəlif mənaları ifadə edə bilər.

**Biznes mühiti:** xarici və yerli şirkətlərin müəyyən bir ölkədə biznes fəaliyyəti ilə məşğul olmasına və gəlir əldə etməsinə imkan verən çərçivə.

**Çirkli pulların yuyulması:** cinayətkar fəaliyyətlərdən (məs., narkotik maddələrin qanunsuz ticarəti, qaçaqmalçılıq, özgə əmlakının mənimsənilməsi, korrupsiya, vergidən yayınma və ya mütəşəkkil cinayətkarlıq) əldə edilən gəlirlərin qanuni hesab edilən maliyyə vəsaitlərinə və ya digər aktivlərə çevrilməsi aktı.

**Dayanıqlı inkişaf:** gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirməmək şərtilə indiki zamanın tələblərinə cavab verən inkişaf.

**Daşınmaz əmlak:** torpaq və torpağa bərkidilmiş əmlak və torpaqdan ya ona, ya da torpağa zərər yetirmədən ayrılması mümkün olmayan əmlak.

**Daşınmaz inventar:** binalar və texniki mexanizmlər kimi torpağa möhkəm bərkidilmiş və ondan əhəmiyyətli dərəcədə böyük zərər yetirmədən ayrılması mümkün olmayan əmlak.

**Domen adlarının mənimsəyicisi (cybersquotter):** hər hansı bir ticarət nişanını domen adı kimi qeydiyyatdan keçirərək sonuncunu ticarət nişanı sahibinə təkrar satmaqla müəyyən gəlir əldə etməyə çalışan şəxs.

**Domen adı:** istifadəçilərin ünvanı asanlıqla yadda saxlamaları üçün İnternet Protokol (İP) ünvanlarına verilən hərf və rəqəmlərdən ibarət olan ad.

**Dövlət müəssisəsi:** aktivlərinin əksər hissəsinin birbaşa və ya dolayısı olaraq hər hansı hökumət təşkilatına və ya müəssisəsinə məxsus olduğu biznes müəssisəsi.

**Dövlətinkiləşdirmə:** özəl müəssisələri və ya digər aktivləri dövlət mülkiyyətinə keçirməsi prosesi.

**Əqli mülkiyyət:** ixtiralar, ədəbi və incəsənət əsərləri, o cümlədən, kommersiya sistemində istifadə edilən işarələr, adlar, təsvirlər və dizaynlar kimi əqli fəaliyyət məhsulları il əlaqədar qanunla qorunan hüquqlar.

**Əlavə dəyər vergisi:** istehsalat prosesinin hər bir mərhələsində vergilərin tətbiq edilməsinin nəzərdə tutulduğu istehlak vergisi; bu zaman həmin məhsul, həmçinin istehlakçının son məhsulu aldığı məqam üzərinə əlavə dəyər artırılır.

**Əqli mülkiyyət hüquqlarının pozulması:** hər hansı bir reklam ideyasının, materialın, şüarın, üslubun, başlığın, ixtiranın, müəllif işinin və ya digər bir hüquqi əqli mülkiyyət qanunlarının pozulması ilə qeyri-qanuni mənimsənilməsi və ya istifadəsi.

**Faydalı model:** yeni alətin və ya hər hansı sənaye məhsulunun və ya onun hissələrinin modeli ilə əlaqədar tətbiq edilən əqli mülkiyyət hüququ. Faydalı modellərin qorunması haqqında qanunlarda adətən patentin verilməsi üçün tələb edilən ixtiraçılıq səviyyəsi tələb edilmir.

**Françiz:** françiz alan (adətən kiçik bir biznes) ilə françiz verən (adətən daha böyük bir bines) arasında biznes əlaqəsi; bir qayda olaraq, françiz alana françiz verənin ticarət nişanından istifadə etmək hüququna malik olmaq üçün lisenziya verilir və françiz alan müxtəlif məhsulları françiz verəndən alır.

**Gilyotinləmə (tənzimləmədə):** çoxlu sayda normativ aktların sürətlə nəzərdən keçirilməsi və lazımsızların (köhnəlmiş, səmərəsiz, artıq olan) ləğv edilməsi (hər biri üzrə ayrılıqda hüquqi prosedur icra edilmədən) üsulu.

**Güzəştlər (investisiyalar üçün):** xarici birbaşa investisiyaların cəlb edilməsi və onlardan gəlir əldə edilməsi üçün tətbiq edilən siyasət vasitələri. İnvestisiya güzəştlərinə misal olaraq güzəştli qiymətlərlə qrant və kreditlərin təminatı kimi maliyyə güzəştlərini, vergi bayramları və azaldılmış vergi dərəcələri kimi vergi güzəştlərini, subsidiya ilə təmin edilən infrastruktur və ya xidmətləri, bazar imtiyazlarını və hüquqi güzəştləri göstərmək olar.

**Xərcsiz faydalanma (pulsuz gediş):** hər hansı bir bazar iştirakçısının digər iştirakçının fəaiyyətindən bəhrələnməsi. Bu bəhrələnməyə görə heç bir ödəniş edilmir, çünki bəhrələnənin hər hansı bir öhdəliyi və ya stimulu olmur.

**İctimai məlumat:** məhdudiyyətsiz olaraq hər kəs tərəfindən istifadə edilə, surəti çıxarıla və ya paylana bilən və əqli mülkiyyət hüquqları ilə əlaqədar iddiaların olmadığı dövlət məlumatları, biliklər və ya ifadələr.

**İmic:** hər hansı bir biznes müəssisəsinin öz müştəriləri ilə təkrar sövdələşmələr qura biləcəyinə inam yaradan onun nüfuzu.

**Kadastr:** müəyyən bir region, ölkə və ya vilayət daxilində sözügedən regionun tədqiqinə əsaslanan, daşınmaz əmlakla əlaqədar məlumatların dövlət tərəfindən aparılan reestri.

**Kapital kifayətliliyi:** bankın öz səhmdar kapitalına, həmçinin müəyyən digər ehtiyat maliyyə vəsaitlərinə əsaslanaraq risklərin öhdəsindən gəlmək imkanı.

**Kapital bazarları:** səhmlər və dövlət və ya özəl kredit sənədləri kimi etibarlılıq müddəti ən azı bir il təşkil edən orta və uzun müddətli maliyyə aktivləri bazarları.

**Kiçik və orta müəssisələr (KOM-lar):** şirkətin işçi qüvvəsinə və gəlirlərinə və ya aktivlərinə əsasən müəyyən edilən, həcm və növlə əlaqədar müəyyən şərtlərə cavab verən müəssisələr.

**Klasterlərə əsaslanan inkişaf:** hər bir yerli iqtisadiyyatda təbii şəkildə bir birinə bağlı sənaye sahələrinə əsaslanan iqtisadi inkişaf üsulu. Bu zaman mövcud resurslar onların inkişafı üçün zəmin yaradılmasına istifadə edilir, misal üçün peşə təlimi, fiziki infrastruktur, həmçinin yerli təhsil müəssisələrində ixtisaslaşmış tədqiqat proqramları.

**Kollektiv ticarət nişanı:** hər hansı bir kooperativ müəssisənin, assosiasiyanın, ittifaqın və ya digər kollektiv qrup və ya təşkilatın üzvlərinin müstəsna istifadəsi üçün qeydiyyatdan keçirilmiş xüsusi mal və ya xidmət nişanı.

**Kommersiya sirri:** müstəqil iqtisadi dəyərə malik olan hər hansı düstur, model, material, proqram, alət, texnika və ya proses də daxil olmaqla informasiya. Bu informasiya: (a) bir qayda olaraq çoxlarına məlum olmur və onun əldə edilməsi hətta qanuni yolla çətin olur, çünki onun açıqlanmasından və ya istifadəsindən kənar şəxslər tərəfindən iqtisadi gəlir əldə edilə bilər; (b) məxfiliyinin qorunub saxlanması üçün müəyyən səylər tələb edə bilər..

**Korporativ sosial məsuliyyət:** hər hansı bir şirkətin öz biznesini davamlı şəkildə cəmiyyətin ondan gözlədiyi etik, hüquqi, kommersiya və ictimai standartlara müvafiq olaraq idarə etmək öhdəliyi.

**Korporativ idarəetmə:** biznes müəssisələrinin idarə və nəzarət edilməsi tərzinə təsir göstərən prosedurlar, adətlər, siyasətlər, qanunlar və institutlar sistemi.

**Qanunun aliliyi:** qanunun həm dövlət, həm də hakim elita üzərinə müvafiq məhdudiyyətlər qoymasını nəzərdə tutan hüquqi çərçivənin xüsusiyyəti. Qanunun aliliyi hökm sürdüyü dövlətdə bütün vətəndaşlar və dövlət orqanlarının özləri belə qanun qarşısında bərabərdirlər.

**Qızıl səhm:** hər hansı bir korporasiyada və ya digər biznes müəssisəsində öz sahibinə adətən onun sahibkarlıq maraqları və ya idarəedici orqanda iştirakı ilə əlaqədar digər səhmdarlarla müqaisədə daha yüksək hüquq və səlahiyyətlər verən səhmlər kateqoriyası.

**Qeyri-rəsmi iqtisadiyyat:** qanuni bizneslərlə məşğul olan, lakin vergilər, əmək bazarı və ya mal bazarı ilə əlaqədar qanunlara tam riayət etməyən şirkətlərin iqtisadi fəaliyyəti.

**Makro-iqtisadi:** işsizliyin və ya inflyasiyanın səviyyəsi kimi hər hansı bir dövlətin başlıca, ümumqtisadi vəziyyətlə əlaqədar olan.

**Məhkəmə qərarı:** hər hansı bir tərəfi məyyən bir fəaliyyəti icra etməyə və ya etməməyə vadar edən hüquqi qərar.

**Milli hüquqi rejim:** xarici şirkətlərin yerli şirkətlərin riayət etdiyi qanun və qaydalara əsasən fəaliyyət göstərmək və onlara uyğun davranış tələb etmək hüququ.

**Müflisləşmə:** hər hansı bir kredit alanın kreditorlara öz borcunu qaytara bilməməsinin hüquqi cəhətdən elan edilməsi.

**Müəllif hüquqları:** yazılar, musiqi, kompüter üçün proqram təminatı, filmlər və incəsənət əsərləri kimi müəllif işlərinin müdafiəsini nəzərdə tutan müstəsna hüquq.

**Müsadirə (Ekspropriasiya):** özəl mülkiyyətdə olan müəssisənin və ya aktivlərin hökumət tərəfindən müsadirə edilməsi.

**Müqavilə sərbəstliyi:** hər hansı bir şəxsin müqavilə bağlayıb-bağlamamaq, hansı müqavilə növünü seçmək və kiminlə müqavilə bağlamaq kimi qərarları könüllü olaraq qəbul etməsini nəzərdə tutan hüquqi prinsip.

**Müvəqqəti dayandırma əmri:** münaqişənin son həllinə qədər status-kvo qorumaq məqsədilə iddia predmeti olan münaqişənin başlanğıcında verilə bilən müvəqqəti məhkəmə əmri.

**Ödəniş qabiliyyətinin olmaması hüququ (müflisləşmə hüququ kimi də tanınır):** kreditora ödəniləsi haqqın ödənilməsini və kredit alanın öz borclarını ödəmək iqtidarında olmamasından sonra ona yenidən işə başlamaq icazəsinin verilməsini nəzərdə tutan hüquqi rejim.

**Özəlləşdirmə:** aktivlərin (xüsusilə də dövlət müəssisələrinin) dövlət sahibkarlığından özəl sahibkarlığa keçirilməsi.

**Pacta sunt servanda:** latınca "müqavilələr icra edilməlidir" deməkdir. Beynəlxalq hüquqda müqavilələrə riayət edilməsi prinsipidir.

**Patent:** hər hansı bir ixtiranın müəllifinə başqalarının həmin ixtiranı müəyyən məhdud müddət ərzində istehsal, idxal etmələrinin və ya satmalarının qarşısını almaq üçün hökumət tərəfindən verilən hüquq.

**Pul köçürmələri:** mühacirlərin xaricdə olarkən öz ölkələrinə pul köçürmələri.

**Razılaşmaya etiraz:** hər hansı bir hökumət müqaviləsinin bağlanmasına və ya hər hansı bir təklifin və ya razılaşmanın hökumət tədarükü imkanı ilə təmin edilməsinə və ya rədd edilməsinə qarşı hüquqi etiraz.

**(Kapitalın) Repatriasiya(sı):** xarici investorun kapitalı investisiya ölkəsindən öz doğma ölkəsinə köçürməsi.

**Rədd etmə:** hüquqi kontekstdə "rədd etmək" maraqların mümkün toqquşması, obyektivliyin çatışmaması və ya sonuncunun yaranması səbəbindən hər hansı dinləmə və ya digər hüquqi prosesdən çıxarılmaq mənasını ifadə edir.

**Rəqabət hüququ:** bazarda hakim mövqenin özəl firmalara məxsus olmasının və ya onlar tərəfindən sui-istifadəsinin qarşısını almaq məqsədilə qəbul edilən qaydalar, tənzimləyici aktlar və qanunlar sistemi.

**Seleksiyaçı bitkiçilik mütəxəssislərinin hüquqları:** yeni, aydın, vahid və dəyişməz bitki sortları yetişdirən şəxslərə verilən əqli mülkiyyət hüququ.

**Sertifikatlı ticarət nişanları:** mal və ya xidmətlərin müəyyən standartlara cavab verdiyini və ya müəyyən keyfiyyətlərə və ya digər xüsusiyyətlərə malik olduğunu müvafiq sertifikatla təsdiq edən ticarət nişanı.

**Servitud:** hər hansı bir şəxsin digər bir şəxsə məxsus olan əmlak üzərində malik olduğu hüquq.

**Səhmlərin buraxılması ilə özəlləşdirmə:** müəssisə səhmlərinin birjada özəl investorlara satılması yolu ilə dövlət müəssisəsinin özəlləşdirilməsi

**Təminat (girov):** hər hansı bir kreditin ödəniləcəyinə zəmanət verən aktiv. Kredit müvafiq şərtlərə uyğun olaraq qaytarılmadığı halda kreditor kredit alanın borc öhdəliyini qismən və ya tam kompensasiya etmək üçün girovun dəyərindən istifadə edə bilər.

**Ticarət markası:** hər hansı bir müəssisənin mal və ya xidmətlərinin müəyyən edilməsi və onların digər müəssisələrin mal və ya xidmətlərindən fərqləndirilməsi məqsədilə tətbiq edilən söz, brend adı, simvol və ya vasitə.

**Vahid vergi (yastı vergi – flat tax – red.):** gəlirlərinin nə qədər olmasından asılı olmayaraq hər kəsin eyni vergi dərəcələrini ödəməli olduğu sistem.

**Vasitəçilik:** neytral bir şəxsin, vasitəçinin barışığa, mübahisənin həll edilməsinə və ya anlaşma yaradılmasına nail olmaq məqsədilə tərəflər arasında müzakirənin təşkili və aparılması. Vasitəçilik termini çox vaxt barışdırıcı prosedur termini ilə qarşılıqlı surətdə əvəz edilir, lakin hər hansı bir kontekstdə bu iki termin müxtəlif mənaları ifadə edə bilər.

**Yurisdiksiya:** məhkəmənin və ya hər hansı digər hökumət orqanının mübahisə mövzusu olan məsələ ilə əlaqədar qərar qəbul etməsi hüququ.

**Zəmanətli sövdələşmələr qanunu:** şəxsi (daşınar) əmlak sahibinin həmin əmlakı kredit əvəzinə girov qoymasına icazə verən hüquqi sistem.

# *Qısaltmalar*

| | |
|---|---|
| Aİ | Avropa İttifaqı |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BMF | Beynəlxalq Valyuta Fondu |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| BMTİP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| ÇMM | Çoxmilli müəssisələr |
| DM | Dövlət Müəssisələri |
| DÖMT | Dövlət və özəl müəssisələrin tərəfdaşlıqları |
| ƏDV | Əlavə dəyər vergisi |
| ƏMH | Əqli mülkiyyət hüquqları |
| XBİ | Xarici birbaşa investisiyalar |
| XİMX | Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti |
| XİZ | Xüsusi iqtisadi zonalar |
| İDA | İnvestisiyaların dəstəklənməsi agentlikləri |
| İƏİT | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| İT | İnformasiya Texnologiyaları |
| KMİ | Korrupsiyanın Mənimsənilməsi İndeksi |
| KOM | Kiçik və Orta Müəssisələr |
| KSM | Korporativ Sosial Məsuliyyət |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MIGA | İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Təşkilat |
| MMM | Mikromaliyyə müəssisələri |
| OECD | İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı |
| QDİƏT | Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı |
| SÜÖ | Səhmləşdirmə üsulu ilə özəlləşdirmə |
| TMK | Transmilli korporasiyalar |
| TRIPS Müqaviləsi | Ticarətlə Əlaqədar Əqli Mülkiyyət Hüquqları haqqında Müqavilə |
| UNIDO | Sənayenin İnkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı |
| UNODC | Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi |
| USAID | ABŞ Beynəlxalq İnkişaf Təşkilatı |
| ÜDM | Ümumi Daxili Məhsul |
| ÜƏMT | Ümumdünya Əqli Mülkiyyət Təşkilatı |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |
| YUNKTAD | Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf məsələləri üzrə Konfransı |
| WAIPA | İnvestisiyaların Dəstəklənməsi Təşkilatlarının Ümumdünya Assosiasiyası |